АЗЯРБАЙЪАН РЕСПУБЛИКАСЫ ТЯЩСИЛ НАЗИРЛИЙИ

СУМГАЙЫТ ДЮВЛЯТ УНИВЕРСИТЕТИ

*«ЯСРИН МЦГАВИЛЯСИ» - 20*

# «ƏSRİN MÜQAVİLƏSİ» HEYDƏR ƏLİYEVİN YENİ NEFT STRATEGİYASIDIR

## RESPUBLİKA ELMİ KONFRANSININ

## MATERİALLARI

SDU
SUMQAYIT

Сумгайыт 24-25 sentyabr 2014-cü il

## Təşkilat komitəsi

**Elxan Hüseynov** – Сумгайыт Дювлят Университетинин ректору (sədr)

**Ramazan Məmmədov** – Сумгайыт Дювлят Университетинин Елми ишляр цзря проректору, профессор (sədr müavini)

**Qafar Atayev** – Qiyabi, distant və əlavə təhsil üzrə prorektor, dosent (üzv)

**Nizami Namazov** – Humanitar məsələlər üzrə prorektor, dosent (üzv)

**Naib Hacıyev** – İqtisadi məsələlər üzrə prorektor (üzv)

**Адил Бахшялийев** – «Тарих və coğrafiya» факцлтясинин деканы, профессор (üzv)

**Щясян Садыгов** – «Фялсяфя вя щцгуг» кафедрасынын мцдири, професcор (üzv)

**Tamella Əhmədova** – "Fizika və Elektroenergetika" fakültəsinin dekanı, dosent (üzv)

**Mahal Muradov** – "Kimya və biologiya" fakültəsinin dekanı, dosent (üzv)

**Bəsti Orucəliyeva** – "İqtisadiyyat və İdarəetmə" fakültəsinin dekanı, dosent (üzv)

**Ширхан Сялимов** – «Avropa və Amerika ölkələri tarixi» кафедрасынын мцдири, professor (üzv)

**Əkbər Ağayev** – «Neft Kimyası» kafedrasının müdiri,

professor (üzv)

**Lalə Mahmudova –** «İqtisadiyyat» kafedrasının müdiri, dosent (üzv)

**Tahir Ağayev** – «Fiziki Coğrafiya»kafedrasının müdiri, dosent (üzv)

**Ямирхан Исайев –** «Азярбайъан тарихи» кафедрасынын мцдири, досент (üzv)

## PLENAR İCLAS

Эириш сюзц – Сумгайыт Дювлят Университетинин ректору Elxan Hüseynov

Məruzələr:

**1.** Adil Baxşəliyev – СДУ-нун «Тарих və coğrafiya» факцлтясинин деканы, tarix elmləri doktoru, professor

2. Akif Əzizov – AMEA-nın Polimer Materialları İnstitutunun direktoru, akademik

3. Muxtar Babayev – Azərkimya şirkətinin prezidenti, millət vəkili

Çıxışlar:

Конфранс саат 24 sentyabr saat $14^{00}$-да və 25 sentyabr saat $11^{00}$ –da бюлмяляр цзря давам едяъякдир.

# I BÖLMƏ

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ VƏ "ƏSRİN MÜQAVİLƏSİ"

***Dos. E.B.Hüseynov***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANIN NEFT TARİXİNİN ƏN YENİ MƏRHƏLƏSİDİR

*1994-cü ildən Azərbaycan dovləti özünün yeni neft startegiyasını həyata keçirir.*
*Heydər Əliyev*

XX əsrin ən möhtəşəm qlobal enerji layihəsinin imzalanmasından 20 il keçir.

Ümummilli lider H.Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı, Azərbaycanın siyası tarixinə qurtuluş hərəkatı kimi daxil oldu. H.Əliyev hakimiyyətə gəldiyi ilk gündən ölkəmizi düşdüyü ağır iqtisadi və siyasi böhrandan xilas etmək, yaranmış qeyri-sabit vəziyyəti aradan qaldırmaq missiyasını öz üzərinə

götürdü və bu çətin, mürəkkəb, lakin şərəfli işin öhdəsindən layiqincə gəldi. Ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və xilaskarı H.Əliyev ölkəmizin milli maraqlarını və xarici ölkələrin qarşılıqlı mənafelərini nəzərə almaqla, Azərbaycanın neft ehtiyatlarına maraq göstərən hər bir ölkə ilə faydalı əməkdaşlığa hazır olduğunu bəyan etdi.

Təməli Ulu Öndər H.Əliyev tərəfindən qoyulan neft startegiyası və onun mərhələli şəkildə uğurla həyata keçirilməsi Azərbaycanı regionda lider dövlətə çevirmişdir.

Azərbaycan xalqı tarixdə ilk dəfə idi ki, öz sərvətlərinə sahib çıxırdı. 1994-cü il sentyabrın 20-də xarici ölkə şirkətləri ilə bağlanmış neft müqavilələri tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını aldı.

H.Əliyev "Əsrin müqaviləsi"nin imzalanması mərasimindəki çıxışında Azərbaycan neftinin sovet dönəmindəki vəziyyətini belə qiymətləndirmişdir: "Biz böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çatdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqillliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. İndi isə biz yeni mərhələdə yaşayırıq, Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımız özü sərbəst surətdə müəyyənləşdirir."

H.Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycan dövlətinin və xalqının mənafeyi və maraqları üzərində qurulmuşdur.

"Əsrin müqaviləsi"nin gərçəkləşməsi ilk növbədə Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, bır sıra proqramların həyata keçirilməsinə imkan yaratmışdır. Bu gün əldə etdiyimiz iqtisadi uğurlarımızın kökündə məhz neft strategiyası dayanır.

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi haqqında xarici şirkətlərlə bağlanmış "Əsrin müqaviləsi", bu yeni enerji layihəsi Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün real imkan yaratdı.

“Əsrin müqaviləsi” ilə əsası qoyulan milli neft strategiyası dünya dövlətləri ilə Azərbaycan dövləti arasında yeni münasibətlərin yaranmasına səbəb oldu.

Azərbaycanın iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olan neft strategiyası əsası qoyulduğu 1994-cü ildən bu günə kimi əsasən aşağıdakı mərhələlərdən keçmişdir.

1-ci mərhələni (1995-1997-ci illər) razılıq mərhələsi kimi qeyd edə bilərik. Buraya texniki yenidənqurma, təchizat işlərinin aparılması bu mərhələnin əsasını təşkil edir.

2-ci mərhələ (1997-ci il) neftin hasilatı ilə əlaqədardır.

3-cü mərhələ isə (1999-cu il) Azərbaycan neftinin dünya bazarına çıxarılması (ixracı) və bu prosesin bu gün də davam etdirilməsi ilə əlamətdardır.

Ulu Öndər H.Əliyevin adı ilə bağlı olan milli neft startegiyası davamlı olaraq cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Beləliklə, “Əsrin müqaviləsi” ilə əlaqədar olaraq qeyd etdiyimiz müddəalar aşağıdakı nəticələrə gəlməyə imkan verir.

1. “Əsrin müqaviləsi” müstəqillik dövrününün yeni, müstəqil iqtisadi siyasət xəttidir.
2. “Əsrin müqaviləsi” Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artmasına və siyasi mövqeyinin möhkəmlənməsinə əlverişli şərait yaratdı.
3. Neft startegiyası Azərbaycanın dünya iqtisadiyyatına qovuşması və inteqrasiya olunmasını sürətləndirdi.
4. Neft staregiyası xalqımızın sosial vəziyyətinin yaxşılaşmasına yönəlmiş strateji məqsəddir.
5. Neft strategiyasının əsasını üç amil şərtləndirir – neft yataqlarının işlənməsi, neftin hasilatı, neftin dünya bazarına ixracı.
6. Neft kəmərlərinin Ermənistan ərazisindən keçməməsi və Ermənistanın regionda neft və digər böyük həcmli layihələrindən kənarda qalması bu ölkənin iqtisadiyyatının inkişafına öz mənfi təsirini göstərir.
7. Ermənistan bu böyük layihələrdən kənarda qaldığı üçün hər an neft boru kəmərlərinə qarşı təxribat törədə bilər. Ən böyük təhlükə erməni terrorizmidir. Bunu unutmaq olmaz!

8. Neft strategiyası ərazilərimizin düşməndən azad edilməsində mühüm rol oynaya bilər. Yaranmış bu şansdan istifadə olunmalıdır. "Əsrin müqaviləsi" Azərbaycan xalqının tarixi nailiyyətidir. Yekun olaraq onu da qeyd etmək yerinə düşər ki, dünyada baş verən münaqişələrin və ya münasibətlərin təqribən 60%-i enerji ehtiyatlarına sahib olmaq uğrunda aparılır.

***Prof. A.Б.Бахшялийев***
*Сумгайыт Дювлят Университети*

## "ƏSRİN MÜQAVİLƏSİ" -20: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

*"Əsrin müqaviləsi" ilə qoyulan təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkan yaradacaq. İnanıram ki, XXI əsr Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaq.*

*Heydər Əliyev*

1991-ci ildə müstəqiliyini bərpa edən Azərbaycan böyük iqtisadi və siyasi çətinliklər dövrünü yaşadı. 80-cı illərin sonlarından başlamış iqtisadi geriləmə prosesi 90-cı illərin əvvəllərinə qədər davam etdi. Azərbaycanın siyasi müstəqiliyini qoruyub saxlamaq üçün siyasi stabilliyə nail olmaq, iqtisadi geriləməni dayandırmaq və inkişafa doğru addımlar atmaq lazım idi. Belə bir vaxtda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə gələrək bu məsələləri həll etdi.

Azərbaycan tarixində «Ясрин мцгавиляси» иля башланан йени нефт стратеэийасы Азярбайъан

дювлятчилийинин мющкямлянмясиндя, юлкямизин игтисади гцдрятинин йцксялмясиндя явязсиз тарихи рол ойнамышдыр.

1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi”nin reallaşması ölkə sənayesinin inkişafında böyük rol oynadı. “Əsrin müqaviləsi” Azərbaycanın müstəqil dövlət kimi son 200 ildə ilk dəfə olaraq öz milli sərvətinə tam sahib çıxması demək idi. “Əsrin müqaviləsi” ilə Azərbaycan öz xarici siyasətini yeni müstəqil dövlətin strateji maraqları üzərində qurdu. Söz yox ki, bu münasibətlərdə qərb dünyası ön planda dururdu.

“Əsrin müqaviləsi” ilə əsası qoyulan yeni neft strategiyası Azərbaycanın iqtisadi inkişafı ilə bərabər, regionda geosiyasi maraqları artırdı.

“Əsrin müqaviləsi” çərçivəsində neft yataqlarının mənimsənilməsinə başlanması əsas ixrac boru kəmərinin qısa zamanda inşasını zərurətə çevirmişdi. Ümummilli lider Heydər Əliyev bununla bağlı müdrik və uzaqgörən qərarını hələ ötən əsrin 90-cı illərinin ortalarında vermiş, Bakı-Tibilisi-Ceyhan neft kəməri ideyasını ilk dəfə olaraq gündəmə gətirmişdi. “Əsrin müqaviləsi” imzalandıqdan sonra bu kəmərin tərəfdarları az olduğundan onun reallaşması da əfsanəyə bənzəyirdi. Buna baxmayaraq, Azərbaycan xalqının mənafelərini hər şeydən uca tutan dahi rəhbərimiz Heydər Əliyev böyük diplomatik ustalıqla bu kəmərin əvəzedilməzliyini “Əsrihn müqaviləsi”ndə iştirak edən şirkətlərə və onların təmsilçisi olan dövlətlərə qəbul etdirə bildi. İqtisadi cəhətdən nisbətən baha başa gəlməsinə baxmayaraq, Bakı-Tibilisi-Ceyhan (BTC) neft kəmərinin üzərində dayanan Heydər Əliyev bunun strateji və siyasi baxımdan ən optimal qərar olduğunu sübuta yetirdi.

1996-cı ilin yanvarından neftin Bakı-Novorossiysk marşutu ilə nəql edilməsi haqqında Rusiya federasiyası ilə Azərbaycan Respublikası arasında saziş imzalandı.

Ekosiyasi amillərlə bağlı ixrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi də alternativ layihələr üzərində gərgin iş aparılmasını tələb edirdi. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün Bakı-Tibilisi-Supsa marşrutu ilə neftin nəqli haqqında Azərbaycanla Gürcüstan hökumətləri arasında saziş imzalandı. 1999-

cu ilin 17 aprelində müstəqil Azərbaycanın tarixində daha bir əlamətdar hadisə baş verdi. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi.
"Əsrin müqaviləsi" üzrə layihələrin hazırlanmasında və həyata keçirilməsinə bilavasitə rəhbərlik edən hazırda Azərbaycan Respublikası Prezidenti hörmətli cənab İlham Əliyevdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin böyük şəxsiyyət və dövlət xadimi H.Əliyev kursunu layiqincə davam etdirməsi xalqımızın xöşbəxt gələcəyi barədə ümidləri daha da artırır.

Bu gün suveren Azərbaycan Respublikası regionda söz sahibi olan bir dövlət kimi nüfuz sahibidir. Hal-hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkədə demokratik dövlət quruculuğu inamla həyata keçirilir, ictimai həyatın bütün sahələrində gedən yüksəliş göz qabağındadır. Respublikamızın qüdrətli bir dövlətə çevrilməsi istiqamətində tarixzi addımlar atılır. Bu baxımdan, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş bu əzəmətli inkişaf yolunu, böyük öndərin həyata keçirdiyi siyasi xətti düşünərkən bir daha dərk edirsən ki, Ulu Öndərin dediyi kimi "Azərbaycan dünyaya günəş kimi doğacaq".

***Prof. H.Ş.Sadıqov***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ"NİN MÜƏLLİFİ

Əsrin müqaviləsinin müəllifi Azərbaycan xalqının XX əsrdə bəşəriyyətə bəxş etdiyi geniş miqyaslı düşüncə qabiliyyəti və universal biliklər sahibi olan dahi şəxsiyyət Heydər Əliyev olmuşdur.

İnsan cəmiyyətinin çox əsrlik inkişaf tarixində elə bir sözə, anlayışa, ifadəyə rast gəlinməmişdir ki, o, Heydər Əliyevin təbiətin ona qismət etdiyi və sosial-siyasi təcrübədə təkminləşdirdiyi çoxşaxəli kompleks xarakterik xüsusiyyətlərini tam açıqlaya bilsin.

Lakin bununla belə Heydər Əliyevin müxtəlif illərdə Azərbaycan Respublikasında və keçmiş SSR-də ən yüksək

vəzifələrdə işlədiyi dövrlərdə onunla görüşlər keçirmiş, həmsöhbət olmuş dövlət başçılarının, tanınmış siyasətçilərin, məşhur elm və mədəniyyət xadimlərinin, işgüzar dairələrin rəhbərlərinin onun haqqında dedikləri və XX əsrin tarixi salnaməsinə əbədi yazılmış olan bəzi fikirlərini oxuculara yenidən xatırladaq.

Bill Klinton–ABŞ-ın keçmiş prezidenti: "Son dörd ildə prezident Heydər Əliyevin Azərbaycanda gördüyü işləri, apardığı siyasəti, dövlət başçısının olduqca çətin şəraitdə Azərbaycanda sabitlik, əminamanlıq yaranmasına nail olmasını yüksək qiymətləndirirəm. Ölkədə qısa müddətdə iqtisadiyyatın dirçəldilməsini, islahatların uğurla aparılmasını, özəlləşdirmə sahəsində geniş tədbirlərin həyata keçirilməsini tədqirəlayiq hal hesab edirəm".

Süleyman Dəmirəl–Türkiyə Respublikasının prezidenti: "Qardaşım Heydər Əliyevin dövlət adamı kimi xüsusiyyətləri istedadı və təcrübəsi Azərbaycanda demokratikləşmə prosesinin sürətləndirilməsində, bu ölkənin dünya birliyi ilə sıx inteqrasiyasına çox böyük kömək etmişdir".

Leonid Kuçma–Ukrayna Respublikasının keçmiş prezidenti: "Yaroslav Mudri ordenində belə bir yazı var: "Müdriklik, şərəf-şöhrət". Bu sözləri tam mənası ilə Heydər Əliyevə aid etmək olar".

Hafiz Əsəd-Siruya Respublikasının prezidenti: "Siz Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən sizinlə fəxr edirdim. Yaxşı bilirdim ki, Siz Sovetlər birliyinin rəhbərlərindən olan ilk müsəlman idiniz".

Eduard Şevarnadze-Gürcüstan Respublikasının prezidenti: "Fəxr edirəm ki, Azərbaycan Respublikasının başçısı dünya şöhrətli, adlı-sanlı siyasətçi olan Heydər Əliyev mənim qardaşım, mənim dostumdur. Xəzər neftinin Avropaya nəqli Qafqaz xalqlarına böyük xoşbəxtlik gətirəcək və burada dostum Heydər Əliyevin rolu böyükdür".

Nursultan Nazarbayev-Qazaxıstan Respublikasının prezidenti: "Biz Heydər Əliyevlə çoxdan tanışıq, bir-birimizi on illərdir ki, tanıyırıq. Heydər Əliyev Kremldə işləyərkən mən adətən onun yanına dəstək almaq üçün gedirdim. Çünki o məndən bir qədər yaşlıdır və həmişə də ondan dəstək alırdım".

Kiro Qliqorov-Makedoniya Respublikasının prezidenti: "Ölkəmiz müstəqillik qazandıqdan sonra bir sıra beynəlxalq təşkilatların toplantılarında prezident Heydər Əliyevlə görüşlərimdən məmnunam və onu Makedoniyanın yaxın dostu hesab edirəm".

İslam Kərimov-Özbəkistan Respublikasının prezidenti: - "Hər dəfə Heydər Əliyevin çıxışları məni valeh edirdi. Düşünürdüm ki, tarixi hadisələri bu qədər dəqiq xatırlamaq olarmı?! Öz fikirlərini çox dəqiq və ardıcıl ifadə edirdi".

Zibiqnev Bjezinski-ABŞ prezidentinin Milli Təhlükəsizlik üzrə keçmiş müşaviri: "Sizinlə söhbətlərimdən çox bəhrələnmişəm. Çünki ABŞ üçün mühüm olan ölkələr haqqında Sizin geniş məlumatınız var".

Henri Kissencer-ABŞ-ın keçmiş dövlət katibi: "Mən görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik zəkasına inanıram və bilirəm ki, onun rəhbərliyi altında Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirəcək".

Andrey Qramiko-SSRİ-nin keçmiş xarici işlər naziri: "İnsanları tanımağı bacarmayan Qorbaçov 1989-cu ildə Heydər Əliyevi təqaüdə göndərdi. Bununla da o, yenidənqurmanı ən enerjili rəhbərlərin birindən məhrum etdi".

Oleq Kutafin-Moskva Dövlət Hüquq Akademiyasının rektoru: "Biz Sizi Azərbaycan xalqının dahi oğlu kimi, Azərbaycan millətinin fitri istedada malik olan oğlu kimi tanıyırıq. Elə bir oğul ki, o, Azərbaycan dövlətçiliyinin inkişafına əvəzsiz töhvə vermişdir".

Ziya Bünyadov-Azərbaycan Respublikası EA-nin sabiq vitse-prezidenti: "Yalnız Heydər Əliyev bizi indiki iflasdan qurtarar, həm müharibədə, həm siyasətdə, həm də iqtisadiyytada vəziyyəti düzəldə bilər".

Karen Dəmirçiyan-Ermənistan KP MK-nın keçmiş birinci katibi: "Ey mənim sevimli ermənilərim, biz həlli mümkün olmayan işdən yapışmışıq. Yaxşə bilinki, XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli şəxs var: Atatürk və Heydər Əliyev. Onların ikincisi sağdır, bütün cəhdlərimizə baxmayaraq biz nə Qarabağı ala biləcəyik nə də başqa əraziləri".

Dahi tarixi şəxsiyyət Heydər Əliyev haqqında deyilmiş fikirləri davam etdirmək olardı. Lakin, bir tezisdə bunu etmək mümkün deyildir.

Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının yaradılmasında və inkişafında yeni ideyalar, konsepsiyalar irəli sürmüşdür, yeni iqtisadi-siyasi proqramlar və srateji planlar həyata keçirmişdir. Onlardan biri də “Əsrin müqaviləsi” olmuşdur.

***Y.Ə.Zeynalov***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

# H.Ə.ƏLİYEV AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASININ BANİSİDİR

H.Əliyevin gərgin əməyinin nəticəsində Bakıda 20 sentyabr 1994-cü ildə dünyanın 11 neft şirkəti ilə 30 illik müddətinə imzalanan "Əsrin müqaviləsi" ölkənin Xəzər dənizi bölməsində 3 neft, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istifadəsinə yönəldilmişdir. Bu müqaviləyə görə 30 ildə bu və digər neft yataqlarından 511 milyon ton neft, 60 mlrd. $m^3$ qaz çıxarılması planlaşdırılıb. Bu neftdən gələn gəlirlərdə Azərbaycanın payı 80%-dir. Hazırda 16 xarici dövlətin 33 qabaqçıl neft şirkəti ilə 28 neft-qaz müqaviləsi bağlanmışdır. Vaxtı ilə H.Əliyevin böyük əzmkarlıq, uzaqgörənliklə planlaşdırdığı "Bakı-Tbilisi-Ceyhan" neft kəməri 2006-cı ilin iyulunda işə düşdü. Bu kəmərin uzunluğu 1760 km., diametri 1220 mm., ötürmə gücü ildə 50 mln.tondur. "Bakı-Tbilis-Ceyhan" neft kəməri işə düşdüyü 2006-cı ildən 26 mart 2014-cü il tarixə kimi bu kəmərlə dünya bazarlarına 1,6 milyard barel və ya 290 milyon ton neft çıxarılıbdır.

Azərbaycanın ümummilli lideri olan H.Əliyevin "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin çəkilməsi və işə düşməsində də böyük xidməti və gərgin əməyi olmuşdur.

Yeni neft-qaz strategiyası Respublikaya ildə 10 milyard dollardan çox gəlir verir və ölkə iqtisadiyyatının davamlı inkişafını təmin edir.

Əsası H.Əliyev tərəfindən qoyulmuş yeni neft strategiyasının hazırki prezidentimiz möhtərəm İlham Əliyev tərəfindən düzgün, uğurla inkişaf etdirilməsinin nəticəsidir ki, dünya dövlətlərinin demək olar ki, hamısını maliyyə-iqtisadi böhranı bürüdüyü bir vaxtda Azərbaycan iqtisadiyyatı uğurla , dinamik, davamlı inkişaf edir.

Sevindiricidir ki, 2013-cü ildə Azərbaycanda ÜDM artımı 6% qeyri-neft sektorunda 10,4%, kənd təsərrüfatı sahəsində 5,3%

olmuşdur. Dünyada maliyyə-iqtisadi böhran yaşandığı bir vaxtda bunlar olduqca böyük və yüksək iqtisadi döstəricilərdir.

Möhtərəm prezident İ.Əliyevin qeyd etdiyi kimi, iqtisadiyyatımızın neft-qaz amilindən asıllığı ildən-ilə daha da azalır və beləliklə də iqtisadiyyatın şaxələnməsi məsələləri də öz həllini tapır. Azərbaycan iqtisadiyyatının neft-qaz amilindən asıllığı gələcəkdə tamamilə aradan götürəcəkdir, bu böyük dövlət siyasətinin nəticəsidir.

Beynəlxalq statistikada enerjinin istifadəsinin səmərəliliyi göstəricisi mövcuddur. Azərbaycanda ən yaxşı və rentabelli iqtisadi göstəricilərdən biri də odur ki, ölkədə 2003-cü ildə 1 kq neftdən 2,1 doll., 2005-ci ildə 2,7 doll., 2009-cu ildə 7 dollar, son 2012-ci ilin məlumatına görə isə 2010-cu ildə 7,6 dollarlıq məhsul istehsal edilibdir. Yalnız Norvecdə bu göstərici 9,2 dollardır. Nə gədər az enerjidən istifadə edilib, çox gəlir götürülərsə, yəni təbii ehtiyatlara daha çox qənaət edilər, səmərəlilik yüksələr və ətraf mühit, ekologiya da o qədər az çirklənər. Davamlı inkişafın bu göstəricisi belə sürətlə ancaq Azərbaycanda artıbdır.

Son 21 ildə (1992-2013) Azərbycanda 450 milyon ton neft hasil edilibdir, yəni hər il orta hesabla 21 milyon tondan çox neft çıxarılıbdır.

Azərbaycanda 2003-2004-cü illərdə hər il 15-16 mln.ton, 2005-də 22,3 mln.t., 2006-da 32,3 mln.t., 2007-də 42,6 mln.t., 2008-də 44,5 mln.t., 2009-da 50,4 mln.t., 2010-da 50,8 mln.t., 2011-2012-ci illərdə orta hesabla hər il 40 mln.t. 2013-cü ildə 43,5 mln.ton neft hasil edilmişdir.

Azərbaycanda “Şahdəniz-2” layihəsinin II mərhələsi üzrə yekun investisiya sazişi 17.12.2013-cü ildə imzalandı. Prezident İlham Əliyev demişdir: “Bugünkü imzalanma mərasimi Azərbaycanın müasir tarixində tarixi bir gündür. “Şahdəniz” dünyanın ən iri enerji layihələrindən biridir”.

“Şahdəniz-2”nin ümumi dəyəri 28 mlrd.dollardır. “Şahdəniz-2” yatağından 2018-ci ilin sonundan başlayaraq ildə 16 mlrd.$m^3$ qaz 3500 km.məsafəyə nəql ediləcəkdir. Bu qazın 6 mlrd.$m^3$ Türkiyəyə, 10 mlrd. $m^3$ Avropaya satılacaqdır.

“Şahdəniz” müqavilələrindən 200 mlrd.dollara qədər gəlir əldə olunacaq.

***Ş.Qasımov***
*T.e.d., prof.Azərbaycan Texniki Universiteti*

## «ƏSRİN MÜQAVİLƏSİ» AZƏRBAYCANIN İNKİŞAFI TARİXİNDƏ ŞANLI SƏHİFƏ AÇDI

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə 6 ölkəni təmsil edən dünyanın tanınmış 10 xarici neft şirkətləri arasında Sazişin imzalanmasından 20 il keçir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və 1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin müqaviləsi” adı ilə bütün dünyada tanınan bu saziş Azərbaycanın inkişafı tarixində şanlı səhifə açdı. Müqaviləni imzalamaqla Azərbaycanla dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yarandı.Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradıldı.

Müqavilə imzalandıqdan кeçən qısa dövrdə, imzalanmış 23 beynəlxalq neft müqavilsəi çərçivəsində müştərək görülən işlər Azərbaycana mütərəqqi texnologiyaların gətirilməsi, neft sənayesinin infrastrukturunun yenidən qurulması, nəqliyyatın inkişafı, yüksək peşəkar milli kadrların hazırlanması və minlərlə yeni iş yerlərinin açılması üçün geniş imkanlar açmışdır.

Artıq 1997-ci il üçün Çıraq-1 platformasında “Əsrin müqaviləsi” üzrə ilkin neftin hasilatına başlanmışdı. Bu münasibətlə noyabrın 12-də mərasim keçirilmişdi. Əvvəllər “Çıraq-1” platformasında 250 adam işləyirdi ki, onların da 85 faizi Azərbaycan vətəndaşı idi. Azərbaycan neftinin dünya bazarlarına nəqlini təmin üçün 1996-cı il yanvarın 18-də ümummilli liderimiz Heydər Əliyev və Rusiya Federasiyasının baş naziri Viktor Çernomordin Azərbaycanın “Azəri”, “Çıraq” və “Günəşli” dəniz yataqlarından çıxarılacaq ilkin neftin Rusiay ərazisi vasitəsilə nəql edilməsi haqqında ikitərəfli saziş imzaladılar. Bunun nəticəsində Bakı-Novorosiysk Şimal İxrac Boru neft kəmərinin tezliklə bərpa edilərək

1997-ci ildə istifadəyə verildi. 1998-ci ildə Heydər Əliyev Ankarada Türkiyə və Gürcüstanın Prezidentləri ilə birlikdə "Bakı-Tibilisi-Ceyhan" əsas ixrac boru kəmərinin inşa edilməsi haqqında ilk Bəyannamə imzaladılar. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı isə Azərbaycan, Gürcüstan və Türkiyə Prezidentləri tərəfindən ikitərəfli xam neftin "Bakı-Tibilisi-Ceyhan" əsas ixrac boru vasitəsilə nəql edilməsinə dair hökumətlərarası sazişin imzalanmasına imkan verdi. Heydər Əliyevin gördüyü siyasi və diplomatik tədbirlər nəticəsində ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə Prezidentləri tərəfindən bu layihənin dəstəklənməsinə yönəlmiş İstanbul Bəyannaməsinin imzalanmasına nail olundu. 2002-ci ilin avqustun 1-də London şəhərində ulu öndər Heydər Əliyevin xeyir-duası ilə kəmərin tikilməsi istiqamətində onu istismar etmək üçün "BTC CO" şirkəti təsis edildi.

2006-cı il iyunun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev Adına "Bakı-Tibilisi-Ceyhan" əsas neft ixrac boru kəmərinin təntənəli açılış mərasimi ulu öndərin bu uzaqgörənliyinin bayram təntənəsinə çevrildi. Prezident İlham Əliyev boru kəmərinin açılış mərasimində bunu beləifadə etmişdi: "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda yeni neft strategiyasının başlanması demək idi. Bu gün uğurla icra edilən neft siyasətimiz həm Azərbaycanın enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı dünya birliyinə çox etibarlı tərəfdaş kimi təqdim etdi". Ötən dövrdə Bakıda, həmçinin dünyanın ən iri paytaxtları olan Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 23 neft sazişi imzalanmışdır. Bu gün həmin sazişin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir.

İldə 50 milyon ton Azərbaycan neftinin nəql etməsini nəzərdə tutan BTC dünyanın enerji layihələri arasında çox mühüm yer tutur və XXI əsrin ilk nəhəng enerji layihəsidir.

İldə 50 milyon ton Azərbaycan neftini nəql etməsini nəzərdə tutan BTC dünyanın enerji layihələri arasında çox mühüm yer tutur və XXI əsrin ilk nəhəng enerji layihəsidir. Ulu öndərin böyük neft siyasətinin iqtisadi və sosial-siyasi istiqamətləri çox uğurlu

olmuşdur. Əvvəla, Azərbaycana böyük sərmayə axını başlamış, digər tərəfdən, 30 il ərzində Azərbaycana 250-300 milyard vəsaitin daxil olacağı planlaşdırılmışdır. Heydər Əliyevin böyük neft siyasətinin sosial nəticələrindən biri yeni iş yerlərinin açılması və işsizliyin ləğv edilməsindən ibarət idi. Bu dahi şəxsiyyətin neft siyasəti işsizlik problemini xeyli dərəcədə aradan qaldırdı, konsorsiumda azərbaycanlı mütəxəssislərin həlledici iştirakını təmin etdi. Artan neft gəlirləri hesabına, ilk növbədə sosial siyasət sahəsində, o cümlədən aztəminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də müvafiq tədbirlər həyata keçirilir. Dövlətimizin başçısı tərəfindən bir neçə sərəncam və Dpövlət Proqramı qəbul edilmiş və bu qərarlara uyğun olaraq qaçqın və məcburi köçkünlər üçün Azərbaycanın müxtəlif ərazilərində yaşayış qəsəbələri tikilmişdir.

Ölkənin artan maliyyə imkanları hesabına beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələri də uğurla həyata keçirilir. Bu layihələr təkcə Azərbaycanın deyil, bütövlükdə regionun nəqliyyat infrastrukturunun modrnləşməsinə şərait yaradır. Bu gün neft gəlirlərinin bir hissəsi Bakının su təchizatı ilə bağlı problemlərin həllinə sərf həllinə sərf edilir. Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması, yolların çəkilməsi və körpülərin salınması layihələri yerinə yetirlir. Bir sözlə "Əsrin müqaviləsi" sahəsində Azərbaycan öz sərvətlərinin sahibi olduğunu bir daha nümayiş etdirir. Əsası ulu öndər tərfindən tərəfindən qoyulmuş uğurlu siyasət, bu gün zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan, cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan öz inklişafının intibah dövründə yaşayır və inamla gələcəyə doğru irəliləyir.

***E.N.Aslanlı***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# BİLİYİN İDARƏ OLUNMASI

*Biliyin idarə edilməsini* təşkilatın intellektual kapitalının artırılması və fəaliyyətinin nəticəliliyinin yüksəldilməsinə yönəlmiş hərəkətlərin toplusu kimi təyin etmək olar.

*Təşkilatın intellektual kapitalı* xüsusi və ümumi hazırlıq səviyyəsindən, onun işçilərinin praktiki təcrübəsindən, məhsulun hazırlanması üzrə təşkilatın təcrübəsindən, ETİ nəticələrindən, kəşflərdən, təşkilatda işlənən sənədlərdən, menecment sahəsində həllərdən, istehsalatın təşkilindən, tədarükçülər və sifarişçilərlə işdən, keyfiyyətin idarə edilməsi və təmin edilməsindən, personalın təlimindən və s. ibarətdir.

İntellektual kapital bnlaşma imkanını təmin edir, uyğəzən *bilik iqtisadiyyatı* adlanan müasir iqtisadiyyatda böyük əhəmiyyətə malikdir. Məhz o, təşkilata keyfiyyətli iş imkanını, bazarın dəyişməsinə tez uyğunlaşma imkanını təmin edir, rəqabət imkanlı qalmağa şərait yaradır. İntellektual kapital şirkətlərin fond bazarlarında yüksək maliyyə kapitallaşdırılmasını təmin edir.

Bilikləri iki yerə bölmək olar: açıq ifadə olunan və açıq ifadə olunayan. Birinciyə hər hansı formada sənədləşdirilmiş informasiya aiddir. İkinciyə -- əməkdaşların işlədikləri təşkilat üçün biliklərin faydalı olan təcrübələri və bilikləri.

Təşkilatda biliklərin idarə edilməsi aşağıdakıları daxil edir:

- Təşkilatın açıq ifadə edilmiş biliklərinin sistemləşdirilməsi və saxlanılması;
- Təşkilatın açıq ifadə olunmuş və açıq ifadə olunmamış biliklərinin effektiv istifadə edilmə sisteminin işlənib hazırlanması;
- Təşkilatın personalının ixtisasının daima təkmilləşdirilməsi yolu ilə onun intellektual kapitalının daima artmasını təmin etmək.

**Birinci** iş istiqamətinin reallaşdırılması zamanı informasiya texnologiyalarının geniş istifadə edilməsi tövsiyə olunur. Təşkilatda işlənən bütün sənədlərin , layihələrin, müəssisə standartlarının, ETİ

üzrə hesabatların, kəşflərin və s., həmçinin onun əməkdaşlarının təhsili, ixtisası, bacarıqları və vərdişləri haqqında verilənlərin kompüter verilənləri bazalarının yaradılması cari məsələlərin həllində bu informasiyanı operativ istifadə etməyə imkan verir.

İşçilərin **ikinci i**stiqaməti aşağıdakılar yolu ilə həll edilir:

- əməkdaşların təşkilatın qarşısında duran məsələlərin həllində iştirakının aktivləşdirilməsi üzrə təşkiati və tərbiyəvi xarakterli tədbirlər kompleksinin işlənib hazırlanması, əməkdaşların yaradıcılıq potensialının daha tam istifaə edilməsi;
- verilən təşkilat üçün biliklərin optimal idarəetmə strategiyasının işlənib hazırlanması.

Əməkdaşların fəallaşdırılması zamanı məlum komanda iş üsulları, personalın səlahiyyətlərinin genişləndirilməsi, sərt şaquli idarəetmə strukturundan çevik üfiqi struktura keçid, prosesli yanaşma, problemlərin layihə həlli stilindən istifadə olunur.

Biliklərin idarə edilməsi ürə işlərin **üçüncü** istiqaməti bunları daxil edir:

- buraxılan məhsulun (görülən xidmətlərin) daima yaxşılaşdırma sistemini;
- elmi tədqiqatların inkişafını, bençmarkinqin tətbiq edilməsini;
- personalın daima təlimini.

Biliklərin idarə edilməsinin effektivliyinin yüksəldilməsi üçün onu təşkilatda bu sahədə yuxarıda göstərilən iş istiqamələrini nəzərə almaqla alt proseslərə bölünmüş vahid proses kimi həyata keçirmək məqsədə uyğundur.

***Р.Ю. Мамедов***
*Сумгайытский государственный университет*

## «КОНТРАКТ ВЕКА» ВАЖНАЯ ВЕХА В РЕАЛИЗАЦИИ НЕФТЯНОЙ СТРАТЕГИИ ГЕЙДАРА АЛИЕВА

Нефтяная промышленность во все времена была ведущей отраслью в Азербайджане. Сегодня руководство республики старается привести экономику страны в состояние, при котором

она будет еще меньше зависеть от нефтяного фактора. Развитие нефтяной промышленности, успешное проведение нефтегазовых операций усиливает потенциал страны. Подписание «Контракта века» стала самым важным шагом в формировании и реализации новой нефтяной стратегии Г.Алиева. Сегодня Азербайджан переживает период стремительного развития. Фундамент успешного развития независимого Азербайджана был заложен именно 20 лет назад. «Контракт века» сыграл особую роль в ускорении всех экономических реформ, идущих в стране. Инвестиции, верность иностранных компаний Азербайджану, создавшаяся прекрасная атмосфера сотрудничества обуславливалась нашими сегодняшними реалиями.

В последние годы в нефтегазовом секторе достигнуты исторические достижения. Строительство в 2006 г. нефтепровода Баку-Тбилиси-Джейхан, в 2007 г. газопровода Баку-Тбилиси-Эрзерум в значительной степени изменили энергетическую карту региона. Начало проекта АНАП, достигнутые договоренности о строительстве трансадриатического трубопровода превратил Азербайджан в очень важного международного энергетического игрока в предстоящие десятилетия. Азербайджан играет особую роль в решении вопросов энергетической безопасности, выдвинутые страной инициативы уже давно вышли за рамки региональной плоскости и носят глобальный характер. Успешная нефтегазовая политика Азербайджана будет вносить свой вклад в решение энергетических вопросов уже не только в странах региона, но и на Европейском континенте.

За 20 лет нефтегазовый потенциал Азербайджана значительно развился: мы превратились из страны импортировавшей электроэнергию и газ в страну, которая экспортирует их. Страна сумела полностью реализовать свой нефтегазовый потенциал. Вместе с тем, сегодня основная часть нашей экономической политики составляет развитие ненефтяного сектора. В этом находит свое отражение экономическая политика Азербайджана – развитие ненефтяного сектора, успешное продолжение политики индустриализации.

Сегодня, когда в различных уголках мира продолжается финансово-экономический кризис, в Азербайджане большие инвестиции вкладываются в разные сферы: обновляется инфраструктура, прокладываются газовые линии, создаются новые промышленные центры. В стране уже успешно реализуется проект технопарков, которые создают по инициативе президента Ильхама Алиева. Сегодня Азербайджан является мощным экономическим, а также транспортно-логическим центром. Она должна стать и мощным промышленным центром.

Часть доходов от нефти направляется на создание транспортной инфраструктуры. Азербайджан расположен на естественных коридорах Север-Юг и Восток-Запад. Но если не будет современной логистической и транспортной инфраструктуры, то это расположение не будет иметь значение. Строительство железной дороги Баку-Тбилиси-Карс проект стратегического значения. Строятся автомобильные дороги, сооружается новый международный морской торговый порт, который станет самым большим торговым портом в Каспийском бассейне.

Азербайджан энергетический, экономический центр, центр межрелигиозных отношений, толерантности, промышленный и транспортный центр Южного Кавказа. Экономическая политика страны, инвестиционные планы вышли за пределы региона. Азербайджан выделяет средства международным организациям, обеспечивает свою деятельность в качестве донора. Сегодня Азербайджан вкладывает большие инвестиции в развитие различных экономических проектов. Расчеты международных финансовых структур, рейтинги самых авторитетных международных организаций высоко оценивают идущие в Азербайджане процессы. В то время как в кризисные годы кредитные рейтинги в некоторых стран падали, кредитные рейтинги Азербайджана были повышены тремя ведущими рейтинговыми компаниями – Fitch, S8P и Moody's.

Всемирный экономический форум в Давосе поставил Азербайджан на 39-е место в мировом масштабе по

конкурентности стран, т.е. конкурентность экономики Азербайджана находится на одном уровне с 40 ведущими странами мира. Мы занимаем первое место на пространстве СНГ по объему прямых зарубежных инвестиций на душу населения. Сегодня мы должны выходить на новые рынки, региональные и мировые рынки с готовой продукцией, все создаваемые в стране крупные промышленные предприятия должны отвечать самым высоким мировым стандартам.

***Dos. Ə.İ.İsayev***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCANIN TARİXİNDƏ MİSİLSİZ HADİSƏ – "ƏSRİN MÜQAVİLƏSİ"

2014-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında sazişin imzalanmasının iyirminci ildönümü tamam olur.

Bu tarixi hadisə xalqımızın yaddaşında əbədi yaşayacaq. Çünki məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirib.

Milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş karbohidrogen ehtiyatlarının qüdrətli və inkişaf etmiş Azərbaycanın formalaşması üçün istismarı, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atılıb. Elə ilk günlərdən o vaxt ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev danışıqlar prosesinə cəlb edilmiş, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçısı olub. Bu saysız-hesabsız görüş və danışıqlarda, ilk növbədə Azərbaycan xalqının və dövlətinin

maraqları əsas götürülürdü. Əlbəttə, çətinlik və maneələr də var idi. “Əsrin müqaviləsi” ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustonda keçən son mərhələləri xüsusilə ağır oldu. Bəzən böhran anları da olur, müəyyən şərtlərin qəbuledilməzliyi ucbatından danışıqlar dayandırılma məqamına çatırdı. Həmin anları İlham Əliyev belə xatırlayır: “Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcək. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik”. Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafelərinə uyğun hazırlandı.

Təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmış müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını alıb. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, bp, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edib. Bununla da müstəqil dövlətimizin neft strategiyası və doktrinası uğurla həyata keçirilməyə başladı.

“Əsrin müqaviləsi”nin ilk günlərindən Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu, dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. “Əsrin müqaviləsi” həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları məbləğində investisiyanın 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinə yönəldilib.

Bağlanmış bu müqavilə Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. “Əsrin

müqaviləsi”nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başladı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. “Əsrin müqaviləsi” Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı. Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına Bakı-Tiflis-Ceyhan əsas neft ixrac və Bakı-Tiflis-Ərzurum qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi. Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi və bu kəmərlərlə neftin və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi idi. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi Azərbaycan, Gürcüstan, Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verildi. “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunda mövcud ehtiyatların son qiymətləndirilməsinə görə, burada 2008-ci ilin sonuna ilkin geoloji

neft ehtiyatları 2 milyard 188 milyon tondur. Yataqlar blokundan, ümumilikdə 923 milyon ton neft hasil olunub. 1998-ci ilin ilkin qiymətləndirilməsi ilə müqayisədə AÇG yataqlar blokunda geoloji ehtiyatların həcmi 45,6 faiz, hasil olunub ehtiyatlar isə 1,5 dəfə artıb. Yataqlar blokundan hasil olunmuş səmt qazının həcmi 353,756 milyard kubmetrə, geoloji ehtiyatlar isə 632,366 milyard kubmetrə bərabərdir.

Milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları sürətlə artmaqdadır. Hazırda Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birincidir, ölkəmiz əhəmiyyətli regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünya iqtisadi sisteminə inteqrasiya neft gəlirlərinin idarə edilməsi sahəsində ən yaxşı təcrübələrin tətbiqinə yol açıb. Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft Fondunun təsis olunması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü idarə edilməsi üçün əsaslı təminat yaradıldı.Yaradılarkən 271 milyon ABŞ dollarına bərabər olan Dövlət Neft Fondunun aktivlərinin həcmi hazırda 30 milyard ABŞ dollarını keçib. Bu vəsait ildən-ilə artacaq.Dövlətin artan maliyyə imkanları hesabına ölkədə mühüm investisiya, o cümlədən regional proqramların və infrastruktur layihələrin maliyyələşdirilməsinə şərait yaranıb. Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün bölgələrində və Bakı şəhərində müxtəlif infrastruktur layihələri həyata keçirilir, təhsil, sosial və digər obyektlərin inşası uğurla davam etdirilir.

Ölkənin maliyyə potensialının artması nəticəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün əlverişli zəmin yaranıb. Bununla əlaqədar Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gün xüsusi diqqət yetirilir. Bu məqsədlə artan neft gəlirləri hesabına ölkədə mühüm infrastruktur və

sosialyönümlü layihələrin maliyyələşdirilməsi həyata keçirilir. Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən sosialyönümlü tədbirlərin mühüm tərkib hissəsidir.Artan neft gəlirləri hesabına, ilk növbədə sosial siyasət sayəsində, o cümlədən az təminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də saysız tədbirlər həyata keçirilir. Bu məqsədlə dövlətimizin başçısı tərəfindən bir neçə Sərəncam və Dövlət Proqramı qəbul edilmiş və bu qərarlara uyğun olaraq qaçqın və məcburi köçkünlər üçün Azərbaycanın müxtəlif ərazilərində yaşayış qəsəbələri tikilmiş, 2007-ci ilin sonunda isə Sabirabad rayonunda yerləşən son Qalaqayın çadır düşərgəsi ləğv edilib və burada məskunlaşmış məcburi köçkünlər yeni qəsəbələrə köçürülüb.

Ölkənin artan maliyyə imkanları hesabına, beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələri də uğurla həyata keçirilir. Bu layihələr təkcə Azərbaycanın deyil, bütövlükdə regionun nəqliyyat infrastrukturunun modernləşdirilməsinə şərait yaradır. Bu layihələrdən biri olan Bakı-Tiflis-Qars yeni dəmir yolunun inşası Azərbaycanın regionda siyasi nüfuzunun güclənməsinə təkan verməklə bərabər, respublikamızın Qərbə doğru inteqrasiyasına, Azərbaycan, Gürcüstan və Türkiyə arasında siyasi və iqtisadi münasibətlərin inkişafına şərait yaradacaqdır. Bakı-Tiflis-Qars yeni dəmir yolu regional əhəmiyyətə malik olmaqla bərabər, Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizinə çevriləcəkdir.

Bu gün neft gəlirlərinin hissəsi su təchizatı ilə bağlı məsələlərin həllinə yönəldilir. Bu sırada Bakının su təchizatı ilə bağlı problemlərin əsaslı şəkildə həllini təmin edəcək Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihələri mühüm yer tutur. Bu layihələrin reallaşması neft strategiyasının məntiqi davamı kimi qəbul edilir.

Neftdən əldə edilən gəlirlər hesabına bu gün ölkənin kadr potensialının artırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri kimi, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın reallaşması nəticəsində ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaranıb. Bu proqramın, ilk növbədə neft gəlirləri hesabına maliyyələşdirilməsi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşmasına doğru atılmış strateji bir addımdır.

"Əsrin müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranıb. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" təşkil edir.

Əminliklə demək olar ki, bu güclü təməl üzərində ölkə iqtisadiyyatı bundan sonra daha sürətlə inkişaf edəcək, xalqımızın rifahı ildən-ilə daha da yaxşılaşacaq, Azərbaycan qüdrətli dövlətə çevriləcək.

***B.Məmmədli***
*Sumqayıt Dövlət Universiteti*

## MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN NEFT SİYASƏTİ VƏ MİLLİ İNKİŞAF KONSEPSİYASI

Bu gün Azərbaycan xalqı mühüm dövlət və beynəlxalq əhəmiyyətli bir tarixi hadisəni –"Əsrin müqaviləsi"nin imzalanmasının 20-illiyini qeyd edir.

Azərbaycanın qədim neft diyarı olması hələ qədimdən məlumdur. Bütün tarixi dövrlərdə Bakı nefti iqtisadi inkişaf amili rolunu oynamışdır.

O da məlumdur ki, neftin sənaye üsulu ilə hasilatına dünyada ilk dəfə olaraq 1847-ci ildə Azərbaycanda başlanmışdır. XIX əsrin ikinci yarısında isə Bakıda ilk neft şirkəti yaranmışdır. XX əsrin əvvəllərində Bakı Rusiyanın iri sənaye şəhərinə çevrilmiş və Rusiya neftinin 75%-ni vermişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, sovet Rusiyasının iqtisadi sümürgəçilik siyasəti davam etmiş, Azərbaycanın təbii sərvətləri, ilk növbədə onun nefti Rusiyanın diqqət və maraq dairəsində olmuşdur.

Maraqlıdır ki, hələ sovet hakimiyyətinin ilk illərində Azərbaycanın görkəmli dövlət və siyasi xadimləri Azərbaycanın Moskvanın təsiri altına düşməsində neft amilinin müstəsna rolunu qeyd etmişlər. Məsələn, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri S.Ağamalı oğlu Bakı neftinin Azərbaycan xalqı üçün “baş ağrısı” olduğunu söyləmişdir.

Azərbaycan İnqilab Komitəsinin sədri və Azərbaycan hökumətinin ilk başçısı N.Nərimanov 1922-ci ildə Genuya beynəlxalq konfransında “Bakı nefti və tərkisilah” məsələləri üzrə müzakirə və çıxışlarda iştirak etmiş, Hollandiya və İngiltərə neft şirkətlərinin Bakı neftinə sahib çıxmaq təkliflərini qətiyyətlə rədd etmişdir...

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşıda çox mühüm vəzifələr dururdu. Yeni dövrün tələblərinə uyğun olaraq iqtisadi və siyasi sistemin yenidən qurulması, bu sahədə ciddi islahatların keçirilməsi tələb olunurdu. Azərbaycanın iqtisadi özülünü təşkil edən təbii sərvətlərimizə sahib çıxmaqla bərabər ondan səmərəli şəkildə istifadə etmək zərurəti yaranmışdı. Zəngin təbii sərvətlərə malik olan ölkəmizdə yeni iqtisadi proseslər gedirdi. 1994-cü ilin sentyabr ayında (20) “Əsrin müqaviləsi” nin imzalanması Azərbaycanın ən böyük iqtisadi uğuru idi. Bu müqavilə yalnız iqtisadi mənfəətə görə deyil, həm də tarixi mahiyyəti və məzmununa görə əhəmiyyətli idi.

Azərbaycan Respublikasının neft siyasəti Azərbaycan dövlətinin strateji məqsəd və maraqlarına ilk növbədə milli inkişaf konsepsiyasının reallaşmasına sosial prqoramların həyata keçirilməsinə zəmin yaratdı.

Böyük lider, Ulu Öndər H.Əliyev neft strategiyasının təməl daşını qoymaqla müstəqil Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi.

Tarixdə ilk dəfə olaraq Azərbaycan, beynəlxalq iqtisadi əməkdaşlıq və tərəfdaşlıq layihələrində aparıcı ölkə kimi iştirak etməyə başladı. Qərbin və Amerikanın iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalandı.

"Əsrin müqaviləsi" dövrün mürəkkəb və böhranlı şəraitində H.Əliyevin qətiyyəti və cəsarəti sayəsində baş tutdu.

H.Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə yaratdığı sosial-iqtisadi və siyasi sabitlik xarici ölkələrin iri neft şirkətlərini hərəkətə gətirdi. Bu ümummilli liderimizə, onun şəxsiyyətinə, apardığı siyasətə olan dönməz inamın nəticəsi idi.

"Əsrin müqaviləsi" Azərbaycan dövlətinin və Azərbaycan xalqının böyük tarixi nailiyyəti idi.

Yeni neft siyasətinin birinci və əsas istiqaməti milli inkişafa, millətin bugünü və gələcəyinə, digər bir istiqaməti isə beynəlxalq münasibətlər sistemində yeni müttəfiqlər qazanılmasına yönəlmişdi. Neft siyasəti həmçinin Azərbaycanın xarici siyasətinin uğurla həyata keçirilməsi üçün əlverişli şəraitin yaranmasına səbəb oldu.

H.Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev Azərbaycan dövlətinin neft siyasətini təkmil formada uğurla davam etdirir. Cənab İ.Əliyev öz çıxışlarında Azərbaycan neftinin məqsəd deyil, onun bir vasitə olduğunu qeyd etməklə bu vasitənin əhalinin sosial inkişafına, onların maddi-həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilməsini günün vacib məsələsi kimi səciyyələndirir.

Beləliklə, əsası Ulu Öndər H.Əliyev tərəfindən qoyulan Azərbaycanın neft strategiyası öz bəhrəsini verməkdədir.

***B/m. Xəlilov E.Ş.***
*Sumqayıt Dövlət Universiteti*

# H.ƏLİYEV VƏ AZƏRBAYCANIN NEFT STRATEGİYASI

*Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir.*
*Heydər Əliyev*

Ümumilli liderimiz Heydər Əliyevin yaratdığı təməl üzərində müstəqil Azərbaycan dinamik inkişaf yolu ilə gələcəyə doğru addımlamaqdadır. Qlobal proqramlar, irimiqyaslı layihələr, dövlət proqramları ən ümdə məqsədə - Azırbaycanın iqtisadi qüdrətinin artmasına xidmət edir.

Bu gün biz xoşbəxtik ki, ümumilli liderimiz Heydər Əliyevin siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərədindən uğurla davam etdirilir.

Aparılan islahatlar, iqtisadiyyatın bazar münasibətlərinin tələblərinə uyğun yenidən qurulması güclü kapital qoyuluşları olmadan mümkün deyil. Öz daxili imkanlarımızın kifayət qədər yetərli olmadığı bir dövrdə xarici sərmayədarların şlkəyə cəlb edilməsi, onlar üçün əlverişli şərait yaradılması Heydər Əliyevin uğurlu siyasəti sayəsində mümkün olmuşdur. 1994-cü il sentyabrın 20-də bağlanmış və sonralar "Əsrin müqaviləsi" adlandırılmış ilk neft müqaviləsi təkcə neft sənayesində deyil, bütövlükdə iqtisadiyyatının dirçəldilməsində mühüm mərhələnin bünövrəsini qoymuşdur.

Heydər Əliyevin misilsiz fədakarlığı, gərgin zəhməti və diplomatik səyləri, eləcə də cənab İlham Əliyevin bacarığı və yüksək vətəndaşlıq məsuliyyəti nəticəsində 1994-cü ilin 20 sentyabrında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin hissələrinin birgə işlənməsini nəzərdə tutan "Əsrin müqaviləsi" adını daşıyan saziş imzalandı. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə bu sahədə geniş təcrübəsi olan ABŞ, İngiltərə, Rusiya, Norveç, Türkiyə,

Səudiyyə Ərəbistanının aparıcı neft şirkətləri arasında 30 il müddətinə bağlanmış bu müqavilənin şərtlərinə görə 30 il ərzində bu yataqlardan 511 milyon ton neft çıxarılması nəzərdə tutulmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azırbaycanını iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyası bu gün dönmədən həyata keçirilir.

Möhtərəm Prezidentimiz İlhamƏliyevin sərəncfmı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının yanacaq enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"nı əldə rəhbər tutaraq gələcək fəqliyyət istiqamətlərini dəqiq müəyyənləşdirib və ölkənin yanacaq-energetika kompltrsinin inkişafına öz təhfələrini vermək əzmi ilə işləyirlər.

Ölkə Prezidenti möhtərəm İlham Əliyev nitqində demişdir: "Bildiyimiz kimi, Azərbaycanın çox böyük neft-qaz ehtiqatları bar, artıq onlar işə salınır. Ulu öndər Heydər Əliyebin təşəbbüsü ilə o çətin, ağır illərdə - 1990 –cı illərin əvvəllərində qəbul edilmiş qərarla tikilən neft qaz kəmərləri, əlbəttə ki, ölkəmizin iqtisadi maraqlarına xidmət edir, eyni zamanda, dünya üçün Azərbaycanın önəmini artırır. Artıq Azərbaycan bölgə siyasətində deyil, dünya siyasətində böyük rol oynamağa başlayıbdır ."

***S.Kərimli***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ" VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, sonradan isə beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş və "Əsrin müqaviləsi" adını qazanmış bu saziş respublikamızın salnaməsinə qızıl hərflərlə həkk olunmuş, Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsinə çevrilmişdir. Onu da qeyd edək ki, "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir.

Bu tarixi hadisənin əhəmiyyətinə toxunan Azərbaycan Prezidenti İlham Əliyev demişdir ki, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan qarşısında yeni imkanlar, yeni üfüqlər açmışdır. Azərbaycan o vaxt öz müstəqilliyinin üçüncü ilini yaşayırdı. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi. Ölkə 1991-93-cü illərdə demək olar ki, total böhran yaşayırdı. İqtisadi, siyasi, hərbi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı və daxili çəkişmələr, özbaşınalıq, anarxiya və xaos demək olar ki, Azərbaycanın gələcəyini də şübhə altına qoyurdu. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra vəziyyət sabitləşməyə başladı, bütün xoşagəlməz halların qarşısı alındı və Azərbaycan uğurla inkişaf yoluna qədəm qoydu. Bu hadisə - "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın uzunmüddətli uğurlu inkişaf imkanlarını gücləndirdi. Azərbaycan özünü dünyaya təqdim etdi. İlk dəfə olaraq dünyada böyük transmilli konsorsium yaradıldı. Konsorsiumun iştirakçıları - müxtəlif ölkələri təmsil edən şirkətlər və Azərbaycan Dövlət Neft Şirkəti uğurlu əməkdaşlığa başlamışdır. İlk dəfə olaraq Xəzər dənizi beynəlxalq əməkdaşlıq üçün açıldı və bunu Azərbaycan etdi. "Əsrin müqaviləsi"nin imzalanması imkan verdi ki, Xəzərin neft-qaz ehtiyatları dünyada ilk dəfə olaraq Qara dəniz və Aralıq dənizləri ilə beynəlxalq bazarlara nəql edilsin.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə müqavilənin imzalanması xalqımızın öz sərvətləri üzərində sahiblik hüququnu bir daha təsdiq etdi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olmasının əyani təcəssümünə çevrildi. "Əsrin müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

Yeri gəlmişkən, neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri

yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi və bu kəmərlərlə neftin və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi idi. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi Azərbaycan, Gürcüstan, Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verdi.

Milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları sürətlə artmaqdadır. Hazırda Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birincidir, ölkəmiz əhəmiyyətli regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünya iqtisadi sisteminə inteqrasiya neft gəlirlərinin idarə edilməsi sahəsində ən yaxşı təcrübələrin tətbiqinə yol açmışdır. Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft Fondunun təsis olunması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü idarə edilməsi üçün əsaslı təminat yaradıldı.

***Uslu Ramazan***
*İ.Çeçen adına Ağrı Universiteti*

# ƏSRİN MÜQAVİLƏSİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

20 sentyabr 1994-cü il tarixdə Bakının Gülüstan sarayında "Əsrin Müqaviləsi" kimi tarixi ad almış ilk neft müqaviləsi imzalandı. "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında sazişin imzalanması ilə Azərbaycanın neft sənayesi tarixində tamamilə yeni bir era başladı. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan "Əsrin Müqaviləsi"nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan "Əsrin Müqaviləsi"nin imzalanması ilə başlanmış iş XXI əsrdə Azərbaycanın dənizdə yerləşən "Çıraq", "Azəri" və "Günəşli" yataqlarının mənimsənilməsi 30 il müddətinə nəzərdə tutulurdu. Bu vaxt ərzində 511 mln ton neft çıxarılmalı idi ki, onun da 258 mln tonu (49,5%) Azərbaycana məxsus olmalı idi. Başqa sözlə dəyəri 50 mlrd. dollara bərabər olan neftin 34 mlrd. dolları Azərbaycana çatacaqdı. 1994-cü ilin dekabrında "Əsrin müqaviləsi" Azərbaycan parlamentində təsdiq edildi. Azərbaycan Respublikasının Prezidenti müvafiq fərman imzaladıqdan sonra bu müqavilə Azərbaycan Respublikasının qanunu kimi qüvvəyə mindi. "1995-ci ildə layihəyə əsasən 100 milyona qədər, 1996-cı ildə isə 600 milyon dollar vəsait qoyuldu". İndiyə kimi bu layihəyə 2,5 milyard dollar sərmayə qoyulmuşdur. Beləliklə, "Əsrin müqaviləsi"ni uğurla bağlayan Azərbaycan dövləti bir çox Qərb dövlətlərinin, ilk növbədə isə ABŞ-ın Azərbaycanda iqtisadi maraqlarını yaratmaqla onların diqqətini öz problemlərinə cəlb edə bildi. Göründüyü kimi, Qərb dövlətləri içərisində ən mühüm pay "Əsrin müqaviləsində" ABŞ şirkətlərinə ayrılmışdır. ABŞ-ın "Yunokal", "Amoko", "Mak Dermott", "Ekson" kimi 5 şirkətinə üst-

üstə 50% investisiya payı ayrılmışdır ki, bu da təqribən 5 mlrd. ABŞ dollarına bərabər idi.

"Əsrin müqaviləsi"nin imzalanması mərasimdə çıxış edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev təbrik nitqində vurğulamışdı: "Biz ötən dövrlərdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çatdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin şahidi olmamışdır. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan xalqı öz təbii sərvətinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir". Yəni Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən neft şirkətlərinin mənsub olduqları ölkələrlə müstəqil surətdə danışıqlar aparır və Azərbaycanın dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdirir. Azərbaycan bu müqaviləni imzalamaqla "Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdi. Bu müqaviləni imzalamaqla Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırdı. Bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdirildi ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir.

"Əsrin müqaviləsi"nin imzalanması və uğurla həyata keçirilməsi istiqamətində görülmüş işlər nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli yüksəlmişdir. İlkin neftin hasil olunması Azərbaycanı dünyanın neft ixrac edən ölkəsinə çevirdi. Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərinin istifadəyə verilməsinə baxmayaraq, bu kəmərlər Azərbaycanın getdikcə artan neft həcmlərini dünya bazarına ixrac etmək iqtidarında deyildi. Məhz buna görə də əsas ixrac neft boru kəmərinin qısa zamanda inşası zərurəti yarandı. Azərbaycan xalqının maraqlarını hər şeydən uca tutan ulu öndər Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri ideyasını ən aktual məsələ olaraq gündəmə gətirdi. Respublikamızın həm daxildəki, həm də xaricdəki bədxahları müxtəlif bəhanələr gətirərək, beynəlxalq ictimai rəydə, guya, Azərbaycanın gələcəkdə bu kəmərlə ixrac etməyə kifayət qədər nefti

olmayacağı barədə fikir yaratmağa çalışır, bu ideyanı əfsanə, utopiya hesab edirdilər. Lakin zaman ulu öndərimiz Heydər Əliyevin bütün başqa ideyaları kimi, bu konsepsiyasının da tamamilə real, həm də iqtisadi cəhətdən səmərəli bir layihə olduğunu sübuta yetirdi. “Üç dənizin əfsanəsi” reallığa çevrildi. Azərbaycan xalqının ümummilli lideri yenilməz siyasi iradə və qətiyyət nümayiş etdirərək bu istiqamətdə də başlanılmış işlərin uğurla sona çatdırılmasına nail oldu. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış bu müqavilə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. “Əsrin müqaviləsi”nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində yeni milli neft strategiyası həyata keçirilməyə başlandı. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu strategiyanın gerçəkləşməsi və beynəlxalq neft şirkətləri ilə sazişlərin imzalanması sayəsində ölkənin neft ehtiyatlarının istismarına çoxmilyardlı xarici investisiyalar cəlb edildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi və eyni zamanda Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması bir daha nümayiş etdirildi. “Əsrin müqaviləsi”nin bağlanması Azərbaycanın bir dövlət kimi tanınmasına, onun dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən şirkətlərin dövlətləri ilə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

***G.R.Adıgözəlova***
*Sumqayıt Dövlət Universiteti*

## ƏSRİN MÜQAVİLƏSİ AZƏRBAYCANIN GƏLƏCƏK NEFT STRATEGİYASININ TƏMƏLİ KİMİ

Azərbaycan Qafqazın Xəzər-Qara dəniz hövzəsinin, Avrasiyanın və bütövlükdə qlobal dünyanın mühüm geosiyasi,

geoiqtisadi və geostrateji əhəmiyyət kəsb etdiyindən bir dövlət olaraq onun milli maraqları, milli təhlükəsizliyi region və qlobal dünyanın maraqlarından ayrıca təcrid olunmuş vəziyyətdə təmin oluna bilməz. Azərbaycanın, Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin və bütövlükdə Avrasiyanın təhlükəsizlik məsələlərinə müxtəlif yanaşmalar, qlobal, regional və milli maraqlar, onlar arasındakı üst-üstə düşən və kəsişən məqamlar hazırda geniş müzakirələrə səbəb olan mövzulardır. Azərbaycanın təhlükəsizlik problemi, onun təmin olunması yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının uzlaşdırılması və region dövlətlərinin təhlükəsizlik siyasəti ölkənin ictimai fikrini də ciddi düşündürməkdədir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermişdir. 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərüffatının bütün sahələri kimi neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır.

Azərbaycan xalqının ümummilli lideri xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və Yeni neft strategiyası tez bir vaxtda işlənib hazlrlandı. 1994-cü il sentyabrın 20-də imzalanmış və dünyada "əsrin müqaviləsi" kimi tanınan tarixi neft müqaviləsi imzalandı. Bu müstəqil Azərbaycan Respublikasının neft siyasətinin mühüm qələbəsi idi.

Heydər Əliyevin yeni neft strategiyasının çox böyük uğurla reallaşması günümüzün də reallığına çevrilmişdir. Bu cəhətdən aşağıdakı nailiyyətləri qeyd etmək yerinə düşərdi:

1. Azərbaycanın neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyalarının cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcılarının bazarına sürətlə çıxışın təmin edilməsi;

2. Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması;

3. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın həyata keçirilməsinin nailiyyətlərindən biri də

Qərbin qabaqcıl texnika-texnologiyasının Azərbaycana gətirilməsidir”

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bugün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlində başlanmış siyasi, iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi - Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsidir. Ölkənın xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi, beynəlxalq hüquq norması çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşların sabit həyat şəraitinə ciddi ziyan vurmuş, həm də keçən 15 ildən artıq bir dövrdə regionda dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarçıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir.

Əsrin müqaviləsindən sonra Bakı-Ceyhan əsas ixrac boru kəmərlərinin çəkilişinə həyat vəsiqəsi verilməsi Heydər Əliyev diplomatiyası və yeni neft strategiyasının mühüm qələbəsidir. Azərbaycan XIX əsrin sonu və XXəsrin əvvəllərindən başlayaraq, dünyanın neft istehsal edən qabaqcıl ölkələri sırasına daxil edilmişdir. Artıq Azərbaycan nefti dünya bazarına axıdılır, bağlanmış müqavilələr əsasında yeni quyular qazılır, dənizin dibindən çıxarılan qara qızılın miqdarı günbəgün artır.

***K.V.Muradova***
*Sumqayıt Dövlət Universiteti*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN UGURLU SİYASİ VƏ İQTİSADİ STRATEGİYASININ ƏHƏMİYYƏTİ

1991-ci ildə Azərbaycana qayıdan H.Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri – Azərbaycan Ali Sovetinin Sədr müavini seçilmişdir. H.Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasını təsis etmiş, onun sədri seçilmişdir. 1993-cü il iyulun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş H.Əliyev həmin ilin oktyabr ayının 3-də isə ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, fəaliyyətinin ilk günündən Azərbaycanda yenicə əldə olunmuş müstəqilliyi möhkəmləndirmək, demokratik, hüquqi, dünyəvi dövlət yaratmaq, respublikanın ərazi bütövlüyünü qoruyub saxlamaq prinsiplərini rəhbər tutmuşdur. O, suveren Azərbaycan dövlətinin daxili və xarici siyasəti sahəsində qüdrətli dövlətə çevrilməsi üçün qətiyyətli addımlar atmışdır. Ermənistan Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində dinc danışıqlar yolu ilə nizama salınması prinsipi ön plana çəkilir. Ermənistan-Azərbaycan arasında atəşkəs müqavilsəi bağlanılır. Azərbaycanın Şərq və Qərb arasında əlverişli dəhliz rolunu və geostrateji mövqeyini nəzərə alaraq H.Əliyev yeni yaranmış müstəqil resdpublikada iqtisadiyyatın müxtəlif sektorlarının inkişafına xüsusi diqqət yetirmişdir. Heydər Əliyev Azərbaycan Respublikasının qonşu dövlətlərlə sıx əməkdaşlıq xəttinə sadiq qalmaqla yanaşı, dünyanın aparıcı nüfuzlu dövlətləri ilə də geniş əlaqələr yaradılmasına böyük əhəmiyyət verirdi. O, uzaqgörən siyasəti sayəsində Azərbaycanın strateji milli maraqlarını nəzərə alaraq, düşünülmüş, müdrik siyasi xəttin işlənib hazırlanmasına və həyata keçirilməsinə çalışırdı. H.Əliyev ölkəmizin məruz qaldığı çoxsaylı problemlərinin müvəffəqiyyətli həlli üçün dünyanın inkişaf etmiş böyük dövlətləri ilə əlaqələrin yaranmasına diqqəti daha da artırırdı. İlk növbədə keçmiş sələflərinin daxili və xarici siyasət sahəsində buraxdıqları səhvlərini aradan qaldıraraq, onları təkrar etməmək üçün

uzaqgörənliklə gələcək üçün səmərəli fikirlər, ideyalar irəli sürdü, müstəqilliyimizi möhkəmlətmək naminə planlar, konsepsiyalar işləyib hazırladı. Bu konsepsiya və planlar Azərbaycan dövlətinin strateji maraqlarına xidmət edir. O, xarici dövlətlərlə yeni beynəlxalq münasibətlərin yaradılmasına diqqət yetirmişdir. O, respublikanın sosial-iqtisadi inkişafının təmin edilməsini neft sektorundan başladı. Bu onun işləyib hazırladığı dəyərli neft strategiyası idi. Bu strategiya həyata keçirildi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilişini o zaman çoxları əfsanə hesab etdikləri halda, ümummilli lider onun mümkünlüyünü sübuta yetirdi. O, 1994-cü il sentyabrın 20-də "əsrin müqaviləsi"nin imzalanması mərasiminin açılışında demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək. Ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağlayacaqdır. Ən diqqətə layiqi ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır". H.Əliyev XX əsrdə ikinci dəfə yenicə müstəqilliyə qədəm qoymuş Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılması, onun dünya dövlətləri sırasında tanınması üçün çox böyük işlər görmüşdür. O, çıxışlarının birində qeyd etmişdir ki, "Azərbaycan dövlət müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi naliyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı qoruyub saxlamaqdır. Bizim vəzifəmiz bu müstəqilliyi möhkləmləndirməkdən və gələcək nəsillərə müstəqil qüdrətli, çiçəklənən Azərbaycan dövləti çatdırmaqdan ibarətdir".

H.Əliyevin 12 noyabr 1995-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyası"nın hazırlanmasında böyük xidməti olmuşdur. O, özü Konstitusiya Komissiyasının sədri olmuşdur. H.Əliyev yeni yazılmış Konstitusiya haqqında demişdir: «...Bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini,

xüsusiyyətlərini əks etdirir. Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını təmin edəcəkdir, ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Bu bizim özümüzün Konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır». H.Əliyev sonrakı çıxışlarının birində demişdir ki, “Biz humanistlik, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışırıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına riayət etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik. Bu müddətdə keçdiyimiz dövrdə, təəssüf ki, belə hallara yol verilmişdir. Oktyabr hadisələri göstərdi ki, bunlara yol vermək mümkün deyildir. Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından-sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır.Qanunun aliliyi hamı üçün eyni olmalıdır. – “Adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, prezident üçün də. Mən də qanun aliliyi keçiyində duracağam”.

Heydər Əliyev uğurlu fəaliyyətinə və xidmətlərinə görə bir sıra beynəlxalq mükafatlara, müxtəlif Ölkə Universitetlərinin Fəxri Doktoru adına, 2 dəfə Sovet dövlətinin ən böyük mükafatı sayılan Sosoialist Əməkyi Qəhrəmanı adına layiq görülmüşdür. 30 ildən artıq Azərbaycana rəhbərlik edən bu şəxsiyyət, xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində yaxından iştirak etmişdir. H.Əliyev dünya azərbaycanlılarının ümumiliyi, birləşməsi ideyasını ilk dəfə irəli sürmüşdür. Onun ikinci dəfə hakimiyyətə gəlişi ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi hərc mərcklikdən xilas etmişdir. O, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıra bilmişdir. Onun sayəsində Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur. H.Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən görə bilirdi. O, geniş fəlsəfi və siyasi dönyagörüşə malik bir şəxsiyyət olmuşdur. Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici siyasəti, xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişləndirilməsi Azərbaycanın dünya miqyasında tanınması və s. onun adı ilə bağlıdır. Bu böyük siyasi lider Azərbaycanda Milli Ordunun formalaşmasında böyük işlər

görmüşdür. O, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. H.Əliyev Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli fikirlər irəli sürmüşdür. Beynəlxalq aləmdə Azərbaycanın bütövlüyünün tanınması, ona hörmət edilməsi prinsipini və s. reallaşdırmışdır. Azərbaycanda milli müstəqilliyinin möhkəmləndirilməsi, dövlətin hüquqlarına hörmətlə yanaşma, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi, ölkələr arasında qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrin genişləndirilməsi və digər məsələlərə ciddi diqqət yetirmişdir.

***N.Z.Qasımova***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAFINDA NEFT DİPLOMATİYASININ ROLU

Azərbaycan Respublikasının inkişafında neft diplomatiyasının rolu müasir dövrümüzün ən əsas və aktual problemlərindən biri və birincisidir. Ümumiyyətlə, neftlə bağlı bütün məsələlər bizim həm iqtisadi, həm sosial, həm siyasi, həm də milli təhlükəsizlik məsələlərimizdə həmişə ön plana çıxır. Bəlkə, bu ona görə belədir ki, Azərbaycan hələ ta qədimdən neft diyarıdır, XIX-cu əsrin kapitalist dünyasının milyonlar səltənətidir və yaxud da bizə bəxş olunan bir nemətdir. Hər necə olursa olsun, bu bizim sərvətimizdir və hər birimiz də bundan bacardıqca öz gələcəyimiz, öz inkişaf perspektivlərimiz naminə istifadə etməyi bacarmalıyıq.

1993-cü oldən bu yana ulu öndər Heydər Əliyevin apardığı uğurlu və davamlı neft strategiyasının da əsasında aşağıdakı əsas məsələlər öz həllini gözləyir:

-ölkənin mövcud sərvətlərinə, yəni zəngin neft və qaz yataqlarına bir süveren və müstəqil dövlət kimi sahib olmaq,

onlardan dövlətin möhkəmləndirilməsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına kömək etmək;

- ölkənin beynəlxalq mövqeyinin gücləndirlməsi istiqamətində əsaslı və həlledici addımlar atmaq;

- milli təhlükəsizlik məsələlərinin, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində irəliləyici addımlara nail olmaq, bu sahədə yeni strateji müttəfiqlər və tərəfdaşlar qazanmaq;

- neftdən gələn gəlirlərlə iqtisadiyyatın digər sahələrində müəyyən irəliləyişlərə nail olmaq;

Müstəqillik əldə etdikdən sonra öz milli sərvətinin sahibi olan Azərbaycan Respublikası sosial-iqtisadi inkişafın proqramını hazırladı. Proqramda neft sənayesinin inkişaf etdirilməsi başlıca yer tutur. Lakin gənc dövlət maliyyə cəhətdən çətinlik çəkdiyinə görə beynəlxalq neft şirkətlərinə müraciət etdi. 1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi"imzalandı. Xəzər dənizinin Azərbaycan sektoruna aid hissəsinə neftin çıxarilması və dünya bazarına ixrac edilməsi haqqında müqaqvilə imzalandı.

Azərbaycanın enerji təhlükəsizliyi aşağıdakı amillərlə bağlıdır:

Birincisi, enerji təhlükəsizliyi geosiyasi amillərlə şərtlənir. Ölkənin coğrafi məkanı əlverişli imkanlara malikdir. Belə ki, qərblə şərqi, şimalla cənubu birləşdirən dəhlizdir. Şərqdən qərbə doğru, şimaldan cənuba doğru hərəkət edən transmilli nəqliyyat dəhlizi ölkə ərazisindən keçir.

İkincisi, neft ehtiyatlarından gələn gəlirin bir hissəsi qeyri-neft sektorunun inkişafına yönəldilir. Beləliklə, ölkənin iqtisadi inkişafı üçün hərtərəfli zəmin yaradır. İqtisadi təhlükəsizlik təmin edilir.

Üçüncüsü, neft müqaviləsi nəticəsində ölkəyə yalnız valyuta axını deyil, yeni texnologiya axını gəlir. Texnoloji cəhətdən iqtisadiyyatın bütün sahələri dəyişir. Keçmiş texnologiyanın yenisi ilə əvəz edilməsi nəticəsində iqtisadiyyatın sürətli inkişafı təmin edilir.

Dördüncüsü, əhalinin pul gəlirləri artır, yaşayış səviyyəsi yüksəlir, yeni iş yerləri açılır. Yüksək mütəxəssis kadrlara tələbat artir.

Beşincisi, neft sənayesin inkişafı, beynəlxalq müqavilələr Azərbaycanın dünyada imicini artırır, ölkənin milli mənafeyi

müdafiə edilir. Gənc dövlətin müstəqilliyi və müstəqilliyi möhkəmlənir.

Aitıncısı, Azərbaycan Cənubi Qafqaz regionunun güclü dövləti kimi inkişaf edərək milli təhlükəsizliyini təmin etmək imkanı genişlənir.

Yeddincisi, Bakı-Tbilisi-Ceyhan neft magistralı regionun geosiyasi vəziyyətini dəyişdirir. Regionun təhlükəsizliyinə cavabdeh olan dövlətlərin nəzarəti güclənir.

Səkkizincisi, Bakı-Tbilisi-Ceyhan qlobal əhəmiyyət kəsb edən transmilli təhlükəsizlik kəmərinə çevrilir.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızda həyata keçirilən demokratik islahatlar və iqtisadi dəyişikliklər, fəal xarici siyasət bugün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

***R.R.Cavadlı***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ" MİLLİ İQTİSADİYYATIMIZIN TƏKANVERİCİ QÜVVƏSİ KİMİ

Müasir dövrlərdə Azərbaycanın neftinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin nəhən enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında və digər nəhəng layihələrin germəkləşməsində çox mühüm rol oynamışdır.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra onun iştirakçıları işçi strukturlar-Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və Məsləhət Şurası yaratdılar. Həmin sturturlar hüquqi

səlahiyyət qazandıqdan, yəni 1994-cü il dekabrın 2-də Azərbaycan Prezidenti xüsusi fərman imzalayandan sonra fəaliyyətə başladılar. 1994-cü il dekabrın 12-də Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi.

Təbiidir ki, bununla da müstəqil Azərbaycan dövlətinin tarixində yeni milli neft strategiyası həyata keçirildi, beynəlxalq neft şirkətləri ilə sazişlərin imzalanması sayəsində ölkənin neft ehtiyatlarının istismarına çoxmilyardlı xarici investisiyalar cəlb edildi. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycanın iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi və eyni zamanda Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması bir daha nümayiş etdirildi.

"Əsrin müqaviləsi"nin bağlanması Azərbaycanın bir dövlət kimi tanınmasına, onun dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən şirkətlərin dövlətləri ilə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

Xəzərin Azərbaycan sektorunda neft və qaz ehtiyatlarının istismarı ildən-ilə genişlənmiş və bunun nəticəsində Azərbaycan özünün enerji təhlükəsizliyini tam şəkildə təmin edilmişdir. Dünyanın enerji təminatında da ölkənin xüsusi çəkisi və strateji əhəmiyyəti yüksəlmişdir. Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlər ilə birlikdə hasil olunan neftin və qazın iri həcmli nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil etmişdir.

Milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehyiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları sürətlə artmaqdadır. Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birincidir, əhəmiyyətli regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünya iqtisadi sisteminə

inteqrasiya olunma nəticəsində neft gəlirlərinin idarə edilməsi sahəsində iqtisadiyyatda ən yaxşı təcrübələrin tətbiqinə yol açıldı. Bununla əlaqədar neft strategiyasının məntiqi davamı olaraq Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft fondunun yaradılması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsi üçün əsaslı təminat quruldu.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Dövlət müstəqilliyinin bərpasından az sonra qısa vaxt ərzindı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində çox çətin işlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərüffatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ölkəmiz neft və qeyri-neft sektorunda böyük irəliləyişlər əldə etmişdir. Xüsusilə də, Əsrin müqaviləsindən sonra Azərbaycana maraq daha da artmışdır.

Artıq digər ölkələrin şirkətləri də Azərbaycana sərmayə qoymağa başladılar. Azərbaycanda həyata keçirilən düzgün neft strategiyası ölkəmizdə xarici sərmayələrlə yanaşı müasir texnologiyanın, iş təcrübəsinin, yeni idarəçilik qaydalarının iqtisadi münasibətlərin daxil olması üçün də şərait yarandı.

***R.Q.Mehdixanov***
*Sumqayıt Dövlət Universiteti*

# “ƏSRİN MÜQAVİLƏSİ” AZƏRBAYCAN İQTİSADİYYATININ GƏLƏCƏK İNKİŞAFINA YOL AÇDI

Azərbaycan tarixən neft istehsalçısı kimi tanınmışdır. Bu gün də Azərbaycan nefti dünya neft ehtiyatları içərisində 5%-ni təşkil edir ki, bu da Azərbaycanın dünya dövlətləri sırasındakı mövqeyinə xüsusi təsir göstərir. Xəzər dənizindəki neft yayatqları ehtiyatı Xəzər hövzəsi ölkələri Fars körfəzi ölkələrindən sonra yanacaq enerji resurslarının həcminə görə dünyanın ən böyük ikinci geoiqtisadi və gesiyasi bölgəsi hesab olunur. Xəzər dənizi və onun Azərbaycan sektorunun neft və qaz ehtiyatları hazırda dünyanın qabaqcıl aparıcı dövlətlərini çox ciddi şəkildə maraqlandırır. Xarici ölkələrin Neft şirkətlərinin Azərbaycan Neftinin hasilatına cəlb edilməsinin əsası Ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulmuşdur.

Hal-hazırda Azərbaycan dövlət mülkiyyətinin çoxnövçülüyü əsasında müxtəlif təsərrüfat formalarının, ölkə iqtisadiyyatının sürətlə inkişaf və fəaliyyəti, onun infrastrukturunun yaradılması, qeyri neft sektorunun inkişaf etdirilməsi xarici iqtisadi əlaqələrin genişləndirilməsi sahəsində uğurlu islahatların aparılması surətlə davam etdirilir.

XX əsrdə ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycanımız dinamik inkişaf yolu ilə gedir və səmərəli şəkildə fəaliyyət göstərir.

Bu günkü Azərbaycanın iqtisadiyyatının inkişafının uğurlarında 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi”nin böyük rolu vardır. 20 sentyabr 1994-cü il müqaviləsi ilə Azərbaycanda yeni neft erasının əsası qoyuldu və sonrakı illərdə bu müqavilədən irəli gələn layihələr surətlə həyata keçirilməyə başlandı. Biz bu gün məsuliyyətlə deyə bilərik ki, Azərbaycan öz inkişaf tempinə görə Qafqazda, hətta SSRİ-məkanında olmuş respublikalar arasında lider ölkədir. Azərbaycanda neft hasilatının artırılması qeyri-neft sektorunun inkişafına da öz töhfəsini verir. Kənd təsərrüfatı heyvandarlıq, taxılçılıq, maşınqayırma və digər sahələr sürətlə inkişaf etdirilir.

Ümummilli H.Əliyevin siyasi kursunun davamçısı İ.Əliyev mübarizliyi, qətiyyətliyi, yorulmadan çalışması nəticəsində bu gün şəhərlə rayonlarımız arasındakı yaşayış həyat tərzi minimuma endirilib. Ölkəmizin maliyyə imkanları artdıqca yeni-yeni prqoram layihələr qəbul olunur və həyata keçirilir.

Polad iradəyə malik, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış prezidentimiz İlahm Əliyevin rəhbərliyi altında Azərbaycanımız özünün sürətli inkiaf dövrünü yaşayır və inamla xoşbəxt gələcəyə dogru irəliləyir. Azərbaycan xalqı gözəl bilir ki, bu gün aparılan uğurlu siyasət nəticəsində Azərbaycan qüdrətli bir dövlətə çevrilmişdir.

***Dos. S.D.Rzaquliyeva***
*Sumqayıt Dövlət Universiteti*

## ƏSRİN MÜQAVİLƏSİ AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASININ BAŞLANĞICI KİMİ

*"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır".*

Sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında sazişin imzalanmasının 20-ci ildönümü tamam olur. 1994-cü il sentyabrın 20-də imzalanan və sonradan beynəlxalq aləmdə haqlı olaraq "Əsrin müqaviləsi" adını qazanmış bu saziş respublikamızın müstəqillik salnaməsinə qızıl hərflərlə həkk olunmuş və Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsinə çevrilmişdir. Məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə in olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş təbii ehtiyatlarının

Azərbaycanın inkişafı və rifahı üçün istismarı, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atılmışdır.

"Əsrin müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustonda keçən son mərhələləri xüsusilə ağır oldu. Bəzən böhran anları da olur, müəyyən şərtlərin qəbuledilməzliyi ucbatından danışıqlar dayandırılma məqamına çatırdı. Həmin anları İlham Əliyev belə xatırlayır: "Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik". Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafelərinə uyğun hazırlandı. Təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmış müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almışdır.

"Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başladı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. "Əsrin müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

Milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta

daxilolmaları sürətlə artmaqdadır. Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft Fondunun təsis olunması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü idarə edilməsi üçün əsaslı təminat yaradıldı.

Neft müqavilələri bağlandıqdan sonra dünya siyasətçilərinin, transmilli korparasiyaların, iş adamlarının, beynəlxalq təşkilatların, politoloqlarının nəzər diqqəti daha çox Bakıya yönəlmişdir. Dünya enerji siyasətində və beynəlxalq aləmdə Azərbaycanla bağlı yeni prioritetlər, dövlətlərarası və beynəlxalq əlaqələrdə yeni istiqamətlər yaradılmışdır. Bu müqavilələrin bağlanması və ötən müddətdə aparılan uğurlu enerji siyasəti nəticəsində Azərbaycan Respublikasının dövlət müstəqilliyi daha da möhkəmlənmiş, respublikanın təhlükəsixliyinin və gələcək tərəqqisinin əlavə təminatları yaradılmış, Qərb dünyasının Azərbaycana olan etimadı artmış, onlarla mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq və əlaqələr dərinjəşmişdir

***Ş.V. Cəmilzadə***
*Sumqayıt Dövlət Universiteti*

## SUMQAYIT ŞƏHƏRİNİN SOSİAL – İQTİSADİ İNKİŞAFI

Uğurlu neft strategiyasının həyata kecirilməsi nəticəsində ilbəil artan neft və qaz gəlirlərini qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın tarazlı inkişafına nail olmaq son illər Azərbaycan dovlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur. Bu baxımdan regionların inkişafının surətləndirilməsi dovlətin iqtisadi siyasətinin başlıca hədəflərindən biri kimi muəyyənləşdirilmişdir. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dovlət Proqramlarında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni muəssisələrin və iş yerlərinin yaradılması, regionlarda, eləcə də Abşeron iqtisadi regionunda

kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yuksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası nəticəsində Abşeron iqtisadi regionunda yerləşən Sumqayıt şəhərində əsaslı infrastruktur layihələri həyata keçirilmiş, 525 mvt gücünə malik Elektrik Stansiyası tikilmiş, Sumqayıt Texnologiyalar Parkında 14 zavod, Tekstil Parkı, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Azgüntex zavodunda Günəş modulları və LED lampaları istehsal xətləri, Paralimpiya və Olimpiya İdman Kompleksləri, Əlillərin Bərpa Mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası, Real-Med Tibb Mərkəzi inşa edilmiş, 300 çarpayılıq Şəhər Mərkəzi Xəstəxanası, Tarix Muzeyi əsaslı təmir olunmuş, Kimyaçı Mədəniyyət Sarayında yenidənqurma işləri aparılmış, Asan Xidmət Mərkəzi fəaliyyətə başlamış, təhsil və digər sosial yönümlü obyektlər istifadəyə verilmiş, geniş abadlıq-quruculuq işləri görülmüşdür. Sumqayıt şəhəri üzrə 318 investisiya layihəsinin maliyyələşdirilməsinə 89,8 milyon manat güzəştli kredit ayrılmışdır.

Sumqayıt sənaye zonasında 7 hektar ərazini əhatə edən Sağlam qida aqrar sənaye kompleksi istehsal və xidmət sahələrini əhatə edən 3 iri müəssisədən ibarətdir. Kompleksin tərkibinə çörək istehsalı zavodu, taxıl anbarı, un dəyirmanı kompleksi, həmçinin qida məhsullarının saxlanılması, daşınması və satışı üzrə logistik mərkəz daxildir. Dəyəri 28,9 milyon manat olan çörək zavodunun yaradılmasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılmışdır. Gündəlik istehsal gücü 150 ton olan çörək zavodunda məhsul hazırlanması prosesi tam avtomatlaşdırılmışdır.

Polad boru zavodunda müxtəlif diametrli polad borular istehsal ediləcəkdir. Layihəyə uyğun olaraq zavodda Türkiyə, Almaniya, İtaliya və Çin texnologiyası əsasında ildə 100 min ton polad borular istehsal olunacaqdır. Burada hazırlanacaq polad borular xam neft, təbii qaz və su xətlərinin çəkilişində, neft emalı

zavodlarında, sənaye boru xətti şəbəkələrinin yaradılmasında, polad konstruksiyaların yığılmasında istifadə olunacaqdır. Mexaniki və hidrotexniki avadanlıq zavodlarında istehsal olunacaq boruların diametri 400-2000 mm, qalınlığı 6-25 mm, uzunluğu isə tələbata uyğun olaraq 6-16 metr arasında dəyişəcəkdir. Zavodda 2 spiral boru istehsal xətti quraşdırılmışdır. Burada ildə 75 min ton müxtəlif diametrli polad borular, 60 min ton müxtəlif diametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlıq və 12 min ton xüsusi təyinatlı müxtəlif diametrli polietilen boruların istehsalı nəzərdə tutulmuşdur. Ümumi sahəsi 27 min kvadratmetr olan müəssisədə ABŞ, Almaniya və Türkiyə istehsalı olan müasir avadanlıq quraşdırılmışdır. Zavodda 500 nəfər işlə təmin olunacaqdır. Burada istehsal edilən polad və polietilen borular əsasən daxili bazarda olan tələbatı tam ödədikdən sonra istehsal olunan boruların xaricə, o cümlədən Rusiyaya, Qazaxıstana, Gürcüstana, Türkmənistana və digər ölkələrə ixrac edilməsi planlaşdırılır.

Azərsun Sənaye Parkının nəzdində Sumqayıt yağ fabrikinin yaradılması rəqabətədavamlı və müasir standartlara cavab verən qida sənayesinin inkişafınada mühüm addımdır. Müasir texnologiyalarla təchiz edilən fabrik dövlətin ayırdığı güzəştli kredit və Azərsun Holdinq MMC-nin vəsaiti hesabına inşa olunmuşdur. Xam yağ qəbulu, rafinləşdirmə bölmələri, marqarin paketləmə, duru yağ qablaşdırma, şokolad istehsalı, əridilmiş yağın qablaşdırılması və metal qablaşdırma sahələrindən ibarət müəssisədə müxtəlif istehsal xətləri quraşdırılmışdır. Fabrikdə illik 270 min ton yağ məmulatı, o cümlədən qarğıdalı, günəbaxan, marqarin yağları və əridilmiş yağlar, şokolad yağları və mayonezlər istehsal olunacaqdır. Məhsulların Gürcüstan, İraq, Tacikistan, Qazaxıstan, Türkmənistan və digər ölkələrə ixrac edilməsi də nəzərdə tutulmuşdur. Fabrikdə 250 yeni iş yeri yaradılmışdır. Gələcəkdə iş yerlərinin sayının 700-ə çatdırılması nəzərdə tutulur.

Sumqayıtda Azərsun Sənaye Parkının nəzdində Azərbaycan kağız və karton istehsalat kombinatının yaradılması sənayenin bu sahəsinin inkişafını daha da sürətləndirəcəkdir. Bu müəssisə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kredit və Azərsun Holdinq MMC-nin vəsaiti hesabına inşa olunmuşdur.

Müəssisədə istehsal prosesi tam avtomatlaşdırılmışdır. Böyük həcmdə investisiya tələb edən bu kombinat Qafqazda yeganə olaraq Azərbaycanda qurulmuşdur. Kombinatın illik emal gücü 50 min tondur. Kombinatda 150 nəfər işlə təmin edilmişdir. Müəssisənin xammala tələbatının 90 faizi tullantı kağızın tədarükü hesabına ödəniləcəkdir. Layihənin reallaşdırılması bölgələrdə yeni iş yerlərinin açılmasına şərait yaradacaqdır. Belə ki, bu sahədə 1000 nəfərin işlə təmin edilməsi mümkün olacaqdır.

Ötən 2013-cü ildə şəhər üzrə ümumi daxili məhsul istehsalının 661,7 milyon manat olmaqla əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 30 faiz artdığı qeyd edilmişdir. Şəhərin sənaye müəssisələrində məhsul istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 28,4 faiz artaraq 402,5 milyon manat təşkil etmişdir. Sosial-iqtisadi sahələrdə çalışan işçilərin əmək haqqı 15 faiz artmış, ümumilikdə orta aylıq əmək haqqı 400 manat səviyyəsini ötmüşdür. Şəhər büdcəsinin gəlirlər proqnozu 60,7 milyon manata qarşı 62,1 milyon manat və yaxud 102,3 faiz yerinə yetirilmişdir. Yeni istehsal sahələrinin fəaliyyətə başlaması ilə şəhər büdcəsinin subsidiyadan asılılığı aradan qaldırılmışdır.

2014-cü ilin birinci rübündə Sumqayıtın sosial-iqtisadi inkişafı artan templə davam etmişdir. Şəhər üzrə məhsul istehsalı və xidmətlər buraxılışının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə nəzərəçarpacaq dərəcədə artmışdır. Cari ilin əvvəlindən şəhərin sənaye müəssisələrində məhsul istehsalının həcmi 118 milyon manatdan çox olmuşdur. Sosial-iqtisadi sahədə çalışan işçilərin orta aylıq əmək haqqı 480 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 17 faiz artım deməkdir. Bütün maliyyə mənbələri hesabına ayrı-ayrı sahələrin inkişafına 15 milyon manatdan çox investisiya yönəldilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində hamısı daimi olmaqla 900 yeni iş yeri yaradılmışdır.

Bu cür müəssisələr Regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və aqrar sektorda islahatları dərinləşdirmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya şəraiti, müasir tipli muəssisələr,

yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata kecirilməsi ölkənin iqtisadi inkişaf strategiyasının uğurla icrasına təminat verir. Belə müəssisələr həm də rəqabətədavamlı məhsul istehsal etməklə ölkəmizdə gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verəcəkdir.

***Z.V.Bünyadov***
*Sumqayıt Dövlət Universiteti*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA SOSİAL SİYASƏTİN BAŞLICA İSTİQAMƏTLƏRİ

Müstəqilliyin bərpasının ilk illərində (1991-1993) ölkədə populist, heç bir iqtisadi qanunlara cavab verməyən sosial siyasət mövcud idi. Bu, sovet sistemindən miras qalaraq ayrı-ayrı sosial stratlara ünvansız, ehtiyaclarını dəqiqliklə qiymətləndirmədən pensiyaların, güzəşt və imtiyazların verilməsini nəzərdə tuturdu. 1993-cü ildən başlayaraq həyata keçirilən ssosial siyasət iki əsas xarakterik cəhətə malik idi. Bunlardan biri sosial siyasətin dayanıqlığı, ölkənin iqtisadi bazisinə əsaslanması, ikincisi isə onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsidir. Bu baxımdan biz ümummilli lider Heydər Əliyev sosial siyasətinin inkişaf tarixinə nəzər yetirsək görərik ki, ilk dövrlərdə sosial müdafiə sahəsində islahatların həyata keçirilməsi istiqamətində kəskin qərarlar qəbul edilməmişdir. Sosial siyasət sahəsində əhəmiyyətli addımlar yalnız ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından daxili sabitliyin təmin edilməsindən, möhkəm dövlətçiliyin yaradılmasından sonra atıldı. Ayrı-ayrı kateqoriyaları təmsil edən şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar – "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və s. qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların və məcburi köçkünlərin, Vətən

müharibəsi və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalandı. Azərbaycanın müasir sosial siyasəti güclü dövlət ideyasına sadiq qalaraq, ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. Bir tərəfdən inflyasiya, iqtisadiyyatın güclü böhran yaşaması, əvvəlki iqtisadi əlaqələrin dağılması və yenilərinin yaranmaması, digər tərəfdən isə ölkəmizin zorla cəlb olunduğu Ermənistan-Azərbaycan münaqişəsi fonunda əhali yoxsulluq həddinə düşmüş, özlərinin minimal sosial tələbatlarını ödəmək imkanlarından məhrum olmuşdu. Təbii ki, cəmiyyət həyatının bütün sahələrində olduğu kimi yenə də bütün yük sosial siyasətin başlıca subyektinin – dövlətin üzərinə düşürdü. Azərbaycan hüquqi aspektdə demokratik, hüquqi, iqtisadi cəhətdən bazar münasibətlərin rəvac verən, sahibkarlığı və çoxmülkiyyətçiliyi dəstəkləyən, sosial baxımdan isə hər kəsin layiqli həyat səviyyəsini təmin etməyi öhdəsinə götürən bir dövlət ideyası idi. Şübhəsiz ki, totalitar rejimdən çıxmış, uzun illər dövlətçilik ənənəsindən məhrum olmuş, iqtisadiyyatı dərin böhran keçirmiş bir ölkə üçün transformasiya prosesi elə də asan və rahat olmayacaqdı. Əslində Azərbaycanda dövlətin transformasiyası totalitar rejimdən demokratik cəmiyyətə keçidi təmin etməyə istiqamətlənmişdi. Buna isə radikal addımlarla nail olmaq mümkün deyildi, bu mənada Azərbaycan məhz islahatlar yolunu seçmişdi. Sosial siyasətin transformasiyası o zaman uğurlu hesab oluna bilər ki, yuxarıda qeyd olunduğu kimi, o, elmi-nəzəri, iqtisadi əsaslara söykənsin, eyni zamanda sosial prioritetlər düzgün müəyyənləşdirilsin. Qeyd etmək lazımdır ki, müstəqilliyin Heydər Əliyev mərhələsində Azərbaycanda sosial siyasətin başlıca istiqamətləri – sosial prioritetləri əsasən pensiya islahatları, güzəşt və imtiyazların müavinətlərlə əvəz edilməsi, yoxsulluğun azaldılmasından ibarət olmuş və eyni zamanda ölkəmizdə onların səmərəli həlli yolları tapılmışdır.

**Pensiya islahatları**. Bütün sivil cəmiyyətlərdə pensiya təminatı sosial müdafiə sisteminin mühüm sahəsi kimi qəbul olunmuşdur. Bu isə pensiya təminatının mükəmməl və sivil qanunvericilik əsasında həyata keçirilməsini tələb edir. Hər bir ölkənin pensiya siyasəti pensiya sisteminin iki əsas funksiyasının

gerçəkləşdirilməsinə yönəldilmişdir. Birinci funksiya sosial funksiyadır- bu, əmək qabiliyyətini itirmiş şəxslərin normal həyat şəraitini təmin etməyi nəzərdə tutur. İkinci, iqtisadi funksiya olub pensiya ilə əmək fəaliyyəti arasında asılılığı təmin etməkdir. Pensiya islahatları mürəkkəb, maliyyə tutumlu, uzun müddət tələb edən bir prosesdir. Çünki hər kəsin pensiya hüququ illər ərzində qazanılır, eyni zamanda ödənilən sığorta haqlarının məbləği və əmək stajı bilavasitə pensiyanın məbləğinə təsir edir. Bu sahədə düzgün verilməyən qərar bütövlükdə ölkənin sosial müdafiə sistemini sarsıda bilər. Ulu öndər Heydər Əliyevin sosial siyasətində pensiya islahatlarının əsas məqamları aşağıdakılar olmuşdur. 1997-ci il iyunun 13-də Milli Məclis tərəfindən qəbul olunmuş "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu pensiya sistemində həmin dövr üçün zəruri hesab edilən bir sıra islahatlara yol açdı. Belə ki, pensiya yaşı mərhələlərlə kişilər üçün 60-dan 62-yə, qadınlar üçün 55 yaşdan 57 yaşa çatdırıldı. Eyni zamanda pensiyaların hesablanması sistemində müəyyən dəyişikliklər edildi. Nəticədə 650 min vətəndaşın pensiyası orta hesabla 2,1 dəfə artırılaraq 1993-cü ildən sonra pensiyaya çıxmış vətəndaşların pensiyaları ilə bərabərləşdirildi. Ümumilli lider Heydər Əliyev 2001-ci il 17 iyul tarixli sərəncamla "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası"nı təsdiq etdi. Pensiya İslahatı Konsepsiyası vətəndaşların pensiya ödənişlərinin etibarlı maliyyə təminatına nail olunması, pensiya təminatı sistemini bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmaqla, əhalinin rifahının yaxşılaşdırılmasında onun rolunun artırılması, pensiya təminatı sisteminin idarə olunmasının təkmilləşdirilməsi, sosial sığorta haqları ilə ödənişlər arasındakı əlaqənin uyğunlaşdırılması kimi mühüm problemlərin həllini nəzərdə tuturdu.

Ümummilli lider Heydər Əliyevin önəmli fərmanlarından biri də pensiya sistemində islahatların aparılmasına aid idi. "Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" 2003-cü il 4 avqust tarixli 908 saylı fərmanla Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli orqanlarının pensiyaların və pensiyalara əlavə

olunan müavinətlərin təyin olunması, maliyyələşdirilməsi və ödənişinə nəzarət üzrə funksiyaları onların həyata keçirilməsini təmin edən müvafiq maddi–texniki baza və ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna verildi. **Monetarizasiya – güzəşt və imtiyazların müavinətlərlə əvəz edilməsi.** 2002-ci il yanvarın 1-də ölkəmizin sosial siyasətində yeni dövr başladı. Belə ki, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 2001-ci il 15 noyabr tarixli 214 nömrəli Qanunu ilə iki konseptual məsələ öz həllini tapdı: 1) güzəşt və imtiyazlardan istifadə edən əhali kateqoriyasının dairəsinə yenidən baxıldı; 2) kommunal və nəqliyyatdan istifadəyə görə güzəştlər müavinətlərlə əvəz olundu. Bütövlükdə kommunal və nəqliyyat sahəsində mövcud olan güzəştlərin monetarizasiyası həyata keçirildi. Qeyd etmək lazımdır ki, güzəştlərin müavinətlərlə əvəz olunması bazar iqtisadiyyatı şəraitində dövlət vəsaitlərinin xərclənməsinin səmərəliliyinin yüksəldilməsinə, enerji daşıyıcılarından səmərəli və qənaətlə istifadənin təmin olunmasına, sosial müdafiənin ünvanlılığının artırılmasına şərait yaratdı. Məsələn, ictimai nəqliyyatda özəl sektorun xüsusi çəkisinin getdikcə artdığı bir şəraitdə güzəştli şəxslərin həmin xidməti göstərən təşkilatlar hesabına nəqliyyatdan pulsuz istifadə etməsi bütövlükdə bazar münasibətlərinin mahiyyətinə zidd idi. Çünki dövlətlə nəqliyyat xidməti göstərən təşkilatlar arasında münasibətlər vergi, lisenziya və s. ilə tənzimləndiyindən həmin xidmət təşkilatlarının üzərinə əlavə bir yük qoyulması bazar iqtisadiyyatının prinsiplərinə uyğun deyildi. Çünki bu güzəştləri dövlət müəyyən edirdisə, xərcini də dövlət çəkməli idi. Güzəştlərin müavinətlərlə əvəz olunması ünvanlılğın gücləndirilməsinə səbəb oldu. Güzəştlərin müavinətlərlə əvəz olunması imkan verdi ki, bu imtiyazlardan məhdud səviyyədə istifadə edənlər və yaxud o dövrdə məlum səbəblərdən istifadə edə bilməyənlər də onlar üçün nəzərdə tutulmuş güzəştlərin əvəzini pulla alsınlar. **Yoxsulluğun azaldılması** hazırda beynəlxalq ictimaiyyət qarşısında duran ümumbəşəri bir problemdir. Ölkəmizdə bu problemin həlli aktual olsa da, bu sahədə ciddi nailiyyətlərin əldə olunması üçün irimiqyaslı maliyyə resursları tələb olunurdu.

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi, "Əsrin müqaviləsi" çərçivəsində ölkəmizə maliyyə vəsaitlərinin daxil olması yoxsulluqla ciddi mübarizəyə başlanmasına zəmin yaratdı. Ümummilli liderin 2001-ci il 2 mart tarixli 636 nömrəli sərəncamı ilə xüsusi dövlət komissiyası yaradılmış və Azərbaycan Respublikası Baş nazirinin sədrlik etdiyi bu komissiyaya yoxsulluğun azaldılması sahəsində Dövlət proqramının hazırlanması həvalə olunmuşdu. Olduqca mürəkkəb bir sənəd olan "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı" 2003-cü il fevral ayının 20-də 854 nömrəli fərmanla təsdiq edilmişdir. Yoxsulluğun azaldılması məqsədilə sosial siyasətin qarşısında dayanan vəzifə arasında eyniyyət olduğunu (hər ikisinin məqsədi insanların layiqli həyat səviyyəsinə nail olmaqdır) nəzərə alsaq, görərik ki, bu istiqamətdə görülən irimiqyaslı işlər əhalinin sosial müdafiəsinin gücləndirilməsi yönümündə ciddi irəliləyişlərə səbəb olmuşdur.

***Dos. Ə.A. Həsənova***
*Sumqayıt Dövlət Universiteti*

## DEMOKRATİK, HÜQUQİ DÖVLƏTİN QURUCUSU

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, milli-mənəvi dəyərlərin qorunması, elmin, mədəniyyətin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması bilavasitə ümumilli liderin xidmətlərinin nəticəsidir. Azərbaycan Respublikası demokratiya prinsiplərinin təşəkkül tapdığı indiki səviyyəyə heç də birdən-birə gəlib çatmayıb. Müstəqilliyin bərpasından sonrakı ilk illərdə dərin siyasi, sosial, iqtisadi böhran keçirən ölkəmiz tarixin inkişaf tendensiyası fonunda tədricən demokratik inkişaf yoluna qədəm qoydu. Ümumilli lider Heydər

Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra, müstəqil Azərbaycanın əsas hədəflərindən biri kimi milli və bəşəri dəyərlərə söykənən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişaf yolu müəyyənləşdi, insan hüququ və azadlıqlarının bərqərara olması üçün münbit ictimai-siyasi şərait yaradıldı, qanunlar işlənib hazırlandı, qanunçuluq möhkəmləndirildi, hüquqi islahatlar həyata keçirildi. Ulu öndərin formalaşdırdığı azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin ideya əsasını təşkil edərərk dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratdı.

Bu gün Azərbaycan Respublikasının iqtisadi möcüzələr ölkəsi kimi tanınması, beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, ən əsası, inkişafın Azərbaycan modelinin dünyada böyük əks-səda doğurması təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan düzgün siyasətə əsaslanır. Demokratiya yolu ilə inkişaf edən Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, insan hüquq və azadlıqlarının qorunduğu sivil bir ölkədir. Azərbaycanın bu gün demokratiya təcrübəsinin digər dövlətlərə nümunə göstərilməsi də dahi şəxsiyyət Heydər Əliyevin ölkəmizin gələcək inkişaf yolunun parametrlərini müəyyənləşdirərək bu prinsipləri öndə saxlamasından irəli gəlir:” Müstəqil Azərbaycanda hüquqi demokratik dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməli və tarixi ənənələrdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir.”

Azərbaycanın demokratiya yolu hec də hamar olmamışdır. Bu gün Azərbaycan demokratik dövlət quruculuğu yolunu sözdə deyil əməldə sübut edərək dünyanın ən nüfuzlu təşkilatı olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olundu. “Əsrin müqaviləsi”ni imzalamaqla daha bir tarixi hissəyə rəhbərlik etdiyini təsdiqləyən Heydər Əliyev neft strategiyasını müəyyənləşdirərək qardaş Türkiyə üçün böyük imkanlar açan layihələrin gələcəyinə inanırdı. 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın bu günə və gələcəyinə inamı artırdı. Uzaqgörən siyasətçi yaxşı bilirdi ki, azadlıq, sərbəstlik olmayan yerdə inkişafa, yeniliyə nail olmaq nəinki çətindir, hətta müşküldür. Buna görə də yeniliyə, müasirliyə

aparan mühüm addımları ilə Azərbaycan suverinliyini əbədiləşdirən məsələlərin həllini sürətləndirdi. Bütün fəaliyyəti boyunca humanizm prinsiplərini rəhbər tutan Heydər Əliyev ilk növbədə demokratik və sivil cəmiyyətin qurulmasının fundamental əsaslarından olan qanunun aliliyinin təmin edilməsinə daim xüsusi diqqət yetirmişdir. Hüquqi dövlətin ən mühüm prinsipi olan hüququn aliliyi və onun ilk növbədə təzahür tapdığı qanunun aliliyi baxımından dövlət-vətəndaş münasibətlərini sivil məcraya yönəltmək mümkün olmuşdur. Hüquqi dövlətdən danışarkən insan hüquqlarının müdafiəsi və ədalət prinsipinə riayət olunması baxımından hakimiyyətin qollaarından biri kimi müstəqil mühakimə sisteminin formalaşması vacibliyi önə çıxır. Məhkəmə sisteminin təkminləşdirilməsi və inkişaf etdirilməsi, bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizm yaratmaq üçün dövlətin siyasi-hüquqi və iqtisadi potensialından səmərəli istifadə edilməsi sahəsində ölkə rəhbərliyi tərəfindən bu gündə səmərəli işlər görülür. Müstəqillik dövründə insan hüquqları və azadlıqlarının təmini məqsədi ilə həyata keçirilən islahatların ən mühümü məhz yaşamaq hüququnun təmin edilməsi olmuşdur. Beləki, 1993-cü ildə ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edilmişdir.

Ombudsman təsisadının yaradılması insan hüquqlarının müdafiəsi sahəsində Azərbaycanda aparılan ardıcıl demokratik və hüquqi dəyişikliklərin vacibliyinin dəyərləndirilməsidir. Ümumilikdə 1993-2003-cü illərdə reallaşdırılan məhkəmə-hüquq islahatı ölkənin siyasi və iqtisadi sisteminin kökündən dəyişdirilməsinin tərkib hissəsi kimi həyata keçirilən və mahiyyətcə təkamül xarakteri daşıyan islahatların həm ilkin şərti, həm də obyektiv nəticəsi olmuşdur. 19 yanvar 2006-cı il tarixli Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında "Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə" fərman respublikanın məhkəmə sisteminin əsaslı şəkildə müasirləşdirilməsi və təkminləşdirilməsi prosesində mühüm addımlardan olmuşdur.

Ölkəmizdə müasir söz və fikir azadlığı sisteminin formalaşdırılması haqlı olaraq Heydər Əliyevin xidməti sayılır.

Beləliklə, Heydər Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanda cəmiyyətin yeni modelinin əsası qoyulmuşdur. Bu gün prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz daha da möhkəmlənir və ölkəmizin dünya birliyinə inteqrasiyasına öz müsbət təsirini göstərir. Ulu öndərin şah əsəri olan Azərbaycan onun layiqli davamçısı – dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf edir, strateji hədəflərə uğurla çatır.

***J.F. Fərhadova***
*Sumqayıt Dövlət Universiteti*

## MÜSTƏQİL AZƏRBAYCANIN İLK BÖYÜK NEFT MÜQAVİLƏSİ

Müstəqil Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahi naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə Heydər Əliyev dühasıdır.

Müstəqillik tariximizin ilk illərindən neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunması strateji zərurətə çevrilmişdi. Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə hələ 80-ci illərin axırlarından Azərbaycanla danışıqlar aparırdılar.

Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklər 1993-cü ildə xalqının çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyevin adı ilə bağlıdır. Neft müqaviləsi üzrə müzakirələr, danışıqlar yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən

sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi və nəhayət 1994-cü ilin sentyabrın 20-i Azərbaycan Respublikasının yeni tarixində şanlı səhifə açdı. İmzalanmış bu müqavilə müstəqil Azərbaycanın ilk neft müqaviləsi oldu və Azərbaycan iqtisadiyyatı üçün müstəsna əhəmiyyət kəsb etdi.

"Əsrin müqaviləsi" xarici ölkələrin tanınmış şirkətləri sürətlə ölkəmizə axışmasına, yeni neft və qaz sazişlərinin imzalanmasına ölkədə sabitliyin möhkəmlənməsinə, Azərbaycanın iqtisadi müstəqilliyinin artmasına yol açdı. "Əsrin müqaviləsi"ndən sonrakı müddətdə dünyanın 19 ölkəsinin 41 neftşirkəti ilə 30-dan çox saziş imzalanıb. Bu müqavilədən əldə olunan sərmayə dəniz yataqlarının mənimsənilməsinə və perspektivli axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilib.

Azərbaycan neftinin dünya bazarına nəqli Heydər Əliyevn neft strategiyasının əsas istiqamətlərindən biridir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmiş, 1999-cu ilin noyabrında "Əsas İxrac Neft Kəməri"nin çəkilişihaqqında dövlətlərarası Müqavilə imzalanmışdı. Bakı-Tbilisi-Ceyhan istiqamətinin seçilməsi ümummilli liderimiz Heydər Əliyevin böyük siyasətinin təmtərağıdır və bu kəmər dünya "arteriya"sı kimi neft kəmərləri sisteminə daxil olacaqdır.

Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqisini nəzərə almaqla, bu günki nəsillərin istifadə edə bilmələri üçün 1999-cu ilin dekabrın 29-da ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikasının dövlət neft fondunun yaradılması haqqında" fərman imzalamışdır. Dövlət Neft Fondu fəaliyyətə başlayandan bu günə kimi fonda xeyli sayda vəsait daxil olmuş və bu vəsaitlərin köməkliyi ilə ölkəmiz günü-gündən inkişaf etməyə başladı.

Ötən son 20 ildə "Əsrin müqaviləsi"nin ölkəmizə gətirdiyi gəlirlərin sayəsindən şəhərlərimizin və kəndlərimizin simasının necə dəyişildiyini görürük. Ordu quruculuğunda ən böyük hadisə-hərbi sənaye kompleksinin yaradılmasının şahidi olduq. Müstəqil Azərbaycanımızın uğurlarından çox danışmaq olar, ancaq uğurlar "Əsrin müqaviləsi"ndən başlayır desək yanılmarıq. Hal-hazırda bu müqaviləyə əsasən əldə edilən neftin hesabına Azərbaycan bir dövlət kimi dünyada öz mövqeyini bir daha möhkəmlətməyə nail olmuşdur.

***N.Ə. Yusifova***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

Azərbaycanda enerji təhlükəsizliyi sistemi 1970-ci illərin əvvəlllərində Azərbaycan Respublikasına ilk dəfə rəhbərlik edən Heydər Əliyev tərəfindən yaradılmışdır. 1970-1980-ci illər ərzində ulu öndər Heydər Əliyev Azərbaycan iqtisadiyyatının enerji təhlükəsizliyinin möhkəm sistemini yaratmaq məqsədi ilə neft-qaz sənayesini və elektroenergetika sahəsini ilk növbədə yeni texnika və texnologiyalar tətbiq etməklə gücləndirdi.

Strateji enerji təhlükəsizliyini yaratmaq və onu möhkəmləndirmək məqsədilə Heydər Əliyev ilk növbədə Azərbaycanda Xəzər dənizində kəşf olunmuş neft-qaz yataqlarının istismara verilməsi üçün tələb olunan ən mühüm avadanlıqların Azərbaycana gətirilməsini başlatdı.

O dövrdə keçmiş SSRİ rəhbərlərindən razılıq almaq və müvafiq vəsaitin ayrılmasına nail olmaq çox çətin məsələ idi. Heydər Əliyev müdrikliyi və bacarığı problemin mahiyyətini keçmiş SSRİ rəhbərliyinə incəliklərinə qədər çatdırmaqla bu vacib maliyyə məsələsinin həllinə nail oldu.

SSRİ-də ilk dəfə olaraq Xəzər dənizində yük qaldırmaq qabiliyyəti 2500 ton olan "Azərbaycan" kran gəmisi respublikaya gətirildi. O dövrün qiymətləri ilə dəyəri 350 mln dollardan çox və Avropada yeganə olan Bakı Dərin Özüllər Zavodu tikildi, Şamxor SES-i istismara verildi, Şirvanda (keçmiş Əli-Bayramlı) və

Mingəçevirdə də böyük gücə malik İES-lər yenidən quruldu. Bu çox vacib işləri həyata keçirən Heydər Əliyev dühası sanki Azərbaycanın bu gününü görürdü, bilirdi ki, vaxt gələcək bu işlər müstəqil Azərbaycan Reespublikasına xidmət edəcəkdir.

1993-cü ildə xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyevin ilk dəfə başladığı işlərindən biri vaxtı ilə bünövrəsini qoyduğu enerji təhlükəsizliyi sistemini düşdüyü ağır vəziyyətdən xilas etmək oldu. 1994-cü ildə Ümummilli liderin qətiyyətli daxili və xarici siyasəti nəticəsində "Əsrin müqaviləsi" imzalandı. Dahi şəxsiyyət Heydər Əliyevin fitri istedadı və fenomenal siyasi bacarığı nəticəsində bağlanan "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının beynəlxalq nüfuzunu daha da yüksəklərə qaldırdı. Artıq dünya dövlətləri tərəfindən dəstəklənən Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi qlobal layihələrə imza atıldı. Ulu öndər Heydər Əliyevin şəxsi rəhbərliyi sayəsində bu layihələrin bütün mühüm coğrafi, maliyyə, texniki, ekoloji və digər problemləri həll edildi.

Beləliklə də, SSRİ dağıldıqdan sonra yaranmış MDB məkanında öz müstəqil neft-qaz strategiyasını həyata keçirməyə başlayan ilk ölkə Azərbaycan Respublikası oldu.

Strateji enerji təhlükəsizliyi sisteminin müstəqil Azərbaycan dövlətinin ilk illərində qorunub saxlanılması, genişləndirilməsi və dünya strateji enerji təhlükəsizliyi xartiyasına qoşulması qlobal əhəmiyyət daşıdığına görə Heydər Əliyev bu fürsətdən məharətlə istifadə edərək Azərbaycanı bu sahədə qabaqcıl dövlətlər qrupuna daxil etdi, cənubi Qafqazda isə, birmənalı olaraq, lider dövlətə çevirdi. Belə çevik və davamlı siyasət, eyni zamanda, həm də Azərbaycan Respublikasının geosiyasi vəziyyətini möhkəmləndirdi.

Qeyd etmək lazımdır ki, 2005-ci ildə Azərbaycanda hasil olunan qaz 2,0 trln. kubmetrdən çox, neft isə 7 mlrd. bareldən çox təşkil edirdi.

Hal-hazırda Azərbaycanda neft-qaz hasilatının dinamikası onu deməyə əsas verir ki, Azərbaycan yaxın 100 ildə strateji enerji təhlükəsizliyi sistemində, ən azı Cənubi Qafqazda öz liderliyini saxlaya biləcək.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı "Əsrin müqaviləsi"nin və digər böyük layihələrin hazırlanmasına bilavasitə rəhbərlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Ulu öndər Heydər Əliyevin memarı olduğu layihələr üzrə neft və qaz kəmərlərinin istismara verilməsi ilə Azərbaycan xalqının bu günü, sabahı və gələcəyi üçün həndəsi silsilə ilə artacaq iqtisadi təməli qoyulur". Heydər Əliyev dünya ölkələri sırasında özünəməxsus yer tutmağı və strateji enerji təhlükəsizliyi sistemini genişləndirməyi, Azərbaycan xalqının enerji daşıyıcılarına olan tələbatını tam ödəməyi, yeni elektrik stansiyalarının tikilməsini dövlət qarşısında duran ən mühüm məsələlər kimi dəyərləndirmişdir.

Dövlətimizin başçısı İlham Əliyevin enerji təhlükəsizliyinə nail olmaq siyasəti möhkəm təməl üzərində qurulur. O, dünya siyasətində zor və güc tətbiqinin əleyhinə çıxaraq, demişdir: "Biz qəti şəkildə inanırıq ki, yalnız və yalnız istehlakçı və hasilatçıların ümumi maraqları fayda gətirə bilər. Bütün sadalanan faktları, real siyasi və yüksək iqtisadi göstəriciləri nəzərə alaraq əsaslı şəkildə söyləmək olar ki, Azərbaycan dünyanın enerji təhlükəsizliyi sistemində aparıcı mövqeyə malikdir və bu mövqe hələ uzun illər qorunub saxlanacaqdır".

***Y.İ. Nəbiyeva***
*Sumqayıt Dövlət Universiteti*

## YENİ ƏSRİN MÜQAVİLƏSİ

1994-cü il 20 sentyabr tarixində Azərbaycan dünyanın 8 ölkəsindən olan 12 şirkətlə "Azəri-Çıraq-Günəşli" neft yatağının istismarına dair "Əsrin müqaviləsi" adlı razılaşma imzalamışdır. "Gülüstan" sarayında keçirilmiş imzalama mərasimində məşhur British Petroleum, Statoil, Unocal, TPAO və digər şirkətlərin rəhbərləri ilə yanaşı, ABŞ, Böyük Britaniya, Türkiyə, Norveç hцkumətlərinin nьmayəndələri də iştirak etmişdir. Ümumilli lider Heydər Əliyevin neft strategiyasının əsasını təşkil edən bu mьqavilə Azərbaycana 20 il əvvəl təsəvvьr edilməsi mьmkьn olmayan iqtisadi və siyasi nailiyyətlər gətirməyə başlamışdır.

2013-сь il 17 dekabr tarixində Azərbaycan цz tərəfdaşları ilə birlikdə “Şahdəniz” qaz yatağının istismarının ikinci mərhələsinə dair yekun investisiya razılaşması imzaladı. İmzalama mərasimində Azərbaycan və Çernoqoriya prezidentləri, Xorvatiya, Albaniya, Bolqarıstan və Gürcüstanın hökumət başçıları, Вцуьk Britaniya və İtaliyanın xarici işlər nazirləri, Türkiyənin enerji naziri və Avropa İttifaqının yüksək rütbəli təmsilçiləri iştirak etmişlər. Artıq bu müqavilə “XXI əsrin mьqaviləsi” adını almışdır. Bu saziş ümumilli lider Heydər Əliyevin adını daşıyan mərkəzdə imzalanmışdır. Əgər təqribən 20 il əvvəl “Əsrin mьqaviləsi” imzalanmasaydı, biz çətin ki, yeni əsrin mьqaviləsinin imzalanmasına, üstəlik, onun bu сьr mьasir bir mərkəzdə imzalanmasının şahidi olardıq.

“Şahdəniz-2” üzrə investisiya sazışı Azərbaycan qazının Avropaya yolunu açır, Azərbaycanın enerji siyasətini regional miqyasdan qlobal miqyasa yüksəldir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev investisiya razılaşmasının imzalanması mərasimində bildirmişdir:” Bu gün müasir Azərbaycanın həyatında tarixi bir gündür. Bu gün “Şahdəniz-2” enerji layihəsinin icrasına başlanılacaq. Bu isə ölkəmizin uzunmьddətli inkişafını təmin edəcək. Bu layihə dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlьkəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu tarixi layihədə iştirakçı dövlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir.” Dövlət başçısı qeyd etmişdir ki, bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişəcək. Çünki onun vasitəsilə Azərbaycan qazı bu resursları gözləyən bazarlara çıxarılacaq. “TANAP və TAP da dünyanın ən iri enerji layihələrindəndir. Layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb ediləcək, marşrutboyu yerləşən ölkələrdə 30 mindən çox yeni iş yeri yaradılacaq. Təbii ki, bu layihə əlavə səylər tələb edəcək. Amma o, ölkəmizin uzunmüddətli və dayanıqlı inkişafını təmin edəcək”- deyə dövlət başçısı qeyd etmişdir.

İndi Azərbaycan qazının vaxtında Avropa bazarlarına çatdırılmasını təmin etmək üçün əsas diqqət TANAP və TAP layihələrinin reallaşdırılmasına yцnəldilmişdir. Bunun üçün 3, 5 min kilometrlik infrastruktur yaradılmalıdır. Bu isə “Şahdəniz” layihəsinin ilkin mərhələsində iştirak etmiş ölkələrin sıx

əməkdaşlığını labüd edir. Söhbət Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya və Bolqarıstandan gedir.

Əldə etdiyi nailiyyətlərlə kifayətlənməyən Azərbaycan istehsal etdiyi qazı satmaq üçün yeni bazarların axtarışını gücləndirir. İlk mərhələdə bu, Çernoqoriya və Xorvatiyadır. Çernoqoriya Prezidenti Filipp Vuyanoviçin və Xorvatiyanın baş naziri Zolan Milanoviçin investisiya razılaşmasının imzalanması mərasimində iştirak etmələri də bununla izah olunur. Mərasim çərçivəsində Azərbaycan, Albaniya, Xorvatiya və Çernoqoriya, "Cənub qaz dəhlizi" və "Cənub-Şərqi Avropa dəhizi" arasında əməkdaşlığa dair Memorandum da imzalanmışdır.

Azərbaycanın daha uzunmüddətli planı öz təbii qazını Mərkəzi Avropa bazarına çıxartmaqdır. "Ümid edirəm ki, qarşıdan gələn illərdə Rumıniya, Macarıstan və Avstriyadakı tərəfdaşlarımızla boru kəmərinin həmin istiqamətdə də uzadılması ьzrə fəal iş görəcəyik"- deyə İlham Əliyev qeyd etmişdir.

***O.Y. Hacıyev***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ"NİN TARİXİ ƏHƏMİYYƏTİ

1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi Azərbaycanın iqtisadi, sosial və siyasi həyatında mühüm dəyişikliklərin başlanğıcı oldu. 1994-cü ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi" də bu dəyişikliklərə böyük təkan verən əsas hadisələrdən oldu. Bu dövrdə beynəlxalq şirkətlərlə danışıqlarda iştirak edən millət vəkili İlham Əliyev öz nitqində qeyd etmişdir: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir". Elə belə də oldu. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın neft strategiyası prezident İlham Əliyev tərəfindən bu

gün də davam etdirilir. Son illər cəmiyyətimizin bütün sferalarında əldə olunan nailiyyətlər bu strategiyanın nə qədər düzgün və uğurla həyat keçirildiyinin göstəricisidir.

Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adı alıb. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edir. "Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradılıb və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlanıb. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilib və 12 dekabr 1994-cü ildə qüvvəyə minib. 1997-ci ildə "Çıraq" yatağından neft hasilatına başlanıb. 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb. Ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür.

Deyilənlərin məntiqi nəticəsi olaraq göstərə bilərik ki, 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında ümummilli liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC istismara verilən gündən 2007-ci ilin sonunadək Ceyhan limanından 36 milyon 796 min 555 ton Azərbaycan nefti dünya bazarlarına yola salınmışdır. Bu "əsas ixrac neft kəməri"nin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da böyükdür. Belə ki, bu neft

kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verəcək, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb olacaqdır.

"Əsrin müqaviləsi"nin imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin öz geniş nitqində bu tarixi hadisəyə qiymət verərək deyib: "Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər".

***L.F.Fətullayeva, E.İ.Paşayev***
*Azərbaycan Müəllimlər İnstitutu*

## YENİ SİVİLİZASİYA - CƏMİYYƏT İNKİŞAFININ STRATEJİ MƏHSULUDUR

1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev ölkəmizin milli maraqlarını nəzərə almaqla, Azərbaycanın xarici siyasətinin təməl prinsiplərindən biri kimi hər bir ölkə ilə qarşılıqlı-faydalı əməkdaşlığa hazır olduğunu bəyan etdi. Burada əsas məqsəd ölkənin mövcud sərvətlərinə, o cümlədən zəngin neft və qaz ehtiyatlarına sahib olmaq, onlardan dövlətin möhkəmlənməsi, əhalinin həyat şəraitinin yaxşılaşması və ölkənin beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində düzgün istifadə etmək idi. Bu yolda ilk uğur "Əsrin müqaviləsi" kimi tarixə düşmüş neft kontraktı oldu. Müstəqil Azərbaycan dövlətinin inkişafında tarixi, mühüm bir gün olan 1994-cü il sentyabrın 20-sində xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış neft kontraktı imzalandı. Bu kontrakt Azərbaycanın neft və yeni iqtisadiyyat tarixinin şanlı səhifəsini açdı. Heydər Əliyev mərasimdə iştirak edənlərə böyük uğurlar və faydalı nəticələrlə zəngin olan Bakı neft sənayesinin tarixindən söhbət açdı. Onun nitqinin bir tezisini xüsusilə qeyd etmək lazımdır: “Azərbaycan iqtisadiyyatı ağır böhran

içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır".

"*Əsrin müqaviləsi*"nin imzalanması birbaşa iqtisadi mənfəətlərdən əlavə, digər sahələrə də (kənd təsərrüfatı, telekommunikasiya, xidmət sahələri) investisiya qoyuluşuna əlverişli zəmin yaradır. Müqavilə Azərbaycan Respublikasının sosial həyatında da müstəsna rol oynayır, belə ki, çoxlu iş yerləri yaranır, Azərbaycanın ümumdünya birliyinə inteqrasiya prosesi sürətlənir, ölkənin texnoloji inkişafının səviyyəsi artır, elm bilavasitə cəmiyyətin aparıcı sahəsinə çevrilir. Sistematik elmi biliklər cəmiyyətin maddi rifahının yüksəlişinin həlledici faktoruna çevrilməklə yanaşı, fasiləsiz olaraq təkamülləşən texnika dövründə yeni insan nəslinin – *yeni sivilizasiyanın* yaranmasını şərtləndirir. Elmi-texniki inqilab (ETİ) cəmiyyətin bütün sahələrində dərin və rəngarəng sosial nəticələrilə və dəyişikliklərlə müşayiət olunur. Bu zaman əməyin yeni peşə və sosial bölgüsü meydana çıxır, fəaliyyətin yeni növləri yaranır, müxtəlif sahələrin qarşılıqlı nisbəti dəyişir. Fəaliyyət sahələri arasında aparıcı yeri elmi biliklərin istehsalı, yəni informasiya və onun praktiki, texnoloji və peşə tətbiqi tutur. Bununla bərabər ETİ yeni sosial inqilaba da təkan verir ki, bu da öz növbəsində postindustrial cəmiyyətin bərqərar olmasına aparıb çıxarır, fundamental elmlərin inkişafı tətbiqi biliklərin inkişafını, yeni texnikanın təkmilləşməsi istehsalın artımını qabaqlayır. Bunun nəticəsində sürətli modernizasiya prosesi baş verir və insan nəsillərinə nisbətən «maşın nəsilləri» bir-birini daha sürətlə əvəz edir. Yeni informasiya cəmiyyətində işçilərin ixtisaslaşmasına qoyulan tələblər daha ciddi və yüksək olur, onların yeni yaranan texniki bacarıqlara yiyələnməsi vacib məsələlərdən birinə çevrilir.

İnsanın təbiət və ictimai proseslər üzərində artmaqda olan hakimiyyəti cəmiyyətdə, xüsusilə alimlərin fəaliyyətində əxlaqi məsuliyyəti və ciddi etikanı tələb edir. Deməli, cəmiyyət inkişafinin strateji məhsulu olan yeni sivilizasiya yaranır, kommunikasiya əlaqələri insanların tam həyat fəliyyəti üçün lazım olan şərati yaradır, informasiya seli və onun yaranma mənbələri çoxalır. Belə bir mürəkkəb və psixoloji qeyri-bircins şəraitdə insan şüuruna müxtəlif

amillər təsir edir. Yeni informasiya cəmiyyətində insanların mühitə asanlıqla adaptasiya olunması üçün onlar fasiləsiz surətdə maariflənməli, informasiyaları düzgün qiymətləndirmək və özlərinə lazım olanları seçmək qabiliyyətlərinə malik olmalıdırlar. Yalnız o zaman *yeni sivilizasiya* formalaşa və cəmiyyət inkişaf edə bilər.

***R.V.Əhmədov***
*Sumqayıt Dövlət Universiteti*

## ƏSRİN MÜQAVİLƏSİ VƏ AZƏRBAYCAN

1994-cü il sentyabrın 20-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə iqtisadi və siyasi təfəkkürün bəhrəsi olan, milli həyatımızda qlobal əhəmiyyətə malik "Əsrin müqaviləsi" imzalandı. ABŞ prezidenti B.Klintonun təbrikində deyilirdi: "Birləşmiş ştatlar tarixdə bu növ sazişlər arasında ən böyüyü olan bu müqaviləni alqışlayır. Biz çox şadıq ki, Siz qüdrətli iqtisadi gələcəyə doğru bu həlledici addımı atdınız".

Əsrin müqaviləsinə əsasən XX yüzilliyin sonu üçün 14 ölkənin 30 neft şirkəti ilə 57 milyard sərmayə qoyuluşu nəzərdə tutulan 20 neft müqaviləsi imzalandı. "ŞEAF-5" qazma qurğusu yenidən qurulub "İstiqbal" adı ilə istifadəyə verildi. 2000-ci ildə "Qurtuluş" müasir qazma qurğusu işə salındı. "Çıraq" platformasından 120 metr dərinlikdə 176 km-lik neft kəməri çəkildi. Sanqaçal Terminalı tikildi.

"Əsrin müqaviləsi"nə uyğun olaraq çıxarılan neftin Avropa bazarlarına satılması üçün iki –Bakı-Novorossiysk və Bakı-Supsa (Gürcüstan) neft kəmərləri çəkildi. Bakı-Tbilisi-Ceyhan (Türkiyə) əsas neft kəmərinin tikilməsi üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan, Türkiyə, Gürcüstan və Qazaxıstan Respublikaları arasında müqavilələr bağlandı. Müqavilələrin reallaşmağa başlaması əsrin sonuna kimi Azərbaycan Neft Fonduna 230 milyon ABŞ dolları həcmində vəsait gətirdi. Respublikada iqtisadiyyatın başqa sahələrinin də inkişafı üçün imkanlar yarandı.

Azərbaycan neft strategiyası XXI əsrin ilk illərində daha böyük uğurla davam etdirildi. 1997-ci ilə nisbətən 2002-ci ildə neft hasilatının həcmi təxminən 1,7 dəfə artmışdır.

Siyasətdə neft amilindən istifadə olunması ölkəmizin neft strategiyasının tərkib hissəsidir. Bu siyasətin uğurla həyata keçirilməsi dövlətimizin həmin şirkətlərin mənsub olduqları ölkələrlə siyasi və mədəni əməkdaşlığını genişləndirməklə yanaşı, onlarda Azərbaycan dövlətinin siyasi və iqtisadi xəttinə olan etimadı artır. Neft amili Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə də kömək edir.

Ölkəmizdə neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin və qazının dünya bazarına nəql edilməsindən ibarətdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri artıq reallığa çevdilmişdir. 2002-ci il sentyabrın 18-də Səngəçal sahil terminalında Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin başçılarının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan İxrac Boru Kəmərinin Azərbaycan hissəsinin təməli qoyulmuşdur. Belə bir mərasim isə 2003-cü il mayın 23-də Gürcüstan ərazisində həyata keçirilmişdir.

Neft sənayesinin infrastrukturunun müasirləşdirilməsi sahəsində də uğurlu addımlar atılmışdır. 2003-cü il iyulun 24-də "Lider" yarımdalma dəniz qazma qurğusu istifadəyə verilmişdir.

2005-ci ilin fevralında "Azəri-Çıraq-Günəşli" yataqlarının Mərkəzi Azəri hissəsindən ilkin neftin hasilatına başlanmışdır. Hal-hazırda Azərbaycan nefti uğurla Avropa bazarlarına nəql olunur.

***S.İ. Məmmədova***
*Sumqayıt Dövlət Universiteti*

# TRANSXƏZƏR LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İSRAİLİN MERXAV ŞİRKƏTİNİN ROLU

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş

verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası beynəlxalq münasibətlər sisteminə qatıldı və öz maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başladı.

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətində Asiya qitəsinin Yaxın və Orta Şərq ölkələri ilə münasibətləri də xüsusi əhəmiyyət kəsb edir. Bu regionun həm müsəlman ölkələri – İran, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və başqaları ilə, həm də İsraillə münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində kifayət qədər geniş olmuşdur. Bu baxımdan Azərbaycanın xarici siyasətində İsrail ilə münasibətlər xüsusi yer tutur.

1991-2008-ci illərdə dövlətlərimiz arasında əməkdaşlığın genişlənməsində Ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı İlham Əliyev mühüm rol oynamışlar.

Heydər Əliyev 1999-cu il fevralın 16-da Prezident sarayında «Merxav» şirkətinin prezidenti İosif Mayman başda olmaqla İsrail nümayəndə heyətini qəbul etmişdir.

Məlumdur ki, Azərbaycan neft ixrac edən ölkədir, gələcəkdə həm də böyük qaz hasilatçısı olacağı nəzərdə tutulur. İsrailin «Merxav» şirkəti kənd təsərrüfatı layihələri ilə işə başlayaraq, sonra enerji sahəsində fəaliyyətini genişləndirmişdir. Hal-hazırda şirkət neftayırma, qaz kəməri, elektrik stansiyaları kimi çox mühüm işlərlə məşğuldur. «Merxav» şirkətinin Azərbaycana gəlməyinin məqsədi Transxəzər layihəsini həyata keçirməkdən ibarətdir. Bu layihənin əsas məqsədi Türkmənistan qazını və gələcəkdə gözlənilən Azərbaycan qazını Türkiyəyə, oradan da Avropa bazarlarına çıxartmaqdan ibarətdir. ABŞ-ın Eksimbankı ümumi dəyəri 3 milyard dollar olan bu layihənin 1 milyard dollarını maliyyələşdirmişdir. Eyni zamanda ABŞ-ın OPEK kreditləmə şirkəti də, digər böyük maliyyə qurumları da bu layihəni dəstəkləmişdilər.

Azərbaycan tərəfi də Xəzər dənizinin neft və qaz yataqdlarının xarici şirkətlərlə müştərək işlənilməsi və gələcəkdə hasil olunacaq

neftin və qazın dünya bazarlarına çıxarılması ilə əlaqədar geniş proqram tutmuşdur və onu həyata keçirir. Son illərdə Azərbaycanın gördüyü işlərdən biri Xəzər dənizinin neft-qaz yataqlarını dünyaya tanıtmaq və dünya ölkələrinin şirkətlərini Xəzərə cəlb etməkdən ibarət olmuşdur.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Merxav şirkətinin Transxəzər layihəsinin həyata keçirilməsinə müsbət cavab vermişdir və Türkmənistan-Türkiyə qaz kəmərinin Azərbaycan ərazisindən keçməsinə razılıq vermişdir.

Gələcəkdə Azərbaycan qazının da Türkmənistan-Türkiyə qaz kəmərinin vasitəsilə dünya bazarına çıxarılması nəzərdə tutulmuşdur. Qəbulda dövlət müşaviri Vəfa Quluzadə və İsrailin Bakıdakı səfiri Arkadi Milman iştirak etmişlər.

İqtisadi əlaqələr sahəsində hər iki dövlətdə böyük potensial var və hər iki tərəf bu əlaqələri genişləndirməli və yüksək səviyyəyə qaldırmalıdır.

***S.İ. Məmmədova***
*Sumqayıt Dövlət Universiteti*

## BAKI-TİBİLİSİ-CEYHAN NEFT LAYİHƏSİNDƏ İSRAİL DÖVLƏTİNİN MARAQLARI

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətində Asiya qitəsinin Yaxın və Orta Şərq ölkələri ilə münasibətləri də xüsusi əhəmiyyət kəsb edir. Bu regionun həm müsəlman ölkələri – İran, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və başqaları ilə, həm də İsraillə münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində kifayət qədər geniş olmuşdur. Bu baxımdan Azərbaycanın xarici siyasətində İsrail ilə münasibətlər xüsusi yer tutur.

1991-2008-ci illərdə dövlətlərimiz arasında əməkdaşlığın genişlənməsində Ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı İlham Əliyev mühüm rol oynamışlar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2000-ci il aprelin 12-də Prezident sarayında İsrail Xarici İşlər Nazirliyinin

iqtisadi məsələlər üzrə baş direktorunun müavini Viktor Harel başda olmaqla bu ölkənin nümayəndə heyətini qəbul etmişdir.

Qeyd etmək lazımdır ki, bu əslində İsraildən Azərbaycana gəlmiş **ilk iqtisadi missiya** hesab olunur. Viktor Heydər Əliyevin nəzərdə tutduğu Bakı-Ceyhan xəttini dəstəklədiyini bildirmişdir. İsrail səfiri qeyd etmişdir ki, Heydər Əliyevin İsrail iqtisadi nümayəndə heyətini qəbul etməsinin nəticəsi olaraq İsrail-Azərbaycan birgə iqtisadi komissiyası yaradılmışdır. Həmçinin Bakı-Ceyhan neft kəmərinin çəkilməsinin birinci tərəfdarı olduğunu bildirən Milman qeyd etmişdir ki, bu xətt ilə nəql ediləcək neftimizi birinici olaraq İsrail dövləti alacaqdır. Qəbulda Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov iştirak etmişdir.

İqtisadi əlaqələr sahəsində hər iki dövlətdə böyük potensial var və hər iki tərəf bu əlaqələri genişləndirməli və yüksək səviyyəyə qaldırmalıdır. İsrail nümayəndə heyətini Azərbaycanda olduğu müddətdə əməkdaşlığın mümkün yollarını bizim ekspertlərlə birlikdə müzakirə etmiş və müəyyən fikirlərə gəlmişlər.

İsrail Bakı-Ceyhan neft layihəsini böyük maraqla izləyir və dəstəkləyir. Çünki İsrailin öz maraqlarıvar. Təbii ki, bu maraqların İsrailə çox xeyri var, çünki Ceyhandan neft alıb İsrailə aparmaq daha da asandır. Lakin əvvəl İsrail bizim nefti Supsa kəməri vasitəsilə alırdı. İsrailin Azərbaycandan neft almağa başlaması da diqqətə layiqdir. Viktor Harel Azərbaycan Dövlət Neft Şirkətinin İsrailə birbaşa neft satmasının tamamilə tərəfdar olduğunu bildirmişdir.

Görüş zamanı Heydər Əliyev İsrailə bu il səfər edəcəyini bildirmişdir. Viktor Harel Heydər Əliyevin keçmiş İsrail baş naziri Netanyahu ilə görüşünün, bu yaxınlarda İstanbulda indiki İsrailin baş naziri Barakla görüşünün, hətta əvvəlki baş nazir Şimon Pereslə görüşünün Azərbaycan-İsrail əlaqələrinin inkişafına mühüm təsir göstərdiyini qeyd etmişdir. Qəbulda həmçinin İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Arkadi Milman iştirak etmişdir. O demişdir: "İqtisadi əlaqələr sahəsində hər iki dövlətdə böyük potensial var və hər iki tərəf bu əlaqələri genişləndirməli və yüksək səviyyəyə qaldırmalıdır".

Beləliklə, Bakı-Tbilisi-Ceyhan (BTC) "əsas ixrac neft kəməri"nin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da böyükdür. Belə ki, bu neft kəməri Azərbaycanın dünya dövlətləri və xalqları ilə həmçinin İsrail dövləti ilə münasibətlərinə təkan verəcək və daha da inkişaf etməsinə səbəb olacaqdır.

***Alıyev R.***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANIN SÜRƏTLİ İNKİŞAFININ STİMUL VƏ QARANTIDIR

2014 cü il sentyabrın 20-si Azərbaycanda "Əsrin müqaviləsi"nin imzalanmasının 20-ci ildönümü tamam olur. Məlum olduğu kimi, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox ciddi çətinliklərlə üzləşmişdi. Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmasından sonra bu çətinliklər aradan qalxdı və Azərbaycanın başının üstündən təhlükə sovuşdu. Ölkəmizin müstəqilliyinin möhkəmlənməsi üçün qətiyyətli addımlar atıldı. Ulu öndər Heydər Əliyevin gərgin və əvəzolunmaz fəaliyyəti nəticəsində ölkəmizdə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

Həmin dövrdə respublikamızın qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri də məhz neft və qaz hasilatının artırılması idi. Ölkənin maliyyə vəsaitinin məhdudluğu, neft və qaz sənayesinin müasir dünya texnologiyalarından geri qalması xarici neft şirkətlərini bu sahəyə sərmayə qoyuluşuna cəlb etmək zərurətini meydana çıxarmışdı. Lakin ölkədə baş verən daxili proseslər - separatçılıq niyyətləri, hüquqi və inzibati özbaşınalıqlar, eləcə də, Ermənistanın ərazilərimizə təcavüzü xarici ölkələrin neft şirkətlərini ciddi narahat etdiyindən, onlar Azərbaycan neft sənayesinə sərmayə qoymaqdan çəkinirdilər. Heç bir əcnəbi sərmayəçi Azərbaycana

investisiya qoymağa ürək etmirdi, onlarda yatırdıqları pullara təminat verilib-verilməyəcəyi barədə tərəddüdlər var idi.

Ulu öndər Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla Azərbaycanın uzunmüddətli tərəqqi konsepsiyasının əsasını qoydu...Məhz belə bir çətin şəraitdə ikinci dəfə hakimiyyətə gələn, ağır vəziyyətə salınmış bir dövlətə başçılıq etməyə başlayan Ulu öndər Heydər Əliyev nəinki bu dövləti qoruyub saxlamağa və dirçəltməyə nail oldu, həm də dünya ictimaiyyətini yeniləşmiş Azərbaycanla hərtərəfli əməkdaşlığın perspektivli olduğuna inandıra bildi. Ulu öndər o dövrdə ölkəmizin gələcək inkişafını Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında görürdü və bir çox çətinliklərə baxmayaraq qısa bir müddətdə bu möhtəşəm konsepsiyanı gerçəkləşdirməyə nail oldu. Onun tapşırığı ilə xarici neft şirkətlərini Azərbaycanın neft sənayesinə birgə işə cəlb etmək üçün müxtəlif səviyyələrdə danışıqlar aparılmağa başlandı. Ən vacib görüşlərdən biri isə Ulu öndərin birbaşa təşəbbüsü və iştirakı ilə 1993-cü il avqust ayının 13-də dünyanın aparıcı neft şirkətlərinin nümayəndələri ilə Bakı şəhərində keçirildi. Həmin görüşdə xarici investorlarda Azərbaycanla bağlı olan inamsızlıq sindromu sındırıldı və neft sənayesinə sərmayə qoyuluşu üçün dərin inam yarandı. Tarixi gerçəkliklər sübut etdi ki, Ulu öndər Heydər Əliyevə olan inam və dərin etibar, Onun şəxsiyyətinə hörmət, ehtiram bütün dövlətlərin ən nəhəng şirkətlərinin Azərbaycanda çalışması üçün əsl təminat idi.

Ümummilli lider bu görüşdən bir qədər sonra 1994-cü il fevralın 4-də "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Sərəncam imzaladı. Bu sənəd respublikamızın dəniz neft və qaz yataqlarının kəşfində və işlənməsində xarici neft şirkətlərinin iştirakına dair bütün detalları özündə əks etdirirdi və sərmayəçilərin neft sənayesində iştirakına geniş şərait yaratdı. Bundan sonra dünyanın aparıcı xarici neft şirkətlərinin - "AMOKO", "Britiş Petroleum", "Statoyl", "Penzoyl", "Remko", "Yunokal", "Mak Dermott", "Türk Neft Şirkəti"nin Azərbaycan hökuməti ilə səmərəli və konkret nəticələrə səbəb olan danışıqları intensivləşdi. Artıq 1994-cü ilin aprel-may aylarında xarici neft kompaniyaları Xəzərin Azərbaycana məxsus

“Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının kəşfi, həmçinin, işlənməsi ilə əlaqədar öz təkliflərini və investisiya proqramlarını hazırlamağa başladılar. Xarici dövlətlər dünyanın neft möcüzəsi olan Azərbaycanla uzunmüddətli sazişin imzalanmasına can atırdılar.

1994-cü il sentyabrın 14-də imzalanan “Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində” Fərman artıq beynəlxalq sazişin imzalanmasının qətiləşməsi demək idi. Nəhayət tarixi gün gəlib çatdı. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 11 transmilli neft şirkəti ilə çağdaş tarixə “Əsrin müqaviləsi” kimi düşən qlobal neft müqaviləsinin təntənəli şəkildə imzalanması ilə Xəzər dənizi hövzəsində və bütün postsovet məkanında beynəlxalq əməkdaşlığın bünövrəsi, həmçinin, ölkəmizin enerji sonra dünyanın aparıcı xarici neft şirkətlərinin - “AMOKO”, “Britiş Petroleum”, “Statoyl”, “Penzoyl”, “Remko”, “Yunokal”, “Mak Dermott”, “Türk Neft Şirkəti”nin Azərbaycan hökuməti ilə səmərəli və konkret nəticələrə səbəb olan danışıqları intensivləşdi. Artıq 1994-cü ilin aprel-may aylarında xarici neft kompaniyaları Xəzərin Azərbaycana məxsus “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının kəşfi, həmçinin, işlənməsi ilə əlaqədar öz təkliflərini və investisiya proqramlarını hazırlamağa başladılar. Xarici dövlətlər dünyanın neft möcüzəsi olan Azərbaycanla uzunmüddətli sazişin imzalanmasına can atırdılar.

1994-cü il sentyabrın 14-də imzalanan “Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində” Fərman artıq beynəlxalq sazişin imzalanmasının qətiləşməsi demək idi. Nəhayət tarixi gün gəlib çatdı. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 11 transmilli neft şirkəti ilə çağdaş tarixə “Əsrin müqaviləsi” kimi düşən qlobal neft müqaviləsinin təntənəli şəkildə imzalanması ilə Xəzər dənizi hövzəsində və bütün postsovet məkanında beynəlxalq əməkdaşlığın bünövrəsi, həmçinin, ölkəmizin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. “Əsrin müqaviləsi”nin imzalanması ilə olaraq bərpa olundu və böyük maillikli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. 1999-

cu ildə Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı.

Ulu öndər Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Burada əsas məqsəd Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artmasıyla əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılmasından ibarət idi. Məhz bu məqsədlə "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan yanacağın Avropaya nəqlini təmin edə biləcək trans-kommunikasiya dəhlizinin yaradılması olduqca vacib sayılırdı. Ulu öndər Heydər Əliyev dünyanın ən nüfuzlu siyasi liderləri, müxtəlif ölkələrin dövlət və hökumət başçıları, işgüzar dairələrin nümayəndələri, neft şirkətlərinin rəhbərləri ilə mütəmadi danışıqlar apararaq Azərbaycan neftinin Türkiyə vasitəsilə Qərbə ixracını nəzərdə tutan strateji marşrutun çəkilməsi üçün dövlətlərarası sazişin imzalanmasına çalışırdı. Bunun üçün regionda ən təhlükəsiz və uzunömürlü, rentabelli marşrut olan Bakı-Tbilisi-barel neftin Səngəçal terminalından Aralıq dənizi sahillərinə ixrac edilməsinə imkan yaradır. Ötən müddət ərzində bu kəmərlə 166 milyon tondan artıq Azərbaycan nefti, 3 milyon tona yaxın türkmən nefti nəql olunub.

Ümumiyyətlə, ilk ixrac neftinin nəqlinə başlanandan indiyədək respublikamızın neft hasilatı 5,6 dəfə, qaz hasilatı 5,2 dəfə artıb. İndiyədək Azərbaycanın neft-qaz sahəsinə 60 milyard dollara yaxın xarici sərmayə yatırılıb. Hazırda ABŞ, Çin, İngiltərə, Almaniya, Fransa, Hindistan, İsrail, Cənubi Koreya, Braziliya, İndoneziya, Çili, İspaniya da daxil olmaqla dünyanın 33 ölkəsinə Azərbaycandan xam neft və neft məhsulları ixrac edilir.

Qarşıdakı illərdə dünyada neftlə yanaşı, qaza olan tələbat əhəmiyyətli dərəcədə artacaq və respublikamız bu dövrdə ən mühüm ixracatçılardan biri olacaq. Həyata keçirilən layihə və proqramlar üzrə görülən işlər, eləcə də, perspektiv strukturların potensialı nikbin proqnozlar üçün əsas verir. 2015-ci ildə ölkə üzrə neft hasilatının 50-55 milyon tona, qaz hasilatının isə 30 milyard kubmetrə çatdırılacağı

nəzərdə tutulur. Deməli, region və Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin qorunmasında Azərbaycanın rolu qarşıdakı illərdə daha da artacaqdır. 2020-ci ilədək Avropanın enerji istehlakının 70 faizinin, 2030-cu ilədək isə 85 faizədək hissəsinin idxal hesabına təmin ediləcəyi barədə ekspert rəyləri fonunda bu, xüsusən böyük əhəmiyyət kəsb edir.

Ekspertlərin də vurğuladığı kimi, Avropa bazarı dünyanın ən sabit, gəlirli və hüquqi baxımdan yaxşı tənzimlənən bazarıdır. 2017-ci ildən sonra, "Şahdəniz-2" həyata keçirildikdən sonra ölkənin qaz istehsalı 55 milyard kubmetrə çatacaq və bu, böyük həcmdir. "Ümid" və "Abşeron" yataqlarının karbohidrogen ehtiyatlarının nəql sisteminə cəlb olunmasından sonra bu rəqəm daha da artacaq və 2025-ci ildə bu rəqəmin 50 milyard kubmetrə çatacağı ehtimalı da var. Təbii qazın 35-40 milyard kubmetrinin ixracı nəzərdə tutulur. Bu faktor Azərbaycanın dünya qaz bazarında yüksək nüfuzunun artması üçün əlverişli sayıla bilər. Bu da Avropa bazarında Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək. Bir neçə ildən sonra respublikamız dünyanın 50-ə yaxın ölkəsinə neft-qaz məhsulları nəql edəcək.

Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi artıq hamı tərəfindən etiraf olunan həqiqətdir. Respublikanın sosial-iqtisadi inkişafı getdikcə sürətlənir, ölkədə quruculuq işləri daha böyük miqyas alır, şəhər, kənd və qəsəbələrin siması tamamiləCənubi Qafqaz regionunda lider dövlətdir. Bütün bu uğurların təməli Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən yeni neft strategiyasının, "Əsrin müqaviləsi"nin məntiqi davamı, təntənəsidir.

***B.B.Barxudarov***
*Sumqayıt Dövlət Universiteti*

# AZƏRBAYCANIN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ İŞTİRAKI

Azərbaycan müstəqillik qazandıqdan sonra dünyada o cümlədən Avropa üçün böyük geosiyasi əhəmiyyətə malik regiona çevrildi. Ölkə öz sərvətlərinin sahibi oldu. Təkcə özünü yox, Avropanı rusiyanın bu sahədəki hazırki monopoliyasından xilas etmək gücündədir. Karbohidrogen ehtiyyatları ilə zəngin olan Xəzər hövzəsi ABŞ və Avropa birliyi ölkələrinin iqtisadi maraqları dairəsinə çevrildi.

XX əsrin qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtarışında olan müasir dünyanın yeni geoiqtisadi xəritəsininin müəyyənləşdirilməsinə əsaslı təsir göstərən 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi " Azərbaycan Respublikasının siyasi, iqtisadi və informasiya blokadası şəraitində olan bir vaxtda imzalandı. H.Əliyev belə bir gərgin şəraitdə dünyanın 7 inkişaf etmiş qüdrətli dövlətini təmsil edən 11 neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalamağa müvəffəq oldu. "Əsrin müqaviləsi" Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, respublika daxilində sabitliyin bərqərar olunmasında müstəsna rol oynamaqla, həm də beynəlxalq iqtisadi münasibətlər sisteminə sürətli inteqrasiyasına da təkan vermişdir.

Bakı-Tbilisi-Ceyhan Xəzər hövzəsinin inkişafında yeni mərhələnin başlanğıcıdır.Bu yeni neft layihəsi Xəzər neftinin iqtisadi cəhətdən səmərəli və ekoloji baxımdan təhlükəsiz formada Avropa bazarlarına çıxarılmasını təmin edir.

Enerji ehtiyyatlarının dünya bazarlarina nəqlini təhlükəsiz və ən yüksək beynəlxalq standartlara uyğun gerçəkləşdirən Bakı-Tbilisi-Ceyhan (BTC) artıq 20 ildir ölkəmizə və bütövlükdə regiona əlavə mənfəətlər gətirməkdə davam edir.

Bəzi Qərb analitikləri qeyd edir ki, Avropa ölkələri Rusiyanın geosiyasi təsirindən tam azad olmayıb, Qərbin geosiyasi dairəsinə inteqrasiya olunmayıb, onların qarantiyalı gələcəyinə ümid azdır.

ABŞ dairələrinin Xəzəryanı ölkələrdən Qazaxıstan, Azərbaycan və Türkmənistanın enerji ehtiyyatlarının həcmi haqda səsləndirdikləri fikir belədir ki, Xəzər hövzəsinin hazırkı neft ehtiyyatlarının həcmi təxminən 200milyard barel (təxminən 27,5milyard ton) miqdarında göstərilirki, BTC kəmərinin inşa olunduğu zaman Azərbaycan ildə 15-16 milyon ton neft hasil edirdisə,hazırda bu rəqəm 50 milyon tondan artıqdır.Azərbaycan ildə 30 milyard kubmetrə yaxın qaz hasil etməklə, regionun əsas qaz ixragatçılarindan birinə çevrilmişdir. Eyni zamanda, BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən bütün dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihədir. Layihə Azərbaycan qazını dünyaya daşıyan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinə də yol açdı. İndi ixrac marşrutlarımız çoxalmaqda və şaxələnməkdə, dünya ilə əlaqələrimiz daha da genişlənməkdədir.

Ümummilli lider Heydər Əliyevin vaxtıilə böyük uzaqgörənliklə dediyi kimi: ”Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki,bizim gördüyümüz işlər, Bakı-Tbilisi-Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türküyəni bir-biri ilə sıx birləşdirəcəkdir”.

Qeyd etmək lazımdır ki, “Bakı-Tbilisi-Ceyhan” neft kəməri öz geoiqtisadi və geostrateji parametrləri baxımından Avropanın enerji təhlükəsizliyinin təminatında həlledici amilə çevrilməkdədir.

***Dos. N.Ə.Cəfərov***
*Sumqayıt Dövlət Universitetei*

## “ƏSRİN MÜQAVİLƏSİ”NİN TARİXDƏ YERİ

1991-ci ildə Sovet İttifaqının parçalanması ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası bazar iqtisadiyyatına transformasiya mərhələsinə ilkaddımlarını atarkən böyük iqtisadi və siyasi çətinliklərlə rastlaşmışdır. Hələ 80-ci illərin sonlarından etibarən iqtisadiyyatında geriləmə müşahidə

edilənrespublikamızda müstəqilliyin bərpasından sonrakı dövrdə dövlət idarəçiliyindəburaxılmış kobud səhvlərin məntiqi nəticəsi kimi sosial-iqtisadi gərginlik yüksək səviyyəyə çatmış, ÜDM-in həcmi sürətlə azalmış, inflyasiya və işsizlik artmışdır. Məhz bu çətin dövrdə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti, qətiyyəti və dövlət idarəçiliyindəki səriştəsi ilə respublikamız vətəndaş müharibəsi nəticəsində parçalanmaq təhlükəsilə üz-üzə qalmış ölkədən iqtisadiyyatı möhkəm təməllər üzərində qurulmuş və gələcəyə inamla baxan dövlətə çevrildi.

Respublikamız Avropa ilə Asiyanın kəsişməsində, strateji cəhətdən olduqca əhəmiyyətli bir regionda yerləşir. Zəngin təbii ehtiyatlara malik olan Azərbaycan, həm də tranzit ölkə kimi regional və beynəlxalq miqyasda mühüm önəm kəsb edir. Bu səbəbdən ölkəmizin dayanıqlı iqtisadi inkişafını təmin etmək üçün bu coğrafi üstünlüklərdən maksimum şəkildə istifadəyə nail olmaq lazımdır. Ölkəmizin təbii resurs potensialı və tranzit potensialının bir-birini tamamlamasının ən yaxşı nümunəsi olan layihələrdən başlıcası ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu və ölkə iqtisadiyyatının bütün önəmli sahələrində inkişafın əsasını qoyan, 1994-cü ilinsentyabrında imzalanmış ”Əsrin müqaviləsi”dir ki, onun imzalanması ilə respublikanın iqtisadi və tranzit-kommunikasiya əhəmiyyəti xeyli dərəcədə artmışdır.“Əsrin müqaviləsi”ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət - Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, TPAO, Penzoyl, İtoçu, Remko, Delta iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı. Məlum olduğu kimi, Heydər Əliyevin uğurlu Neft strategiyasının əsasını təşkil edən ”Əsrin müqaviləsi” çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri inşa edilmişdir. Ümumi uzunluğu 1767 km. olan kəmərin 443 km-i Azərbaycanın, 248 km-i Gürcüstanın, 1076 km-i isə Türkiyənin ərazisindən keçir. BTC layihəsinin realizə edilməsi ölkəmizin həm iqtisadi, həm də siyasi

maraqlarının təmin edilməsi aspektindən olduqca mühüm əhəmiyyət kəsb etmişdir. Respublikamız üçün bu irimiqyaslı boru kəməri layihəsinin həyata keçirilməsinin gətirdiyi üstünlükləri belə qruplaşdırmaq mümkündür:

Azərbaycan və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarılması- BTC layihəsinin həyata keçirilməsi olduqcahəssas və əlverişli mövqedə yerləşən respublikamızın öz təbii-resurs potensialından maksimum şəkildə istifadəyə nail olması, xüsusən zəngin neft və qaz ehtiyatlarını dünya ölkələrinə nəql etməklə enerji təminatı və təhlükəsizliyi sahəsində mühüm faktora çevrilməsinə ciddi təsir etmişdir.

Müstəqilliyimizin qorunub möhkəmləndirilməsi- yenicə müstəqillik əldə etmiş və çətin sosial-iqtisadi, siyasi durumda olan ölkəmiz üçün bu cür qlobal əhəmiyyətli layihənin kənar müdaxilə olmadan, öz milli maraqlarıma uyğun şəkildə gerçəkləşdirilməsi və iri miqyasda birbaşa və dolayı xarici investisiyanın cəlb edilməsi respublika hakimiyyətinin qarşısında duran prinsipial əhəmiyyətli məsələlərdən biri idi.

İqtisadi stabilliyin və artımın təmin edilməsi- qeyd edildiyi kimi, hələ erkən müstəqillik illərində müharibə ilə üzləşən və iqtisadi fəallığın kəskin azalması konteksində, respublikamıza "Əsrin müqaviləsi"nin imzalanması ilə çoxsaylı və arasıkəsilməz kapital axını baş verdi. Bu proses öz-özlüyündə inflyasiya, yoxsulluq, işsizlik kimi neqativ halların aradan qaldırılmasına, o cümlədən əhalinin sosial-rifah səviyyəsinin yaxşılaşdırılmasına rəvac verdi.

Dünya ölkələri ilə ikitərəfli və çoxşaxəli münasibətlərin qurulması-BTC boru kəməri layihəsinin həyata keçirilməsi ölkəmizi Avropa ölkələrinin karbohidrogen ehtiyatlarına olan tələbatlarının ödənməsində əsas iştirakçılardan biri çevirməklə yanaşı, həm də həmin ölkələrlə uzunmüddətli perspektivdə geniş və hərtərəfli əlaqələr qurulması üçün böyük imkanlar yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin qətiyyəti, apardığı uğurlu neftdiplomatiyasının nəticəsi olan "Əsrin müqaviləsi" dünyanın bir sıra aparıcı dövlətlərini, transmilli enerji şirkətlərini respublikamıza cəlb edilməsində və buraya investisiyalar yatırmasında katalizator funksiyası daşımışdır. Bu qlobal əhəmiyyətli sazişin imzalanması

neft sənayemizdə əsaslı infrasturuktur dəyişikliklərinin həyata keçirilməsinə, o cümlədən onun keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına rəvac vermişdir.

Məsələyə daha geniş aspektdən baxsaq, aydın olur ki, "Əsrin müqaviləsi" ölkəmizin tranzit potensialının realizasiyası və bilavasitə ölkə iqtisadiyyatının dayanıqlı inkişaf trendinin əldə olunması istiqamətində həyata keçirilmiş silsilə layihələrin ilkin və təkanverici mərhələsi kimi olduqca əhəmiyyətlidir. Bu müqavilənin imzalanması ilə respublikamızın beynəxalq əməkdaşlığa cəb edilməsi prosesi daha da sürətləndi və ölkəmiz artıq dünyada etibarlı enerji təminatçısı kimi tanınmağa başladı. Bunun nəticəsi olaraq, ölkəmiz Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi olan TRACECA, NABUCCO, Şimal-Cənub nəqliyyat dəhlizi və bunun kimi bir neçə qlobal əhəmiyyətli regional layihələrin əsas iştirakçısına çevrildi.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olur ki, "Əsrin müqaviləsi"ni sadəcə bir neft sazişi kimi qəbul etmək düzgün deyil. Bu müqavilə yaxın və uzaq gələcəyə hesablanmış məqsədyönlü siyasətinin dayaq sütunlarından biri olmaqla, imzalandığı mürəkkəb tarixi zaman kəsiyində müstəqilliyimizin qarantına çevrilmişdir. Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsinə Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran,Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRACECA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

***R.H.Cəfərli***
*Sumqayıt Dövlət Universiteti*

# "ƏSRİN MÜQAVİLƏSİ" NEFT STRATEGİYASININ ƏSASIDIR

Müstəqil Azərbaycanın sürətli inkişaf tarixində xüsusi yeri olan "Əsrin müqaviləsi" təbii olaraq ölkədə bir sıra irimiqyaslı mühüm tədbirlər üçün zəmin yaratdı. Belə bir şəraitdə Azərbaycan dövləti millətin gələcək rifahi üçün həyati əhəmiyyətli vəzifələri yerinə yetirməli, mühüm qərarlar verməli idi. Lakin bu zaman ölkənin müstəqilliyini qoruyub saxlamaq və xalqın mənəvi-əxlaqi gücündən yararlanmaq kimi əsas iki şərti unutmaq olmazdı. Bu məsələlərin mərkəzində səmərəli, modern, inkişaf dururdu. "Əsrin müqaviləsi" məhz insan bacarığının, enerjisinin optimallaşması kimi başa düşülən bu cür modernləşmənin hərəkətverici qüvvəsinə çevrilməli idi. Beləliklə, əlamətdar "müqavilə" sözü uzunmüddətli əməliyyat mənası kəsb etdi.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdıır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul

edilmişdir; ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurla həyata keçirilməsi ölkəmizin iqtisadi və siyasi qüdrətini daha da artırır. Dünya Bankının məlumatına görə, neft satışından 2020-ci ilə qədər 200 milyard dollar vəsait toplanacaq. Bu, Azərbaycanın iqtisadi potensialı barədə aydın təsəvvür yaradır. Bu, eyni zamanda, Azərbaycanın qeyri-neft sektorunun neft amili hesabına illər keçdikcə gücləndirilməsi imkanının mövcudluğunu göstərir. Burada bir faktı da xatırlatmaq yerinə düşər: son üç ildə dövlət büdcəsinin 10 dəfə artması iqtisadi inkişafın hansı səviyyədə olduğunu açıqlayır. Ötən ilin dövlət büdcəsi 7,5 milyard manat idi. 2009-cu ilin icmal büdcəsi isə 12 milyard manatdır.

Enerji ehtiyatlarından əldə olunan gəlirlər insan kapitalının inkişafına yönəldilməklə Azərbaycanın iqtisadi tərəqqisi və davamlı inkişafına etibarlı zəmin yaradır. Azəbaycanın neft strategiyasının başlıca hədəfləri həmişə ölkənin iqtisadi yüksəlişinə təkan verməkdən və sosial islahatların davamlı olaraq miqyasının genişləndirilməsinə baza yaratmaqdan ibarət olub. Yeni neft erasının başlanması və Azərbaycanın yanacaq ehtiyatlarının dünya bazarlarına nəqli respublikamızın maliyyə qüdrətinin və strateji valyuta ehtiyatlarının yüksəlişinə imkan yaratmaqla bərabər, iqtisadi-sosial, ictimai-mədəni, humanitar sahələrdə əhəmiyyətli dönüş yaradıb. Azərbaycan hökuməti neft gəlirlərinin səmərəli istifadə olunması ilə bağlı strateji konsepsiyanı həyata keçirməkdədir. Neft

vəsaitlərinin idarə olunmasında Amerika və Norveç modelinə uyğun strategiyanın həyata keçirilməsi bu sahədə şəffaflığın tam təmin olunmasına səbəb olub.

Respublikamız neft vəsaitlərinin idarə olunmasında mükəmməl konsepsiyanı həyata keçirməklə yanaşı, “qara qızılı” qeyri-neft sektorunun və elmi-mədəni tərəqqinin inkişafına yönəltməkdədir. Bu vəsaitlərin həcmi ilbəil artırılır və əldə olunan yüksək nailiyyətlər beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələrində xüsusi dəyərini almaqdadır. “Ernst ənd Yonq”, “Mudz”, “Fitç İbka”, “Standart ənd Purs” kimi dünyanın ən nüfuzlu reytinq təşkilatları Azərbaycanın neft və mədən sənayesində neçə illərdir ki, qiymətləndirmə aparır və bu qurumların neft vəsaitlərinin xərclənmə istiqamətləri ilə əlaqədar yekun rəylərində şəffaflığın təmin olunması öz əksini tapıb.

Azərbaycan hökuməti neft və qaz ehtiyatlarının satışından əldə olunan kapitalı bütün bölmələrə sərf etməklə həm iqtisadiyyatın diversifikasiyasını dərinləşdirib, həm də müasir idarəetmə texnologiyalarının miqyasını genişləndirib. ölkəmizdə geniş vüsət alan yol, nəqliyyat, infrastruktur, su, kanalizasiya, təhsil, səhiyyə, elm, mədəniyyət, sosial sfera, kommunikasiya, rabitə, bank, maliyyə və digər sahələrdəki böyük inkişaf də məhz neft kapitalının hesabına reallaşır. Neft gəlirləri bütün insanların həyatında hiss olunmaqdadır. Hər il qaçqın və məcburi köçkünlərin sosial həyatının, mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına 200 milyon manatdan çox pul sərf edilir ki, bu da neft vəsaitləri hesabına mümkünləşir. Bunun nəticəsidir ki, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı bütün çadır şəhərcikləri ləğv olunub. Neft gəlirləri həm də qaçqınların ərzaq xərcləri üçün sərf edilir.

Dövlət Neft Fondundan il ərzində yüz milyonlarla manat vəsaitin infrastruktur və investisiya bölmələrinə ayrılması respublikamızın bütün bölgələrinin simasının dəyişməsinə səbəb olub. Bütün bölgələrdə tikilən məktəblər, mədəniyyət obyektləri də neft kapitalının hesabına gerçəkləşir. Bakı şəhərinin içməli su ilə təminatında həlledici rol oynayan və Prezidentin ikinci Bakı-Tbilisi-Ceyhan adlandırdığı Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi də neft vəsaitləri hesabına reallaşmaqdadır. Eyni zamanda, Bakı-Tbilisi-

Qarsın çəkilişində də neft vəsaitləri üstünlük təşkil edir. Bu gün inşa olunan körpülər, yollar, elektrik stansiyaları, su-kommunal xidmət qurğularının bərpasında, tikintisində başlıca maliyyə mənbəyi neft gəlirləridir. Neft gəlirləri hesabına reallaşan idarəetmə sisteminin təkmilləşdirilməsi isə ölkəmizin hər il dünyada qabaqcıl texnologiyalar tətbiq edən dövlətlər sırasında reytinqinin artmasına təkan vermiş olur. Məhz bütün bu nailiyyətlərin təməlində insan intellekti, zəkası və əməyi durur. Buna görə də hökumət neft gəlirlərini intellektual mülkiyyətə, insan kapitalının inkişafına yönəltməyi başlıca məqsədlərindən biri elan edib. Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan hökumətinin apardığı siyasətin başlıca məqsədi nefti - "qara qızılı" insan kapitalına çevirməkdən ibarətdir. "Neftimizi, yəni "qara qızılı" insan kapitalına çevirə bildik. Siyasi və iqtisadi islahatlar sahəsində fəal siyasət və enerji siyasəti nəticəsində biz son üç il ərzində iqtisadi artımı 96 faiz səviyyəsinə qaldıra bildik.

Siyasi və iqtisadi islahatlar nəticəsində son üç ildə Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycanın əldə etdiyi valyuta gəlirlərinin insan kapitalına çevrilməsi iqtisadi siyasətin başlıca hədəflərindən birinə çevrildiyindən hökumət insan kapitalı ilə bağlı xüsusi ixtisaslaşmış struktur yaratmaq niyyətindədir. İnkişaf etmiş dövlətlərin təcrübəsini nəzərə alan hökumət bu təşəbbüsü reallaşdırmaqla intellektual və yüksək idarəetmə qabiliyyətinə malik güclü insan kapitalı bazası formalaşdırmaq imkanı qazana bilər. Artıq bütün inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bütün inkişaf meyillərinin kökündə insan faktoru dayanır. İnkişaf etmiş ölkələrin ən böyük sərvəti və kapital fondu da məhz zəngin biliyi və təcrübəsi olan insan resurslarıdır. Azərbaycan insan kapitalı fondunu formalaşdırmaqla dövlət və özəl sektorun ən müasir bilik və texnologiyaları mənimsəmiş kadrlarla təmin olunmasına nail ola bilər.

Hazırda Azərbaycanın həm respublika daxilində, həm də xarici dövlətlərin nüfuzlu elm və təhsil müəssisələrindəki peşəkar gənc kadr ordusu müasir dünyanın elmi, texniki və mədəni tərəqqisinin ölkəmizə transfer olunmasının əsas bazasıdır. Onlar müasir idarəetmə texnologiyalarının qızıl fondu sayıla bilərlər. Onu da qeyd

edək ki, hökumət xarici ölkələrdə təhsil alan gənclərin həm sayının artırılması, həm də onların tədris xərclərinin yüksəldilməsi ilə bağlı məqsədyönlü addımlar atmaqdadır.

Beləliklə, "Əsrin müqaviləsi" nəinki təkcə neft sahəsi, eləcə də, Azərbaycanın iqtisadi, sosial tərəqqisi və davamlı inkişafı üçün etibarlı zəmin yaratdı.

***A.S. Əfəndiyeva***
*Sumqayıt Dövlət Universiteti*

## XƏZƏRİN GEOSİYASİ ƏHƏMİYYƏTİ

Xəzər dənizi dünyada mühüm geosiyasi əhəmiyyətinə və zəngin karbohidrogen ehtiyyatlarına görə seçilən bölgələrdən biridir. Dünyanın ən böyük qapalı su hövzəsi sayılan Xəzərin əlverişli coğrafi mövqeyi, enerji sərvətləri və digər resursları sahil dövlətlərindən başqa, yaxın və uzaq xaricin diqqətini çəkir, onları bölgəyə cəlb edir. Qərblə Şərqi birləşdirən Xəzərdə həm sahil dövlətlərin, həm də sahildən uzaq dövlətlərin xeyli üst-üst düşən və toqquşan maraqları vardır.

İndi Xəzər hövzəsinə hakim olmaq istəkləri o qədər şiddətlənib ki, Rusiya bölgədəki əski tərəfdarlarını yenidən qazanmaga çalışır, ABŞ isə daha çox yeni tərəfdaş tapmaq uğrunda mübarizə aparır. ABŞ-ın xarici siyasətində dünyanın neft-qaz yataqlarınının cəmləşdiyiyi bölgələrin ələ keşirilməsi və əsas nəqliyyat arteriyaları üzərində nəzarətin təmin edilməsi başlıca istiqamət təşkil edir. Xəzər hövzəsi regionun enerji ehtiyatlarına görə Fars körfəzi dövlətlərindən sonrakı yer tutduğundan bu bölgədə də ABŞ-ın özünəməxsus maraqları vardır.

Azərbaycanın quruda və dənizin ona aid hissələrindəki neft-qaz yataqlarında əsas söz və pay sahibi də məhz ABŞ və İngiltərə şirkətləridir. Indi ABŞ-İngiltərə tandemi üçün ən önəmli məsələ Azərbaycanın və Xəzərin Şərq hissəsindəki dövlətlərin enerji ehtiyatlarının təhlükəsiz şəkildə Azərbaycan-Gürcüstan-Türkiyə xətti ilə dünya bazarına çıxarmaqdır. Odur ki, rəsmi Vaşinqton Mərkəzi Asiya-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyə xəttini hər hansı

mümkün ola biləcək təhlükədən qorumağa və bu qurşaqda sabitliyin pozulma imkanlarının qarşısını vaxtında almağa çalışır. Eyni zamanda Xəzər regionu dövlətlərin NATO-ya inteqrasiya prosesini sürətləndirməyə can atır.

Vladimir Putinin prezidentliyi müddətində xeyli dirçəlmiş Rusiya isə keçmiş SSRİ məkanında itirmiş olduğu mövqeləri yenidən qaytarmağa səy göstərir. Kreml çalışır ki, NATO-nun Şərqi Avropa və Rusiyanın Cənub sərhədləri boyunca sürətli irəliləyişinin, eyni zamanda da ABŞ-ın Rusiyadan yan keçməklə Avropaya istiqamətlənmiş enerji ixrac marşurutlarının çəkilməsinin və fəaliyyətinin qarşısını alsın. Buna görə də Rusiya hər vəchlə ABŞ-ın Cənubi Qafqaz və Mərkəzi Asiya respublikalarına, xüsusən də Xəzər dənizinə girişini qapatmağa, fürsət düşdükcə, qərbin iqtisadi maraqlarına zərbə vurmağa səy göstərir.

Sürətlə nüvə dövlətinə çevrilməyi qarşısına məqsəd qoyan və əhalisinin yarısını azərbaycanlılar təşkil edən İran bu silaha sahiblənəcəyi təqdirdə, Yaxın və Orta Şərqin "yeni ağası"na çevrilmək iddiasındadır. Hazırda Xəzər dənizi Rusiya-İran əlaqələrində, xüsusən də İrana silah satışında və nüvə sənayesinin yaradılması üçün zəruri avadanlıqların, yanacağın daşınmasında əsas nəqliyyat dəhlizi olduğundan, rəsmi Tehran hər vəchlə Pentaqonun bu dəhlizi nəzarətə götürmək istəklərinə mane olmağa çalışır.

Xəzər dənizi sahillərində yerləşən Azərbaycan Respublikası regionda əsas dövlət hesab olunur, bu da onun əhəmiyyətli geosiyasi mövqeyi, zəngin neft və qaz ehtiyyatlarına malik olması ilə bağlıdır. Bundan əlavə Azərbaycan Xəzər hövzəsi regionunda həm də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizində ən mühüm həlqəni təşkil edir.

1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya aktı qəbul edildikdən sonra Azərbaycan Respublikası müstəqil dövlət kimi digər dünya ölkələri ilə qarşılıqlı əlaqələrini genişləndirmək və beynəlxalq mövqelərini möhkəmləndirmək, Avropa birliyinə inteqrasiya olunmaq, əsas dünya ölkələri, ilk növbədə böyük dövlətlərlə dostluq, strateji əməkdaşlıq münasibətləri yaratmaq üçün fəal daxili və xarici siyasət yeridir.

Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdən ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu.

Uzun sürən müzakirələr və çətin danışıqlar prosesindən sonra 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. Dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu.

Göründüyü kimi Xəzər bölgəsindəki proseslər heç də karbohidrogen yataqlarının istismarı ilə məhdudlaşmır. Burada, hər şeydən əvvəl bölgəyə strateji təsir məsələləri, neft kəməri və onun təhlükəsizliyi, xarici aləmin iqtisadi və geosiyasi maraqları toqquşur. Neft mütəxəssislərinin birgə rəyinə görə, dünyanın heç bir yerində bu qədər xalqın, dövlətin və şirkətin yarışa girdiyi başqa bir bölgə

tapmaq mümkün deyil. Bu da Xəzər bölgəsinin nə qədər əhəmiyyətli bir bölgə olduğunu göstərməkdədir.

**_S.M.Mikayılova_**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

## AZƏRBAYCANNIN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATININ ƏN ETİBARLI VASİTƏSİDİR

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin sosial-iqtisadi inkişafının tənzimləməsi üçün qarşılaşdığı əsas məsələlərdən biri özünün milli iqtisadi-inkişaf modelini yaratmaq idi.

Hər bir milli iqtisadiyyatın mövcudluğu və davamlı inkişaf üçün aparıcı sahələr olur və bu sahələr iqtisadiyyatda, sosial-iqtisadi inkişafda dayaq rolunu oynayır. Azərbaycan üçün bu cür dayaqlardan biri ehtiyatları kifayət qədər olan neft və qazdan ibarət təbii sərvətlərdir. Bu sərvətin hasil edilməsi və satışının təşkil edilməsi birinci dərəcəli vəzifə kimi qarşıya qoyuldu. Belə bir vəzifənin yerinə yetirilməsi milli iqtisadiyyatın möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsinin əsasını qoymaq demək idi.

Ölkədə maliyyə vəsaitinin məhdudluğu, neft və qaz sənayesinin müasir dünya texnologiyalarından geri qalması xarici neft şirkətlərini bu sahəyə cəlb etmək zərurətini yaratmışdır. Ölkənin zəngin neft və qaz ehtiyatlarına malik olması elmi əsaslandırılmış faktlarla təsdiq olunur. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin məlumatına görə, hazırda “Azərbaycanda neftlə zəngin 57 yataq mövcuddur ki, bundan 18-i Xəzər dənizinin Azərbaycan sektorunda, qalanı isə qurudadır. Ümumiyyətlə, Xəzər hövzəsi 30 milyard tona yaxın neft, 18-20 trilyon $m^3$ həcmində qaz ehtiyatlarına malikdir ki, bu da dünyanın karbohidrogen resurslarının 15 faizini təşkil edir. Xəzər hövzəsinin Azərbaycana aid bölməsində isə 3-5 milyard ton neft, 5 trilyon $m^3$ həcmində qaz ehtiyatı mövcuddur” . Bütün bu ehtiyatlar Azərbaycanın dayanıqlı inkişafı üçün çox böyük imkanlardır. Ancaq Azərbaycanın öz daxili vəsaiti hesabına zəngin

neft ehtiyatlarını hasil edib dünya bazarına çıxarması çətin idi. Buna görə də xarici kapitalın gücündən istifadə etmək lazım gəldi və xarici şirkətlərlə neft müqavilələri bağlandı.

Ekspertlərin hesablamalarına görə yalnız "Əsrin müqaviləsi"nin reallaşdırılması hesabına respublikamızın əldə edəcəyi vəsaitin məbləği 2030-cu ilədək bütövlükdə 30 milyarddan 155 milyard ABŞ dollarına qədər ola bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 iyul 2006-cı ildə Bakı-Tblisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimində söylədiyi nitqində bildirdi ki, çətinliklərə baxmayaraq "1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı: "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarına müxtəlif yollarla ixrac edilir.

Ümumilli Lider Heydər Əliyevin "Yeni neft strategiyasının" həyata keçirilməsini əks etdirən 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalanması ilə başlanmışdır.

"Üç dəniz əfsanəsi", "Əsrin ən böyük layihəsi", "Avrasiyanın ən böyük arteriyası" adlandırılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşması Azərbaycanın milli iqtisadiyyatının müstəqilliyinin təmin edilməsi üçün əvəzsiz infrastruktur obyektidir, onun ən böyük uğurudur.

"Əsrin müqaviləsi"nin Azərbaycanın müasir tarixindəki rolu mütəsna əhəmiyyətə malikdir. "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkəyə milyardlarla dollar sərmayə qoyulmuş, yeni yerləri açılmış, güclü infrastruktur, kadr potensialı yaradılmışdır. "Əsrin müqaviləsi" imzalandıqdan sonra neftdən gələn gəlirlərin ildən ilə artdığını və gələcəkdə də daha çox artacağını nəzərə alaraq, neft gəlirlərinin toplanmasının və səmərəli istifadə olunmasının mükəmməl, dövlət tənzimlənməsi üzrə mexanizm yaratmaq

məqsədilə 1999-cu il dekabrın 29-da Azərbaycan respubliaksı Dövlət Neft Fondu yaradıldı ki, neft-qazın ixracından gələn gəlirlər bu sahənin inkişaf etdirilməsi və qeyri-neft sektorunun inkişafına yönəldilir.

***P.R. Xəlilov***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANIN UĞURLU NEFT STRATEGİYASIDIR

Azərbaycanın təbii sərvətləri arasında neftin özünəməxsus yeri var. Hələ qədim və orta əsr mənbələrində, bir sıra səyyahların yazılarında Azərbaycan ərazisində neftdən işıq mənbəyi kimi istifadə olunmasına dair məlumatlar var idi. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra çar Rusiyasının əlinə keçən təbii sərvətlərimiz amansız surətdə istismar olunmağa başlandı. Şimali Azərbaycanın neft sənayesində iltizam sisteminin tətbiq olunması ilə bağlı olaraq iltizamçıları yalnız neftin satılması düşündürür, onlar neft sənayesinin texniki cəhətdən inkişaf etdirilməsinin qayğısına qalmırdılar. 1872-ci ildə iltizam sistemi ləğv olunduqdan sonra Bakı neft rayonuna xarici kapitalın axını başlandı və neft sənayesi özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoydu. Lakin xarici kapital nümayəndələri də daha çox neftin hasil olunması işi ilə məşğul olur, neft sənayesinin və onunla bağlı olan sənaye sahələrinin təhlükəsizlik baxımından inkişafına diqqət yetirmirdilər.

Beləliklə, 1917-ci ilə qədər çar Rusiyası imperiyasının, 1920-ci ildən 1991-ci ilə qədər SSRİ imperiyasının tərkibində olan Şimali Azərbaycanın digər təbii sərvətləri kimi, onun nefti də istismara məruz qalmış, xalq öz təbii sərvətinə lazımınca sahib çıxa bilməmişdir. Yalnız 1991-ci il oktyabrın 18-də müstəqilliyini élan edən Azərbaycan dövləti öz təbii sərvətlərinin əsl sahibinə çevrilmiş, onların satışından əldə olunan gəlir regionların sosial-iqtisadi inkişafına sərf olunmuşdur.

Azərbaycan Respublikası iqtisadiyyatının böhrandan çıxarılması və inkişaf etdirilməsində neft sənayesinin dirçəldilməsi,

müasir texhologiyalar əsasında yenidən qurulması mühüm əhəmiyyət kəsb edirdi. Ümummilli lider, Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və uğurla həyata keçirilməyə başlandı. Bu, Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı idi.

1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, sonralar Yaponiya şirkətinin də qoşulduğu Yunanıstanın iri neft şirkətləri daxil olan konsersum arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. Razılığa görə, investisiyanın 80 %-ni konsersum qoyur, Azərbaycanın ümumi gəliri çıxarılacaq neftin qiymətinin 80 %-i miqdarında müəyyən olunurdu. Bundan əlavə, hasil olunacaq səmt qazı Azərbaycanın tam ixtiyarına verilirdi. Bu müqavilə dünyada "Əsrin müqaviləsi" adı ilə məşhurlaşdı. 2001-ci ildən başlayaraq Prezidentin Fərmanı ilə həmin gün respublikada "Neftçi günü" kimi bayram edilir.

1995-ci ilin aprelində "Əsrin müqaviləsi"ni reallaşdırmaq üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), 1996-cı ilin aprelində isə "Qarabağ" strukturu üzrə müqaviləni həyata keçirmək üçün "Xəzər" Beynəlxalq Neft Şirkəti, habelə başqa müqavilələr üzrə əməliyyat şirkətləri təşkil edildi. Bu şirkətlər qazma qurğularından və infrastrukturdan birgə istifadə etmək üçün xüsusi klub yaratdılar.

1996-cı ildə dənizdə ABƏŞ-in qazdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu. 1997-ci il noyabrın 12-də "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanıldı. Bu hadisə Bakıda böyük təntənə ilə qeyd edildi.

Bu müqavilə üzrə əsas işlərin birinci fazasının başlanması üçün Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan, ildə 50 milyon ton neft nəql edə biləcək, uzunluğu 1760 km olacaq iridiametrli Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin tikintisi haqqında saziş əldə olunması vacib idi. 2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilmə üçün BTCKO (Bakı-Tbilisi-Ceyhan) şirkəti təsis edildi. 2002-ci il sentyabrın 18-də kəmərin təməli qoyuldu.

2001-ciil avqustun 30-da "Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci, mühüm fazasına başlanıldı. Həyata keçirilən tədbirlər sayəsində respublikanın neft sənayesi dirçəldi və sürətlə inkişaf etməyə başladı. 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi. Neft müqaviləsi gəlir gətirməyə başladı. Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu. Azərbaycan yeni neft strategiyasının baniləri Heydər Əliyev və İlham Əliyev bu fondu güclü iqtisadiyyat yaratmaq vasitəsi kimi qiymətləndirirdilər. 2003-cü ilin əvvəllərində fondda 730 milyon ABŞ dolları həcmində vəsait var idi. Ondan respublikanın iqtisadi və sosial rifahı naminə səmərəli istifadə etmək üçün xüsusi proqram hazırlanmışdı.

Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində ölkəyə böyük həcmdə valyuta daxil olur və qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün sənayenin digər sahələri də inkişaf etdirilir. Son illərdə Sumqayıt şəhərində və respublikanın digər regionlarında açılan yeni sənaye obyektlərinin işsizliyin aradan qaldırılmasında və qeyri-neft sektorunun inkişaf etdirilməsində böyük rolu var. Prezident İlham Əliyev tərəfindən tətbiq olunan regionların sosial-iqtisadi inkişafı proqramlarına uyğun olaraq regionlarda təsərrüfatın inkişaf etdirilməsi müasir texnologiyalar əsasında yerinə yetirilir, əhalinin sosial təminatının yaxşılaşdırılması üçün Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən bir çox uğurlu layihələr həyata keçirilir.

***T.P.Babayeva***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCAN İQTİSADİYYATINDA HEYDƏR ƏLİYEVİN ROLU

Hər bir xalqın tarixində qızıl hərflərlə yazılmış inkişaf mərhələsi vardır. Bizim də xalqımızın tarixində belə inkişaf mərhələləri vardır. Bu inkişaf mərhələlərində tarix bizə xalqımızın böyuk oglu, ümummilli lider Heyder Əliyevi bəxş etmişdir.

Müstəqillik dövr tariximizin şanlı səhifələrindən birinin yaradıcısı olan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi üçün xidmətləri sonsuzdur. Onun siyasi-iqtisadi, mədəni sahələri əhatə edən geniş fəaliyyəti xalqımız üçün böyük tövhə vermişdir. Bu fəaliyyət yalnız müstəqillik dövrünü əhatə etmir, o həmçinin 30 ildən artıq Sovet ittifaqı rəhbərlərindən biri kimi xalqının rifahı və inkişafı üçün əvəzsiz xidmət göstərmişdi. H.Əliyevin böyük müdriklik və uzaqgörəliklə apardığı daxili və xarici siyasət kursu, ona məxsus yüksək diplomatik məharət və peşəkarlıq ümumi rifahın keyfiyyət yüksəlişinə xidmət etmiş və Azərbaycana olan marağın və diqqətin artmasına səbəb olmuşdur. Azərbaycana rəhbərlik etdiyi müddətdə, xüsusilə müstəqillik dövründə bütün sahələri əhatə edən naliyyətlərimiz qısa zaman kəsiyində dövlətimizi bütün dünyaya tanıtdı. Müstəqilliyin əsas şərtlərindən biri möhkəm,stabil dövlətin yaradılması olduğu üçün onun bütün fəaliyyəti buna doğru istiqamətlənmişdi.

Dil və dövlətçiliyin, mədəniyyət və dövlətçiliyin sıx əlaqələrə malik olduğuna istinad edən H.Əliyev dövlətçiliyin inkişaf etdirilməsində bu amilləri ön plana çəkmişdi. Çünki milli mənsubiyyətin əsasında və milli mənafeyin qorunmasında bu amillər xüsusi önəm daşıyır. Buna görə də onun fəaliyyətində milli məsələ hər zaman mühüm rol oynamışdır. Mənəvi dəyərlərimizin qorunub saxlanmasında xüsusi xidmətləri olan və dövlətçilik hissini daima qəlbində yaşatmış ümummilli liderimiz H.Əliyev Azərbaycanı dünyada ən sürətlə inkişaf edən ölkələrdən birinə çevirmişdir.

Ümummilli lider H.Əliyevin fəaliyyəti nəticəsində bu gün Azərbaycan beynəlxalq münasibətlərin subyekti kimi bir çox cəhətdən dünyanın maraq dairəsindədir. Belə ki, regiondakı geosiyasi mövqeyi, təbii sərvətləri,investisiya mühitinin cazibədarlığı buna zəmin yaradır.Bu imkanlardan düzgün istifadə böyük siyasi təcrübə tələb edirdi. Bu təcrübəyə malik olmuş bir rəhbər kimi H.Əliyev məqsədyönlü fəaliyyət nəticəsində xalqın ümumi rifahının yüksəldilməsinə və yoxsulluğun sürətlə azaldılmasına nail olmuşdu.

Onun müstəqillik dövrümüzə təsadüf edən fəaliyyəti həm də siyasi baxımdan qarışıq bir tarixi mərhələyə təsadüf edir. 1990-cı il qanlı 20 yanvar hadisəsi, daha sonra mənfur qonşularımız ermənilər

tərəfindən başlanılan işğal siyasəti ölkədaxili qeyri-sabit vəziyyəti daha da dözülməz etmişdi. Ermənilər tərəfindən Azərbaycan torpaqlarının işğalının genişləndiyi bir dövrdə Azərbaycanın hərbi quruculuq işi olduqca aşağı səviyyədə idi. Nizami ordu yaradılmamışdı. Hərbi əməliyyat planları peşəkar hərbçilər tərəfindən deyil, diletantlar, həvəskarlar tərəfindən işlənib hazırlanırdı. Ordunun əsas hissəsi könüllülərdən ibarət olduğundan çox hallarda döyüşçülər nizami ordunun tələblərinə, nizamnamə qaydalarına əməl etmirdilər. Fərarilik və təxribat geniş miqyas almışdı. Müvafiq inzibati orqanlar buna qarşı heç bir tədbir görmürdü. Orduya rəhbərlik dözülməz halda idi. Belə vəziyyətdə torpaqların işğalı davam edirdi. Heç bir idarəçilik təcrübəsi olmayan, mitinq tribunasından hakimiyyətə gələn cəbhəçilər Azərbaycanı daha fəlakətli vəziyyətə saldılar. Belə bir məqamda, həm öz siyasi təcrübəsi və intellekti ilə xarici amillərin təsirini zəiflətməyə və neytrallaşdırmağa qadir olan, ölkədaxili ixtilafları və hərc-mərcliyi cilovlaya bilən qüdrətli dövlət xadimi, həm də cəmiyyətin inamını özünə qaytarmağı, burada milli-mənəvi birlik mühiti yaratmağı bacaran müdrik el ağsaqqalına ehtiyac vardı. Azərbaycan Respublikasını dağılmaqdan, dövlətçiliyi məhv olmaqdan, ölkəni etnik prinsiplərə əsasən parçalanmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən, mənəvi - psixoloji sarsıntıdan qurtarmaq üçün xalq öz xilaskarı Heydər Əliyevə müraciət etdi. Səbir kasası dolmuş xalq qətiyyətlə onun siyasi hakimiyyətə qayıtmasını tələb edirdi. Xalq yaranmış vəziyyətdən çıxış yolunu böyük təcrübəyə malik görkəmli dövlət və siyasi xadim, Azərbaycanın böyük oğlu Heydər Əliyevin şəxsində görürdü. Heydər Əliyev, məhz ağır böhran şəraitində bütün lazımi siyasi, ictimai və mənəvi keyfiyyətləri özündə birləşdirən bütöv bir şəxsiyyət kimi Azərbaycan xalqının qabağına çıxaraq bütün sahələr üzrə düşünülmüş məntiqi ardıcıllıqla gərgin fəaliyyətə başladı. Heydər Əliyev ağır vəziyyətdən çıxış yolunun ancaq danışıqlar yolu ilə, qarşılıqlı anlaşma vasitəsilə, sülh və barışıqla mümkün olacağını göstərdi. Azərbaycanın bütün vətənpərvər insanlarının hamısının birləşib bu ağır vəziyyətdən çıxmaq üçün çalışmaları təklifini irəli sürdü. O deyirdi: «Güc işlənməməlidir, bir daha silah işə salınmamalıdır. Mənim fikrim

budur və bu prinsipləri əsas tutaraq, mən bu vəziyyətdən çıxış prosesində iştirak edirəm».

Heydər Əliyevi fərqləndirən cəhətlərdən biri də ondan ibarət idi ki, o hadisələrə qiymət vermək üçün səbr və təmkinlə vəziyyətlə dərindən tanış olur, ictimaiyyətin fikrini öyrənir, qüvvələr nisbətini təhlil edir, ən əsası hadisənin törənmə səbəblərini araşdırır və qarşı tərəfdən olan şəxsləri, təşkilatçıları ilə bilavasitə görüşüb onların iddialarını, tələblərini öyrənir və obyektiv nəticə çıxardıqdan sonra əməli addım atırdı. Prezidenti düşündürən ən ümdə, ən ağır məsələlərdən biri erməni təcavüzü nəticəsində işğal edilmiş torpaqların geri qaytarılması, Qarabağ probleminin həll edilməsi idi. Bu məsələlərin həllində Prezident «sülhsevər mövqe tutaraq, bu vəzifəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk» - mövqeyini üstün tutacağını qeyd edirdi. Eyni zamanda əgər sülh yolunda addımlar nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli ordu yaradılması da əsas vəzifə kimi qarşıya qoyulurdu.

Görkəmli dövlət xadimi Heydər Əliyev andiçmə mərasimindəki nitqində Azərbaycanda dövlət quruculuğu sahəsində qarşıda duran vəzifələrdən danışaraq qeyd edirdi ki, yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Öz tarixindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən istifadə etməklə demokratik dövlət quruculuğu yolu ilə getməkdir. «Respublikanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır» - deyən prezident özünün dünya siyasətindəki görkəmli nüfuzuna, tanınmış diplomat və siyasi xadim kimi bacarığına əsaslanırdı.

Heydər Əliyev torpaq məsələsinin xalqımızın tarixində əsas amal olduğunu göstərdi. «Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, ulu babalarımız Vətən torpağının hər bir

qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını və övladlarını qurban verməkdən çəkinməmişdir».

Xalqımızın milli özünüdərk problemi öz mədəni mənəvi kökləri üzərində milli menitalitetinə uygun həyat tərzi qurmağı əks etdirir. Heydər Əliyev milli-mənəvi dəyərlərimizi birrəmz edərək real proseslərə formal surətdə əlavə etmək yox, milliliklə müasirliyin məzmun müstəvsində vəhdətinə nail olmaq prinsipindən çıxış edirdi. Elə buna görə də H.ƏIiyev Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması, sabitləşməsi kimi məsələlərə çox ciddi yanaşır, bütün bunları elmi faktlarla əsaslandırırdı. H.ƏIiyevin Azərbaycan dili ilə bağlı dilçilik görüşləri çoxcəhətlidir. Onun çıxışlarında yeri gəldikcə dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba, üslublar və sair yaxşı, özü də yerli-yerində əsaslandırılır. O, Azərbaycan dilinə xalqımızın əvəzsiz sərvəti, tarixi, mədəniyyəti, mədəni sərvəti kimi yanaşırdı.

Bu gün ümummilli liderimizin yolunu onun siyasi məktəbinin layiqli davamçısı, dünya miqyasında tanınmış siyasətçi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ləyaqətlə davam etdirir.2003-cü il oktyabrın 15-də tarixi bir seçim edən Azərbaycan xalqı demokratik və ədalətli seçkilərdə bu şərəfli missiyanı İ.Əliyevə həvalə etdi. Bununla da xalqımız sabitliyə, tərəqqiyə və sivil dünyaya inteqrasiyanın güclənməsinə tərəfdar olduğunu bir daha təsdiqlədi. Beləliklə Azərbaycan özünün demokratik prinsiplərə sədaqətini bütün dünyaya yenidən bəyan etdi. Xalqımız səriştəli dövlət xadimi kimi tanınan bir şəxsiyyətə - İlham Əliyevə səsverməklə ölkəmizin böyük tərəqqiyə aparan yolun – Heydər Əliyev yolunun davam etdirilməsinin çöhkəm əsasını qoydu.

***X.Z.Muxtarova***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# CƏNUBİ XƏZƏR HÖVZƏSİNDƏ STRUKTURLARIN FORMALAŞMASI VƏ İNKİŞAFINDA ÜMUMİ GEOTEKTONİK CƏHƏTLƏR

Məlumdur ki, aparılacaq axtarış-kəşfiyyat işlərinin müsbət nəticələnməsi, ərazidə perspektivli neft-qaz yataqlarının varlığının elmi əsaslandırılması üçün axtarış-kəşfiyyat məqsədi ilə tədqiq olunan rayonun geoloji inkişaf tarixi öyrənilməli, burada regionda müvafiq zaman kəsimində hansı tektonik hadisələrin inkişaf etməsi, bu hadisələrin neft-qazəmələgəlmə və toplanmaya necə təsir edə biləcəyi aydınlaşdırılmalıdır. Cənubi Xəzər çökəkliyi Kür dağlararası meqaçökəkliyinin davamıdır və bu baxımdan oxşar xüsusiyyətli bu qonşu ərazilərdə baş verən geoloji hadisələrin bu və ya başqa dərəcədə əlaqədar olması bir sıra məsələlərin aydınlaşdırılması üçün əsas hesab oluna bilər. Belə ki, Kür çökəkliyində formalaşmış Qoturdağ-Ayrantökən-Solaxay-Durandağ-Bəridaş-Şəkixan antiklinal qurşaqlarının davamı kimi Xəzər hövzəsindəki Hamamdağ-Qarasu-Səngi-Muğan-Ülfət-Aran-Daşlı-Səbayel xətti, uyğun olaraq Qalmaz-Xıdırlı-Bəndovan xəttinin davamı kimi ya Bəndovan-dəniz-Çigil-Yanan tava-Atəşgah-R.Behbudov-Muğan-dəniz-Midiya-Peyk ardıcıl strukturları və Kişik Hərəmi-Kürovdağ-Qarabağlı-Babazənən-Durovdağ-Xıllı-Neftçalanın davamı kimi Neftçala-dəniz-Qızılağac-dəniz-Kürdaşı-Araz-dəniz-Şərqi Şirvan qalxımlar qurşağının formalaşması və inkişafında ümumi cəhətlərin müəyyənləşdirilməsi buradakı tələ və yataqların da ümumi cəhətləri və perspektivliyini qiymətləndirməyə imkan vermiş olacaqdır.

Ümumiyyətlə, regionda bir hissəsi Cənubi Xəzər çökəkliyinin quru, digəri isə su hövzəsinə aid olan üç antiklinal xətt fərqləndirmək mümkündür. Bu qırışıqların formalaşmasının aşağıdakı səbəblərini fərqləndirmək olar: intensiv gömülmə nəticəsində dartılma qüvvələrinin hövzədibi qabıqda yaratdığı çat və qırılmalar üzərindəki palçıq vulkanları və qabığın nisbi bərk üst hissəsinin böyük qalınlığa malik gil təbəqələri üzərində intensiv enərək sürüşmə hərəkətləri ilə

əlaqədar baş verən toqquşmalar. Cənubi Xəzər hövzəsində antiklinal qalxımların inkişafı əsasən Pliosen dövründə daha intensiv xarakterli olmuş, ayrı-ayrı mərtəbələrdə müşahidə olunan strukturlar müxtəlif tektonik şərait və sürətlərdə baş vermişdir. Cənubi Xəzər hövzəsində neft-qaz, qaz-kondensat yataqlarının axtarış-kəşfiyyatı işləri zamanı buradakı strukturların morfologiyası, mürəkkəbləşmə dərəcəsi, qırılmalar və onların yaranma səbəb və tarixi, strukturları yaradan lay və süxurların kollektorluq və qoruyuculuq xüsusiyyətləri və s. onların tektonik inkişaf xüsusiyyətləri çərçivəsində tədqiq olunmalıdır. Cənubi Xəzər hövzəsində yeni yataqların axtarışı artıq aşkar olunmuş yataqların mövcud olduğu uyğun şəraitdə, onların formalaşma istiqamətində, strukturların yarandığı geotektonik şəraitin dəqiq öyrənilməsi, formalaşmış çökmə komplekslərinin tektonik təsirə məruz qalma xarakterinin müəyyən olunması üçün aparılan tədqiqatların nəticəsindən asılıdır.

***Х.З. Мухтарова***

*Азербайджанская государственная нефтяная академия*

## ВЫЯВЛЕНИЕ ЗАКОНОМЕРНОСТИ ФОРМИРОВАНИЯ ЛОВУШЕК В ГЛУБОКОПОГРУЖЕННЫХ ОТЛОЖЕНИЯХ ЮЖНО-КАСПИЙСКОЙ ВПАДИНЫ

Ловушки нефти и газа в глубокопогруженных отложениях Южно-Каспийской впадины формируются в процессе эволюции земной коры, отражая результаты стадий формирования осадочного чехла – литогенеза, диагенеза, катагенеза и гипергенеза. Среди множества факторов, активно влияющих не вещественный состав земной коры, активная роль принадлежит тектонике и естественно, режиму тектонических движений. В результате происходящих процессов формируются геологические тела различной геометрической формы, которые образуют ловушки нефти и газа. В природе существует множество примеров ловушек, которые формировались непосредственно под действием множество факторов. Изучение условий формирования ловушек, главных факторов, обусловливающих их образование и

размещение в земной коре, позволяет прогнозировать эти сложные и по форме, и по геометрическим данным, и по литологическому составу ловушки и выявлять ареалы их распространения. Нельзя не учитывать, что ловушки и стандартного, и не стандартного характера, наблюдаемые в глубокопогруженных отложениях, имеющие не малый интерес с точки-зрения поисков и разведки нефтяных и газовых месторождений, в результате многократных тектонических и других воздействий могут иметь более осложненную форму.

Результаты исследований показали, что западный шельф ЮКБ имеет ряд положительных характеристик с точки зрения формирования ловушек. Это, наличие тектонических факторов, неравномерная лавинная седиментация, разномасштабная ритмичность глин и песчаников в вертикальном направлении, выклинивание стратиграфических составляющих разреза ПТ в направлении восстания и погружения общей складчатости и др. Вместе с тем, обращает на себя внимание недостаточная изученность многих зон осадконакопления и характеристика углеводородной системы Каспийского шельфа, особенностей его геологического строения, что требует проведения комплексных исследований.

На многие вопросы по перспективам нефтегазоносности западного шельфа ЮКБ можно ответить, что проводя моделирование углеводородной системы и западного, и восточного борта ЮКБ, позволит обосновать формирование различных типов ловушек, в частности нестандартных.

***E.M.Cəfərova***
*Sumqayıt Dövlət Universiteti*

## MİLLİ NEFT STRATEGİYASI XALQIN RİFAHINA XİDMƏT EDİR

Milli neft strategiyası xalqın rifahına xidmət edir 1991-ci ildə dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan dövləti hərbi təcavüz, daxili çəkişmələr və iqtisadi çətinliklər ilə üzləşmişdir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra qısa müddət ərzində sabitlik bərpa olundu və ölkənin iqtisadi imkanlarının səfərbər olunması, dövlətin malik olduğu təbii sərvətlərinin istismarına xarici investisiyaların cəlb edilməsi məqsədi ilə cəsarətli siyasi addımlar atıldı. Bu baxımdan Azərbaycanın neft və qaz ehtiyatlarının genişmiqyaslı istismarına xarici investisiyaların cəlb edilməsində 1994-cü ilin sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında xarici neft şirkətləri ilə bağlanmış "Əsrin müqaviləsi" xüsusi yer tutur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış bu müqavilə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu strategiyanın gerçəkləşməsi və beynəlxalq neft şirkətləri ilə sazişlərin imzalanması sayəsində ölkənin neft ehtiyatlarının istismarına çoxmilyardlı xarici investisiyalar cəlb edildi. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi və eyni zamanda Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması bir daha nümayiş etdirildi.

Xəzərin Azərbaycan sektorunda neft və qaz ehtiyatlarının istismarı ildən ilə genişlənir və bunun nəticəsində Azərbaycan özünün enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir. Dünyanın enerji təminatında da ölkənin xüsusi çəkisi və strateji əhəmiyyəti yüksəlir. Eyni zamanda Şahdəniz yatağında qazın istismarının genişlənməsi ilə əlaqədar Azərbaycan özünün daxili tələbatını tam ödəməklə bərabər, bu mavi yanacaq növünün beynəlxalq bazarlara ixrac etmək imkanını əldə etmişdir. Qaz nəqliyyat infrastrukturunun, xüsusilə də Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin fəaliyyəti sayəsində Azərbaycan Qərbin mühüm qaz ixracatçısına və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilmişdir.

Milli Neft Strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və

ixracı ildən ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları sürətlə artmaqdadır. Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birincidir, əhəmiyyətli regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünya iqtisadi sisteminə inteqrasiya olunma nəticəsində neft gəlirlərinin idarə edilməsi sahəsində iqtisadiyyatda ən yaxşı təcrübələrin tətbiqinə yol açıldı. Bununla əlaqədar neft strategiyasının məntiqi davamı olaraq Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft Fondunun yaradılması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsi üçün əsaslı təminat quruldu .

Dövlətin artan maliyyə imkanları hesabına ölkədə mühüm investisiya, o cümlədən regional proqramların və infrastruktur layihələrin maliyyələşdirilməsinə şərait yaranmışdır. Son illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət proqramları və tədbirlərin icrası çərçivəsində ölkənin bütün bölgələrində və Bakı şəhərində müxtəlif infrastruktur layihələri həyata keçirilir, təhsil, sosial və digər obyektlərin inşası uğurla davam etdirilir. İnsanların həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması, sosial məsələlərin həlli, yoxsulluğun azaldılması istiqamətində mühüm işlər görülür, əhalinin pul gəlirləri artmaqdadır.

Ölkənin maliyyə potensialının artması nəticəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün əlverişli zəmin yaranmışdır. Bununla əlaqədar möhtərəm Prezident cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gün xüsusi diqqət yetirilir.

Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün

həyata keçirilən sosial yönümlü tədbirlərin mühüm tərkib hissəsidir. Artan neft gəlirləri hesabına ilk növbədə sosial siyasət sayəsində, o cümlədən az təminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də saysız tədbirlər həyata keçirilir və Dövlət Neft fondundan ilk vəsait məhz bu tədbirlərin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir neçə Sərəncam və Dövlət Proqramları qəbul edilmiş və bu qərarlara uyğun olaraq qaçqın və məcburi köçkünlər üçün Azərbaycanın müxtəlif ərazilərində zəruri infrastrukturu ilə birlikdə yaşayış qəsəbələri tikilərək, istifadəyə verilmişdir.

Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilən Azərbaycan Respublikasinin Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın reallaşması nəticəsində ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaranacaqdır. Bu proqramın ilk növbədə Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşmasına doğru atılmış strateji bir addımdır.

Milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanqıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə məhz "Əsrin müqaviləsi" təşkil edir. Bununla əlaqədar əminliklə demək olar ki, olduqca güclü olan bu təməl əsasında Azərbaycan iqtisadiyyatı bundan sonra daha sürətlə inkişaf edəcək və xalqımızın maddi-rifah halı ildən ilə daha da yaxşılaşacaqdır.

***N.M. Abdullayev***
*Sumqayıt Dövlət Universiteti*

## XX ƏSRİN 90-CI İLLƏRİNDƏ TÜRKİYƏNİN AZƏRBAYCANDA İQTİSADİ MARAQLARI

SSRİ-i dağıldıqdan sonra Azərbaycanda sənaye sahələrinin iflic vəziyyətə düşməsi, əksər sahələrdə məhsul istehsalının dayanması Türkiyə mallarına olan tələbatı yaratdı. Bu dövrdə Azərbaycanın sənaye sahələrinə Türkiyə sərmayəsinin cəlb edilməsi həm Azərbaycan, həm də Türkiyənin Azərbaycanda iqtisadi maraqlarının formalaşmasına gətirib çıxardı. Türkiyənin Azərbaycanda enerji siyasəti 1994-cü ilin sentyabrından sonra həyata keçməyə başlamışdır. Lakin "Əsrin müqaviləsi"ndə Türkiyənin 1,75% pay alması Türkiyədə müxalifət düşərgəsində mənfi hal kimi dəyərləndirildi ki, bunun da nəticəsi olaraq 1995-cü ilin aprelində Türkiyənin baş naziri T.Çillərin Azərbaycana səfəri zamanı Beynəlxalq Neft Konsorsiumunda 1,75%-dən 6,75%-ə qədər Türkiyənin payının artırılması haqqında saziş imzalandı. Bundan sonra Türkiyə bölgədə Şərq ilə Qərb arasında enerji dəhlizi olmaq istiqamətində bəlkə də ən böyük imkan əldə etdi.

Türkiyənin regionun mühüm iqtisadi layihələrini özündə cəmləşdirən Şərq-Qərb enerji dəhlizində də öz strateji maraqları mövcuddur. Təsadüfi deyil ki, 1995-ci il dekabrın 7-də S.Dəmirəl Azərbaycana səfəri zamanı Xəzər neftinin bir hissəsinin Türkiyə üzərindən Aralıq dənizi sahilinə nəql edilməsi və buradan da dünya bazarlarına göndərilməsi barədə layihənin əhəmiyyətindən bəhs etmişdir ki, bu da özünü 1995-ci il dekabrın 8-də Türkiyə və Azərbaycan prezidentlərinin imzaladıqları birgə bəyanatda daha geniş şəkildə əks etdirmişdir. Bakı neftinin dünya bazarlarına çatdırılması üçün həm strateji və iqtisadi, həm də təhlükəsizlik baxımından Bakı-Ceyhan əsas ixrac boru xəttindən istifadə edilməsi daha məqsədəuyğun hesab edilirdi. Lakin bu dövrdə Xəzər ətrafında baş verən geosiyasi proseslər ixrac kəmərinin reallaşmasında bir çox çətinlikləri üzə çıxardı. Bütün bunlara baxmayaraq, 90-cı illərin axırlarına yaxın regionun geosiyasi prosesləri Türkiyənin

mənafeyinin təmin edilməsi istiqamətində cərəyan etməyə başlamışdı. Təsadüfi deyil ki, 1999-cu il oktyabrın 31-də H.Əliyevin Türkiyəyə səfəri zamanı S.Dəmirəllə imzaladığı birgə bəyanatda Qazaxıstan neftinin Aktau-Bakı-Tbilisi-Ceyhan marşrutu ilə nəqlinin təmin edilməsindən bəhs olunurdu. Göründüyü kimi XX əsrin sonlarına yaxın Türkiyənin Xəzərin enerjisi ilə bağlı strategiyası yüksək formalaşma mərhələsində idi. Türkiyə prezidenti Əhməd Necdət Sezərin 2002-ci il sentyabrın 18-də Azərbaycanda Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində Xəzəryanı ölkələrin neft və qaz ehtiyatlarının dünya bazarlarına sabit şəkildə, təhlükəsiz çatdırılmasının təmin olunmasından bəhs etməsi bunu bir daha sübut edirdi.

Beləliklə, Türkiyənin Azərbaycanda iqtisadi strategiyasında bir sıra mühüm amillər özünü göstərir ki, bunları da aşağıdakı kimi qruplaşdırmaq olar: Azərbaycan türk şirkətlərinin qazanc əldə etməsi üçün ucuz xammal və işçi qüvvəsinin olması baxımından əlverişli iqtisdi məkandır; Türkiyənin Orta Asiya ilə iqtisadi əlaqələrində əsas tranzit ölkədir; Qafqazda Türkiyəni Rusiya və İran təzyiqindən qoruyan ölkədir və nəhayət, Türkiyənin ixracat məhsulları üçün mühüm satış bazarıdır.

***Prof. Ş.D.Səlimov***
*Sumqayıt Dövlət Universiteti*

## BEYNƏLXALQ NEFT ŞİRKƏTLƏRİ İLƏ MÜQAVİLƏLƏRİN İMZALANMASI

Azərbaycanın ən mühüm sərvətlərindən biri olan neft hələ qədim zamanlardan ayrı-ayrı dövlətlərin diqqət mərkəzində olmuş və tarixən onun uğrunda mübarizə və müharibələr olmuşdur.

Rus və Sovet imperiyalarının işğallarına məruz qalan Azərbaycan uzun müddət öz təbii sərvətlərindən istifadədən məhrum olmuşdur. Xüsusilə də, I və II Dünya müharibələri zamanı Azərbaycan nefti döyüşən dövlətlərin mübarizəsində mühüm yer tutmuş, hətta neft amili qələbənin nəticələrinə mühüm təsir

göstərmişdir. II Dünya mharibəsinin nəticələrində Azərbaycan neftinin əvəz edilməz rolu olmuş, hətta qələbənin təmin edilməsində xüsusi rola malik olmuşdur.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra onun əbədi və əzəli sərvəti olan neftinə də sahib oldu. Yenicə müstəqilliyini əldə etmiş Azərbaycanın nefti uğrunda mübarizə yeni mərhələyə qədəm qoymuşdu. Zəngin neft ehtiyatlarına malik olan Azərbaycan uğrunda mübarizədə Qərb dövlətləri, eləcə də ABŞ, digər tərəfdən isə Rusiya mübarizə aparırdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa ölkələri və ABŞ-la münasibətlərin qurulması və Azərbaycan neftindən Azərbaycan xalqının maraqlarına uyğun olaraq istifadə olunması məqsədilə ciddi tədbirlər görmüşdür.

1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin bölüşdürülməsi haqqında ARDNŞ ilə ABŞ, Böyük Britaniya, Norvec, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və Yunanıstanın iri neft şirkətləri arasında 30 il müddətinə saziş imzalandı.

Əsrin müqaviləsinin imzalanması bir çox xarici qüvvələrin maraqlarına cavabdehdir. Bu qüvvələrdən biri də Rusiya Federasiyası idi. Rusiya Federasiyasının əsassız iddialarına görə güya Xəzər dənizi xəzəryani ölkələr üçün ümumidir və onu milli sektorlara bölmək olmaz. Əslində isə məqsəd Azərbaycanın xarici dövlətlərlə bağladığı müqavilənin icrasını pozmaqdan ibarətdir. Bu zaman Rusiya "Əsrin müqaviləsi"nin bağlanması ilə əlaqədar olaraq heç bir hüquqi əsası olmayan notalar və bəyanatlar verdi. Lakin bütün bu maneələrə baxmayaraq Heydər Əliyevin gördüyü ciddi tədbirlərin nəticəsi olaraq dünyanın aparıcı ölkələri və onlara məxsus olan iri neft şirkətləri ilə müqavilənin bağlanmasına nail olundu və xarici ölkələrdən neft sənayesinə sərmayə qoyuluşunun təmin edilməsi üçün təminat yaradıldı.

"Əsrin müqaviləsi"nin ardınca ayrı-ayrı dövlətlərlə Azərbaycan neftinin istehsalına dair müqavilələrin imzalanması "Əsrin müqaviləsi"ndən sonrakı dövrdə də davam edirdi. Xəzərin "Qarabağ" strukturunda və ona bitişik ərazilərdə kəşfiyyatın aparılması, yataqların işlədilməsi və çıxarılan neftin bölüşdürülməsi

haqqında Rusiya, ABŞ və İtaliya şirkətləri ilə 1995-ci il noyabrın 10-da yeni saziş imzalandı.

Xəzərin "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında ARDNŞ ilə, Böyk Britaniya, Norvec, Türkiyə, Fransa, Rusiya və İranın neft şirkətləri ilə 1996-cı ilin iyunun 4-də müqavilə imzalandı.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə, Rusiya, İran, Səudiyyə Ərəbistanı, Yaponiya və dünyanın digər aparıcı dövlətləri və şirkətləri ilə Azərbaycan neftinin istehsalına dair bir çox müqavilələr imzalanmışdır.

1994-cü ildən 2001-ci ilə qədər olan dövr ərzində ARDNŞ, dünyanın 14 ölkəsini təmsil edən 32 neft şirkəti ilə 21 müqavilə imzalanmışdır. Həmin müqavilələrdə Azərbaycan xalqını maraqları həmişə ön planda olmuşdur.

***S.Q. Məhərrəmov***
*Sumqayıt Dövlət Universiteti*

## ƏSRİN MÜQAVİLƏSİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

Əsrin müqaviləsi 1994-cü-il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda Azəri ,Çıraq yataqlarının dərinlikdə yerləşən hissəsinin birlikdə işlənməsi və hasil olunan neftin pay şəkilində bölüşdürülməsi haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmışdır.Təxminən 400 səhifə və 4 dildə hazirlanmış müqavilə öz tarixi siyasi beynəlxalq əhəmiyyətinə görə Əsrin müqaviləsi adını alıb.Əsrin müqaviləsində 8 ölkənin 13 ən məhşur neft şirkəti iştirak edib. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına Bakı-Tiflis-Ceyhan əsas neft ixrac və Bakı-Tiflis-Ərzurum qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi. Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi və bu kəmərlərlə neftin və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi idi. Xəzər dənizi ilə Aralıq dənizini

birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi Azərbaycan, Gürcüstan, Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verildi.

Ölkənin maliyyə potensialının artması nəticəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün əlverişli zəmin yaranıb. Bununla əlaqədar Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gün xüsusi diqqət yetirilir. Bu məqsədlə artan neft gəlirləri hesabına ölkədəmühüm infrastruktur və sosialyönümlü layihələrin maliyyələşdirilməsi həyata keçirilir.

Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən sosialyönümlü tədbirlərin mühüm tərkib hissəsidir. Neftdən əldə edilən gəlirlər hesabına bu gün ölkənin kadr potensialının artırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri kimi, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın reallaşması nəticəsində ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaranıb.

Bu proqramın, ilk növbədə neft gəlirləri hesabına maliyyələşdirilməsi “qara qızılın insan kapitalına çevrilməsi” ideyasının reallaşmasına doğru atılmış strateji bir addımdır.Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Əsrin müqaviləsi layihəsi Sovet hakimiyyətinin dərin burulğanindan yenicə xilas olmuş Azərbaycanin iqtisadi ,mədəni,həyatinda mühüm rol oynadi.

Əminliklə qeyd edə bilərik ki Azərbaycan əhalisinin rifahi daha da yüksələcək və beynəlxalq arenada öz sözünü sonunadək deyəcəkdir.

***A.H.Əliyeva***
*Sumqayıt Dövlət Universiteti*

## " ƏSRİN MÜQAVİLƏSİ "NİN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU

Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı.
"Əsrin müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustondakı son mərhələləri xüsusilə ağır keçdi. Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafeyinə uyğun hazırlandı.

"Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı.

"Əsrin müqaviləsi" nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta sabiq prezident Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olur və xalqa fayda verir. Bu "əsas ixrac neft kəməri"nin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da böyükdür. Belə ki, bu neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının

əlaqələrinin yenidən qurulmasına təkan vermiş, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb olmuşdur.

***X.Hüseynov***
*Naxçıvan Dövlət Universiteti*

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANIN UĞURLU NEFT STRATEGİYASI VƏ ƏSRİN MÜQAVİLƏSİ

Sentyabrın 20-si Azərbaycanda "Əsrin müqaviləsi"nin imzalanmasının 20-ci ildönümü tamam olur. Məlum olduğu kimi, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox ciddi çətinliklərlə üzləşmişdi. Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmasından sonra bu çətinliklər aradan qalxdı və Azərbaycanın başının üstündən təhlükə sovuşdu. Ölkəmizdə siyasi sabitlik bərqərar oldu, iri miqyaslı iqtisadi islahatlara başlanıldı. Həmin dövrdə respublikamızın qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri də məhz neft və qaz hasilatının artırılması idi. Ölkənin maliyyə vəsaitinin məhdudluğu, neft və qaz sənayesinin müasir dünya texnologiyalarından geri qalması xarici neft şirkətlərini bu sahəyə sərmayə qoyuluşuna cəlb etmək zərurətini meydana çıxarmışdı. Lakin ölkədə baş verən daxili proseslər - separatçılıq niyyətləri, hüquqi və inzibati özbaşınalıqlar, eləcə də, Ermənistanın ərazilərimizə təcavüzü xarici ölkələrin neft şirkətlərini ciddi narahat etdiyindən, onlar Azərbaycan neft sənayesinə sərmayə qoymaqdan çəkinirdilər. Heç bir əcnəbi sərmayəçi Azərbaycana investisiya qoymağa ürək etmirdi, onlarda yatırdıqları pullara təminat verilib-verilməyəcəyi barədə tərəddüdlər var idi.

Artıq Azərbaycanın öz müstəqilliyini qoruyub saxlamaq və müstəqil iqtisadi siyasət yeritmək üçün lazım olan iqtisadi və hərbi güc qədər ağıl və zəkaya, cəsarət və iradəyə də ehtiyacı var idi. Müasir Azərbaycanın iqtisadi inkişafında, onun dünya müstəvisində öz sözünü deyə biləcək bir güc əldə etməsində mühüm rola malik Əsrin müqaviləsini reallaşdırmaq bu baxımdan çox böyük cəsarət, təcrübə və qətiyyət tələb edirdi. O dövrdə bütün təzyiqlərə

baxmayaraq, reallaşdırılan bu böyük layihənin gələcəyini ulu öndər Heydər Əliyev hamıdan yaxşı görür, onun reallaşdırılması üçün mühüm tədbirlər həyata keçirirdi. Həmin dövrdə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və uğurla həyata keçirilməyə başlandı. Bu, Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı idi.

Heydər Əliyevin tapşırığı ilə xarici neft şirkətlərini Azərbaycanın neft sənayesinə birgə işə cəlb etmək üçün müxtəlif səviyyələrdə danışıqlar aparılmağa başlandı. Ən vacib görüşlərdən biri isə Ulu öndərin birbaşa təşəbbüsü və iştirakı ilə 1993-cü il avqust ayının 13-də dünyanın aparıcı neft şirkətlərinin nümayəndələri ilə Bakı şəhərində keçirildi. Həmin görüşdə xarici investorlarda Azərbaycanla bağlı olan inamsızlıq sindromu sındırıldı və neft sənayesinə sərmayə qoyuluşu üçün dərin inam yarandı. Tarixi gerçəkliklər sübut etdi ki, Ulu öndər Heydər Əliyevə olan inam və dərin etibar, Onun şəxsiyyətinə hörmət, ehtiram bütün dövlətlərin ən nəhəng şirkətlərinin Azərbaycanda çalışması üçün əsl təminat idi.

Ümummilli lider bu görüşdən bir qədər sonra 1994-cü il fevralın 4-də "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Sərəncam imzaladı. Bu sənəd respublikamızın dəniz neft və qaz yataqlarının kəşfində və işlənməsində xarici neft şirkətlərinin iştirakına dair bütün detalları özündə əks etdirirdi və sərmayəçilərin neft sənayesində iştirakına geniş şərait yaratdı.

1994-cü il iyulun 21-də Azərbaycan Dövlət Neft Şirkətinin Danışıqlar aparan nümayəndə heyəti Qərb şirkətlərinin dəvəti ilə ABŞ-ın Hyustan şəhərinə gedərək müqaviləyə dair danışıqların 45 günlük son mərhələsini başa çatdırdı.

Bundan sonra dünyanın aparıcı xarici neft şirkətlərinin - "AMOKO", "Britiş Petroleum", "Statoyl", "Pennzoyl", "Remko", "Yunokal", "Mak Dermott", "Türk Neft Şirkəti"nin Azərbaycan hökuməti ilə səmərəli və konkret nəticələrə səbəb olan danışıqları intensivləşdi. Artıq xarici neft kompaniyaları Xəzərin Azərbaycana məxsus "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının kəşfi, həmçinin, işlənməsi ilə əlaqədar öz təkliflərini və investisiya proqramlarını

hazırlamağa başladılar. Xarici dövlətlər dünyanın neft möcüzəsi olan Azərbaycanla uzunmüddətli sazişin imzalanmasına can atırdılar.

XX əsrin sonlarında Müstəqil Azərbaycanımızın həyatında xalqımızın ümummilli lideri Heydər Əliyevin başçılığı və uzaqgörənliyi nəticəsində öz miqyasına və əhəmiyyətinə görə analoqu olmayan tarixi bir hadisə baş verdi.

1994-cü il sentyabrın 14-də imzalanan "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində" Fərman artıq beynəlxalq sazişin imzalanmasının qətiləşməsi demək idi. Nəhayət tarixi gün gəlib çatdı.

1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında dünyanın 6 ölkəsinin (ABŞ, Ingiltərə, Norveç, Türkiyə, Rusiya və Azərbaycan) 11 ən nüfuzlu neft şirkətinin iştirakı ilə tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş neft müqaviləsi imzalandı. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda yeni neft strategiyasının əsası qoyuldu. "Əsrin müqaviləsi" adlanan müqavilə Azərbaycanın Xəzər dənizi sektorunda üç yatağın "Azəri", "Çıraq", və "Günəşli" yataqlarının birgə istifadə olunmasını nəzərdə tutur.

**_M.Rzayev_**
*Naxçıvan Dövlət Universiteti*

## AZƏRBAYCANIN NEFT STRATEGİYASI YENİ DİPLOMATİYANIN VƏ REGİONAL İNKİŞAFIN MÜHÜM AMİLİDİR

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyası Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrdə sürətli inkişaf yolunda olan ölkəyə çevrilməsi, beynəlxalq aləmdə nüfuz və mövqelərini möhkəmləndirməsi, dövlətimizin milli təhlükəsizlik maraqlarının yüksək səviyyədə təmin edilməsi baxımından müstəsna rol oynamışdır. Regionun sosial-iqtisadi yüksəlişinə, transmilli enerji və kommunikasiya layihələrinin gerçəkləşməsinə real zəmin yaratmış "Əsrin müqaviləsi"nin imzalanması ilə əsası qoyulmuş bu uğurlu strategiya

Azərbaycanın müasir tarixinin ən şərəfli və ən parlaq səhifələrindən birini təşkil edir.

Heydər Əliyev 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış anlaşmanı dünyanın bir nömrəli hadisəsinə çevirə bildi. Bu özündə həm iqtisadi, həm də siyasi amilləri birləşdirən bir hadisə idi. Hamıya məlumdur ki, bu müqavilə yalnız iqtisadi məzmun daşımır və ümummilli liderimiz "Əsrin müqaviləsi"ni həyata keçirməklə bütün dünyada Azərbaycanın perspektivlərinin təsdiqinə nail oldu. Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyevin təbirincə desək, "Müasir dünyada neft məqsəd deyildir, o, yalnız həm iqtisadi, həm də siyasi səciyyəli qlobal problemlərin həlli üçün bir vasitədir." Ümummilli liderimiz məhz bu vasitədən istifadə edərək Azərbaycanı asılı yox, öz istəyini diqtə edə bilən ölkələrdən birinə çevirdi. Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanması mərasimində demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha sübut etdiririk ".

2006-cı il mayın 28-də "Əsrin müqaviləsi" çərçivəsində daha bir ciddi uğura imza atılmış, Heydər Əliyevin adını daçıyan Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəmərinə vurulan xam neftin Ceyhan terminalına çatması ilə neft strategiyasının həyata keçirilməsində yeni mərhələ başlanmışdır. Bu hadisə azərbaycanın müstəqil dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu bir daha təsdiqləmişdir. Təbii ki, hər bir sərvətdən, o cümlədən neftdən xalqın və dövlətin mənafeyi naminə səmərəli istifadə etmək uzun müddətli məqsədlərə hesablanmış praqmatik siyasət yeridilməsini zərurətə çevirir. Əks halda, neftin zənginliyi dövlətlərə xoşbəxtlik deyil, yalnız arzuolunmaz, mürəkkəb problemlər doğura bilər. Məlumdur ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Xəzər dənizində iqtisadi və strateji maraqlarını təmin etmək, təbii sərvətlərindən səmərəli şəkildə istifadə etmək baxımından ciddi problemlərlə qarşılaşmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkə daxilində möhkəm təməllərə əsaslanan siyasi sabitliyin bərqərar

olunması, qanunçuluğun gücləndirilməsi Azərbaycanın yeni neft strategiyasının işlənib hazırlanması və gerçəkləşdirilməsinə əsaslı zəmin formalaşdırmışdır. Ümummilli lider iqtisadi inkişafda yüksək dinamizmin əldə olunmasının ümdə şərti kimi məhz milli maraqlara söykənən yeni neft diplomatiyasına üstünlük vermişdir. Heydər Əliyev Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi üçün ölkənin malik olduğu zəngin təbii ehtiyatlardan səmərəli istifadə edilməsini son dərəcə vacib saymış, yeni neft strategiyasının işlənib hazırlanması və uğurla həyata keçirilməsi üçün əzmlə çalışmışdır.

Diplomatiya sahəsində zəngin təcrübəyə malik olan, cənab İlham Əliyevin 1994-cü ilin aprelində ARDNŞ-in beynəlxalq əlaqələr üzrə vitse-prezidenti təyin edilməsi də xalq və dövlət naminə düzgün seçim olmaqla, ümummilli liderimizin Qərb şirkətləri ilə aparılacaq danışıqlara necə böyük əhəmiyyət verməsinin əyani göstəricisi idi. İlham Əliyev bu vəzifəyə təyin olunanda, nəinki neft sektoru, ümumiyyətlə, Azərbaycanın perspektiv inkişaf proqramı müəyyən təhlükə ilə üzləşmişdi. Neft sənayesi ilə yanaşı, ölkəni dirçəltməyin yeganə yolu bu sektora xarici sərmayənin cəlb edilməsi idi. Artıq bu istiqamətdə böyük problemlər yaranmışdı. Cəbhə bölgəsində atəşkəs rejimininkövrək olduğu, dövlət idarəetmə mexanizmlərinin hələ tam formalaşmadığı, bəzi qonşu dövlətlərlə münasibətlərdə ciddi psixoloji-siyasi gərginliyin hökm sürdüyü, Xəzərin hüquqi statusu ilə bağlı mübahisələrin kəskinləşdiyi bir vaxtda "Əsrin müqaviləsi"nin imzalanması bir çoxlarına əfsanə kimi görünürdü. Heydər Əliyev Qərb şirkətlərinin Xəzərlə bağlı hansısa layihənin gerçəkləşməsində iştirakının təkcə iqtisadi deyil, həm də strateji-siyasi məsələ kimi nəzərdən keçirirdi. Azərbaycana kənar təzyiqlərin getdikcə artması fonunda bu danışıqları davam etdirmək ölkə iqtidarından ciddi siyasi iradə, əzmkarlıq tələb edirdi. Lakin prinsipial xarakter və qətiyyətə malik ümummilli lider Heydər Əliyev kənar maneələri mətinliklə dəf edərək, Qərbin aparıcı şirkətlərini bu müqavilənin perspektivinə inandıra bildi. Nəhayət, 1994-cü ilin 20 sentyabrında Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə müasir tariximizə "Əsrin müqaviləsi" adı altında daxil olan neft kontraktının təntənəli imzalanma mərasimi keçirildi. Bununla da Heydər Əliyev o dövrün

böhranlı sosial-iqtisadi şəraitində növbəti dəfə böyük siyasi iradə, dəqiq iqtisadi hesablama və müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft strategiyasını irəli sürdü. O, deyirdi: *"Azərbaycan dövləti 1994-cü ildən özünün yeni neft strategiyasını həyata keçirməyə başlayır. Bu strategiyanın əsas mənası, mahiyyəti və prinsipləri ölkənin təbii sərvətlərindən, o cümlədən neft və qaz yataqlarından Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".*

**_Dos. H.A.Alıyev_**
*Sumqayıt Dövlət Universitet*

## "ƏSRİN MÜQAVİLƏSİ" HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ MÜHÜM TƏRKİB HİSSƏSİ KİMİ

Respublikamız Avropa ilə Asiyanın kəsişməsində, strateji cəhətdən olduqca əhəmiyyətli bir regionda yerləşir. Zəngin təbii ehtiyatlara malik olan Azərbaycan, həm də tranzit ölkə kimi regional və beynəlxalq miqyasda mühüm önəm kəsb edir. Bu səbəbdən ölkəmizin dayanıqlı iqtisadi inkişafını təmin etmək üçün bu coğrafi üstünlüklərdən maksimum şəkildə istifadəyə nail olmaq lazımdır. Ölkəmizin təbii resurs potensialı və tranzit potensialının bir-birini tamamlamasının ən yaxşı nümunəsi olan layihələrdən başlıcası ümummilli liderimiz Heydər Əliyevin memarı olduğu və ölkə iqtisadiyyatının bütün önəmli sahələrində inkişafın əsasını qoyan, 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi"dir ki, onun imzalanması ilə respublikanın iqtisadi və tranzit-kommunikasiya əhəmiyyəti xeyli dərəcədə artmışdır."Əsrin müqaviləsi"ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət -Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, TPAO, Penzoyl, İtoçu, Remko, Delta iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı. Məlum olduğu kimi, Heydər Əliyevin uğurlu Neft strategiyasının əsasını təşkil edən "Əsrin müqaviləsi"

çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri inşa edilmişdir. Ümumi uzunluğu 1767 km. olan kəmərin 443 km-i Azərbaycanın,248 km-i Gürcüstanın, 1076 km-i isə Türkiyənin ərazisindən keçir. BTC layihəsinin realizə edilməsi ölkəmizin həm iqtisadi, həm də siyasi maraqlarının təmin edilməsi aspektindən olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycan və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarılması- BTC layihəsinin həyata keçirilməsi olduqca həssas və əlverişli mövqedə yerləşən respublikamızın öz təbii-resurs potensialından maksimum şəkildə istifadəyə nail olması, xüsusən zəngin neft və qaz ehtiyatlarını dünya ölkələrinə nəql etməklə enerji təminatı və təhlükəsizliyi sahəsində mühüm faktora çevrilməsinə ciddi təsir etmişdir.

Dünya ölkələri ilə ikitərəfli və çoxşaxəli münasibətlərin qurulması-BTC boru kəməri layihəsinin həyata keçirilməsi ölkəmizi Avropa ölkələrinin karbohidrogen ehtiyatlarına olan tələbatlarının ödənməsində əsas iştirakçılardan biri çevirməklə yanaşı, həm də həmin ölkələrlə uzunmüddətli perspektivdə geniş və hərtərəfli əlaqələr qurulması üçün böyük imkanlar yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin qətiyyəti, apardığı uğurlu neft diplomatiyasının nəticəsi olan “Əsrin müqaviləsi” dünyanın bir sıra aparıcı dövlətlərini, transmilli enerji şirkətlərini respublikamıza cəlb edilməsində və buraya investisiyalar yatırmasında katalizator funksiyası daşımışdır. Bu qlobal əhəmiyyətli sazişin imzalanması neft sənayemizdə əsaslı infrasturuktur dəyişikliklərinin həyata keçirilməsinə, o cümlədən onun keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına rəvac vermişdir.

Məsələyə daha geniş aspektdən baxsaq, aydın olur ki, “Əsrin müqaviləsi” ölkəmizin tranzit potensialının realizasiyası və bilavasitə ölkə iqtisadiyyatının dayanıqlı inkişaf trendinin əldə olunması istiqamətində həyata keçirilmiş silsilə layihələrin ilkin və təkanverici mərhələsi kimi olduqca əhəmiyyətlidir. Bu müqavilənin imzalanması ilə respublikamızın beynəxalq əməkdaşlığa cəlb edilməsi prosesi

daha da sürətləndi və ölkəmiz artıq dünyada etibarlı enerji təminatçısı kimi tanınmağa başladı. Bunun nəticəsi olaraq, ölkəmiz Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi olan TRACECA, NABUCCO, Şimal-Cənub nəqliyyat dəhlizi və bunun kimi bir neçə qlobal əhəmiyyətli regional layihələrin əsas iştirakçısına çevrildi.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olur ki, "Əsrin müqaviləsi"ni sadəcə bir neft sazişi kimi qəbul etmək düzgün deyil. Bu müqavilə yaxın və uzaq gələcəyə hesablanmış məqsədyönlü siyasətinin dayaq sütunlarından biri olmaqla, imzalandığı mürəkkəb tarixi zaman kəsiyində müstəqilliyimizin qarantına çevrilmişdir. Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsinə Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran,Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRACECA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

***А.Г.Асланов***
*Сумгайытский государственный университет*

# ЭКОЛОГИЧЕСКАЯ ПОЛИТИКА ГОСУДАРСТВЕННОЙ НЕФТЯНОЙ КОМПАНИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Одним из важнейших аспектов деятельности крупнейших нефтяных компаний мира является экологическая политика. Она включает тактику и стратегию экологических мероприятий в нефтегазовой промышленности, систему экологического аудита и экологического менеджмента, взаимодействие всех структур экологических служб внутри компании с целью исключить возможность экологических катастроф. Экологические программы, реализуемые Государственной нефтяной компанией Азербайджана, строятся

на специфике местных условий нефтедобычи. В первую очередь, добыча нефти по принципу нулевого сброса: добывая, не загрязняй.

В наследство от советского прошлого Азербайджану достались земли Абшеронского полуострова, изрядно загрязненные нефтью и нефтепродуктами. Свыше 30 тыс. гектаров земли, из которых 15 тыс. га находится на балансе ГНКАР, или иной степени загрязнено нефтью, нефтепродуктами и отходами ее переработки. Более 7400 га. сельскохозяйственных угодий, загрязненных разливами нефти в результате ее добычи и транспортировка, а также при авариях, стало непригодно для выращивания растительных культур. В результате более чем полуторавековой нефтегазодобычи тысячи гектаров так называемых нефтеносных районов Большого Баку загрязнены мазутом.

В реализации экологических программ, бюджет которых составляет порядка двух миллиардов долларов, ГНКАР сотрудничает с местными компаниями, выигравшими тендер, и зарубежными партнерами. До 2010-го года согласно Комплексному плану мероприятий по оздоровлению экологической ситуации в республике в 2006-2010 гг., утвержденному президентом страны, ГНКАР очистила порядка 3200 га нефтезагрязненных абшеронских земель.Для этого была составлена экогогическая карта участков, закуплено современное оборудование, разработаны новые проекты, к участию в которых были подключены международные финансовые структуры.

На очистку нефтезагрязненных территорий Абшеронского полуострова привлекаются и средства международных организаций. Так, кроме старых и надежных зарубежных партнеров (BP, Statoil) у ГНКАР появились, новые - канадские, американские, германские и японские фирмы, специализирующиеся на нефтяных разработках. Так, например, для реализации масштабного проекта по очистке загрязненных нефтью территорий Абшеронского полуострова Всемирным Банком была открыта кредитная линия в объеме

100 млн. долларов. На эти средства была приобретена вся специальная техника для очистки земель, выбраны оптимальные методы диагностирования. Согласно проекту работы по полной реабилитации одного из самых загрязненных участков Биби-Эйбат планируется завершить в кратчайшие сроки.

В рамках проекта «Подготовка стратегии по очистке Абшеронского полуострова и рекультивации, загрязненных нефтью земель», в некоторых пригородных поселках Баку сооружены стационарные и передвижные установки, каждая из которых способна очищать до 150 кубометров земли ежесуточно. На рекультивированных землях высажены десятки тысяч саженцев деревьев различных пород. В заключение следут отметить, что средства полученные от реализации «контракта века» дали возможность ГНКАР и правительству страны разработать и осуществить ряд экологических программ и мероприятий по очистке акватории Бакинской бухты и земель Абшеронского полуострова, загрязненных ранее нефтью и нефтепродуктами и улучшить экологическую обстановку в республике в целом.

***A.M.Həmidova, G.S.Əhmədova***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCANIN NEFT STRATEGİYASI

Azərbaycan siyasi mustəqillik əldə etdiyi andan etibarən muəyyən iqtisadi və geosiyasi münasibətlər arenasına cəlb edildi. Azərbaycanın neft ehtiyatlarına malik olması və əlbəttəki Avropanın və dünyanın digər regionlarının satiş bazarlarına çıxışın obyektiv zərurəti buna zəmin yaradırdı. O, dövrün əsas xüsusiyyəti özünü Azərbaycanın xarici iqtisadi əlaqələrində investisiya siyasətinin formalaşmasında biruzə verir. Bu isə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının obyektiv prosesi hesab edilir. Beynəlxalq təşkilatların iştirakı ilə Azərbaycan tərəfindən siyasi iqtisadi strategiya proqramlarını işlənməsi, tətbiq edilməsi və

reallaşması prosesləri həyata kecirilir. İqtisadiyyatin yenidən qurulması və özəlləşdirilməsi prosesləri də uğurla davam etdirilir. Bütövlükdə xarici investisiyaların muxtəlif formalarına cəlb edilməsi üçün ölkə iqtisadiyyatında əlverisli mühit yaranır. Bütün bunlar makro iqtisadi stabilliyin xarici tərəfdaşlarin istirakı ilə iqtidasi islahatların aparılması üçün artuq lazımi sərait yaradılmasıdır.

Azərbaycan neftinin Ceyhan limanından nəql edilməsi ideasi ilk dəfə 1992ci ildə səslənmiş və bu ideya Azərbaycanın dünya iqtiasadi sisteminə tarixən daxil olması və republikanın iqtisadi inkişaf və strategiyasının bir hissəsi hesab edilmişdir. Neft strategiyasının əvvəlindən onun marşurutu H.Əliyev tərəfindən müəyyən edillmisdir. Bu sahədə atılmış cəsarətli addımlar yalnız Gürcüstan və Türkiyə üçün deyil özlərinin neft və qaz rezurslarının mənimsənilməsində digər Xəzəryanı ökələr üçün stimul oldu və eyni zamanda bu ölkələrin neft qaz yataqlarının işlənilməsində xarici sirkətlərin maraqlarının yüksəlməsinə səbəb oldu .

ABŞ-nın Energetika Nazirliyinin qiymətləndirilməsinə əsasən Xəzər dənizi regionu dünyada ən iri işlənməmiş karbohidrogen ehtiyatlarına malikdir. O cümlədən aşkar edilmiş ehtiyatlar 17-33 mlyrd barelə qədər neft və 232 trlyn kub fut (1fut bərabərdi 30,48sm) təbii qazlar təşkil edir. Potensial ehtiyatlar 200 mlyd barelə yaxın neft və 350trlyon kub fut təbii qaz təskil edə bilər. SSRİ dağıldıqdan sonar ”Azəri”, “Cıraq” və ”Günəşli” dəniz yataqlarının işlənməsi məqsədi ilə Azərbaycana ilk dəfə Qərb sirkətləri – AMOKO , BP , UNOKOL qədəm basdi.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cu il 20 sentyabrda imzalanmış ”Əsrin müqaviləsi” Azərbaycanın dünya ölkələri ilə qarsılıqlı əlaqələrinin yeniləşməsinə və beynəlxalq mövqelərin möhkəmlənməsinə güclü təkan verdi. BTC marşurutu üzrə neftin nəql edilməsi ideyası yarandığı andan uğur qazanacağı dəfələrlə sübhə altına alınmışdır. Layihənin tənqid edənlər onun həddən artıq baha və az səmərəli olduğunu iddia edirdilər.

BTC tikintisinin iştirakcıları:

BP(30%), ARDNŞ(25%), UNOKUL (80.9%), Statoil(8.7%),

TPHO(60.5%), ENI(5%), İtoçu(3.4%), Amerikada NESS (2.36%), Total (5%) , Conocop-hilps(2.5%). Azəri, Çıraq, Gunəşli və BTC əsas ixrac boru kəmərlərinin iqtisadi dividentləri belədir : Gürcustan öz ərazisindən neft daşınmasına görə 750 mlyn $ , Türkiyə 1.5 mlyrd $. BTC əsas ixrac kəmərləri ilə bütün neftin ixracından Azərbaycanın gəlirləri 40-60 mlyrd $ dək təşkil edə bilər. Bundan başqa boru kəmərləri istismara verildiyi andan 20 il sonra Azərbaycanın mülkiyyətinə keçəcək. 2005-ci il may ayının 25-də Səngəçalda Azərbaycan, Gürcüstan, Türkiyə dövlət başçıları BTC əsas ixrac boru kəmərinin Azərbaycan hissəsini rəsmi açıq elan etdilər. Qeyd edək ki, BTC hər il dünya bazarına 50 mly ton neft cıxaracaq. Uzunluğu 1767 km olan BTC kəmərinin 443 km- Aərbaycanın, 248 km Gürcüstanın, 1076 km Turkiyənin ərazisindən keçir .

***İ.O. Osmanov***
*Sumqayıt Dövlət Universiteti,*

## NEFT-QAZ YATAQLARININ İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

Respublikamızın iqtisadi inkişafı üçün neft-qaz sənayesi əlverişli şərait yaradır. Neft-qaz sənayesinin inkişafı hesabına respublikamızı maliyyə inkişafı artır, borc almağa ehtiyacı azalır, büdcə sisteminin sosial yönümlülüyünün güclənməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ən vacib məsələ ondan ibarətdir ki, ölkənin maliyyə sistemi real sektorun inkişafına, keyfiyyətli yaşayış səviyyəsinin təmin edilməsinə daha fəal xidmət etsin. Azərbaycanın neft strategiyası nəticəsində respublikamıza investisiya axını ildən-ilə güclənir, neft satışından əldə edilən gəlirlərdən digər strateji inkişaf proqramlarının reallaşdırılması üçün əlverişli imkan yaranır. Bütün bunlar isə neft-qaz yataqlarının iqtisadi qiymətləndirilməsinin nə qədər vacib olduğunu göstərir.

Neft-qaz yataqlarının iqtisadi qiymətləndirilməsi dedikdə, vaxt amilini nəzərə almaqla onların ehtiyatlarından istifadənin xalq təsərrüfatı əhəmiyyəti nəzərdə tutulur. Yatağın iqtisadi qiymətləndirilməsində məqsəd yaxın və uzaq perspektivlərdən onun

ehtiyatlarından istifadənin səmərəli variantını seçməkdən ibarətdir. Neft-qaz yataqlarının iqtisadi qiymətləndirilməsindən aşağıdakı məsələləri həlli üçün istifadə edilir:

- yatağın neft-qaz ehtiyatlarını müəyyənləşdirmək;
- yatağın istismar dövrünü müəyyən etmək;
- layın son neft vermə əmsalını təyin etmək;
- yatağın səmərəli işlənmə variantını seçmək;
- yatağın istismar ardıcıllığını müəyyən etmək;

Neft-qaz yatağının işlənmə sistemini layihələşdirdikdə aşağıdakı texniki-iqtisadi məsələlər həll olunur:

a) neft-qaz yatağının işlənməsini layihələşdirmək üçün plan tapşırığının əsaslandırılması. Bunun üçün plan tapşırığının yaxın 5-10 il və uzaq 40-50 il ərzində ilkin neft və qaz hasilatının miqdarı müəyyən edilir.

b) yatağın işlənmə variantının iqtisadi göstəricilərinin hesablanma qaydası və üsulu. İşlənmə variantlarının iqtisadi göstəricilərinin hesablanma qaydası əmək sərfinin və xərclərin əsas işlənmə elementlərindən asılılığını aşkar etməkdən ibarətdir. İqtisadi hesablamalarda əmək məhsuldarlığı, kapital qoyuluşunun həcmi və effektivliyi, neft və qazın variantlar üzrə maya dəyəri hesablanır.

c) ən yaxşı işlənmə variantının seçilməsinin əsaslandırılması. Bu məsələni həll etmək üçün nəzərdə tutulan variantların texniki-iatisadi göstəriciləri müqayisə edilir. Səmərəli işləmə sistemi bu variantlardan biri ola bilər. Ən səmərəli işləmə sistemini seçmək üçün iqtisadi göstəricilərin quyuların sayından və yerləşmə qaydasından, lay təzyiqinin kəmiyyətindən, laya vurulacaq işlək agentin təzyiq və miqdarından, yəni işlənmənin bütün əsas elementlərindən asılılıq əyrilərini qurmaq lazımdır. Bundan sonra işləmənin baş, əsas planı tutulur.

d) dəqiqləşdirilmiş layihənin iqtisadi göstəricilərinin hesablanması. Layın sınaq istismar zamanı yeni alınan məlumatı nəzərdə tutulan əlavə işləmə variantlarının əsasında səmərəli işləmə sisteminin layihəsi dəqiqləşdirilir. İşlənmənin sınaq müddətində mədən məlumatı əsasında eyni zamanda iqtisadi göstəricilər də dəqiqləşdirilir.

Məlumat üçün qeyd edək ki, neft sənayesi mürəkkəb və uzun müddət istehsal prosesini həyata keçirən sahələrdən biridir. Odur ki, neft-qaz yataqlarının işlənməsi və istismarı investisiya qoyuluşları həcminin müntəzəm surətdə artırılmasını, fasiləsiz olaraq yeni neft-qaz qurğularının işə salınmasını, dayanmış köhnə neft qurğularının bərpasını və istismara qaytarılmasını tələb edir. Layihə tədqiqat işlərinin başlanmasından ilkin neftin və qazın alınmasına qədər olan vaxt müddəti orta hesabla 4-6 il təşkil edir. Deməli, neft-qaz yataqlarının mənimsənilməsi çox risk tələb edir.

***L.M.Vəliyeva***
*Sumqayıt Dövlət Universiteti*

## “ƏSRİN MÜQAVİLƏSİ”NİN AZƏRBAYCANIN XARİCİ TİCARƏTİNİN İNKİŞAFINDA ROLU

Azərbaycan Respublikasının son beş ildə (2008-2013) əldə etdiyi yüksək iqtisadi göstəricilərin əsası əvvəlki dövrlərdə formalaşmışdır.

Müstəqillik illərində Azərbaycan Respublikasının xarici ticarətinin inkişaf tarixini üc mərhələyə ayırmaq olar: 1) 1991-1994-cü illər; 2) 1995-2000-cü illər; 3) 2001-ci ildən sonrakı dövr.

Birinci mərhələdə ixracın səviyyəsi ildən ilə azalmaqda davam edirdi. Bu dövrdə istehsala əsaslı vəsait qoyuluşu hər il 40% azalırdı. Bu dövrün əsas əlamətdar hadisəsi 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan münasibətlə-rində mühüm əhəmiyyət kəsb edən atəşkəsin əldə edilməsi oldu. Atəşkəsin əldə olunması, eləcə də xarici investisiyaların cəlb edilməsi ucun “açıq qapı” siyasəti xarici neft şirkətlərinin maraqlarının Azərbaycan neftinə yönəldilməsini mümkün etdi.

1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətləri ilə “Əsrin müqaviləsi” kimi tanınmış ilk kontrakt imzalandı. Bunula da Azərbaycanın neft strategiyasının həyata kecirilməsinə başlandı. 2001-ci ilə qədər 32 xarici şirkətin iştirakı ilə bağlanmış 21 neft müqaviləsi üzrə Azərbaycana ümumilikdə 60 milyard ABŞ dolları həcmində investisiya qoyuluşu nəzərdə tutulurdu.

İkinci mərhələdə (1995-2000-cü illər) Azərbaycan iqtisadiyyatinda ixracın səviyyəsi ilk illər (1995-1998-ci illər) azalmaqda davam etsə də, istehsala (əsasən neft sektoruna) əsaslı vəsait qoyuluşu hər il təxminən 50% artırdı. Qeyd etmək lazımdır ki, yalnız 2000-ci ildə Azərbaycan Respublikası xarici ticarət dövriyyəsinin, o cümlədən ixracın səviyyəsinə gorə 1992-ci ilin səviyyəsini ötüb kecə bildi.

"Əsrin müqaviləsi"nə uyğun olaraq "Azəri-Çiraq-Günəşli" neft yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması, beynəlxalq neft müqavilələri çərçivəsində görülən işlər Azərbaycana yeni, mütərəqqi texnologiyaların gətirilməsinə və bununla yanaşı nəqliyyat və xidmət sahələrinin inkişafına, peşəkar kadrların hazırlanmasına və minlərlə iş yerlərinin açılmasına imkan verdi.

1997-ci ilin noyabrın 12-də "Çıraq – 1" platformasında ilk neft quyusu istismara verildi və faktiki olaraq 1998-ci ildən etibarən "Əsrin müqaviləsi" üzrə neft hasilatına start verildi. "Çıraq – 1" dəniz platformasından Sənqəçaldaki Sahil terminalına və Neft Daşlarindakı kompressor stansiyasınadək sualtı boru kəmərləri çəkildi. Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabrında kəmər istismara verildi. Bu dövrdə eləcə də "Dədə Qorqud"; "İstiqlal", "Qurtuluş" kimi iri dəniz qazma qurguları istifadəyə verildi. 1999-cu ilin 17 aprelində Baki-Supsa neft kəməri işə salındı və Gürcüstanın Qara Dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Baki-Supsa neft kəmərinin illik buraxılış qabiliyyəti 5 milyon tona bərabər idi.

Neft kontraktlarının reallaşdırılması nəticəsində və 1998-ci ildən başlayaraq neft hasilatının artması hesabına Azərbaycanın ixrac potensialı kəskin surətdə artmağa başladı. Əgər 1997-ci ildə 9 mln.ton neft hasil edilmişdirsə, 1998-ci ildə 11,4 mln.ton; 1999-cu ildə 13,8 mln.ton; 2000-ci ildə14,5 mln.ton neft hasil edildi.

Ücüncü mərhələdə, yəni 2001-ci ildən başlayaraq neft strategiyasının həyata kecirilməsi nəticəsində Azərbaycanın xarici ticarət dövriyyəsi, o cümlədən ixrac göstəriciləri sürətlə artmağa başladı. Xüsusilə, 2006-cı ilin 13 iyulunda Baki-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi respublikamızın imkanlarını kəskin

surətdə artırdı. Yeni neft kəmərinin ötürücülük qabiliyyəti gündə 1 mln. barel, ildə isə 50 mln. tona bərabər idi.

Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin digər növlərinin də inkişafı məhz neft sənayesinin təşəkkülü və bu əsasda xarici ticarətin inkişafı ilə bağlı idi. Neft hasilatı və onun nəqli ilə əlaqədar birgə fəaliyyət-istehsalat kooperasiyaları yaradılmışdır. Bu kooperasiyaların fəaliyyəti isə, hər şeydən əvvəl, xarici investisiya axını və beynəlxalq valyuta kredit əməliyyatları ilə müşayət olunur.

***K.V. Əzizova***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCANIN NEFT MÜQAVİLƏLƏRİ: MƏZMUNU VƏ ƏHƏMİYYƏTİ

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində respublikanın təbii sərvətlərindən xarici ölkələrin ən böyük şirkətləri ilə müştərək istifadə etmək formaları üçün yeni imkanlar yaranır. Bu, Azərbaycanın öz təbii sərvətlərinin sahibi olmasının təsdiqidir. Azərbaycanın xarici iqtisadi əlaqələri **r**espublika iqtisadiyyatında böyük xarici investisiya layihələrinin həyata keçirilməsindən xəbər verir.

20 sentyabr 1994-cü ildə Bakıda imzalanan, miqyasına görə beynəlxalq xarakter daşıyan "Əsrin müqaviləsi" adlanan müqavilə Azərbaycanın Xəzər dənizi sektorunda üç neft yatağının : "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istifadə olunmasını nəzərdə tutmuşdu. Müqavilə dünyanın 6 ölkəsinə mənsub olan 11 şirkət arasında imzalanmışdı. Müqavilənin müddəti 30 ildir. Layihəyə əsasən 1997-ci ilin avqustunda "Çıraq" neft yatağından ilkin neft hasil olunmuşdur. Müqavilə Amoko(ABŞ), Yunokl (ABŞ), Pennzoyl(ABŞ), Eksson(ABŞ), Mak-Dermont(ABŞ), Britiş Petrolium(İngiltərə), Statoyl (Norveç), Türkeş petrolium (Türkiyə), Lukoyl(Rusiya), Ramko(Böyük Britaniya), Delta(Səudiyyə Ərəbistanı) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) birgə fəaliyyəti nəzərdə tutulmuşdu. Müqavilənin dəyəri

14 milyard ABŞ dollarıdır. Müqaviləyə görə göstərilən yataqlardan 511 milyon ton neft çıxarılmalıdır. Neftdən gələn gəlirdə Azərbaycanın payı 80%-dir. Bu da 253 milyon ton neft deməkdir. Xarici şirkətlər bütün investisiyanın 80%-ni qoymaqla təqribən 65 milyon ton neftin sahibi olacaqlar.

Qalan neftin kapital xərclərinin, neftin dünya bazarına çatdırılması üçün maliyyə və nəqliyyat xərclərinin ödənilməsinə sərf olunması üçün nəzərdə tutulub. Pulla qiymətləndirdikdə neftdən alınan ümumi gəlir 157,6 milyard dollar, o cümlədən Azərbaycanın gəliri 81,7 milyard dollardır.

"Əsrin müqaviləsi"nin imzalandığı vaxtdan keçən müddət ərzində onun məzmununda müəyyən dəyişikliklər edilmişdir. Müqavilədə iştirak edən ABŞ-ın "Mak-Dermont" şirkəti yataqların istismarındakı payının bir hissəsini 1996-cı ilin mart ayında Yaponiyanın məşhur "İtoçu Korporeyşn" şirkətinə satmışdır. Çıxarılması nəzərdə tutulan neftin 600 min tondan çox olacağı müəyyənləşdirilib.

Azərbaycanda ilk neft müqaviləsinin həyata keçirilməsinə neft konsorsiumunun investisiya qoyuluşu artıq reallaşmışdır. 10 noyabr 1995-ci ildə imzalanan II müqavilə sahəsi 427 kv. km olan "Qarabağ" yatağına aiddir. 4iyun 1996-cı ildə sayca III müqavilə imzalanmışdır. 14 dekabr 1996 –cı il IV neft müqaviləsi imzalanmışdır. 13 yanvar 1997-ci il V müqavilə, VI müqavilə 4 iyul 1997-ci il Moskvada imzalanmışdır. VII müqavilə "Şevron" (ABŞ) şirkəti ilə, VIII müqavilə "Ekkson"(ABŞ) şirkəti ilə, IX müqavilə "Mobil"(ABŞ) şirkəti ilə imzalanmışdı. X neft müqaviləsi "Kürdaşı" dəniz blokunun kəşfiyyat, işlənməsi və hasilatın pay bölgüsü haqqındadır.

Bütövlükdə "Əsrin kontraktı" imzalandıqdan sonra, Xəzər dənizinin Azərbaycan sektorunda perspektivli strukturların kəşfiyyatı və işlənməsinə dair xarici şirkətlərlə 14 saziş bağlanmışdır. Azərbaycanın enerji yataqlarının işlənilməsində iştirak edən ölkələrin coğrafiyası genişlənmiş və hazırdz 15 kontraktda 14 ölkənin 28 iri neft şirkəti fəal əməkdaşlıq edir.

***L.İ. Abdullayev***
*Sumqayıt Dövlət Universiteti*

## "ƏSRİN MÜQAVİLƏSİ" AZƏRBAYCANIN NEFT STRATEGİYASININ ƏSASI KİMİ

Azərbaycan Respublikasının müstəqil inkişafında bazar iqtisadiyyatının formalaşması daha geniş vüsət almışdır və istehsal sahələri qarşısında ciddi problemlər qoyur. Bu problemlər sırasında dünya standartlarına cavab verən keyfiyyətli məhsul istehsal etmək, alıcı tələbini ödəmək, yüksək xidmət etmək, az xərclə çox məhsul istehsal etmək, xarici iqtisadi əlaqələri genişləndirmək, milli bazarın formalaşmasına şərait yaratmaq, rəqabətə davam gətirmək və s. daxildir. Bu amillərin bir çoxunun həlli isə Azərbaycanda neft strategiyasının uğurlu nəticəsidir. Azərbaycanın neft strategiyası məhz yuxarıda sadaladığımız məsələlərin həllinə xidmət edir. Bu məqsədlə neft sənayesinin inkişafı hesabına xarici dövlətlərin investisiyaları respublikamıza daxil olur, qeyri – neft sektoruna yönəldilir və onların inkişafına səbəb olur.

Ölkəmizdə əhalinin həyat səviyyəsinin yaxşılaşması sahəsində nailiyyətlər, sabitliyin təmin olunması, bütün ehtiyatların səmərəli istifadə olunması, yəni milli maraqların təmin olunması, sahibkarlıq fəaliyyətinin rəqabət qabiliyyətinin yüksəldilməsi strateji məsələlərdən biridir. Son illər respublikamız nisbi və iqtisadi sabitlik əldə etmişdir. Qeyd edildiyi kimi, Azərbaycan son illərdə istehsal sahibkarlığının inkişafında böyük nailiyyətlər əldə etmişdir. Bu nailiyyətlər əsasən neft-qaz sənayesinin inkişafı hesabına olmuşdur. Neft sənayesi Azərbaycan iqtisadiyyatının ən aparıcı sahələrindən biridir. Belə ki, Azərbaycanın idxal və ixracının əsas hissəsini neft və neft məhsulları təşkil edir.

Heydər Əliyevin uzaqgörənliyi və buna tam uyğun düzgün iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın geniş inteqrasiya zəminində qurulması və inkişaf etdirilməsinə nail olunmuşdur. Dünya iqtisadiyyatına inteqrasiya və respublikanın dünya ölkələri ilə əməkdaşlığı Heydər Əliyevin sosial – iqtisadi strategiyasının ana xəttini təşkil edirdi.

1994 – cü ilin sentyabrın 20 – də möhtəşəm Gülüstan sarayında imzalanmış " Əsrin müqaviləsi " respublikada neft strategiyasının əsasını qoymuş oldu. Belə bir mühüm tarixi hadisə ilə əlaqədar müəyyən qüvvələr və ölkələr tərəfindən açıq – aşkar maneəçilik törədilirdi. Lakin, Heydər Əliyev bütün təzyiq və maneəçiliklərə baxmayaraq, öz strategiyasına inanaraq mövqeyini dəyişmədən işləri hər vasitə ilə irəliyə aparırdı. " Əsrin müqaviləsi "-nin beşinci ildönümünün keçirilməsi haqqında 1999 – cu ilin avqustunda böyük tarixi əhəmiyyət kəsb edən xüsusi sərəncamda göstərilir ki, beynəlxalq aləmdə " Əsrin müqaviləsi " adını almış və sazişin bağlanması müstəqil Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın müstəqil dövlət olaraq öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha göstərdi. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün əsas yaratdı. O dövrdə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası " strategiyasının hazırlanması barədə göstəriş vermiş və neftlə bağlı danışıqların başa çatdırılmasına dair xüsusi fərman imzalamış və onun gərgin əməyi, sarsılmaz iradəsi nəticəsində " Əsrin müqaviləsi " imzalanmış, beynəlxalq konsorsium yaradılmışdır.

Azərbaycan Respublikasının neft strategiyası Azərbaycan xalqının sosial – iqtisadi vəziyyətinin yüksəldilməsi üçün real və uzunmüddətli zəmin yaradır. Respublikada mövcud olan ictimai – siyasi sabitlik getdikcə möhkəmlənməklə, ölkəyə investisiya qoyuluşları genişlənir. Bununla da dünya ölkələrinin neftlə bağlı olmayan digər nüfuzlu şirkətlərin də respublikaya marağı artmaqda davam edir. Azərbaycan xalqının yaxın illər ərzində neft gəlirlərini ölkənin sosial və iqtisadi inkişafı üçün mühüm layihələrin maliyyələşdirilməsinə yönəltmək siyasəti həyata keçirilmişdir. Neft gəlirlərinin uzunmüddətli istifadə olunması strategiyasını hazırlayıb və hökumət bu pulların ölkənin rifah halının yaxşılaşdırılmasına xərcləmək hədəflərini müəyyənləşdirmişdir. Bu strategiya neft gəlirlərindən fəal şəkildə, o cümlədən, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur layihələrinin həyata keçirilməsində istifadə olunmasına şərait yaradır. Neft strategiyasının həlledici mərhələyə qədəm qoyması nəticəsində sürətlə artacaq neft

gəlirləri daha böyük həcmlərdə milli iqtisadiyyata yönəldilir və səmərəli istifadə edilir.

**M.İbadova**
*Sumqayıt Dövlət Universiteti*

## "HEYDƏR ƏLİYEV. ŞƏXSİYYƏT VƏ ZAMAN" ROMANI III BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ

2013-cü il Sentyabrın 25-də III Bakı Beynəlxalq kitab sərgi-yarmarkası çərçivəsində tanınmış yazıçı-publisist, Milli Məclisin deputatı Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" altıcildlik roman-tədqiqatının Tacikistanın "Ədib" nəşriyyatında tacik dilində çapdan çıxmış ilk 3 cildinin təqdimatı olmuşdur.

Tacik dilindəki bu 3 cildi adı çəkilən nəşriyyatın əməkdaşı Murad Sobir və Tacikistanın Xalq Şairi və ictimai xadimi, Dövlət Mükafatı laureatı, Tacikistan Respublikasının Dövlət himninin müəllifi Qulnazar Kəldiyev təqdim etmişlər.

Səhər saatlarında təşkil edilən təqdimetmə mərasimində kitabın müəllifi, yazıçı-publisist, ölkəmizin tanınmış ictimai-siyasi xadimi və Milli Məclisin deputatı Elmira Axundova da iştirak etmişdir.

Tədbiri giriş sözü ilə Mədəniyyət və Turizm Nazirliyinin sektor müdiri, şair Çingiz Əlioğlu açaraq bu hadisəni iki xalqın mədəni əlaqələri baxımından yüksək qiymətləndirmişdir. O, qeyd etmişdir ki, bu çoxcildlik roman-tədqiqat indiyədək dəfələrlə müxtəlif beynəlxalq kitab sərgilərinə təqdim edilmiş, böyük uğur qazanmışdır. Bu uğurun da əsas səbəbi odur ki, kitablar həm dövrün tarixi reallıqlarını əks etdirir, həm də Ümummilli Liderimizin əsrarəngiz obrazını nadir tarixi faktlar və çoxsaylı xatirələr əsasında, sadə dillə və cəmiyyətin hər bir təbəqəsinin anlaya biləcəyi üslubda qələmə alınmışdır. Kitablardakı hadisələrin xronoloji ardıcıllığı, hadisələrin siyasi təhlili müəllif tərəfindən sanki riyazi dəqiqliklə hesablanmışdır. Kitab bir nəfəsə oxunur və insan oxuduqca sanki o hadisələri yaşayır, gözünün qarşısında hər bir detal canlanır, oxucu ilə həmsöhbət olur.

Daha sonra Çingiz Əlioğlu bildirmişdir ki, Tacikistan Respublikası bu kitabların nəşr edildiyi ilk xarici dövlətdir. Buna görə də həm tacik xalqına, həm də "Ədib" nəşriyyatının nümayəndəsi Murad Sobir və Tacikistanın Xalq Şairi Qulnazar Kəldiyevə minnətdarlıq ifadə olunmuşdur.

Qulnazar Kəldiyev kitabı yüksək keyfiyyətə malik bir əsər kimi dəyərləndirmiş, həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nəhəng həyat və fəaliyyətinin, həm də Azərbaycanın tarixinin öyrənilməsi baxımından əvəzedilməz bir əsər olduğunu bildirmişdir.

Qulnazar Kəldiyev özü kitabın birinci cildinin tərcüməsinin müəllifidir, 2-ci və 3-cü cildləri isə Tacikistan Respublikasının çox tanınmış yazıçıları İstad Kosimzadə, Ato Xandam və başqaları tərcümə etmişlər.

Daha sonra "Ədib" nəşriyyatının nümayəndəsi Murad Sobir bildirmişdir ki, bu kitablar təkcə Azərbaycanın deyil, bütün postsovet məkanının tarixidir. Ona görə də digər cildlərin də tərcüməsi davam etdiriləcək və ictimaiyyətə təqdim olunacaqdır. O, qeyd etmişdir ki, kitabın müəllifi Elmira Axundova həqiqətən də böyük yazıçıdır və bu sərgidə onunla tanış olmaqdan böyük məmnunluq hissi duyur. Elmira Axundova tədbirdə çıxış edərək həmkarlarına təşəkkürünü bildirmişdir. O, qeyd etmişdir ki, bu, rus dilindən sonra kitablarının nəşr edildiyi ikinci xarici dildir. Elmira Axundova kitablarının Nizami, Ömər Xəyyam, Firdovsi və s. kimi dahi şairlərin yazıb-yaratdıqları və 150 milyona yaxın oxucu kütləsi olan fars dilində nəşr olunmasından böyük məmnunluq hissi duyduğunu ifadə etmişdir. Vurğulamışdır ki, 2013-cü ildə işıq üzü görən bu tərcümələr tacik xalqının, ədəbiyyatçılarının və Yazıçılar Birliyinin Azərbaycan xalqına ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə bağlı bir töhfəsidir. Tərcümə edilmiş cildlər artıq Tacikistanın bir çox kitabxanaları, akademik institutları və ali məktəblərində öz layiqli yerini tutmuşdur. Hazırda digər 3 cildin də tərcüməsi davam etdirilir və bu ilin dekabr və gələn ilin may aylarında onların təqdimatı Elmira Axundovanın özünün də iştirakı ilə Düşənbədə təşkil olunacaqdır.

***M.S.Hüseynova***
*Sumqayıt Dövlət Universiteti*

# ƏSRİN MÜQAVİLƏSİ

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatındakı neftin birgə işlənməsi haqqında məhsulun pay bölgüsü tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. Əsrin müqaviləsində dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı), 13 ən məşhur neft şirkəti (AMOKO,BP, Nork Derm ott, Yunokal, ARDNŞ, Lukoyl, EKSON, Türkiyə Petrolları, İtoçu Remko, Delta) iştirak etmişlər. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 190 ölkəsinin 41 şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi " həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərininaparılmasına yönəldilmişdir.

"Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir, ümumi təmiz gəlrdən Azərbaycanın payına 80 % , sərmayəçilərin payına 20 % düşür.

1999-cu ilin dekabrında “mənfəət nefti” ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta sabiq prezident Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olur və xalqa fayda verir. Şimal istiqamətindəki uzunluğu 231 km, diametri 720 mmm olan Bakı Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edilmişdir və ilk dəfə 25 oktyabr 1997-ci ildə Azərbaycan nefti Novorossiysk limanına (Rusiya Federasiyasına) nəql olunmuşdur. Kəmər istifadəyə verilən gündən 2007-ci ilin sonunadək bu marşuruta 11 milyon 34 min ton neft nəql edilib. 1999-cu ilin noyabr ayında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tiflis-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmışdır.

2002-ci il sentyabrın 18-də Bakıda Səngəçal terminalında sabiq prezident Heydər Əliyevin Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. Bu əsas ixrac neft kəmərinin texniki-iqtisadi əhəmiyyətindən başqa onun siyasi rolu da böyükdür. Belə ki, bu neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına verəcək, Azərbaycan xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb olacaqdır.

***P.T.Şahtaxtinskaya, K.M.Mütəllimova, Ə.Ə.Ağayev***
*Sumqayıt Dövlət Universiteti*

## NEFT STRATEGİYASININ BƏHRƏLƏRİ: İRİ NEFT VƏ QAZ LAYİHƏLƏRİ

Ulu öndərimizin memarı olduğu “Əsrin müqaviləsi”ndən sonra onun işlərini uğurla davam etdirən cənab Prezident İlham Əliyev bu müqavilənin gerçəkləşməsi və yeni iri neft və qaz layihələrinin imzalanıb həyata keçirilməsində misilsiz xidmətləri vardır.

Son illər imzalanmış layihələri nəzərdən keçirək:

**Trans Anadolu Qaz Boru Kəməri** - təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcəkdir.

Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin dəyəri 7 mlrd. ABŞ dollarıdır. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd., 2023-cü ildə 23 mlrd., 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcəkdir. TANAP layihəsində ARDNŞ 80%, Türkiyənin BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20% paya malikdir. TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıbdır. Boru kəmərinin diametri 56 düym və ya 1,4 metr nəzərdə tutulub. TANAP layihəsinin işə düşməsi Şahdəniz-II layihəsi üzrə qaz hasilatına başlanması vaxtı ilə uzlaşdırılıb və 2017-ci il üçün nəzərdə tutulubdur.

**Nabukko Vest qaz kəməri** — Xəzər bölgəsi və Orta Şərq təbii qaz ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan qaz kəməri layihəsidir. Kəmərin Türkiyə-Bolqarıstan sərhəddindən Avstriyanın Baumqartenunder Març qəsəbəsinə kimi çəkilməsi nəzərdə tutulubdur. Boru kəmərinin çəkilməsinin məqsədi Avropanın Rusiyadan qaz alışında asılılığını azaltmaqdır. Layihə Avropa Birliyi ölkələri və ABŞ tərəfindən dəstəklənir və Rusiyanın Qazprom şirkətinin həyata keçirmək istədiyi Cənub axını layihəsinə rəqib qismində görülür. Lakin bəzi ekspertlər boru kəməri üçün lazım olan miqdarda təbii qaz ehtiyatlarının olmadığından ehtiyat edirlər. Layihənin əsas xammal tədarükçüsünün Azərbaycan, Türkmənistan və Misirin də həmçinin layihənin təchizatçısı olması ehtimal edilir.

Bolqarıstandan başlayıb Rumıniya, Macarıstandan keçərək Avstriyaya qədər uzanması planlaşdırılan bu xəttin ümumi uzunluğu

1 329 km-dir. Nabukko Təbii Qaz Boru Xəttinin minimum 10, maksimum 23 milyard barrel illik daşıma həcminə sahib olması və 2018-ci ildə istismara verilməsi nəzərdə tutulur.

Layihənin icrası üçün yaradılmış konsorsiuma daxil olan şirkətlər aşağıdakılardır:

- Avstriya, OMV Gas GmbH
- Macarıstan, FGSZ
- Rumıniya, S.N.T.G.N. Transgaz S.A.
- Bolqarıstan, BEH
- Türkiyə, BOTAŞ

- **Petkim -** 3 aprel 1965-ci il tarixində başda Türkiye Petrolleri Anonim Ortaklığı (TPAO) olmaqla təsis edilən "Petkim" fəaliyyətə 1970-ci ildə Kocaelidəki Yarımca Kompleksinə daxil olan 5 zavodun qurulması ilə başlamışdır. Daha sonra qurumun digər müəssisələri də işə salınmışdır. "Petkim"in ən müasir texnologiyalarla təchiz edilmiş və optimal istehsal güclərinə malik ikinci kompleksi 1985-ci ildə İzmirin Əliağa bölgəsində fəaliyyətə başlamışdır.

30 may 2008-ci il tarixində keçirilmiş hərracda "Petkim Petrokimya Holdinq" A.Ş.-nin səhmlərinin 51%-i 2 milyard 40 milyon dollara SOCAR&Turcas Enerji A.Ş. tərəfindən əldə edilmişdir. Hazırda "Petkim"in nəzdində aşağı sıxlıqlı polietilen, yüksək sıxlıqlı polietilen, polipropilen, polivinil xlorid, akrilonitril, etilen qlikol, saflaşdırılmış turşu, aromatik karbohidrogenlər, etilen-propilen, xlor qələvi, vinil xlorid monomer, plastik işlər və ftal anhidridi fabrikləri fəaliyyət göstərir. Türkiyə sanayesini xammalla təchiz edən "Petkim"in istehsal etdiyi neft-kimya məhsulları inşaat, kənd təsərrüfatı, elektrik enerjisi, elektron, tekstil sənayesində, eyni zamanda əczaçılıq, boya, yuyucu məhsullar və s.

- "Petkim" "İstanbul Sənaye Palatası"nın "İlk 500 böyük sənaye qurumu" sıralamasında 12-ci, Türkiyə İxracatçılar Məclisinin "Ən çox ixrac edən 1000 şirkət" sıralamasında 20-ci, Egey bölgəsi Sənaye Palatası tərəfindən açıqlanan "Egeyin ən böyük 100 sənaye qurumu" və "Ən çox ixrac edən şirkətlər" sıralamasında isə 3-cü yerdə qərar tutmuşdur.

***İ.e.n., dos. M.Ö.Pənahəliyeva, i.f.d., dos. Ş.S.Məmmədova***
*Sumqayıt Dövlət Universiteti*

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ SİYASƏTİNDƏ NEFT KONTRAKTLARININ ROLU VƏ ƏSAS NƏTİCƏLƏRİ

Neft kontraktları ölkəmizin iqtisadi qüdrətinin artırılmasına kifayət qədər müsbət təsir göstərməklə , nəticə etibarı ilə məhz xarici siyasətin eyni zamanda,xarici-iqtisadi siyasətinin uğurlarına təminat yaratdı. "Əsrin müqaviləsi" Azərbaycanın ümumi iqtisadi rifahına və beynəlxalq aləmdə əhəmiyyətli uğurlarına şərait yaratmaqla regiondakı siyasi-iqtisadi münasibətlər sisteminə yeni stimullaşdırıcı təkan verdi.. Xarici siyasət əslində daxili iqtisadi-siyasi vəziyyətə söykənərək, onun istiqamətləndirici strategiyası kimi çıxış edir və bu mənada Azərbaycanın yeni neft siyasətinin gətirdiyi müvəffəqiyyətlər, həm də onun beynəlxalq münasibərlər sistemində yerinin müəyyənləşdirilməsində az rol oynamamışdır. Bunu qanunauyğun bir proses, güclü xarici-iqtisadi siyasət kimi qiymətləndirmək lazımdır.

Ümumilikdə "Əsrin müqaviləsi"nin Azərbaycanın xarici-iqtisadi siyasətinin müəyyənləşdirilməsinə və inkişafına təsir imkanlarını ümumi şəkildə aşağıdakı kimi təsnifləşdirmək olar:

- "Əsrin müqaviləsi" Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılmasına müsbət təsir göstərməklə beynəlxalq aləmlə münasibətlərin daha səmərəli şəkildə qurulmasına imkan yaratdı;
- Bu müqaviləyə qoşulmuş iqtisadi subyektlər daha sonra həm də siyasi tərəfdaşlar kimi çıxış etməyə başladılar;
- Azərbaycanın beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artdı və o, regionun aparıcı dövlətinə çevrildi;
- Cəbhə bölgəsində atəşkəsin əldə olunmasında bu müqavilələrin xüsusi rolu oldu və elə sonrkı mərhələdə müharibənin başlanmaması da məhz həmin sazişlərin təsirinin nəticəsi idi;
- Azərbaycanda dayanıqlı və surətlə inkişaf edən iqtisadi münasibətlər sistemi yarandı ki, bu da yeni iqtisadi tərəfdaşların ölkəyə cəlb olunmasına təkan verdi;

- Neft kontraktları üzrə beynəlxalq birlik regionun taleyi ilə bağlı bütün məsələlərdə ilk növbədə Azərbaycanın maraqlarını nəzərə almaq zərurəti ilə qarşılaşdı;

- "Əsrin müqaviləsi" ilə bağlı Cənubi Qafqaz da iqtisadi və siyasi münasibətlərin xarakteri xeyli dərəcədə dəyişikliyə məruz qaldı;

- Bu müqavilələr Azərbaycanın qərbyönümlü, sivil və müasir iqtisadi siyasət yürütdüyünü ortaya qoydu və buna bütün dünyanı inandırdı.

- "Əsrin müqaviləsi" bir çox inkişaf etmiş dünya dövlətlərini Azərbaycana təzyiq göstərmək imkanlarından məhrum etdi. Bu amil ölkənin iqtisadi və siyasi müstəqilliyinin möhkəmləndirilməsi və qorunub saxlanılması üçün həyati əhəmiyyət kəsb edirdi;

- Neft kontraktları cəmiyyəti vahid bir idealogiya ətrafında birləşdirməyə və milli dövlətçilik ənənələrinin formalaşmasına stimul vermiş oldu;

- Nəhayət, neft siyasəti Azərbaycanda demokratik ənənələrin, bazar iqtisadiyyatı prinsiplərinin təşəkkül tapmasına ciddi təsir göstərdi.

***L.V.Mirzəliyeva***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCAN NEFTİ VƏ H.ƏLİYEV

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər

məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və Onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdriklik və uzaqgörənliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir.

XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalaraq onun inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Bu illər Azərbaycan neftçiləri tərəfindən dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı dərin dəniz özülləri zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. Bununla yanaşı neft emalı, neft-kimya sənayesinin və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur.

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq "Əsrin müqaviləsi" adlandırılan bu saziş həqiqətən müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu.

"Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük

siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Ötən dövrdə Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları - Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. Bu gün həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak etmişdir ki, bu da Azərbaycan dövlətciliyinin möhkəmləndirilməsinə öz töhvəsini verir.

***S.A.Pirverdiyeva, Z.M.Qasımova***
*Sumqayıt Dövlət Universiteti*

## GEOSİYASİ MÜNASİBƏTLƏRDƏ NEFT AMİLİ

Dünyada ilk neft imperiyasının yaradıcısı sayılan Rokfeller tərəfindən 1880-ci ildə neftin beynəlxalq ticarət dövriyyəsinə cəlb olunması nəticəsində, onun satış bazarlarına və yataqlarına sahib olmaq uğrunda mübarizəsinin əsası qoyuldu. Bununla da onun beynəlxalq-hüquqi tənzimlənməsi zərurəti yarandı. [5]Neft uğrunda mübarizə XIX əsrin sonunda daxiliyanma mühərrikinin ixtirası və XX əsrin əvvəllərində Böyük Britaniya Donanmasında yanacaq kimi daş kömürün neftlə əvəzlənməsindən sonra yeni mərhələyə qədəm qoydu. Enerji mənbəyi kimi neftin I Dünya müharibəsi zamanı əhəmiyyəti daha da artdı. Böyük Britaniyanın görkəmli dövlət xadimi Kerzonun "biz neft dalğalan üzərində üzərək qələbəyə çatdıq" deməsi təsadüfi deyildi.

Məhz bu dövrdən etibarən beynəlxalq iqtisadi qloballaşmaya təkan verən bu prosesin hədəf dairəsində Latın Amerikası, Asiya və Afrikanın aşkar və ehtimal olunan zəngin neft yataqları dururdu. Bu

iqtisadi-siyasi istilaçılıq məqsədlərinə çatmaq üçün iqtisadi müstəmləkəçilik sistemi və onun maliyyə çətiri olan neft diplomatiyası və beynəlxalq geosiyasət tədricən zühur edərək formalaşır. Zaman keçdikcə cilalanan və yeni formalarla təzahür edən bu proses II Dünya müharibəsindən ötən dövr ərzində beynəlxalq münasibətlərin başlıca istiqamətverici amilinə və eyni zamanda əsas gərginlik mənbəyinə çevrilir. Heç də təsadüfi deyil ki, müharibədən ötən dövr ərzində planetin müxtəlif yerlərində baş vermiş 133 regional münaqişə və silahlı toqquşma bu və ya digər formada neft mənbələri uğrunda gedən mübarizə ilə bağlı olmuşdu. 1945 - 1946-cı illərdə Cənubi Azərbaycan hadisələrindən başlanmış və bu günə qədər davam edən regional müharibə və münaqişələrin törəməsinə Yer kürəsinin iqtisadi-siyasi meydanında at oynadan qüdrətli dövlətlərin və onlarla sıx əlaqədə olan "neft kralları"nın bu əvəzsiz sərvətin mənbələrinə doğru yönəlmiş iqtisadi-siyasi maraqları səbəb olmuşdur.

XX əsrin əvvəllərində beynəlxalq münasibətlər sistemində zühur edən neft diplomatiyasının səciyyəvi xüsusiyyəti bir tərəfdən də güc strukturları ilə sövdələşmə və neft-dollara söykənməsidir. Neft diplomatiyası kompleksinin başlıca və əsas hədəfi inkişaf etməkdə olan ölkələrin enerji mənbələrini ələ keçirmək və bu ölkələri əlverişli bazar, ucuz işçi qüvvəsi və faydalı kapital qoyuluşu obyekti kimi saxla-maqdır.

Nəhayət, Türkiyə Respublikasının Qafqazdakı geosiyasi durumda rolu ilə əlaqədar qeyd etmək lazımdır ki, yeni əsrin "türk əsri" olacağı müjdəsini verməyə başlayan Türkiyə hələ tarix boyu Qafqaz regionunda əsas fiqurlardan biri olmuşdur və bu rol bu gün də davam etməkdədir. Siyasi-iqtisadi və strateji maraqlar NATO-nun regionda əlaqələndiricisi rolunu oynayan Türkiyənin Xəzər hövzəsi uğrunda gərgin geosiyasi mübarizəyə qoşulmasını şərtləndirir. Məhz bu səbəbdən son illərdə Ankaranın Qafqaz regionuna yönəlmiş xarici siyasəti Xəzər neftinə və Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinə indeksləşmişdir. Bütün bunların nəticəsində Türkiyə Xəzər dənizi hövzəsində tarixi rolunu bərpa etmək istiqamətində ciddi uğurlar əldə etmiş, siyasi-iqtisadi və eləcə də strateji varlığı ortaya qoymuşdur. Bu regionla coğrafi, etnik, mədəni yaxınlıq Ankaranın uğurlarmı

genişləndirməsi üçün mühüm əsas yaradır. Eyni zamanda, Türkiyə burada özünü Qərbin və Qərb dəyərlərinin ötürücüsü kimi təqdim edə bilmişdir. Xüsusilə də, Bakı-Tbilisi-Ceyhan neft kəməri Türkiyənin region dövlətləri və ilk növbədə Azərbaycanla əlaqələrini daha da genişləndirməsi üçün əsas olacaqdır.

Beləliklə, bugünkü reallıq ondan ibarətdir ki, Qafqaz regionunda Xəzər nefti uğrunda böyük siyasi maraqlar mövcuddur və bu maraqlar regionun geosiyasi mənzərəsinin nə qədər rəngarəng olduğunu tam müfəssəlliyi ilə açıb göstərir. Yalnız bir məsələni əminliklə demək olar ki, Xəzər nefti və əsas ixrac kəməri bölgədə qüvvələr nisbətini əsaslı şəkildə dəyişir və bu belə də davam edəcəkdir. Xüsusilə, neft-boru kəmərləri ətrafında gedən geosiyasi mübarizə bu kommunikasiya vasitəsinin müasir beynəlxalq münasibətlər sistemində nə dərəcədə əhəmiyyətli olduğuna əyani bir sübutdur. Bu gün heç kim şübhə edə bilməz ki, neft kəmərləri dövlətlərin geosiyasi maraqlarına və iqtisadi mənafelərinə təsir edən mühüm bir elementdir. Sadəcə olaraq, bu amildən ən sərfəli şəkildə faydalanmaq lazımdır.

***Ş.İsmayılov***
*Sumqayıt Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI VƏ MİLLİ TƏHSİL KONSEPSİYASI

*"Əsası Heydər Əliyev tərəfindən qoyulan "Əsrin müqaviləsi" Azərbaycan xalqının rifah halının yaxşılasmasına, Azərbaycanın hərtərəfli inkişafına xidmət edir."*

*İlham Əliyev*

Azərbaycan xalqı ikinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan dövlətinin milli inkişaf strategiyasının yeni mərhələsinə qədəm qoydu.

Ulu öndər H.Əliyevin müəllifi olduğu neft strategiyası ölkəmizin sosial-iqtisadi inkişafını sürətləndirməklə, bu sahədə mövcud olan bir çox problemləri həll etdi. əsası 1994-cü ilin

sentyabrın 20-də qoyulan "əsrin müqaviləsi"ndən 20 il keçir. H.Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə bağlanan neft müqaviləsi milli neft strategiyasının təməlini qoydu. 20 sentyabr tarixi hadisəsi ölkəmizin beynəlxalq nüfuzunun artmasına, xarici dövlətlərlə əlaqələrin genişlənməsinə şərait yaratdı.

"Əsrin müqaviləsi"ndən keçən 20 il ərzində Azərbaycanın iqtisadiyyatı uğurlu bir inkişaf yolu keçmişdir. Bu müddət ərzində ölkəmizdə bir sıra sosial-mədəni proqramlar həyata keçirilmişdir. Neft strateguyasının nəticəsi olaraq əldə edilən neft gəlirləri çoxaldıqca bir çox sahələrə o cümlədən təhsilə ayrılan vəsaitdə artmışdır. Onuda qeyd edək ki, neft gəlirlərinin toplanması, idarə edilməsi, səmərəli şəkildə istifadəsi, 1999-cu ildə yaradılmış neft fondu tərəfindən həyata keçirilir. Neft fondunun vəsaiti hesabına elm, təhsil və mədəniyyətimizin inkişafı sahəsində əsaslı dəyişikliklər baş vermişdir.

Gənc nəslin keyfiyyətli, beynəlxalq standartlara uyğun təhsil alması, neft fondunun vəsaiti ilə Avropanın bir sıra universitetlərində təhsil alan Azərbaycan tələbələrinin təqaüd proqramlarının reallaşması məhz neft strategiyasının uğurla həyata keçirilməsindən xəbər verir. Bu gün Azərbaycan gəncləri dünyanın bir sıra nüfuzlu universitetlərində təhsil alır. Belə ki, gənclərimiz Amerikanın, Fransanın, Böyük Britaniyanın, İtaliyanın, Almaniyanın, eləcə də Asiyanın bir çox universitetlərində təhsillərini müvəffəqiyyətlə davam etdirirlər.

Azərbaycan gənclərinin xaricdə təhsili məsələsi pioritet sahə kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili dövlət proqramı" haqqındakı sərəncamında öz əksini tapmışdır. Dövlət proqramına uyğun olaraq gənclərin xaricdə təhsili hər il dinamik olaraq yüksəlir.

Təhsil sahəsində bi sıra uğurlu layihələrinin o cümlədən xaricdə təhsil sahələrinin həyata keçirilməsi, yüksək ixtisaslı kadrların yetişdirilməsi, neft kapitalının insan kapitalına çevrilməsi və s. bu kimi məsələlər milli təhsil konsepsiyasının biridir.

Beləliklə, Azərbaycanda milli təhsilin inkişaf konsepsiyası, ümummilli lider Heydər Əliyevin neft strategiyasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

***Ə.Ə.Ağayev, İ.E.Qarayeva, M.K.Nəzərova***
*Sumqayıt Dövlət Universiteti*

## SSRİ DÖVRÜNDƏ H.ƏLİYEVİN NEFT SİYASƏTİNİN BƏZİ MƏQAMLARI

Neft sənayesinin SSRİ dövrünü nəzərdə keçirdikdə birmənalı görmək olur ki, Bakı neftindən qazanılan pullar Azərbaycana, Bakıya yox daha çox SSRİ-nin digər respublikalarının inkişafına sərf olunurdu. Azərbaycan bütün sahələrdə geri qalmış bir Respublika idi bir çox yerlərdə bizi heç tanımırdılar Ermənistan və Gürcüstanın nüfuzu bizdən qat- qat çox idi. Ulu öndərimiz H. Əliyev Azərbaycana rəhbər təyin olunduqdan sonra bütün sahələrə o cümlədən neft sənayesinə yeni bir nəfəs gəldi. İlk növbədə o neftdən əldə olunan qazancın Azərbaycana ayrılan payının artırılmasına nail oldu və ölkənin büdcəsi iki dəfə artırıldı. Bu ulu öndərimizin ən böyük nailiyyətlərindən biri idi. Xəzərdə daha dərin quyular qazmaq üçün yarımdalğa üzən adır yük qaldıran kranları olan gəmilər alındı. Yarım milyard dollara başa gələn Dərin dəniz özüllər zavodu tikilib istifadəyə verildi. Bu zavodun "Əsrin müqaviləsi"nin gerçəkləşməsində misilsiz xidmətləri oldu və o bu gündə neft sənayesinə uğurla xidmət edir. İki ELOU- AVT kompleksləri alınıb quraşdırıldı və istifadəyə verildi. 6 milyon ton neft emal edən bu qurquları işə salandan sonra Qara şəhərdə hələ Nobelin vaxtından qalan mənəvi köhnəlmiş 11 zavod söküldü və şəhərin ekoloji durumu xeyli yaxşılaşdı.

Neft emalı sənayesində yeni emal kompleksləri yaradıldı Avropa texnologiyası (Böyük Britaniya) ilə hazirlanmış katalitik krekinq qurğusu ABŞ texnologiyasına əsaslanan katalitik riforminq kompleksi ona Litvin də deyirlər quraşdırılıb işə salındı. Bütün Qafqazın və Türkmənstanın yüksək oktanlı benzinlərlə təminatı (Aİ-93) Azərbaycannın neft emalı sənayesi hesabına həyata keçirilirdi.

Neft emalı o dövrlərdə 20 milyona çatmışdı. Qazaxstan və Sibir neftlərinin bir qismi Bakıda emal olunurdu. Bakı sözün əsl mənasında SSRİ-nin ən müasir neft emalı komplekslərini özündə cəmləmişdi. Həmin illərdə kokslaşma kompleksi də işə salındı və alınan koksun hamısı qızıl pulla Yaponiyaya satılırdı. H.Əliyevin bu uzaq görən neft siyasəti 90-cı illərdə Azərbaycana gəlir gətirən əsas sahələrdən biri idi. Bu gün də bu komplekslər müvəffəqiyyətlə fəaliyyət göstərir və ölkəni keyfiyyətli dizel yanacağı reaktiv yanacaq, yüksək oktanlı avtomobil yanacağı və sürtgü yağları ilə təmin edirlər.

Ulu öndərimiz H. Əliyev ikinci dəfə hakimiyyətə gəlməsə idi "Əsrin müqaviləsi "də çətin ki, reallaşacağıydı. Onun dəstəyi, biliyi, təcrübəsi, ünyadakı nüfuzu bu müqaviləni reallaşdırdı. Necə ki, XIX əsrin 70-ci illərində neft sənayesi yaranan dövrdə. O dövrdə "Nobel qardaşları" dahi kimyaçı Mendeleyevin vasitəçiliyi ilə II Aleksandrla görüşüb onun dəstəyini və razılığını alandan sonra ürəklə fəaliyyətə başladılar. Tarixin təkrarı göz qabağındadır.

***R.İ.Məmmədova, N.A.Mustafayeva, Z.F.Abuşova***
*Sumqayıt Dövlət Universiteti*

## 1920-1940-CI İLLƏR ƏRZİNDƏ AZƏRBAYCAN NEFTİNİN DAXİLİ VƏ XARİCİ BAZARA ÇIXARILMASI

Keçmiş SSR-nin yarandığı gündən idxal-ixrac dövriyyəsinin təhlili göstərir ki, Bakı neftinin ixracı Sovet dövlətinin xarici ticarət strategiyasının əsas xəttini təşkil edirdi.

Azərbaycan Respublikası Dövlət Elm və Texnika Sənədləri Arxivinin "Neft siyasəti" bölməsində saxlanılan sənədlərə görə dünyada analoqu olmayan Azərbaycan nefti hesabına beynəlxalq bazara çıxmaq, xüsusilə Avropaya neft ixrac etmək böyük sərvətlər əldə edən bir sıra ölkələrlə rəqabətə girib, onları sıxışdırmaq meyllərini əks etdirir.

Dünyanın ixrac bazarlarına çıxmaq üçün 1931-ci ilin ortalarında Bakı-Batumi neft kəmərinin və eyni müddətdə Batumidə

neftayırma zavodlarının tikintisinin başa çatdırılması ilə Sovet ittifaqı dünya neft bazarlarında üstünlüyü ələ aldı.

Sovet dövləti Bakı-Batumi neft kəməri ilə yanaşı başqa istiqamətlərdə də Bakı neftinin daşınıb xarici bazarlara çatdırılması işini davam etdirirdi.

Ölkənin ixrac imkanlarının genişləndirilməsi və yeni neftayırma zavodlarının tikintisi neft emalı həcminin və keyfiyyətinin artırılmasını tələəb edirdi.

Ümumittifaq miqyasında əsas yağ mərkəzi olan Bakıda Sovet dövründə cəmi iki yeni batareya-yağ və avtol batareyaları tikilmişdi.

1927-28-ci illərdə sürtkü yağlarının miqdarı hətta Birinci Dünya müharibəsindən əvvəlki həcmdə olmamışdı.

1935- 40-cı illərdə neft istehlakçısının daxili bazarda ödədiyi qiymət Avropa ölkələrində istehlakçının idxal benzini üçün ödədiyi qiymətdən yüksək idi.

Azərbaycan neft sənayesi məhsullarının satış perspektivləri məsələsinin kəskin şəkildə qoyulması və vaxtında yerinə yetirilməsi ona görə idi ki, dünya və vətəndaş müharibələrindən böyük ziyan çəkmiş Bakı neft sənayesi 1920-1922-ci illərin ciddi yanacaq qurğularından sonra ilkin bərpa prosesini bütünlüklə xalq təsərrüfatının digər sahələrinə nisbətən daha sürətlə həyata keçirmək imkanına malik idi.

Daxili bazarda neft yanacağının istehlakının artım sürəti böyük maraq doğururdu.

Yanacaq təchizatı planı hazırlanmışdı ki, ölkənin yanacaq balansında neftin payı müəyyən edilsin. Ölkənin daxili tələbatı üçün emal prosesləri dərinləşdirildi. Beləliklə, müharibədən sonrakı beşilliklərdə neft zavodlarında təsərrüfatın bərpası, xammaldan istifadənin yaxşılaşdırılması, yeni məhsullar hazırlanmasının təşkili sahəsində böyük işlər görüldü.

***R.İ.Məmmədova, P.M.Şirinov, B.H.Məmmədova***
*Sumqayıt Dövlət Universiteti*

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN NEFTİ

Azərbaycanın neft sənayesi müharibədən əvvəlki beşillik planlar əsasında inkişaf edərək, respublikanın xalq təsərrüfatının aparıcı sahəsinə çevrilmişdi.

Müharibədən əvvəl və müharibə illərində Azərbaycanın neft sənayesinin əsasını Bakı neft mədənləri təşkil edirdi. Bütün neft emalı zavodları və neft-maşınqayırma zavodları da Bakıda yerləşirdi. Bakının neft emalı zavodlarında yeni istehsal qurğularının tikintisinin sürətləndirilməsi və mövcud qurğuların genişləndirilməsi üçün Xalq Neft Komissarlığı tərəfindən əsaslı tikinti üçün müəyyən edilmiş əsaslı vəsait qoyuluşunun həcmi 48 milyon rubl məbləğində artırılmış, o cümlədən Bakıda yüksək oktanlı yanacaq qurğusunun tikintisinə 8 milyon rubl, Pirallahıda neft tənzimləmə qurğusunun işə salınmasına 3 milyon rubl, işləyən neft emalı zavodlarının texnoloji avadanlığının yaxşılaşdırılmasına və qismən dəyişdirilməsinə 7,5 milyon rubl ayrılmışdır.

1940-cı ildən 1945-ci ilədək Azərbaycan geoloqları tərəfindən aparılmış kəşfiyyat işləri yüksək debitli quyular fondunu xeyli artırmağa imkan verən qazma üçün nöqtələrin müəyyənləşdirilməsi ilə nəticələnmişdi.

Neftçilər başlanmış müharibənin həm də neft uğrunda müharibə olduğunu dərk edirdilər. Mexanikləşdirilmiş ordunun neft məhsullarına-benzinə, mazuta, yağlara və digər yanacaq növlərinə tələbatı onların üzərinə böyük məsuliyyət qoyurdu. Ölkənin başlıca yanacaq mənbəyi olan neft Bakısı cəbhə qaydaları ilə işləməyə başladı.

Bakı neftçiləri müharibənin ən ağır şəraitində 1942-ci ilin proqramının yerinə yetirilməsinə nail oldular. 1944-cü ilin sonralarında Bakının maşınqayırma zavodları Neft sənayesinin ehtiyaclarını tamamilə ödəyirdi.

II Dünya müharibəsində SSR-nin qələbəsini təmin edən amillərdən biri Azərbaycan alimlərinin neft emalı sahəsindəki kəşfləri özünə məxsus yer tutur.

Akademik Y.Məmmədəliyevin alkilbenzol istehsalı üsulu ilə yüksək oktanlı komponentlərin əldə edilməsi və bununla da yüksək keyfiyyətli təyyarə benzini (B-78) alınmasına səbəb oldu.

Kimyaçı alimin böyük xidmətlərindən biri partlayıcı maddələrin əsas tərkib hissəsi olan toluolun istehsalı üsulunu kəşf etməsi oldu.

İkinci dünya müharibəsi neft uğrunda başlamış və neftlə də öz sonluğunu tamamlamışdı.

***Ş.H.Alıyeva***
*Sumqayıt Dövlət Universiteti*

## ƏSRİN MÜQAVİLƏSİ İLƏ AZƏRBAYCAN NEFTİNİN BU GÜNÜ

təqilliyi haqqında Konstitusiya aktı qəbul edildikdən sonra Azərbaycana, onun zəngin yeraltı və yerüstü sərvətlərinə Amerika, Avropa və Asiyanın aparıcı dövlətlərinin marağı bir qədər də artdı. Xəzər dənizi və Xəzər hövzəsi rayonu Rusiya və İran kimi dövlətlərlə yanaşı digər ölkələrin də maraq obyektinə çevrildi. Burada əsas səbəb bölgənin geosiyasi və iqtisadi əhəmiyyətini, Xəzərin zəngin karbohidrogen ehtiyatları və digər sərvətləri idi. Bu baxımdan Azərbaycanın yürütdüyü xarici siyasət kursu mühüm əhəmiyyət daşıyırdı. 1993-cü ildən bəri yürüdülən xarici siyasət region ölkələri, Avropa dövlətləri və Amerika Birləşmiş Ştatları ilə hərtərəfli iqtisadi əlaqələrin qurulmasına, xüsusən enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək prioritet istiqamət təşkil edir. 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev Azərbaycanın xarici siyasətinin təməl prinsiplərindən biri kimi ölkəmizin milli maraqlarını və xarici dövlətlərin qarşılıqlı mənafelərini nəzərə almaqla, Azərbaycanın neft ehtiyatlarına maraq göstərən hər bir ölkəylə qarşılıqlı-faydalı əməkdaşlığa hazır

olduğunu bəyan etdi. Əsas məqsəd ölkənin mövcud sərvətlərinə, o cümlədən zəngin neft və qaz ehtiyatlarına sahib olmaq, onlardan dövlətin möhkəmlənməsi, əhalinin həyat şəraitinin yaxşılaşması və ölkənin beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində düzgün istifadə etmək idi.

1994-cü il sentyabrın 20-də Bakıdakı "Gülüstan" sarayında öz müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almış müqavilə bağlandı. Dənizin dərinliyində yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik bu müqavilə 4 dildə tərtib edilmişdir. "Əsrin müqaviləsi"ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoko, bp, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı.

"Əsrin müqaviləsi" imzalanandan sonra onun iştirakçıları işçi strukturlar – Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaratdılar. Həmin strukturlar hüquqi səlahiyyət qazandıqdan, yəni 1994-cü il dekabrın 2-də Azərbaycan Prezidenti xüsusi Fərman imzalayandan sonra fəaliyyətə başladılar. 1994-cü il dekabrın 12-də Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi.

Prezident Heydər Əliyevin 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanma mərasimində söylədiyi nitq geniş mənatutumlu tarixi sənəd olub, təkcə siyasi maraqlar dilində deyil, həm də siyasi təhlil dilində danışmağa imkan verir. Bu nitqdə Azərbaycan dövlətinin başçısının niyyət və qərarlarını interpretasiya etmək üçün onun zəngin dil və dünyagörüşü imkanları ifadə edilmişdir.

Heydər Əliyev mərasimdə iştirak edənlərə bu böyük hadisənin tarixindən, böyük uğurlar və faydalı nəticələrlə zəngin olan Bakı neft sənayesinin tarixindən söhbət açdı. Onun nitqinin tezisləri bir neçə əsas müddəaya əsaslanırdı.

"Neft sənayesinin inkişafı ... Bakının, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük təkan vermişdir".

“1918-ci ildə... demokratik dövlət yaradıldı”. “Bu dövlət xalqımıza məxsus olan sərvətlərdən onun rifahı üçün səylər göstərmişdir”.

Sonra “sovet sosialist hakimiyyəti qurulmuşdur... Azərbaycan həmin quruluş şəraitində, Sovet İttifaqının tərkibində olmuşdur. Azərbaycanın ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir”.

“1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycanın iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir”.

“Əsrin müqaviləsi” tarixə Heydər Əliyevin Prezident hakimiyyəti siyasətində baza prioritetini – neft strategiyasını müəyyən etmiş ilk iri iqtisadi sənəd kimi düşmüşdür. Lakin “Əsrin müqaviləsi”nin əhəmiyyəti hələ o vaxt da təkcə gözlənilən merkantil səmərə ilə məhdudlaşmırdı. 1990-cı illərin əvvəlində Azərbaycan Heydər Əliyevin layihəsi əsasında fəlakətli vəziyyətdən çıxırdı. Layihə onun siyasətində həmişə olan və dilə gətirilməyən, ən uzaqgörən məsləkdaşlarının oxuya bildiyi mülahizələrin məcmusu idi. O illərdə Azərbaycan dövləti tarixi Azərbaycan dövlətçiliyinin varisi hüquqlarını həyata keçirməyə, təkcə özünün mövcud olduğu qısa zaman kəsiyi üçün deyil, Azərbaycan tarixinin bütün təcrübəsi üçün məsuliyyət daşımağa məhkum idi. Bu mənada “Əsrin müqaviləsi” ayrı-ayrı dövrlərin əlaqəliliyi ideyasını, Heydər Əliyev siyasətinin əsas məqsədinə - ictimai rifaha xidmət edən dəyərləri əks etdirən dünyagörüşü aktına çevrildi.

“Əsrin müqaviləsi”nin reallaşdırılması indi, neçə illər keçəndən sonra, çox düzgün olaraq Azərbaycan millətinin malik olduğu potensial qüvvə barədə düşünməyə vadar edir. Bu qüvvə adi gözlə görünməyən enerji ehtiyatlarından, millətin iradə gücündən və böyük amallara can atmasından asılıdır.

# II BÖLMƏ

# ƏSRİN MÜQAVİLƏSİ VƏ AZƏRBAYCANDA ELMİ-TEXNİKİ TƏRƏQQİ

***T.S.Süleymanov***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## ÖZLÜ MAYENİN QƏRARLAŞMAYAN HƏRƏKƏTİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Neft-qaz sənayesində özlü mayelərin oyuqlu kanallarda hərəkətinə tez-tez rast gəlmək olur. Təqdim olunan işdə düzbucaqlı oyuğa malik kanalda özlü mayenin hərəkətinə baxılır. Məlumdur ki, mayelərin bu cür hərəkəti ancaq qərarlaşmayan ola bilər. Özlü mayenin oyuqlu kanalda hərəkəti zamanı oyuqda dairəvi ölçüyə malik burulğanlar yaranır və bu burulğanların sayı nə qədər çox olarsa, bir o qədər də potensial axının sahəsi azalır və nəticədə axına qarşı müqavimət əmsalının qiyməti çoxalır. Oyuğun dərinliyi nə qədər çox olarsa Reynolds ədədinin böyük qiymətlərində laminar hərəkət rejimində oyuğun bir yerində burulğanların sayı çoxalır. Böyük radiusa malik burulğanlar kiçik radiusluları müəyyən qədər sıxmağa başlayır, bu isə öz növbəsində oyuğun daxilində təzyiq artımına səbəb olur. Mayenin sıxılmasını nəzərə alıb müəyyən dərinlikdə təzyiqin dəyişməsini tapmaq olur.

Təqdim olunan işdə özlü mayenin oyuqlu kanalda hərəkəti zamanı oyuqda yaranan elastiki enerjini tapmaq üçün düstur təklif olunmuşdur. Göstərilmişdir ki, oyuğun içindəki mayedə toplanan elastiki enerji mayenin həcmi və təzyiqin kvadratı ilə düz, mayenin elastiki modulu ilə tərs mütənasibdir. Eyni zamanda mayedə yaranan elastiki enerjinin oyuğun dərinliyindən asılılığı açıq-aşkar hiss olunur. Belə ki, oyuğun dərinliyi nə qədər çox olarsa, orada yaranan elastiki enerji bir o qədər çox olur. Eyni zamanda qeyd

olunur ki, mayelərdə elastiki enerji ancaq onların sıxılması zamanı yaranır.

***Ö.M.Kərimov***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## ŞTANQLI QUYU NASOSLARININ İŞGÖRMƏ QABİLİYYƏTİNİN ARTILIRMASINA DAİR

Yüz ilə yaxındır ki, neft quyularının istismarında, xüsusi ilə az hasilatlı (5 $m^3$/gün-qədər), orta hasilatlı (100$m^3$/gün–qədər) və nasosun imkanı daxilində yüksəkhasilatlı (500$m^3$/gün – qədər) quyuların istismarında ştanqlı quyu nasosları geniş miqyasda tətbiq olunmaqdadır. Bu dövr ərzində ştanqlı quyu nasosları çox böyük inkişaf mərhələsi keçmişdir. İstismar şəraitinin tələblərinə uyğun olaraq onların konstruksiyaları fasiləsiz olaraq təkmilləşdirilmiş və ardıcıl olaraq müvafiq təkmilləşdirilmiş ştanqlı quyu nasoslarının istehsalı üçün nəzərdə tutulmuş PTM-34-57, H607-62, MPTY-04-7-62, QOST-6444-67, OH26-02-150-69, OST26-02-1424-76 və AZS-012-98 və TŞ AZ-117778 rəhbər sənədlərində öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, ştanqlı quyu nasoslarının müasir vəziyyəti qənaətbəxş sayılsada istismar şəraitinin getdikcə ağırlaşması ilə əlaqədər olaraq onların istismarında bir sıra problemlər mövcuddur. Bu problemlərdən silindr və plunjer cütlüyünün sürtünmədən yeyilməyə qarşı müqavimətinin az olmasını, ayrı-ayrı elementlərinin tez-tez işdən imtina etmələrini, çıxarılan neftin fiziki-mexaniki tərkibinin təsirinə həssas və verim əmsalının aşağı olmasını və s. göstərmək olar. Göstərilən problemlərin həlli hal-hazırda neftçıxarma sənayesinin aktual məsələlərindəndir. Bu məsələlərin aktuallığına baxmayaraq ştanqlı quyu nasosu ilə istismar olunan quyuların sayının tədricən azalması, quruda az hasilatı gözlənilən quyuların qazılmasına diqqətin zəifləməsi, Suraxanı maşınqayırma zavodunun istehsalı olan ştanqlı quyu nasoslarının istehsalına laqeyid münasibət və s. bu kimi amillər getdikcə ştanqlı nasosların və eləcədə bütövlükdə ştanqlı quyu nasosu qurğusuna dair tədqiqat işlərinin maraq dairəsindən uzaqlaşmasına səbəb olmaqdadır.

Onuda qeyd edək ki, neft məhsullarına olan tələbatın artması ilə əlaqədar olaraq gələcəkdə mövcud quyularda olan qalıq neftin və eləcədə az hasilatlı quyuların qazılması və onların istismarı günün tələblərinə çevrilməsi heç bir şübhə doğurmur. Belə halda ştanqlı quyu nasoslarını əsaslı sürətdə əvəz edəcək bir qurğu və ya istismar üsulu yaradılmayınca ştanqlı quyu nasosu üsulu öz aparıcı gücünü saxlayacaqdır.

Deyilənləri nəzərə alaraq baxılan məruzədə ştanqlı quyu nasoslarının işgörmə qabiliyyətinin yüksəldilməsinə imkan verən aşağıdakı məsələlərin həlli şərh olunur:

-mexanikləşdirilmiş üsulla quyuların istismarında yaranan əngəlliklərin yeraltı avadanlıqların işgörmə qabiliyyətinə təsiri ilə əlaqəli məsələlərin o, cümlədən: yeyilmə, abrazivli mühitdə tutulmalar (pərcimlənmə), sınmaların, dinamiki təsirlərin və s. nəzəri cəhətdən əsaslandırılması və müvafiq araşdırılmaların aparılması;

-yeraltı avadanlıqların normal işləməsinin təmin edilməsi istiqamətində mürəkkəbləşmələrə qarşı nəzəri cəhətdən əsaslandırılmış köməkçi konstruktiv-texnoloji tədbirlərin işlənməsi və s.

***G.F.Nəzərova, Z.S.Allahverdiyev***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## TƏBİİ NEFT TURŞULARININ AMİDLƏRİNİN QEYRİ-ÜZVİ KOMPLEKSLƏRİNİN İNHİBİTOR XASSƏLƏRİ

Respublikamızda neftin hasilatı və nəqlinin artması korroziya inhibitorlarına olan tələbatı da artırır. Neft və qazçıxarma, neft və qaz emalı sənayelərinin ən ciddi problemi korroziya problemidir. Böyük neft və qaz ehtiyatlarına malik Respublikamız üçün bu problem daha çox aktualdır. Göstərilən problemin həllində ən əlverişli üsul inhibitorların istifadəsi olsa da ölkədə sənaye miqyasında inhibitor istehsalının olmaması problemin səmərəli həllinə imkan vermir. Digər tərəfdən neft emalı prosesinin bəzi əlavə məhsullarının məqsədyönlü istifadə istiqamətlərinin tapılmaması əsas məhsulların keyfiyyətinə, istehsalın səmərəliliyinə mənfi təsir edir.

Neft və qaz çıxarma sənayesində turş mühitdə korroziya, layda sulfat reduksiyaedici bakteriyaların (SRB) inkişafı və duzçökmə prosesləri ciddi problemlər yaradır ki, bu da tez-tez boş dayanmalara, qəzaların baş verməsinə, ətraf mühitə neft və neft məhsullarının, qaz kondensatının, lay sularının tökülməsinə səbəb olur. Hazırda qeyd olunan proseslərlə mübarizədə ən əlverişli üsul olaraq inhibitorlardan istifadə həyata keçirilir. Lakin hər bir proses üçün ayrı-ayrı inhibitorların istifadəsi əlavə çətinliklər yaradır: bir çox hallarda eyni zamanda istifadə olunan inhibitorlar antoqanizm yaradaraq biri digərinin səmərəliliyini aşağı salır, hətta bəzi hallarda eyni inhibitor bir prosesi ləngitsə də digərini stimullaşdırır. Üç müxtəlif prosesə qarşı ayrı-ayrı reogentlərin istifadəsi ümumi məsrəfləri artırır, iqtisadi səmərəliliyi azaldır. Odur ki, çoxfunksiyalı reogentlərin yaradılması və istifadəsi daha məqsədə uyğun hesab olunur. Bu məksədlə biz H. Əliyev adına Neft Emalı Zavodunda əlavə məhsul kimi alınan təbii neft turşuları (TNT) əsasında amidlər sintez etmiş və onların müxtəlif qeyri-üzvi komplekslərini almışıq. Sintez zamanı TNT və poliaminin mol nisbətləri dəyişdirilməklə malekulunda 1:6 TNT qalığı saxlayan amidlər sintez edilmişdir. Alınmış amidlərin HCl, HBr, HJ, $HNO_3$, $H_3PO_4$ ilə qeyri-üzvi kompleksləri sintez olunmuşdur. Komplekslərdə qeyri-üzvi turşu anionunun malekuldakı sayı 1:2 intervalında olmuşdur. Bu komplekslərin suda, su- spirt qarışığında və spirtdə həll olmaları öyrənilmiş, hər bir kompleks üçün optimal həll olma hədləri müəyyənləşdirilmişdir. Spirt kimi izopropil spirtindən istifadə edilmişdir və buda onunla əlaqədardır ki, hazırda ölkəmizdə ən geniş istehsal olunan spirt izopropil spirtidir. Su- spirt qarışıq həlledicisində nisbət elə olmalıdır ki, həll olma maksimum olsun. Digər tərəfdən su-izopropil spirti qarışığı inhibitor kimi təklif olunacaq kompleks məhlulunun donma tempraturunun aşağı olmasını təmın edir. Bu baxımdan təmiz izopropil spirti daha əlverişli olsada onun çox baha olması həlledici kimi tək istifadəsini çətinləşdirir.

TNT-nin amidi polietilenpoliaminin əsasında alınmışdır:



Qeyd edək ki, amidlər TNT- nin distilləsindən alınan dar fraksiyalar əsasında da sintez edilmiş, inhibitor və bakterisid xassələrinin üzvi turşu qalığının böyüklüyündən və malekuldakı sayından asılılığı öyrənilmişdir.

Amidlər əsasında alınan qeyri-üzvi komplekslər tərkibində $10^6$/ml SRB hüceyrəsi olan mühitdə yoxlanılmlşdır.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, malekulunda bir və iki xlor ionu saxlayan komplekslər yuxarıda qeyd olunan mühitdə 100 mq/l qatılıqda korroziya prosesini uyğun olaraq 95, 96 % ləngidir.

Həmçinin müəyyən edilmişdir ki, bu komplekslər >100 mq/l-dən yuxarı qatılıqlarda lay sularında duz çökməni də tam dayandırırlar.

***E.İ.Abbasov***
*ARDNŞ, "AZƏRİQAZ" İB*

## ŞTANQLI QUYU NASOSLARINDA MEXANİKİ YEYİLMƏNİN TƏDQİQİ

Ştanqlı quyu nasoslarının mexaniki yeyilməsinə dair çoxsaylı tədqiqatların aparılmasına baxmayaraq həmin məsələ neftçıxarmada aktual problemlərdən biri olaraq qalır. Xüsusilə, qeyd olunan problemin analitik tədqiqi lazımi səviyyədə aparılmamışdır.

Təqdim olunan məruzədə məhz bu məsələyə baxılır. Burada nasos elementlərinin tərkibində mexaniki qarışıqlar olan mayelərin hasil edilməsi zamanı onların miqdarının, ölçü və fiziki xüsusiyyətlərinin sürtünmədən yeyilmə prosesinə təsiri analitik yolla araşdırılmış və nasosun silindr-plunjer cütləri arasında sürtünmə qüvvəsi üçün aşağıdakı analitik ifadə alınmışdır:

$$F_s = \frac{\pi R r HB_1 HB_2}{rHB_2 + RHB_1}\Delta n_a f$$

Burada $R, r-$ müvafiq olaraq çubuq şəklində götürülmüş abraziv hissəciyin sonluqlarının radiusu;

$HB_1$ və $HB_2$ silindr və plunjerin örtük təbəqəsinin Brinnelə görə bərkliyi;

$\Delta-$ abraziv hissəciyin silindr və plunjerin materialına batma dərinliyi;

$n_a-$ sürtünmədə iştirak edən abraziv hissəciklərin sayı;

$f-$ sürtünmə əmsalıdır.

Bununla yanaşı nasosun hərəkətli hissələrinin qeyri oxluğu nəzərə alınmaqla sürtünmə qüvvəsi təyin edilmiş və onun yeyilmə prosesinə təsiri araşdırılmışdır.

Aparılan nəzəri tədqiqatlara əsaslanaraq mürəkkəb şəraitdə işləyə bilən və istismarda texnoloji proses zamanı meydana çıxan çətinliklərə qarşı daha davamlı və etibarlı ştanqlı quyu nasoslarının bir sıra variantları işlənmişdir. Təklif olunan konstruksiyaların mövcud konstruksiyalarla müqaisəsi verilmiş və onların üstün cəhətləri qiymətləndirilmişdir.

***S.R.Rəhimova, Z.S.Allahverdiyev***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## SƏNAYE OBYEKTLƏRİNDƏ QƏZA VƏ ƏTRAF MÜHİTİN ÇİRKLƏNMƏSİNİN QARŞISININ ALINMASINDA OPTİMAL İDARƏ SİSTEMİNİN ROLU HAQQINDA

Azərbaycan Respublikasının Yanacaq Energetika Kompleksinin (2005-2015 illər) inkişaf planının əsas istiqamətlərindən biri onun ekoloji təhlükəsizliyinin təmin edilməsindən ibarətdir. Respublikada qəbul edilmiş "Ətraf mühitin mühafizəsi haqqında", "Atmosfer havasının qorunması haqqında", "Məcburi ekoloji sığorta haqqında" və s. qanunlar bu işlərin aparılması üçün hüquqi baza yaradıldığını göstərir.

Bu qanunlar əsasında "Ekologiya və Təbii Sərvətlər Nazirliyi" tərəfindən Yanacaq-Energetika komplekslərinin fəaliyyəti prosesində ətraf mühitə buraxılan zərərli maddələrin normativ qatılıqları müəyyən edilmişdir. Yanacaq-Energetika komplekslərinin ekoloji problemlərinin həll edilməsi üçün onların yaranma səbəbləri araşdırılmalı və sonra tədbirlər görülməlidir. Bizim fikrimizcə Yanacaq-Energetika kompleksinin müxtəlif sahələrində ekoloji problemlərin yaranmasının səbəblərindən:

I. Azərbaycan Respublikasının zəngin təbii karbohidrogen (neft, qaz) xammalı olduğundan neft və qaz hasilatının, emalının sürətli inkişafı yanacaq-enerji sahələrindən ətraf mühitə külli miqdarda zərərli və zəhərli maddələr atılır və tendensiya ildən-ilə artmaqda davam edir;

II. Müxtəlif yanacaq növlərinin qəbulu, saxlanması, buraxılışı, daşınması və yanması (istifadəsi) zamanı ətraf mühitə zərərli maddələr atılır. Bunun tənzimləməsinə nəzarət təkcə icra orqanları tərəfindən deyil, eyni zamanda istehsalatçıların özləri tərəfindən də olmalıdır ki, burda "Ətraf mühitin mühafizəsi haqqında" qanun 18-ci, "Atmosfer havasının qorunması haqqında" qanunun 25-ci bəndində öz əksini tapmışdır.

Neft-kimya sənayesində elmi-texniki tərəqqinin intensifikasiya xeyli dərəcədə müəssisənin müxtəlif sahələri üçün effektli və etibarlı işləyən optimal idarə sistemlərinin işlənməsi və tətbiq edilməsi ilə müəyyən edilir. Bu onunla əlaqədardır ki, bu halda obyektlərdə qəzanın (yanğın və partlayış) yaranması və ətraf mühitin çirklənməsi ehtimalı (riski) xeyli azalır.

Sənaye prosesləri üçün optimal idarə sistemi işlədikdə ən mürəkkəb, təhlükəli və böyük xərc tələb edən məsələ onların idarə edilməsi üçün riyazi modellərin işlənməsidir. Digər sahələrdən fərqli olaraq neft emalı və kimya sənayesinin əsas qurğusunda (reaktorda) texnoloji proseslərin (piroliz, krekinq və s.) riyazi modellərinin işlənmə problemi daha çox çətinliklərlə əlaqədardır. Bunun səbəbi bir tərəfdən yuxarıda

göstərilən proseslərin sənayedə aparılması üçün istifadə edilən aparatların müxtəlif konstruksiyalı və ölçülü olmasıdır, digər tərəfdən həmin proseslərdə emal edilən xammalın və alınan məhsulların çox mürəkkəb tərkibliliyi və reaksiya aparılan aparatın (reaktorun) qeyri-stasionarlığıdır.

Qeyd etmək lazımdır ki, hal-hazırda olan keyfiyyət cihazlarından (məsələn, xromotoqrafdan) daxil olan məlumatlara əsaslanan riyazi modellər piroliz və krekinq kimi sürətlə gedən proseslərin optimal idarə edilməsini təmin etmək mümkün olmur. Bu bir tərəfdən onunla izah edilir ki, həmin texnoloji proseslərdə xammalın reaktorda emal müddəti xromotoqrafın prosesdə alınan mürəkkəb tərkibli məhsulun təhlil müddətindən çox-çox azdır, digər tərəfdən həmin cihazların sənaye şəraitində istismarı göstərir ki, onlar istehsalat şəraitində lazımı dərəcədə etibarlı işləmirlər.

Yuxarıda göstərilənlərlə əlaqədar olaraq hal-hazırda həm bizdə, həm də xarici ölkələrdə bu problemin həllində keyfiyyət cihazlarının funksiyasını dolaylı yolla xarakterizə edən riyazi modellərdən istifadə edilir. Neft emalı və kimya sənayesində çox müxtəlif konstruksiyalı və ölçülü reaktorlarda aparılan baza texnoloji proseslər (piroliz, krekinq və s.) çox mürəkkəb olduğu üçün onların optimal idarə edilməsinə tələb olunan dəqiq riyazi modellərin nəzəri və kinetik tənliklər üsulu ilə tərtib etmək çox böyük çətinliklərlə əlaqədardır. Bundan əlavə həmin modellərin sənayedə tətbiqi üçün mürəkkəb və çox bahalı hesablama texnikası tələb olunur. Ona görə də, hal-hazırda, yuxarıda göstərilən qeyri-stasionar texnoloji proseslər üçün optimal idarə sistemi işlədikdə hər dəfə öyrənilən konkret sənaye reaktorunda mürəkkəb, təhlükəli, çox xərc və vaxt tələb edən təcrübələr aparılır və prosesləri dolayı yolla xarakterizə edən (reaksiyanın temperaturu, kontakt vaxtı, xammalın keyfiyyət göstəricisi və s.) parametrlərə əsaslanan riyazi modellər tərtib edilir.

Qeyd etmək lazımdı ki, bu cür ənənəvi üsulla hər bir yeni öyrənilən və istismarda olan reaktorlarda riyazi modellərin işlənməsi həm iqtisadi və həm də təhlükəsizlik baxımında effektli hesab etmək olmaz.

Yuxarıda qeyd etdik ki, hal hazırda sənayedə piroliz və krekinq prosesləri müxtəlif konstruksiyalı və ölçülü reaktor

qurğularında bir-birindən çox fərqli rejim parametrlərində (temperatura, kontakt vaxtı, xammal) aparılır. Bundan əlavə, elmi-tədqiqat və layihə institutları tərəfindən həmin proseslərin effektliliyini artırmaq üçün yeni konstruksiyalı reaktor qurğuları, xammallar və katalizatorlar tədqiq edilir ki, onlar da yaxın gələcəkdə istehsalata tətbiq ediləcəkdir. Ona görə də bu proseslərin istehsalatda optimal idarə edilmə problemini həll etmək üçün riyazi modellərin təhlükəsiz və iqtisadi cəhətcə əlverişli tərtibinin yeni effektli üsulları işlənilməlidir. Bizim fikrimizcə, yuxarıda göstərilən sənaye proseslərinin riyazi modellərinin tərtibinin yeni işlənmiş üsullar hal-hazırda istifadə edilən ənənəvi təcrübə üsullarından fərqli olaraq istehsalat şəraitində aparılan təcrübələrin həcminin xeyli azaldılmasına və onun nəticələrinin sadə üsulla emal edilməsini təmin etməlidir. Bununla əlaqədar olaraq, biz təklif edirik ki, bu proseslər üçün ümumiləşdirilmiş və sadə strukturlu riyazi modellər tərtib edilsin.

Bundan əlavə həmin modelləri müxtəlif konstruksiyalı sənaye reaktorlarına tətbiq etdikdə (eyni proses üçün) və yaxud prosesin gedişi zamanı qeyri-stasionarlıq səbəbindən riyazi modelin əmsallarını dəqiqləşdirdikdə istehsalat şəraitində böyük həcmində, təhlükəli, çox xərc və vaxt tələb edən mürəkkəb və çətin təcrübələrin aparılmasına ehtiyac olmayacaqdır. Beləliklə, hər bir yeni reaktor qurğusunda riyazi modellərinin işlənməsində qəza halının yaranma ehtimalı və sərf olunan xərclər xeyli azalacaqdır. Problemin həlli üçün tətbiq olunan metod həm laboratoriya, həm də istehsalat şəraiti üçün invariantdır.

***B.N.Əliyev***
*Sumqayıt Dövlət Universiteti*

## SU TƏCHİZATI, TULLANTILARIN TƏMİZLƏNMƏSİ VƏ EMALI MÜƏSSİSƏLƏRİNİN İNNOVATİV PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Müasir dünyada beynəlxalq meyarlara uyğun güclü dövlət kimi inkişaf etmək yalnız inovasiyalı iqtisadiyyata keçidlə mümkün ola

bilər. Başqa sözlə, rəqabətə davamlı, dayanıqlı və davamlı inkişaf edən iqtisadi sistemi səmərəli idarə etmək mümkündür.

Məhz bunun nəticəsidir ki, "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya", "Azərbaycan respublikası regionun 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" üzrə dövlət proqramları və "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiyalrı qəbul edilmişdir. Bu proqramlar və konsepsiyada əsas məqsəd qloballaşma şəraitində innovasiya fəaliyyətini keyfiyyətcə yeni müstəviyə gətirməklə, ölkə iqtisadiyyatının karbohidrogen ehtiyyatlarından asılılığını aradan qaldırmaq, qeyri-neft sənayesinin daha sürətli inkişafına nail olmaq, onun səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun inovasiya əsaslı irəliləyişini təmin etməkdir. Lakin, 2000-2013-cü illər üzrə respublikanın su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrində əsas sənaye-istehsal fondlarının mövcud vəziyyətini, yeniləşmə, sıradan çıxma və aşınma səviyyəsini, fondla silahlanma və fond verimi göstəricilərini qiymətləndirsək, məlum olur ki, bu sənaye sahələrinin texniki, texnoloji səviyyəsi beynəlxalq standartlara cavab verə bilən, rəqabətə davamlı istehsal etməyə bütövlükdə hazır deyil.

Bütün bu və ya digər araşdırmalar onu göstərir ki, su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesi müəssisələrində innovasiya fəaliyyətinin təşkili və idarə edilməsiu üzrə səmərəli layihələr işlənilib hazırlanmalıdır. Bu isə aşağıdakı istiqamətlərdə işlərin aparılmasını zəruri edir:

-Birinci istiqamət. Dövlətin "sənaye siyasəti" qanununun qəbul edilməsi məqsədəuyğun olardı. Bu siyasətdə sahə bir sıra struktur dəyişikliklərin aparılması və onun idarəetmə strukturunun təkmilləşdirilməsi, sahəyə xarici və daxili investisiyaların, o cümlədən subsidiyalar, güzəştli kreditləşmə, lizinq və digər maliyyə resurslarının cəlb edilməsinin ən səmərəli yollarının tapılması həyata keçirilməlidir. Bu siyasətdə elmtutumlu məhsulların istehsalınıngenişləndirilməsini təmin etmək və ET institutlarının fəaliyyətini genişləndirmək məsələləri öz əksini tapmalıdır.

-İkinci istiqamət. Sahədə mövcud texnika-texnologiya və istehsalın keyfiyyət göstəriciləri beynəlxalq standartlara uyğun

olaraq təkmilləşdirilməlidir. Bu məqsədlə, sahədə mövcud müəssisələrin istehsal sahələri modernləşdirilməli, istehsalın diversifikasiyası həyata keçirilməli, müxtəlif profilli, yeni emal və istehsal sahələri yaradılmalıdır. Sənayedə klasterləşmə yanaşmasından istifadə edilməlidir.

***İ.f.d., dos. A.S.Baxışov***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## RESPUBLİKAMIZDA REGİONAL KLASTERLƏRİN FORMALAŞMASININ METODİKİ ƏSASLARI

Araşdırmalar göstərir ki, istənilən regional klasterin əsas yeddi xüsusiyyəti mövcuddur: coğrafi təmərküzləşmə, ixtisaslaşma, innovasiyalılıq, rəqabət, kooperasiya, silsiləlik.

Coğrafi təmərküzləşmə klasterlərin məzmununun müəyyənləşdirilməsində mərkəzi xüsusiyyət hesab olunur. Klasterlərin əsas iştirakçıları coğrafi cəhətdən bir-birinə yaxın ərazilərdə yerləşirlər.

Dünyada mövcud olan 700 klaster üzərində aparılan müşahidələr göstərdi ki, klasterlərin 61%-i şəhər və metropoliya sərhədlərinə yaxın ərazilərdə, 20%-i bir region hüdudlarında, nisbətən çox az sayda klasterlər isə regional qruplardır və yaxud ölkə və region hüdudlarında yaradılmışdır[i].

İxtisaslaşdırma dedikdə klaster subyektlərinin bir-biri ilə əsas fəaliyyət növləri ilə bağlı olması başa düşülür; ixtisaslaşdırılmış tədarükçülərin bir –biri ilə qarşılıqlı əlaqəsi klasterlərin milli və dünya bazarlarında rəqabət qabiliyyətliliyinin yüksəlməsinə səbəb olur.

İnnovasiyalılıq – klasterin innovasiyalılığı dedikdə elmi fəaliyyətlə məşğul olan təşkilatlarla biznesin qarşılıqlı əlaqələrinin genişlənməsi, bütün menecmentin yeni ideylara meylliliyi, intellektual kapitalın yüksək səviyyədə istifadə olunması başa düşülür. Belə hesab edirlər ki, klasterlər bir sıra səbəblərə görə yeniliklərin tətbiq edilməsinə daha çox meyllidirlər:

-Klasterlərə üzv olmaq təsərrüfat fəaliyyətinin müxtəlif sahələri üzrə yeni texnologiyalardan istifadə olunması imkanlarını yaradır;

-Innovasiya prosesinə tədarükçü və istehlakçılar, həmçinin digər sahələrin müəssisələri də qoşula bilirlər;

-Şirkətlərarası kooperasiya nəticəsində Elmi Texniki Təcrübə Konstruktor Layihələrinə çəkilən xərclər azaldılır;

Klasterə daxil olan şirkət intensiv rəqabət təzyiqləri ilə qarşı-qarşıyadır, bütün bunlar isə öz növbəsində klasterə daxil olan təsərrüfat subyektlərinin digər analoji şirkətlərlə fəaliyyətinin müqayisə edilməsinə imkan yaradır.

Şirkətlərin rəqabət və kooperasiyası klasterlərin inkişaf etdirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Burada iştirakçılar bir birini tamamlayır, xidmət və resursların cəlb edilməsinə imkan yaradırlar. Halbuki təcrid edilmiş vəziyyətdə şirkətlərin həmin xidmət və resurslardan istifadə etmək imkanları məhduddur və yaxud qeyri mümkündür. Eyni zamanda sahədaxili rəqabət öz-özünə təkmilləşdirmə mexanizmi kimi də diqqəti cəlb edir.

***X.Y.Ağayeva***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## QEYRİ-NEFT SƏNAYE SAHƏLƏRİNİN DAYANIQLI VƏ DAVAMLI İNKİŞAF PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Ölkədə aparılmış iqtisadi islahatların uğurlu nəticəsidir ki, respublikamızda qeyri-neft sənayesi ildən–ilə daha sürətlə inkişaf edir.

Ölkə qeyri-neft sənayesində həm sahibkarlığın inkişafı, həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi istiqamətində iqtisadi islahatlar uğurla aparılmışdır. Bunun nəticəsidir ki, qeyri-neft sənayedə özəl sektor inkişaf etmiş, sənaye istehsalında isə qeyri-dövlət bölməsinin payı sürətlə artmışdır.

Əsas kapitala yönəldilən investisiyalarda qeyri-neft sənayesinin payı artmışdır. Bu belə izah olunur: 1) əgər əvvəllər ölkəyə gətirilən xarici investisiyalar əsasən beynəlxalq neft sazişləri üzrə reallaşdırılan layihələr üzrə daxil olurdusa, son illər bu mənbədən olan investisiyaların da əhəmiyyətli hissəsi qeyri-neft sahələrinə istiqamət almışdır; 2) son illərdə xüsusilə dövlət əsaslı kapital qoyuluşu hesabına daxili investisiyalar sürətlə artmaqdadır ki, bu vəsaitlər də başlıca olaraq, ölkənin bütün ərazisi boyu istehsal və sosial infrastruktur obyektlərinin yaradılmasında istifadə olunur, yəni qeyri-neft sektoruna yönəldilir .

Beləliklə, son illər Azərbaycan Respublikasında həyata keçirilən hərtərəfli əsaslandırılmış iqtisadi siyasətin və davamlı iqtisadi islahatların, habelə reallaşdırılan uğurlu sənaye siyasətinin nəticəsi olaraq ölkə iqtisadiyyatında qeyri-dövlət sektoru formalaşmış, ümumi qeyri-neft sənaye istehsalında artım dinamikası qeydə alınmış, ölkənin xarici ticarət dövriyyəsi kəskin artmış və ölkənin beynəlxalq inteqrasiyası güclənmişdir.

Lakin bu uğurlu islahatlarla yanaşı, bu və ya digər təhlillər onu deməyə əsas verir ki, həqiqətən də bu gün qeyri-neft sənayesi müəssisələrinin qarşısında duran əsas başlıca problem bu sahənin innovasiya fəaliyyətini yeni investisiya layihələri və proqramları əsasında yenidən qurulmasıdır.

Belə ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatlı ölkələrdə bütünlükdə istehsalın rəqabətqabiliyyətliyi məhz qeyd edilən layihələr və proqramlar əsasında həyata keçirilir.

Deməli, qey-neft sənayesi müəssisələrinin dayanıqlı, davamlı və rəqabətədavamlə inkişafı, onun dünyanın aparıcı sənaye sahələri ilə inteqrasiyasa edilməsi sahədə innovasiya fəaliyyətinin necə təşkil edilməsindən asılıdır. Bütün bunları əsas tutaraq, belə nəticəyə gəlirik ki, sahədə mövcud problemlərin həlli yolu investisiya-innovasiya prosesinin səmərəli təşkili və idarə edilməsindədir.

***S.Q.Əfəndiyev***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# EMAL SƏNAYE SAHƏLƏRİNİN İQTİSADİ İNKİŞAF PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Azərbaycan Respublikasında həyata keçirilən hərtərəfli əsaslandırılmış iqtisadi siyasətin və davamlı iqtisadi islahatların, habelə reallaşdırılan uğurlu sənaye siyasətinin nəticəsi olaraq ölkə iqtisadiyyatda, habelə emal sənayesində inkişaf prosesləri güclənmiş, ümumi sənaye istehsalında artım dinamikası qeydə alınmış, ölkənin xarici ticarət dövriyyəsi kəskin artmış və ölkənin beynəlxalq inteqrasiyası güclənmişdir.

Son illər Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illərinin) uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynamışdır.

Bununla yanaşı tədqiqat zamanı ortaya çıxan məsələlərdən biri də budur ki, ölkədə həyata keçirilən investisiya qoyuluşlarının böyük hissəsi Bakı şəhərinin payına düşür. Belə ki, 2005-2013-ci illərdə ölkə sənayesində əsas kapitala yönəldilmiş cəmi investisiya qoyuluşlarında Bakı şəhəri və Abşeron iqtisadi rayonunun xüsusi çəkisi 90% qədər olmuşdur İnvestisiya qoyuluşlarının belə ərazi strukturu ölkənin həm ümumi daxili məhsulunda, həm də sənaye məhsulunun strukturunda Bakı şəhərinin və Abşeronun payının yüksək olmasını şərtləndirir və ölkə iqtisadiyyatının ərazi strukturunda disproposiyaların artmasına səbəb olur.

Bütün bunları əsas tutaraq demək olar ki, ölkədə emal sənayesinin dayanıqlı və tarazlı inkişafının təmin edilməsinə investisiya qoyuluşlarının həcm və strukturu birbaşa təsir göstərir. Buna görə də, əsas kapitala investisiya qoyuluşlarının prioritetləşdirilməsi emal sənayesinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Emal sənayesində investisiya qoyuluşunun prioritet istiqamətlərinin

seçilməsi zamanı həm mikro, həm də makro amillər nəzərə alınmalı, prioritetləşdirmə hər iki səviyyə üzrə baş verməlidir. İnvestisiya qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edərkən – ilk növbədə, resursların emal sənayesi müəssisələrinin ayrı-ayrı sahələrinə yönəldilməsi və onun digər sahələrin inkişafı üçün əsas olmasını nəzərə almaq zəruridir. Bununla belə, investisiya qoyuluşlarının istiqamətlərinin müəyyən edilməsinə əlaqədar sahələrin inkişaf səviyyəsi əhəmiyyətli şəkildə təsir göstərir. Ölkədə iqtisadiyyatın səmərəli inkişafını təmin etmək üçün yüksək səviyyəli enerji kompleksinin, nəqliyyat sisteminin, sənaye və kənd təsərrüfatının satışı sisteminin və s. mövcud olması vacibdir. Digər tərəfdən isə, ortamüddətli və uzunmüddətli dövrdə emal sənayesi müəssisələrinin lazımlı və dayanıqlı inkişaf etdirilməsində əsas məqsəd ölkədə elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən emal sənayesi məhsullarının istehsal edilməsinə nail olmaqdan ibarətdir. Buna isə emal sənayesi müəssisələrində dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi, dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, innovasiya-investisiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi və sahədə diversifikasiya strategiyasının formalaşdırılması əsasında nail olmaqdır.

***İ.e.d., prof. Q.S.Süleymanov, i.f.d., dos. Ə.Ə.Əhmədova***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## İNNOVASİYA PROSESİNİN İNFRASTRUKTURUNUN TƏŞKİLİ MEXANİZMLƏRİ

Müasir şəraitdə yeni biliklərin tətbiqi prosesi bazar münasibətləri ilə əlaqəlidir. Təcrübə göstərir ki, innovasiyalar bazara və onun tələblərinin təmin edilməsinə yönəlmişdir. Innovasiya proseslərinin iştirakçıları arasında (yenilikləri işləyib hazırlayanlar və istehlakçılar arasında) əlaqənin pozulması, informasiyanın qeyri-şəffaflığı hələ ki əsas problem olaraq qalır və buna görə də işləmələrə və innovasiyaların maliyyələşdirilməsinə olan motivasiya aşağıdır.

İnnovasiya proseslərinin mürəkkəb kompleksli xarakteri, innovasiya fəaliyyətinin yeksək texniki, istahsalat, kommersiya və digər risk səviyyələri xüsusi dəstək infrastrukturu formalaşmadan, innovasiya fəaliyyətinin subyektləri üçün əlverişli mühit yaradılmadan innovasiya təşkilatlarının uğurlu fəaliyyətini qeyri mümkün edir.

İnnovasiya proseslərinə xidmət və kömək funksiyasını yerinə yetirən çoxlu təşkilatlar, innovasiya fəaliyyətinin subyektləri innovasiya infrastrukturunu yaradırlar.

Deməli, innovasiya fəaliyyəti strukturunda vacib alt sistem kimi innovasiya infrastrukturu fərqləndirilir ki, bu da innovasiya fəaliyyətinə yardım və dəstək üçün yönəldilmiş alt sistemdir. Bu alt sistemin özü mürəkkəb struktura malikdir. Onun əsas elementləri– innovasiya fəaliyyətinə kömək və dəstək olan layihə və paroqramlar, həmçinin onları icra edən təşkilatlardır. Innovasiya infrastrukturunun elementləri qarşılıqlı əlaqəddədir və bir birilərinə, həmçinin innovasiya fəaliyyəti strukturunun digər elemetlərinə qarşılıqlı təsir göstərirlər.

Başqa sözlə, innovasiya infrastrukturu – innovasiya fəaliyyətinin həyata keçirilməsinə imkan yaradan təşkilatlardır.

İnnovasiya infrastrukturu - innovasiya proseslərinə xidmət və kömək funksiyasını yerinə yetirən çoxlu innovasiya fəaliyyəti subyektləridir.

İnnovasiya infrastrukturunun müxtəlif elementlərinin köməyilə innovasiya fəaliyyətinə köməyin informasiya təminatı, innovasiya fəaliyyətinə istehsal-texnoloji dəstək, innovasiya məhsulunun sertifikatlaşdırılması və standartlaş-dırılması, innovasiya layihələrinin effektli işlənib hazırlanması və reallaşmasının inkişafına yardım, innovasiya layihələrinin və məhsullarının sərgilərinin keçirilməsi, konsultasiya köməyinin göstərilməsi, innovasiya fəaliyyəti üçün kadrların hazırlanması və yenidən hazırlanması və s. kimi əsas tapşırıqlarını həll edirlər.

Hal hazırda innovasiya infrastrukturunun bir çox ölkələrdə uğurlu inkişafını innovasiya infrastrukturunun müxtəlif elementlərinin birləşdirilməsi və koordina-siyası hesabına sinerji

effektinə çatmağa imkan verən inteqrasiya prosesləri ilə əlaqələndirirlər.

Mövcud tədqiqatları əsas tutaraq sonda belə nəticəyə gəlmək olar ki, innova-siyaların tənzimlənməsi səviyyəsindən asılı olmayaraq dövlət innovasiya infra-struktu üzrə tədbirləri həyata keçirməlidir. Bunlar aşağıdakılarla bağlı olan üç blokda birləşdirilə bilər:

- Maliyyələşdirmə ilə;
- Texniki biliklərin yayılması ilə;
- Rəqabət ilə.

***L.A.Sultanov, Ş.Ə.Qənbərova,***
***O.O.İsmayılov, V.M.Nəcəf-Quliyeva***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## AŞAĞI KÜR ÇÖKƏKLİYİ SAHƏSİNNİN NEFT–QAZ KOLLEKTOR XÜSUSİYYƏTLƏRİNİN PETROFİZİKİ TƏDQİQATLARLA PROQNOZLAŞDIRILMASI

Azərbaycanda neft strategiyasının həyata keçirildiyi bir zamanda prespektivli strukturlarin və neftli-qazlı obyektlərin müəyyənləşdirilməsində süxurların kollektoluq xüsusiyyətlərinin öyrənilməsi vacib məsələlərdən biri hesab olunur. Bu gün zəngin neft-qaz yataqları açılıb istismara verilsə də, bəzi sahələrin (strukturların) neft-qazlılığı barədə dəqiq məlumatlar əldə etmək üçün sahənin geoloji quruluşuna aydınlıq gətirmək məqsədilə süxurların petrofiziki xüsusiyyətlərinə müraciət etmək vacib məsələlərdən biridir.

Azərbaycanda dərin qatların neftlilik-qazlılıq perspektivliyi ilə əlaqədar son zamanlar xeyli həcmdə geoloji-axtarış və geofiziki işlər aparılmışdır, gələcəkdə kəşfiyyat işləri üçün əsas ola biləcək elmi meyarlar hazırlanmışdır. Qeyd olunmuşdur ki, əsas neft və qaz yataqları Mezakaynazoy dövründə intensiv gömrülməyə məruz qalmış Cənubi Xəzər və Kür cökəklikləri ilə əlaqədardır. Hövzənin mərkəzi hisəsində və ümumən dərin qatlarda bu çöküntülərin yüksək

perspektivli olması tədqiqatçılarda şübhə doğurmasa da problemin kəmiyyətcə və ya rəqəmsal ifadəsi hələlik öz əksini tapmamışdır.

Bu məqalədə Aşağı Kür çökəkliyindən, o cümlədən Kəlaməddin, Neftçala, Kürsəngi, Mişovdağ, Qalmaz və s. məşhur neft-qaz yataqlarinda qazılmış kəşfiyyat quyularından götürülmüş süxur (kern) nümunələrinin fiziki xassələri (sıxlığı, məsaməliliyi, keciriciliyi, karbonatlılığı, qranulometrik tərkibi, dalğaların yayılma sürəti və s.) təyin edilmiş və müxtəlif qanunauyğunluqlarla təhlil edilmişdir. Bu yataqlarda Məhsuldar qat, Ağcagil və Abşeron çöküntülərinin müxtəlif intervallarından neft-qaz çıxarılır və onlar uzun müddətdir ki, istismardadır. Adları çəkilən yataqların geoloji modelləri çoxsaylı geofiziki və QGT üsullarının tətbiqi ilə öyrənilmiş, hər bir yataq ayrılıqda müxtəlif bloklara ayrılaraq indiyə qədər də işlənilməsi davam edir. Lakin buna baxmayaraq neftlilik-qazlılığın proqnozlaşdırılması üçün petrofizikanın tətbiqinə ehtiyac duyulur.

Məlumatlar əsasında ayrı-ayrı sahələr üzrə nefli-qazlı sahələrin geoloji quruluşunda iştirak edən müxtəlif tipli süxurların fiziki xassələrinin sahə və stratiqrafik bölmələr üzrə qanunauyğun paylanması əsasında perofiziki cədvəl tərtib edilmiş və layların kollektor xüsusiyyətlərinin dəyişmə həddi və orta qiymətləri hesablanmışdır. Eləcə də süxurların fiziki xassələri arasında və bu xassələrin dərinlikdən aslı olaraq dəyişməsi məsələlərinə baxılmışdır.

Əldə olunmuş məlumatları istehsalata tətbiq etməklə, böyük dərinliklərdəki neftli, qazlı, sulu layların və tektonik qırılmaların dəqiq ayrılmasında yüksək iqtisadi səmərə əldə etmək olar.

***V.Ş.Qurbanov, L.A.Sultanov, A.A.Əhmədov***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# ŞİMALİ ABŞERON QIRIŞIĞININ DƏRİNLİKDƏ YATAN NEFTLİ-QAZLI LAYLARININ PERSPEKTİVLİYİNİN PETROFİZİKİ TƏDQİQATLARLA PROQNOZLAŞDIRILMASI

Son zamanlar Azərbaycanda dərin qatların neft-qazlılıq perespektivliyi ilə əlaqədar xeyli həcmdə geoloji-axtarış və geofiziki işlər aparılmışdır. Bu gələcəkdə kəşfiyyat işlərinin yerinə yetrilməsi üçün əsas ola biləcək bir sıra elmi meyarların yaradılmasına səbəb olmuşdur. Belə ki, geoloji-geofiziki və petrofiziki məlumatlar əsasında regionun tektonik, neftgeoloji xəritəalma və kollektor xüsusiyyətlərini əks etdirən rayonlaşdırma xəritələrinin tərtib edilməsi, buna misal ola bilər.

Aşağıda, Şimali Abşeron qırışığına daxil olan - Günəşli, Pirallahı, Abşeron sayı, Darvin sayı, Çilov adası, və s. yataqların, dərinlikdə yatan neftli-qazlı sahələrin kollektor xüsusiyyətləri – sıxlıq ($\sigma$,q/sm$^3$), məsaməlik (%), keçiricilik ($10^{-15}$m$^2$), qranulometrik tərkib( %), ultrasəs dalğalarının yayılma sürəti (V,m/san), maqnit həssaslığı ($\chi$,$10^{-6}$CGSM) və s. - araşdırılmışdır. Bu yataqların Məhsuldar qat və daha cavan yaşlı çöküntülərinin müxtəlif intervallarından neft-qaz çıxarılır və onlar uzun müddətdir ki, istismardadır. Yataqların geoloji madelləri çoxsaylı geofiziki və QGT materialları əsasında hər bir yataq üçün tərtib edilmişdir. Lakin buna baxmayaraq neft-qazlı kollektoların dəqiqləşdirilməsi və proqnozlaşdırılması üçün petrofiziki tədqiqatlara ehtiyac var. Qeyd etmək lazımdır ki, əldə edilmiş məlumatlar əsasında ayrı-ayrı yataqların qurluşunda iştirak edən müxtəlif tip süxurların fiziki xüsusiyyətlərinin sahə və stratiqrafik bölmələr üzrə qanunauyğun paylanması əsasında petrofiziki cədvəllər tərtib edilmişdir. Cədvəllərdə süxurların kollektor xüsusiyyətlərinin makcimal, minimal və orta qiymətləri öz əksini tapmışdır. Tədqiqatlar əsasında kollektor xüsusiyyətlərinin fiziki xassələrinin dərinlikdən aslı olaraq dəyişməsi məsələsinə də baxılmışdır.

Şimali Abşeron qırışığına daxil olan yataqların kollektorlarının süzülmə-tutum xüsusiyyətlərinin lateral və şaquli istiqamətdə dəyişməsi və eyni zamanda süxurların qranulometrik tərkibinin orta qiymətlərinin paylanma histoqramları tərtib edilmişdir.

Süxurların qranulometrik tərkibinin tədqiqat obyekti üzrə dəyişməsinin real təsvirini ifadə edən qrafikdən görünür ki, qranulometrik tərkibin orta qiymətlərinin paylanma histoqramı asimmetrik formaya malik olub, dənələrin diametrinin 0,1-0,01mm intervalında dəyişməsi, kəslişdə alevritin üstünlük təşkil etməsidir. Dənələrin ölçülərinə görə dinamikanın bir qədər zəifləməsi və tədricən artma meyilliyi kəslişdə litotiplərin qeyri - bərabər paylanması ilə izah olunur. Eyni zamanda sahənin geoloji qurluşunda iştirak edən litostratiqrafik vahidlərdə müxtəlif yaşlı süxurların fiziki xassələrinin sahə və stratiqrafik komplekslər üzrə paylanma qanunauyğunluqları müəyyənləşdirilmiş və layların kollektor xüsusiyyətlərinin dəyişmə diapozonu, eləcə də orta qiymətləri hesablanmışdır.

Aparılmış tədqiqatlar, Şimali Abşeron qırışığının ayrı-ayrı strukturlarında yeni, daha dərin quyuların qazılmasını və neft–qazlılığın dəqiqləşdirməsi məqsədilə kompleks geofiziki üsulların tətbiq edilməsini təklif etməyə əsas verir.

Belə ki, yuxarıda qeyd etdiyimiz məlumatları qruplaşdırıb istehsalata tətbiq edilərsə, böyük dərinliklərdəki, neftli, qazlı, sulu layların və tektonik qırılmaların dəqiq ayrılmasında yüksək iqtisadi səmərə əldə etmək olar.

***Q.Q. Abbasova***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# XƏZƏRYANI-QUBA VİLAYƏTİNDƏ ÇÖKMƏ SÜXURLARIN SIXLIGI VƏ UZUNUNA DALGALARIN YAYILMA SÜRƏTİNİN PAYLANMASININ QANUNAUYĞUNLUĞU HAQQINDA

Tədqiqat sahəsində üst Təbaşir, Oliqosen-Miosen (Maykop), Miosen, Eosen və Pliosen çöküntüləri qismən neftqazlılıq cəhətdən perspektivli hesab olunurlar. Bu çöküntülərdən sənaye əhəmiyyətli neft və qaz əsasən Siyəzən monoklinalından çıxarılır. Göstərilən Siyəzən monoklinalından başqa axtarış-geofiziki tədqiqatlarla bir-neçə perspektivli struktur aşikar edilmişdir. Bu baxımdan Böyük Qafqazın cənub-şərq davamınında (Xəzəryanı-Quba vilayətinin) dərinlikdə formalaşmış laylardan və istismarda olan yataqlardan əldə olunmuş süxur nümunələrinin kollektor xüsusiyyətləri araşdırılmışdır.

Xəzəryanı-Quba vilayyətinin dərinlik geoloji quruluşu ilə çökmə qatın fiziki parametrləri arasında əlaqəni təyin etmək üçün uzununa dalğaların yayılma sürətinin və sıxlığının dəyişməsinin təhlili aparılmışdır.

Xəzəryanı-Quba vilayətində gil və əhəngdaşlarında uzununa dalğaların yayılma sürəti və sıxlığı müqayısəli təhlil olunmuş və cədvəl şəklində verilmişdir.

Dərinlik üzrə süxurların fiziki xüsusiyyətlərinin dəyişməsini öyrənmək məqsədi ilə, bəzi neftli-qazlı vilayətlərdə qrafo-analitik üsul tətbiq edilmişdir. Bu üsulun tətbiqi nəticəsində Xəzəryanı-Quba vilayətində dərinlik üzrə fiziki-parametrlərin analitik ifadəsi təyin edilmışdir, cədvəllər və şəkillər tərtib olunmuşdur.

Alınmış məlumatlardan tərtib edilmiş əyrilərin təhlili göstərir ki, Xəzəryanı-Quba vilayyətində Üst Təbaşir çöküntülərinin sıxlığı dərinlik üzrə cüzi dəyişməsinə baxmayaraq, onlarda uzununa dalğaların yayılma sürəti artır. Əhəngdaşı və karbonatlı-gil süxurlarında dərinlik üzrə sürətin dəyişmə qanunauyğunluğu eynidir, fərq yalnız ilkin qiymətlərdə qeyd olunur. Qeyd etmək lazımdır ki,

Xəzəryanı-Quba vilayətinin tektonik mürəkkəb sahələrində Təbaşir çöküntüləri üçün qrafo-analitik üsulun tətbiqi nəticə verməmişdir. Burada kəsiliş üzrə fiziki parametrlərin sıçrayışlı dəyişməsi müşahidə olunur ki, bu da çöküntütoplanma şəraitinin dəyişməsini əks edir.

***А.Г.Керимова***
*Азербайджанская государственная нефтяная академия*

## ОБ УВЕЛИЧЕНИЕ ЭФФЕКТИВНОСТИ ЭКСПЛУАТАЦИИ НЕФТЯНЫХ СКВАЖИН СИЯЗАНЬСКОЙ МОНОКЛИНАЛИ

Сиязаньская моноклиналь нефтяного месторождения, имеет нефтеводоносные объекты. Проницаемость нефтеносных объектов меньше, чем проницаемость водоносных объектов. Заколонные пространства эксплуатационных колонн в интервале фильтра не креплены, не сцементированы и посредством эксплуатационной колонны с длинным фильтром пласты эксплуатируются совместно. Что приводит к резкому уменьшению производительности скважин.

На примере скважин №№ 777, 1556, 1315 находящихся в эксплуатации на НМСМ (нефтяное месторождение Сиязаньской моноклинали) проведены гидравлические разрывы пласта (ГРП). Эффективность ГРП зависит как от свойства (вязкости) эмульсии, так и от глубины проникновения ее в пласт. С течением определенного времени, эмульсия в пласте разрушается, и количество фильтрующейся воды из пласта к скважине увеличивается.

С увеличением мощности образовавшейся песчаной пробки, скважина дала большие добычи нефти, а добыча воды уменьшилась. Но, с увеличением мощности песчаной пробки, добыча нефти резко падала, а добыча воды стабилизировалась. Это показывает, что в интервале длинного фильтра имеются нефтеносные объекты.

После определенных пределов значений факторов (песчаная пробка, процент обводнения), мероприятия по обработке призабойной зоны, проводимые в скважине не дали положительных результатов.

В результате полученных анализов и исследований с целью повышения эффективности эксплуатации скважин в НМСМ, в большинстве случаях во вновь пробуренных скважинах рекомендуется отказаться от применения готовых длинных фильтров и перейти к использованию поинтервальных фильтров.

Ввиду того что, в НМСМ длинные фильтры нефтепродукцирующих скважин охвачены объектами, имеющими неравномерные давления и депрессий, продукции таких скважин преждевременно обводняются, образуются песчаные пробки с высокими мощностями, проницаемость пласта уменьшается и дебит нефти скважин падает до минимума.

С целью достижения увеличения эффективности эксплуатации, рекомендуется отказаться от применения готовых длинных фильтров в нефтепродуцирующих скважинах и перейти к применению поинтервальных фильтров.

***G.G.Məmmədova***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## QAZ VƏ QAZ-KONDENSAT YATAQLARINDA MƏHSULDAR LAYIN KARBOHİDROGEN VERİM ƏMSALINA TƏSİR EDƏN AMİLLƏR

Qaz-kondensat yataqlarının işlənməsinin layihələndirilməsi məsələsində quyuların qazılması, mədənin avadanlıqlarla təchizatı, qaz və kondensat quyularının, qaz emalı zavodlarının tikilməsinə sərf olunan kapital xərclərinin həcminin təyin edilməsi üçün onların son qaz və kondensatvermə əmsallarının proqnozlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Qaz-kondensat quyularının istismar prosesində qaz və kondensatvermə əmsallarının formalaşmasına hər bir geoloji-texniki və texnoloji amillər təsir göstərir. Bu amillərə lay enerji mənbəyi, məhsuldar layların kollektorluq xassələri, quyular şəbəkəsi, işlənmə texnikası və ş.aiddir.

Tükənmiş və uzun müddət işlənməkdə olan qaz və qaz-kondensat yataqlarının istismar təcrübəsi göstərir ki, qaz və kondensatvermə əmsallarının qiymətləndirilməsi sahəsində müəyyən nəticələr əldə edilmişdir. Beləki yataqların işlənməsinin geoloji-fiziki və iqtisadi şəraitdən asılı olaraq qazvermə əmsalının qiyməti ($\beta$) 0.45-dən 0.98$\div$0.99-a qədər dəyişdiyi müəyyən olunmuşdur. Bununla yanaşı qaz basqısı rejimində işlənən yataqlar üçün qazvermə əmsalı 0.90$\div$0.95, sərt su basqısı rejimləri üçün 0.90$\div$0.97, elastiki su basqı rejimi üçün 0.78$\div$0.82 həddində müəyyən olunmuşdur.

Son zamanlar işlənmənin layihələndirilməsi mərhələsində son qaz və kondensatvermə əmsalları şərti olaraq qiymətləndirilir və işlənmənin təhlili prosesində dəqiqləşdirilir. Bu məqsədlə, cox vaxt sadə emprik asılılıqlardan iştifadə olunur.

Bilirik ki, son qaz və kondensat verim əmsalları layların işlənmə sisteminin effektivliyini müəyyən edən mühüm parametrlərdir.

Layların karbahidrogen verim əmsallarını artırmaq üçün istifadə edilən üsullar arasında yalnız konkret rejim şəraitində tətbiq edilə bilən universal üsullar mövcuddur.

Elastiki su basqısı rejimində layın karbohidrogen verim əmsalını artırmaq üçün laya su ilə təsir edirlər. Lakin məhsuldar laylara suyun vurulması işlənmənin ilk illərində aparılmalı və onun iqtisadi səmərəliliyi əsaslandırılmalıdır.

Sonrakı mərhələlərdə quyuların məhsuldarlığını artırmaq üçün konkret olaraq hidravliki yarılma, turşu ilə işlənmə və torpedləmə üsullarını da tətbiq etmək olar.

Qaz–kondensat quyularının hasilatını məhdudlaşdıran amillərdən biri də quyudibi zonası və quyu gövdəsində mayenin toplanmasıdır. Quyudibi zonası və quyu gövdəsindən mayeni

qaldırmaq üçün yuxarı qalxan qaz axınının sürətini tənzim etmək lazımdır. Bu işlənmənin tükənmə dövründə lay enerjisi çox azaldıqda daha böyük əhəmiyyət kəsb edir. Bu dövrdə mayenin quyudan qaldırılmasının təmin edən üsulların tətbiqi quyunun hasilatını bərpa etməyə imkan yaradır. Bundan başqa quyudan mayenin qaldırılması üsullarının təsir xarakterindən asılı olaraq mexaniki və fiziki-kimyəvi olur. Hər iki üsul həm dövrü, həm də fasiləsiz tətbiq edilə bilər.

Mayenin quyudan fasiləsiz olaraq kənar edilməsi ilə quyudan maye damcılarının qaldırılmasını təmin edən qazın axın sürətinin seçilməsi, plunjer liftinin və quyudibi ejektorunun tətbiqi, quyudan mayenin nasos vasitəsilə kənar edilməsi, mayenin köpük əmələ gətirən reagentinin tətbiqi , mayenin disperslənməsi ilə əldə edilir.

Qeyd etmək lazımdır ki, quyuya səthi aktiv maddə daxil etdikdə emulsiya əmələ gəlməsi üçün əlverişli şərait yaranır. Emulsiyanın tipi kimyəvi tərkibindən, xassə və miqdarından, qarışığın xarakter və temperaturundan asılıdır. Bəzən dərin quyularda lay temperaturunun yüksək olduğu hallarda səthi aktiv maddələrin tətbiqi az effektli olur. Bu məqsədə plunjer liftindən istifadə edilməsi prosesin effektliyini artırır.

Son zamanlar qaz–kondensat yataqlarının kondensat verim əmsalını artırmaq məqsədilə laya müxtəlif təsir texnologiyaları işlənib hazırlanır. Bu texnologiyaların əsasında quyu dibində qalıq kondensatın təmizlənməsi nəticəsində qaz və kondensat hasilatı artır.

Qaz–kondensat verim əmsallarının artırılmasına müxtəlif üsulları tətbiq etməklə quyuda məhsuldarlığın artmasına nail olunur. Yeni təsir texnologiyalarının tətbiqi ilə təklif olunan üsullar quyuda hasilatın artırılmasında məqsədə uyğun sayılır.

***M.S.Rəhimova***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# FONTAN ARMATURUNDA QALDIRICI BORULARIN MÜHÜM ROLU

Fontan armaturunun etibarlı işləməsi qaldırıcı boruların möhkəmliyindən, diametrinin ölçüsünün düzgün hesablanmasından, qaldırıcı borularında yaranan təzyiq itgilərindən və sairədən asılıdır.

Belə ki, qaldırıcı boruların möhkəmliyi lazımi dərəcədə olmasa borular qırıla bilər, armatur boltlardan ayrılıb yerə düşə bilər və müxtəlif mürəkkəb proseslər yaranar.

Ona görə də qaldırıcı borularla bağlı qiymətləndirmə hesabatı aparmaqla bərabər texnoloji rejimində seçiminə diqqət verilməlidir.

Fontan armaturları konstruktiv və möhkəmlik əlamətlərinə görə aşağıdakı xüsusiyyətləri nəzərə almaqla qiymətləndirmə hesabatının aparılması:

1. İşçi təzyiqə görə. İstismar zamanı gözlənilən təzyiqin qiymətindən asılı olaraq quyu ağzında verilmiş işçi təzyiqə hesablanmış fontan armaturu qurulur.

2. İcra sxeminə görə.

3. Quyuya endirilən qaldırıcı boruların cərgələrinin sayına görə.

Qaldırıcı borular kəmərinin diametrini və uzunluğunu hər bir məhsuldar lay üçün gözlənilən debitdən, lay təzyiqindən, quyunun dərinliyindən və istismar şəraitlərindən istifadə edərək təcrübə yolu ilə müəyyən olunur. Qaldırıcı boruların şərti diametrləri 33-dən 114 mm-ə qədərdir.

Fontan quyularında iki cərgələrin boruların tətbiqi genişlənən qazın enerjisindən daha da səmərəli istifadə etməyə və quyu dibində qum tıxaclarının əmələ gəlməsini aradan qaldırmağa imkan verir.

Adətən fontan quyularına eyniölçülü kəmər endirilir. Əksər hallarda diametri 73 mm olan borulardan, yaxud müxtəlif diametrli boruların kombinasiyasından ibarət olan pilləli kəmərdən istifadə olunur.

4. Bağlayıcı tərtibatların konstruksiyasına görə. Bağlayıcı tərtibatlara tıxaclı kranlar, yaxud düzaxınlı, pazlı siyirtmələr aiddirlər.

Düzaxınlı siyirtmənin xüsusiyyətləri ondan ibarətdir ki, maye axınının hərəkəti zamanı neft və qaz kipləndirici səthlərlə toxunurlar və bunun sayəsində onların yeyilməsi az olur.

Pazlı siyirtmə ilə müqayisədə keçid tıxaclı kranı böyük korroziya dəyanətliliyinə malik olmaqla, kiçik əndazə ölçüləri və kiçik kütləsi olur.

5. Armatur gövdəsinin keçid kəsiyinin və yan çıxış xətlərinin ölçüsünə görə. Keçid kəsiklərinin diametrləri 50-dən 150 mm-ə qədərdir. Yan çıxışlarının diametrləri 50-dən 100 mm-ə qədərdir.

Quyunun fontanetməsi müəyyən texnoloji rejimdə mümkündür ki, bu da quyunun debitinin, quyudibi $P_q$, quyuağzı $P_2$ və boruarxası $P_{ba}$ təzyiqlərin qiymətlərilə xarakterizə olunur. Zaman keçdikcə qaldırıcı dəyişdirilə bilərdi. Lakin bir tərəfdən başlanğıc dövrdə lay təzyiqi olur ki, bunun da göstəricisi quyuağzı təzyiq $P_2$-dir. Digər tərəfdən qaldırıcının dəyişdirilməsi mürəkkəb prosesdir. Ona görə qaldırıcını bütün fontan etmə dövrünə layihələndirirlər. Bu zaman fontan qaldırıcısını fotntan etmənin optimal rejimdə son şərait üçün hesablanır, sonra isə başlanğıc şəraitlər üçün maksimal rejimdə maye buraxma qabiliyyətinə yoxlanılır.

Əgər hesablanmış qaldırıcı başlanğıc debiti buraxa bilmirsə, onda onu başlanğıc şəraitlər üçün maksimal rejimdə yenidən hesablanılır. Fontan borularının uzunluğu L və diametri d və fontanetmənin minimal quyudibi təzyiqi $P_{qd\,min}$ hesablanır.

***Y.M.Əliyeva***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## QUYU MƏHSULUNDA SÜXUR HİSSƏCİKLƏRİ TƏZAHÜRÜNÜN SƏBƏBLƏRİ

Abşeron yarmadasında olan neft yataqları zəif sementlənmiş və az bərkliyə malik olan kollektor süxurlarına malikdir. Kollektor

süxurlarının bərkliyi isə $(4 \div 20)$ atm arasında dəyişir. Aparılmış elmi-tədqiqat işləri nəticəsində müəyyən olunmuşdur ki, bu kollektor süxurlarında sementləyici fraksiya əhəng və gillərdən ibarətdir. Odur ki, layların iştişmarı zamanı quyudibinə maye ilə birlikdə süxur hissəcikləri də daxil olur. Abşeron yarmadasında olan neft yataqlarında süxur hissəcikləri əksər hallarda qum hissəciklərindən ibarət olduğundan, süxur hissəciyi sözünün əvəzinə "qum" sözü işlədilir.

Qumun laydan maye ilə quyudibinə gəlməsi quyunun normal istismarını pozur və bir sira çətinliklərə səbəb olur. Bu çətinliklər həmçinin mayenin fiziki-kimyəvi xassələrindən də asılıdir. Neftin özlülüyü artdıqca laydan quyuya qumun gəlmə ehtimalı artır. Laydan quyudibinə maye ilə birlikdə qumun gəlməsi, qumun iştismar parametrlərinə mənfi təsir edir. Belə ki, qumun gəlməsi ilə aşağıdakı proseslər baş verir. Yəni, quyunun hasilatı azalır və ya tam kəsilir, quyunun yerüstü və yeraltı avadanlığı eroziyaya uğrayır, bir ildə olan yeraltı təmirlərin sayı artır, yeraltı təmirin aparılma müddəti artır, quyularda təmirarası müddət azalır, yerüstü və yeraltı avadanlıqların istismar müddəti azalır, quyularda qəza baş verməsi ehtimalı artir, quyu fonu azalir, quyularin ıstısmar müddəti azalir və s.

Qum təzahürü ilə işləyən quyularin səmərəlı ıstısmarini təmın etmək qumun zərərlı təsırınə qarşi mübarızə üsullarindan ıstıfadə etmək lazimdir.

Hal-hazırda, mədənlərdə laydan qumun maye ilə quyudibinə gəlməsinə qarşı mübarizə üsullarını iki qrupa ayırırlar birinçi qrupa mexaniki (texniki) üsullar,ikinçi qrupa isə texnoloj üsullar daxil edilir.

Mexaniki üsullara yarıqlı süzgəclər, çınqıllı-yarıqlı süzgəclər, asılı-çınqıllı-yarıqlı süzgəclər və s. daxildir.

Texnoloji üsullara isə quyudibi ətrafı zonasının su-sement və neft-sement məhlulu ilə bərkidilməsi, quyudibi ətrafı zonanın kimyəvi reagentlərlə bərkidilməsi, sement məhluluna xüsusi kimyəvi doldurucuların əlavə edilməsi, quyudibi ətrafı zonanın bərkidilməsi, quyudibi ətrafı zonanın qurulaşdırılması daxildir.

Yuxarıda qeyd olunan üsullar maye ilə quyudibinə gələn qumun qatılığını azaldır. Qumla mübarizədə elə mübarizə üsulları var ki, onlar quyudibinə gələn qum hissəciklərinin yer üzərinə maye ilə qaldırılmasını təmin edir və bununla da qum tıxacı əmələ gəlmir.

Maye ilə quyudibinə gələn hissəciklərin yer üzərinə qaldırılmasını təmin edən üsullara isə aşağıdakılar aiddir:

- xüsusi konstruksiyalardan istifadə etmək;
- boruarxası fəzaya maye axıtmaqla, mayedə qumun qatılığını azaltmaq;
- borulu ştanqlar kolonnasından istifadə etmək.

Qeyd olunan mübarizə üsulları konkret şərait üçün öz səmərəsini verir. Lakin təcrübə ilə müəyyən olunmuşdur ki, mübarizə üsulundan asılı olmayaraq qum təzahürlü quyuların əksəriyyətində qum tıxacları yaranır. Odur ki, üçüncü qrup mübarizə üsullarından istifadə etmək lazım gəlir. Bu qrupa qum tıxacının jelonka ilə təmizlənməsi, qum tıxacının maye ilə (su və ya neftlə) yuyulması və qum tıxacının sıxılmış hava ilə təmizlənməsi daxildir.

Maye ilə birlikdə quyudibinə gələn dum hissəciklərinin yer üzərinə qaldırılmasinda yeni üsullar təklif olunur. Bununla da neft quyularında qum tixaclarının tənzimlənməsi mümkündür.

***F.T.Mürvətov***
*"Siyəzənneft" NQÇİ*

## NEFTÇIXARMADA MÜASİR ÜSULLARIN TƏTBİQİNİN ZƏRURİLİYİNƏ DAİR

Son zamanlar Dünya neft yataqlarında diqqəti cəlb edən bir sıra neqativ tendensiyalar müşahidə olunmaqdadır: neft ehtiyatlarının strukturunun pisləşməsi, çətinçıxabilən ehtiyatların çoxluq təşkil etməsi, quyuların istismar şəraitin mürəkkəbləşməsi, az hasilatlı quyuların sayının artması və s.

Hazırda neft yataqlarının karbohidrogen ehtiyatlarının əsas hissəsini yüksək özlülüklü, anomal xassəli və tərkibində asfalten-qatran–parafin (AQP) birləşmələri olan neftlər təşkil edir. Bu növ karbohidrogenlərin mənimsədilməsi məqsədilə daha mürəkkəb

texnologiyalardan istifadə olunması isə hasilat, geoloji risklərin əhəmiyyətli dərəcədə artmasına və nəticə etibarı ilə ekoloji risklərə gətirib çıxarır. Belə ki, bu cür neftlərin hasilatının intensivləşdirilməsi və layların məhsuldarlığının artırılması məqsədilə kimyəvi, fiziki və istilik üsullarından, o cümlədən müxtəlif növ həlledicilərdən, neftin özlü- plastik xassələrini tənzimləyən əlavələrin tətbiqindən istifadə edilir. Lakin, bu üsul, metod və texnologiyaların tətbiqi xüsusi bahalı avadanlıqlar, çox vaxt tələb edir, imkanları məhduddur, iqtisadi cəhətdən çox vaxt səmərəsiz olur, əksər hallarda ekoloji amilləri də nəzərə alınmaqla, çoxsaylı problemlər yaradır.

Ona görə də məsələnin həlli məqsədilə neftin reoloji xassələrinin yüksək effektli tənzimləyicilərinin işlənilməsi çox mühüm tətbiqi bir məsələ kimi qiymətləndirilməlidir.

Bu baxımdan ADNA "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat institutu və ARDNŞ " Siyəzənneft " NQÇİ–nin Elmi–tədqiqat və istehsalat işləri sahəsinin əməkdaşlarının birlikdə apardıqları tədqiqatlar nəticəsində bir sıra məsaməli, kanal qurluşa malik materialların və laboratoriya şəraitində alınmış nanoreogentlərin neftin reoloji xassələrinə təsiri öyrənilmiş və yaxşı nəticələr alınmışdır.

Belə ki, nanodəmirin kraun–efirlə kompleksi neftin özlülüyünü 45%-qədər, FeT (isti–isti süzülən) materialı isə 39,9% aşağı salmışdır. Bununla yanaşı, nanodəmirin əlavəsi ilə neftin tərkibindəki mexaniki qarışıqların 5,0%, nanomenbranın əlavəsi ilə 8,89% $Fe_2(TF)_3$–ün əlavəsi ilə 10%, qliserin turşusunun üçölçülü ammonium duzlarının 23% - li məhlulunun əlavəsi ilə 8,6% , şirin biyanın $NH_4OH_3$ – la alınmış ümumi 11,6% - li sulu ektraktının əlavəsi ilə 7,43 % , xam qliserin turşusunun əlavəsi ilə isə 13,33 % aşağı düşmüşdür.

Nanodəmir hissəcikləri neftin tərkibində qatranın miqdarını 4%, nanomembran isə 27 % aşağı salınmışdır.

Yeni köpük əmələ gətirici (KƏG) nanoreogent isə neftin özlüyünü 90%-ə qədər azaltmışdır.

Beləliklə neftin reoloji xassələrinin yaxşılaşdırılması üçün bu nanoreogentlərdən istifadə etmək olar və bundan faydalanmaq lazımdır.

***Г.И.Намазова***
*Азербайджанская государственная нефтяная академия*

## СВАРНЫЕ СОЕДИНЕНИЯ МОРСКИХ ГИДРОТЕХНИЧЕСКИХ СООРУЖЕНИЙ

На прочность сварных соединений морских гидротехнических сооружений наиболее существенное влияние оказывают концентрация напряжений, абсолютные размеры поперечного сечения, качество, состояние и свойства поверхностного слоя, характер изменения рабочих напряжений и окружающая среда.

Сварным соединениям свойственна повышенная концентрация напряжений не только от действующих нагрузок, но и от остаточных напряжений, порождаемых тепловыми упругопластическими деформациями в процессе образования швов. Остаточные напряжения, изменяя асимметрию цикла, при определенных условиях могут существенно влиять на сопротивление усталоти Ь сварных соединений. Вместе с тем влияние этого фактора часто рассматривается в связи с изменением свойств металла околошовной зоны под влиянием термомеханического цикла сварки. Предполагается, что под действием пластической деформации и эффекта термической обработки металл околошовной зоны приобретает повышенную сопротивляемость усталостным разрушениям. Возможное понижение выносливости под влиянием растягивающих остаточных напряжений как бы компенсируется повышенным сопротивлением усталости околошовной зоны. Поэтому оба эти фактора относят к второстепенным по сравнению с основным - концентрацией рабочих напряжений.

Успехи в области применения искусственно образуемых сжимающих напряжений для увеличения долговечности деталей

машин показали их существенную роль в усталостных процессах, а соответствующие закономерности явились предметом дальнейших исследовании, среди которых определенный интерес представляют экспериментальные данные, свидетельствующие о значительном влиянии растягивающих остаточных напряжений на сопротивление усталости сварных соединений.

В ряде исследований не было обнаружено падения выносливости под действием растягивающих остаточных напряжений. Опыты проводились на образцах, не имевших надрезов, выточек, изменений сечений и т. п.

В результате было установлено, что остаточные напряжения усиливают свое действие при наличии концентраторов напряжений. В этом случае остаточные напряжения могут существенно изменить долговечность соединений, особенно в области сравнительно низких рабочих напряжений.

***C.N.Aslanov, L.T.Babaxanova***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## QAZMA MANİFOLDUNUN DÜZAXINLI SİYİRTMƏSİNİN TIXAYICI DÜYÜNÜNDƏ SÜRTÜNMƏ HADİSƏSİNİN TƏDQİQİ

Respublikamızda iqdisadiyyatın aparıcı sahəsində olan neft və qaz sənayesinin inkişafı bu sahədə texnikanın və texnologiyanın müasir tələblərə cavab verməsi zərurətini qarşıya əsas məqsəd olaraq qoyur. İlk növbədə qazma və istismar avadanlıqlarının dünya standartlarına və dünya bazarının tələblərinə cavab verməsi, yəni yьksək keyfiyyətə, rəqabətə dцzьmlьk və iqdisadi cəhətdən səmərəliliyə malik olması tələb olunur. Buna gцrə də neft və qaz sənayesində tətbiq olunan maşın və avadanlıqların layihələndirilməsi,

hazırlanması, quraşdırılması və istismarı müasir tələblərə səviyyəsində olmalıdır.

Tədqiqatda tıxayıcı düyünü təkmilləşdirilmiş siyirtmə konstruksiyalarında sürtünmə hadisəsi tədqiq edilmiş və sьrtьnmə qьvvəsinin azalması hesabına sürtünən dьyьnlərdə yeyilməyə davamlıq artırılmış və aşağıdakı nəticələr əldə edilmişdir.

1.Siyirtmənin tıxayıcı düyünündə minimum hərəkət verici qüvvə altında sürtünmə qüvvəsinin sürtünən detalın əyilməsindən asılı olaraq dəyişmə qanunauyğunluğunu ifadə edən analitik ifadə alınmışdır.

2. Sipərin əyilməsinin 3-5 mikron qiyməti siyirtmənin tıxac düyünündə kipliyi təmin etmiş olacaqdır.

3. "ЗПР-100/90" siyirtməsinin məhlul buraxılması, nazimçarxının fırlanmaması, burucu momentin kəskin artması, kiplǝndiricinin hermetikliyinin pozulması halları tədqiq edilmiş, burucu momentin sıxıcı qüvvədən asılılığı müəyyən edilmişdir.

***Z.S.Hüseynli***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## QUYU KİPLƏNDİRİCİLƏRİNİN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ

Quyu kipləndiriciləri mürəkkəb kipləndirmə sistemi olduğu üçün onların hesablanmasında yaranan məsələlər və diferensial və cəbri tənliklər sisteminin həllində müəyyən çətinliklər əmələ gəlir. Bu məqsədlə "səhvlərin orta kvadratlar metodu" riyazi modelləşdirilməsindən istifadə edək. Sistemin diferensial tənliyinin həlli halında sərhəd şərtinə görə kvadratik olaraq inteqrallama oblastındakı bütün səhvləri cəmləsək alarıq:

$$\varnothing_1 = \int_V \sum_i \Delta_i^2(\bar{X})dV \qquad (1)$$

Həmçinin səhvlərin xüsusi çəkisini $q(\bar{X})-$i nəzərə alıb cəmləsək yaza bilərik:

$$\varnothing_2 = \int_V \sum \left( \left[ q i_X)\Delta_i(\bar{X}) \right]^3 dV \qquad (2)$$

Hər iki $\varnothing_1$ və $\varnothing_2$ funksionalları kvadratik olduğu üçün, onda $\varnothing \geq 0$ və həqiqi həll minimum qiymətə uyğun olacaq $\varnothing = 0$.

Bu imkan verir ki, naməlum $A_n$ sabitini $\varnothing$ funksionalının minimumlaşdırma şərtindən axtaraq. Beləliklə ya $\varnothing_n = 0$ sistemini həll etməliyik, ya da ekstremum axtarışı metodu ilə $A_n$-in ən yaxşı kombinasiyalarını təyin etməliyik. Cəbri tənliklər sistemi halı üçün $L_i(n)$ naməlum $U_i$ ədədlər olur. Onları funksionalının minimum şərtindən təyin edirik:

$$\varnothing = \sum_u \left[ L_i(\bar{U} \right]^2 \qquad (3)$$

Onda radial və toxunan gərginliklər uyğun olaraq:

$$\sigma_r = 3G\left[ \frac{\Delta}{h^3}(r^2 - 4Z^2) + 2C_3 \right];$$

$$\tau_{rZ} = -6G\frac{\Delta}{h^3}Zr \qquad (4)$$

Səhvin (xətanın) funksiyalarını tərtib edək. Yan səthdə şərt yetirilmədiyi üçün inteqralı məhz bu şərt üzrə götürək:

$$\varnothing = \int_0^{2\pi}\int_0^{p} \left[ \sigma_r^2(R,Z) + \tau_{rZ}^2(R,Z) \right] R d\theta dZ \qquad (5)$$

Yeganə variasiyalanan kəmiyyət yalnız $C_3$-dür. Onda $\varnothing_3=0$ şərti

$$C_3 = \frac{\Delta}{2h}\left(\frac{1}{3} - \rho^2\right); \quad \rho = \frac{R}{h} \qquad (6)$$

$\Delta \to P$ asılılığını təyin edə bilərik:

$$\int_0^{2\pi}\int_0^R \tau_Z(r,\frac{h}{2})rdrd\theta = -P \qquad (7)$$

buradan alırıq

$$P = \frac{3}{2}\Delta\pi GR\rho(\rho^2 + \frac{4}{3}) \qquad (8)$$

Deməli riyazi modelləşdirmə vasitəsilə quyu kipləndiricilərinin kiplik effektini təmin edən qüvvə-deformasiya asılılığını almaq daha məqsədəuyğun hesab oluna bilər.

***T.Ü.Xankişiyeva***

*Azərbaycan Dövlət Neft Akademiyası*

## KİPLƏNDİRMƏ SİSTEMİNİN RİYAZİ MODELLƏŞDİRİLMƏSİ

Kipləndirmə sistemlərinin hesablanma üsulları yüksək elastiki materiallar kimi digər materiallardan kəskin fərqləndiyi üçün kiplik effektini öyrənmək üçün riyazi modelləşdirmə üsulundan istifadə etmək lazım gəlir. Bu məqsədlə işdə variasiya üsullarının Rits metodundan istifadə edək: bunun üşün düzbucaqlı enkəsikli həndəsi formaya malik kipləndirmə sisteminə ölçüləri a, b, h olan (a-kipkəcin eni, b-uzunu, h-hündürlüyüdür), z oxu istiqamətində sıxılma məsələsinə baxaq:

Başlanğıc şərtləri yazaq:

X=0 olanda $U_x = 0$

Y=0 olanda $U_y = 0$

Z=0 olanda $U_z = 0$

Z= $h_0$ olanda $U_z = -\Delta h$ (1)

burada $U_x, U_y, U_z$ - kipkəcin yerdəyişmələri; $\Delta h$-oxboyu deformasiyası; $h_0$-ilkin hündürlüyü.

Yerdəyişmə funksiyalarının riyazi modelini aşağıdakı formada seçə bilərik:

$$U_X = \left[ C_1 - \frac{1}{3}C_3 x^2 (1 - 5\frac{Z^2}{h_0^2}) + C_5 y^2 - \frac{1}{3}C_6 X^2 \quad \right] \cdot (1 - \frac{Z^2}{h_o^2})$$

$$U_Z = \left[ -C_2 (1 - \frac{Z^2}{3h_2}) + C_3 x^2 \cdot (1 - \frac{Z^2}{h_o^2}) + C_4 y^2 (1 - \frac{Z^2}{h_0^2})^2 \right] Z$$

Bu funksiya $\Delta h = \frac{2}{3} h_0 C_2$ şərtində bütün başlanğıc şərtlər üçün sistemin kəsilməməzlik şərtini ödəyir.

Kiçik deformasiyalarda qüvvə ilə deformasiya arasındakı əlaqəni ölçüsüz sərtliklə ifadə etmək olar:

$$C_S (\frac{a}{h_0}, \frac{b}{h_0}) = \frac{P \cdot h_0}{Gab \cdot \Delta h}$$

burada G-elastiki materialın sürüşmə moduludur.

Ədədi eksperimentlərdən alınan $C_s$-nin a/ $h_0$ və b/$h_0$ –dan asılı qiymətləri cədvəl 1-də verilib:

$C_s$ a/ $h_0$ və b/ $h_0$ asılı qiymətləri

cədvəl 1

| b/$h_0$ | a/$h_0$ =1 | a/$h_0$ =2 | a/$h_0$ =4 | a/$h_0$ =6 | a/$h_0$ =8 | a/$h_0$ =12 |
|---|---|---|---|---|---|---|
| 1 | 2,556 | 2.889 | 3,239 | 3,381 | 3,456 | 3,538 |
| 2 | | 3,572 | 4,487 | 3,897 | 5,117 | 5,356 |
| 4 | | | 7.232 | 9,095 | 10.228 | 11,467 |
| 6 | simmetrik | | | 13,008 | 15,933 | 19,518 |
| 8 | | | | | 20,964 | 28,108 |
| 12 | | | | | | 43,550 |

Cədvəl 1-dəki qiymətləri approksimiya etsək alarıq: $C_s = e^{\varphi}$,

$$\varphi = 0,4214 + 0,8547 \frac{ab}{h_0(a+b)} + 0,2086 \frac{h_0(a+b)}{ab} - 0,01239 \frac{ab}{h_0^2} - 0,649 \frac{h_0}{a+b}$$

(2)

Maksimum meyletmə cəd.1-dən 2,5% təşkil edir.

$\varphi$ –ni hesablamaq üçün riyazi modeli bir qədər sadə formada yazaq:

$$\varphi = 0{,}5934 + 0{,}767\frac{ab}{h_0(a+b)} - 0{,}009732\frac{ab}{h_0^2} \qquad (3)$$

Hansı ki, maksimum meyletməni 7,5% verir.

Deməli, kipləndirmə sistemin potensial enerjisini minimumlaşdırdıqda dəqiq həll 0 olacaq ki, $C_s$ ölçüsüz sərtliyi kiçik qiymətli olsun.

***S.Y Qasımov., İ.K.Qədimov***
*Azərbaycan Dövlət Neft Akademiyası*

## QAZ İDARƏSİNİN ABONENT ŞÖBƏSİ ÜÇÜN İNFORMASİYA İDARƏETMƏ SİSTEMİNİN İŞLƏNMƏSİ

Qaz respublikamızın strateji əhəmiyyətə malik olan milli sərvətlərindən biridir. Respublikamız müstəqilliyini yenidən bərpa etdikdən sonra bu məhsulun iqtisadiyyatımızın inkşaf etdirilməsində xüsusi çəkisi daha da artmışdır.

Məqalədə qaz idarəsinin obonent şöbəsi üçün informasiya idarəetmə sisteminin qurulması məsələsinə baxılmışdır.

Qeyd etdiyimiz kimi qaz strateji əhəmiyyətə malik olan milli sərvətimizdir. Bununla yanaşı o əhalinin istilik sisteminin təminatında əvəzsiz yanacaq kimi istifadə edilir. Bir çox hallarda bu yanacağın istifadəsi zamanı israfçılığa yol verilir. Digər tərəfdən qaz pulunun vaxtlı-vaxtında ödənməməsi müəyyən problemlər yaradır ki, bu da təklif olunan "İnformasiya edarəetmə sisteminin" işlənməsin gündəmə gətirir. Belə ki, bu problemin həlli informasiya kommunukasiya texnologiyalarının tətbiqi ilə daha asan şəkildə həll oluna bilər.

Qaz idarəsinin obonent şöbəsi üçün informasiya idarəetmə sisteminin işlənməsinə Nərimanov rayonunun timsalında baxılmışdır. Bunun üçün ilkin olaraq Nərimanov rayonu qaz idarəsinin strukturu öyrənilmiş və informasiya idarəetmə sisteminin işi bu struktur əsasında qurulmuşdur (şəkil 1).




*Şəkil 1. Nərimanov rayon qaz idarəsinin struktur sxemi.*

Şəkildən göründüyü kimi sistemin biliklər və verilənlər bazası struktur sxemə uyğun olaraq yaradılmışdır.

Bu sistem idarəetmə funksiyalarını yerinə yetirən çoxfunksiyalı sistemdir.

Sistemin verilənlər bazasında aşağıdakı informasiyalar yerləşdirilmişdir:

1. Nərimanov rayonunun inzibati ərazisi.
2. Nərimanov rayonu qaz idarəsi haqqında informasiya. Qaz idarəsinin ümumi sturukturu (şöbələr və vəzifələr).
3. Nərimanov rayonu Qaz idarəsinin şöbələrinin sayı və hər şöbəyə daxil olan abonentlərin sayı.
4. Abonentlər haqqda ümumi məlumatlar.
5. Nərimanov rayonu ərazisində yerləşən mənzil və ictimai obyektlərin (zavodlar, restoranlar və s.) sayı (abonentlərin sayı).
6. Nərimanov rayonu qaz idarəsində istifadə olunan sayğacların sayı və tipi (mexaniki və ya smartkart).

7. Nərimanov rayonuna il ərzində verilən qazın həcmi və Nərimanov rayonu ərazisində hər bir abonentin il ərzində istifadə etdiyi qazın həcmi ($m^3$).
8. Nərimanov rayonu ərazisində məskunlaşmış məcburi köçkünlərin sayı. Nərimanov rayonu ərazisində məskunlaşmış məcburi köçkünlərin hər bir nəfərinə ayrılan limiti və hər bir nəfərin il ərzində istifadə etdiyi qazın həcmi ($m^3$).

Bunlarla yanaşı Nərimanov rayonu ərazisində 8 ali məktəb, 22 orta məktəb, 3 lisey, 34 uşaq bağçası, 27 səhiyyə müəssisəsi, 9 xəstəxana yerləşir ki, bu müəsissələr qismən də olsa qaz istifadəçiləridir.

Sistemdən istifadənin əsas məqsədi satılmış qazın hesabatını aparmaq, sayğacların vəziyyəti haqqında məlumatı özündə birləşdirmək, real zaman anında abonentlər haqqında informasiyanı təqdim etməkdən ibarətdir.

**_D.Ə.Əmiraslanova_**
_Sumqayıt Dövlet Universiteti_

## VENÇUR İNVESTİSİYALARIN MÜƏSSİSƏLƏRDƏ ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSI YOLLARI

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, kiçik biznes fəaliyyətinin təşkili və inkişafı bir sıra siyasi, sosial-iqtisadi amillərdən, ölkədəki ümumi şəraitdən, həmin ölkələrdə kiçik biznesin sürətli inkişafı yeni texnologiyaların, avadanlıq və texnika növlərinin, elmi işləmlərin meydana çıxması, cəmiyyətdə xidmət sferasının rolunun artması ilə əlaqədardır. Tədqiqatlar, iqtisadi ədəbiyyatın təhlili göstərir ki, kiçik biznesin təşkilinə və inkişafına əsasən aşağıdakı amillər təsir göstərir: ölkədəki siyasi vəziyyət, ölkə iqtisadiyyatının vəziyyəti, dövlətin iqtisadi siyasəti, kiçik biznesə yardım üçün tədbirlər, kiçik biznesin hüquqi təminatı, dövlətin vergi

siyasəti, dövlətin maliyyə-kredit siyasəti, əhalinin yaşayış səviyyəsi, sahibkarlığa münasibət.

Azərbaycanda kiçik biznesin vəziyyəti və inkişafının qiymətləndirilməsi, bu bir tərəfdən respublika iqtisadiyyatının həmin sektorunun yüksək potensialı və yaşamaq qabiliyyətini ortaya qoyur, digər tərəfdən isə iqtisadi artımın əsasını təşkil edən istehsal və innovasiya sferasının inkişafının geri qalmasının neqativ tendensiyasının olduğunu söyləməyə imkan verir.

Məlumdur ki, kiçik biznes iqtisadiyyatın elə sektoruna aiddir ki, o investisiya mühitinin bütün dəyişmələrinə çox elastik reaksiya verir. Kiçik biznes üçün investisiya mühitinin sahə meyarı daha böyük önəm kəsb edir. Elmi-tədqiqat və layihə-konstruktor işləmələri ilə məşğul olan kiçik sahibkarlıq müəssisələrinin bu və ya digər az maliyyə vəsaiti və işçilərin sayı tələb edən yeniliyin mənimsənilməsində səmərəliliyi, iri müəssisələrlə müqayisədə daha yüksək olur.

Vençur investisiyası elmi tədqiqatları, tətbiqi işləmələri və bütövlükdə innovasiya fəaliyyətini büdcədənkənar maliyyələşdirmənin mühüm mənbəyidir. Vençur investorlarının vəsaitləri yeni texnologiyaların inkişafı və ya yeni elmtutumlu məhsulların yaradılmasına istiqamətlənmiş, yeni yaradılmış kiçik və orta müəssisələrin nizamnamə fonduna qoyulur.

Vençur maliyyələşdirilməsi maliyyə bazarının dinamik inkişaf edən seqmentindir, bütövlükdə iqtisadiyyatın inkişafının səmərəli katalizatorudur.

Vençur investisiyası investisiyalaşdırmanın bir növü olmaqla, əsasən qapalı və texnoloжi istiqamətlənmiş kompaniyaların maliyyələşdirilməsi üçün istifadə olunur. Vençur kampaniyaları üçün aşağıdakılar xasdır:

- elmi-tədqiqat və təcrübi-konstruktor işləmələrinə xərcin böyük xüsusi çəkiyə malik olması;
- nizamnamə kapitalında qeyri-maddi aktivlərin üstünlük təşkil etməsi

«Vençur» kateqoriyası (ingiliscə venture- riskli müəssisə) vençur investoru və maliyyə almaq istyən sahibkar arasındakı münasibətdə avantyura elementi olmasını nəzərdə tutur. Belə ki,

yuxarıda deyildiyi kimi, riskli (vençur) investisiyalaşma, bir qayda olaraq, kiçik və orta xüsusi müəssisələrə onlardan heç bir girov və ya digər şərt qoyulmadan verilir.

Məlumdur ki, marketinq tədqiqatları innovasiya kompaniyasının yaradılması zamanı aparılmalıdır, lakin onların xidmət xərcləri çox böyük olduğundan bu məsələ kiçik innovasiya müəssisəsinin yaradılmasında bir əngələ çevrilir. Innovasiya kompaniyasının büdcəsi belə tədqiqatın aparılmasına cavab vermir və bu zaman sahibkar başqa dolayı yola əl atır, daha doğrusu belə tədqiqatlar «partizan marketinqi» yolu ilə yerinə yetirilir. Düzdür bu üsulla aparılan tədqiqatın «dəqiqlik» dərəcəsi təqribən 50-70% olur, lakin innovasiya layihəsi üçün bu yaxşı göstəricidir. Marketinqə aid xərclərin azaldılmasının ikinci yolu innovasiya kompaniyasına marketinq mütəxəssisinin qəbul edilməsidir. Bazar seqmenti haqqında lazımi məlumatlar yığıldıqdan sonra innovasiya kompaniyasında buraxıla biləcək məhsulun proqnozlaşdırılması həyata keçirilir.

***S.R.Seyidova***
*Sumqayıt Dövlət Universiteti*

## İSTEHSALIN TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ VƏ İDARƏETMƏ UÇOTUNUN QURULMASINA ONLARIN TƏSİRİ

Müasir şəraitində istehsalın normativə uyğun işlənməsinin mühüm amili idarəetmə fəaliyyəti hesab olunur. O, müəyyən informasiya ilə təmin edilir, bu da menecerlərin tələblərini təmin etməlidir və müvafiq doğruluq və operativliyə malik olmalıdır. İnformasiya təminatının köməyi ilə bölmələr arasında qarşılıqlı əlaqə müəssisənin müdiriyyəti qarşısında hər bir bölmənin hüquq və məsuliyyətinin məhdudlaşdırılması, müəssisənin məqsədinə nail olunmasında fəaliyyətin ayrı-ayrı növlərinin razılaşdırılması baş verir.

İnformasiya sistemi müəssisəsinin təşkilat quruluşlarının tələblərinə tabe edilir. İdarəetmənin təşkilat quruluşları böyük mürəkkəblikləri ilə fərqlənir və amillərin çoxluğundan asılıdırlar. Biz müəssisənin təşkilatı və istehsal quruluşunun nümunəvi formalarına baxacağıq.

Təşkilat quruluşu rəsmi olaraq öz əksini ştat cədvəlində tapır. O faktiki olaraq müəssisənin ayrı-ayrı bölmələrinin fəaliyyətinin razılaşmasını və əsas vəzifələrin və məqsədlərin yerinə yetirilməsi üzrə bölmələrin səylərini təmin edir.

Hər bir müəssisədə təşkilat quruluşu amillərinin miqdarı və təsiti son dərəcə fərqlidir və ona görə də ardıcıl olaraq təkmilləşdirilir. İdarəetmə səviyyələrinin sayı nisbətən çevik təşkilat quruluşlarında dördə - beşə qədər çatır. Təşkilat quruluşu istehsalın müxtəlif idarəetmə səviyyələrinin tərkibini və nisbətini və bu təşkilatın formasını müəyyən edir.

Müəssisənin istehsal quruluşu - sexlərin, xidmətlərin, onların, güclərinin tərkibini və quruluşunu, qurulması formasını və istehsalın idarəetməsinin hər səviyyəsində qarşılıqlı əlaqəni göstərir.

Daxili iqtisadi (təsərrüfat daxili) mexanizm anlayışı, həm bütövlükdə müəssisənin, həm də onun ayrı- ayrı manqalarının fəaliyyəti və inkişafı üçün əlverişli şərait yaradılmasına məqsədyönlü təsir göstərən vasitələrin və alətlərin məcmuunu özünə daxil edir. Onun əsas elementlərinə planlaşdırma, qiymətin əmələ gəlməsi, həvəsləndirmə, uçot, nəzarət və tənzimləmə aiddirlər. Daxili təsərrüfat mexanizminin elementləri arasındakı əlaqə müəssisənin bölmələrinin fəaliyyətinə nəzarət və qiymətləndirilməsi və ölçülməsi göstəriciləri sistemi vasitəsi ilə, bölmənin özünün xərclərinə daxil edilən məsrəflərinin tərkibi və təsərrüfatçılığın nəticələrinin aşkar edilməsi vasitəsi ilə həyata keçirilir.

Müəssisənin təşkilatı və istehsalat quruluşları və onun təsərrüfat daxili mexanizmi idarəetmə uçotunun qurulması zamanı bazis hesab olunurlar.

Təşkilat quruluşuna müvafiq olaraq məsrəflərin uçotunun qurulması, konkret şəxsin fəaliyyətini və məsuliyyətini bütün müəssisənin işinin nəticələri ilə əlaqələndirməyə imkan verir.

İdarəetmə qərarlarının əmələ gəlməsində informasiyaya olan tələbat müxtəlif səviyyəli bölmələrin maya dəyərinin idarəedilməsi sisteminin qarşılıqlı əlaqəsinin təmin olunması şəraiti zamanı təmin olunur.

Nəzarətin daxili sistemlərinin dörd əsas ölçü, əlaqə, qiymət və dəlillər funksiyası təşkilatın xüsusiyyətini və hər bir bölmənin öz marağı olan müəssisənin quruluşunu nəzərə almalıdır.

Fəaliyyətin bütün növləri bir-biri ilə möhkəm əlaqədədirlər və bir müəssisə çərçivəsində ayrıca mövcud ola bilməzlər. Eyni zamanda belə qənaətə gəldik ki, məsrəflərin əmələ gəlməsinin öz xüsusiyyətləri vardır və bölmələrdə baş veren prosesləri konkret olaraq xarakterizə edirlər. Əsas meyar idarəetmənin məqsədləri, xərclərə nəzarət sistemi, bölmələrin ixtisaslaşma səviyyəsi və onların məsrəflərinin kəmiyyəti hesab olunurlar. Bazar şəraitində işləyən müəssisələrin təcrübəsində analitik idarəetmə uçotunun qurulmasına məsrəflərin əmələ gəlmə mərkəzləri üzrə, meydana gələn məsrəflərə görə məsuliyyət mərkəzləri və ayrıca götürülmüş istehsal edilən məhsulun rentabellik mərkəzi üzrə yanaşma nəzərdə tutulur.

***T.İ.Şəfiyeva***
*Sumqayıt Dövlət Universiteti*

## BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ İSTEHSALAT UÇOTUNUN YENİ MODELİNİN FORMALAŞMASI

Müəssisənin informasiya sisteminin əsasını mühasibat uçotu təşkil edir.

Mühasibat uçotu bir qayda olaraq şaquli istiqamətdə nəzarətin aparılmasına tabe edilir. Bu zaman nəzarət subyekti kimi müəssisənin istehsalat, maliyyə və təsərrüfat fəaliyyətinin müxtəlif istiqamətlərini xarakterizə edən çox saylı göstəricilərin hesabat sistemini formalaşdırır.

Uçotun aparılmasını müəyyən edən yeni qəbul edilmiş standart, əsasnamə və digər sənədlərin xarakterik xüsusiyyəti, onların ayrı- ayrı, xüsusi və şəxsi məsələlərin həllinə dair qüvvədə olan uçot

sistemini tamamlamaqdan, müxtəlif mülkiyyət formalarının və sahibkarlıq fəaliyyətinin inkişafı ilə bağlı yeni uçot obyektlərinin meydana gəlməsini əhatə edən problemlərin həllinə istiqamətləndirməkdən ibarətdir. Uçotun gələcək inkişafı konsepsiyasını müəyyən etmək məqsədilə bazar iqtisadiyyatı ölkələrinin təcrübəsini öyrənmək və mühasibat uçotunun təşkili və metodologiyasının optimal variantının real imkanlarının işlənməsi zəruri sayılmalıdır. Bu zaman nəinki bizim ölkədə həm də mühasibat uçotunun bütün ölkələrdə təşkilinin ümumi prinsiplərinə müvafiq yeni uçot və hesabat sistemi yaratmağa calışmaq lazımdır.

Bununla birlikdə qeyd edək ki, xarici ölkələrdə olduğu kimi bizim ölkədə də istehsalın səmərəliliyinin müəyyən edilməsində məsrəflər üzərində nəzarət problemi 1960-cı ildən zəifləməyə başlamışdır. Bazar iqtisadiyyatına keçid şəraitində gələcəkdə istehsalı intensivləşdirmək məqsədilə uçotun məqsəd və vəzifəsi başlıca olaraq müəssisənin və onun struktur bölmələrinin istehsal tələbatının idarə olunmasına yönəldilməlidir. Bu cür halda idarəetmə uçotunun yeni tamlıqla istehsalın optimallaşdırılması məqsədinə tabe edilən effektli sistemi meydana gəlir. Bu cür uçotun təşkili hər şeydən əvvəl müəssisələrin və onların struktur bölmələrinin tələbatına tabe edilməlidir.

Beynəlxalq uçot sistemi bizim ölkədə hələ 1924-1928-ci illərdə yaradılan və «Məsrəf- buraxılış» metoduna əsaslanır. Sözü gedən metodun əsası məhsul buraxılışını təchizat üzrə məhsula çəkilən məsrəflərlə istehsal və satışla müqayisə etmək hesab edilir. Bu cür müqayisə etmə material ehtiyatları, bitməmiş istehsal və hazır məhsul qalığında olan dəyişiklik nəzərə alınmaqla müəssisə fəaliyyətinin maliyyə nəticəsini müəyyən etməyə şərait yaradır. Ümumi mühasibatlıqda maliyyə nəticələri cəkilmiş məsrəfləri ödəmə dövründən asılı olmayaraq malların və xidmətlərin malalana verdiyi anda buraxılmış dəyəri ilə müqayisə etməklə müəyyən edilir. Bunun nəticəsində yüklənmiş mal və satılmış məhsulların maya dəyərini hesablamaq zərurəti yaranmır və bu da əmək tutumunun uçotunu aparmağı xeyli aşağı salır.

Bununla əlaqədar olaraq mühasibat standartları üzrə beynəlxalq komitə, hesabları balansı və əməliyyat hesablarına

bölməyi təklif etmişdir. Bu cür bölgü maliyyə nəticəsini müxtəlif, ancaq hesablamaya yaxud ölçüyə gələ bilən metodlarla müəyyən etməyə şərait yaradır.

Bazar iqtisadiyyatına keçid şəraitində mühasibat uçotu sahəsində iki problemi həll etmək zəruridir. Birinci problem bazar iqtisadiyyatı və beynəlxalq mühasibat standartları şəraitində müvafiq olaraq mühasibat uçotunun nəzəri, təşkilati metodoloжi əsasını işləyib hazırlamağı nəzərdə tutur. Ikinci problem. Uçot sistemində hesablama texnikası vasitələrindən geniş istifadəni nəzərdə tutur.

***H.Q.Hacıyev, Y.M.Əliyev, Ş.Ə.Bağırov***
*Neftin, qazın geotexnoloji problemləri və*
*kimya Elmi Tədqiqat İnstitutu*

## HASİLATIN SULAŞMASININ QUYU PROFİLİNDƏN ASILILIĞI

1994-cü ildə Ümumimilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış "Əsrin müqaviləsi" müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyasının əsasını qoydu. Ölkəmizin iqtisadiyyatının inkişafında mühüm rol oynayan bu tarixi sənəd, eyni zamanda bütün regionda ictimai-siyasi stabilliyin və təhlükəsizliyin təminatçısına çevrildi. Ulu Öndər H.Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan bu sənədin müddəaları təkcə Azərbaycan yataqlarından çıxarılan karbohidrogen məhsulların nəqlini və ixracını deyil, həmçinin neft hasilatını artırmaq üçün neftçıxarma sahəsində yeni üsulların və texnologiyaların işlənməsini və tətbiqini nəzərdə tuturdu.

Təqdim olunan işdə neft quyularının hasilatının sulaşması məsələsinə baxılmış və lay sularının quyudibi zınaya daxil olmasının törətdiyi fəsadlar araşdırılmışdır. Göstərilmişdir ki, quyudibi zonasının dağılmasının və lay sularının bu zonaya daxil olmasının əsas səbəbləri aşağıdakılardan ibarətdir:

-perforasiya texnologiyası qaydalarının pozulması üzündən quyudibi zonasında, sement daşında və bəzən də kəmərin özündə baş verən dağıntılar;

-quyunun mənimsənilməsi və istismarı zamanı yaradılan böyük təzyiqlər fərqi;

-quyunun yüksək hasilatla işləməsi və uyğun olaraq quyudibi zonasında mayenin böyük sürətlə süzülməsi;

-qeyri-bircinsli lay şəraitində yüksək keçiricilikli təbəqələr vasitəsilə lay sularının vaxtından əvvəl quyudibi zonaya daxil olması.

Göstərilən amillər bu və ya digər dərəcədə quyu gövdəsinin məhsuldar qatı əhatə edən hissəsində sementlənmə işinin yerinə yetirilməsi və sement daşının formalaşması ilə bilavasitə əlaqədardır. Bu baxımdan quyu lüləsi profilinin, onun əyilmə dərəcəsinin maili istiqamətlənmiş quyuların hasilatının sulaşmasına necə təsir göstərdiyini öyrənməyin məqsədəuyğunluğu ortaya çıxır. Bununla əlaqədar, Neft Daşları yatağının maili istiqamətlənmiş quyularının məlumatlarına əsasən xüsusi təhlillər və tədqiqatlar aparılmışdır.

Əvvəlcə vertikal və maili istiqamətlənmiş quyuların susuz dövr hasilatları müqaisə olunmuş və müəyyən edilmişdir ki, profilin əyilmə bucağı artdıqca hasilatlar nisbəti də artır və bucağın $37^0$-$38^0$ qiymətlərində maksimuma çataraq sonra azalmağa başlayır, eyni zamanda qeyd edilmişdir ki, hasilatların gətirilmiş qiymətləri layın açılma dərəcəsindən də asılıdır.

Sonra profilin vəziyyətinin sulaşma tempinə təsiri tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, quyu lüləsinin əyilmə bucağı artıqca sulaşma tempi azalmağa başlayır və bucağın $36^0$-$37^0$ qiymətlərindən sonra müəyyən qədər artma müşahidə olunur. Burada da alınan asılılıqların layların açılma dərəcəsinə görə fərqləndikləri aşkar edilmişdir. Həmçinin aparılan müşahidələr nəticəsində müəyyən edilmişdir ki, Neft Daşları yatağından işləyən maili istiqamətlənmiş quyular sulaşma tempinə görə üç hissəyə ayrılırlar: 1) yavaş templə sulaşan quyular; 2) orta templə sulaşan quyular; və nəhayət 3) yüksək templə sulaşan quyular. Müəyyən edilmişdir ki, birinci qrupa aid olan quyularda, yəni yavaş templə sulaşan quyularda suyun faizi 0-7% arasında, ikinci–orta templə sulaşan

quyularda 7-14% arasında dəyişir. 14%-dən çox olan isə üçüncü qrupa –yüksək templə sulaşan quyulara aid edilir.

Daha sonra quyu profilinin su-neft amilinə (SNA) təsiri öyrənilmişdir. Alınan nəticələrdən məlum olmuşdur ki, profilin əyilmə dərəcəsinin artması ilə SNA–nin azalması müşahidə olunur. Həmçinin, göstərilən asılılıqlar bir-birindən sulaşma tempinin qiymətinə görə fərqlənirlər və sulaşma tempinin qiyməti artdıqca SNA–nin qiyməti də nəzərə çarpacaq dərəcədə artır.

Beləliklə, lay sularının təcrid edilməsi neft quyularının hasilatının artmasına və ölkəmizin neft ixracatı potensialının yüksəlməsinə səbəb olacaqdır.

***İ.f.d. dos. R.M.Cəfərova, R.R.Məhəmmədi***
*Azərbaycan Dövlət Aqrar Universiteti*

## AQRAR-SƏNAYE MƏHSULLARININ KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏ PRİNSİPLƏRİ

Yeni istehsal texnologiyalarının meydana gəlməsi və daha çox məhsuldarlığa ehtiyacın hiss edilməsi nəticəsində, müxtəlif proseslərdə keyfiyyətə nəzarət və keyfiyyət mühəndisliyi fəalyyətləri getdikcə yüksələn faizlə istehsalın bir hissəsi halına gəlmişdir. Buna görə də, keyfiyyətə nəzarət müstəqil fəaliyyət göstərən bir sahə olmaqdan çıxaraq, istehsal xətti ilə bilavasitə bağlı bir hala gəlmişdir.

Şirkətlər məhsulun keyfiyyətini zəmanət altına almaq üçün sadəcə keyfiyyətə nəzarət fəaliyyətlərinin kifayət etmədiyini yaxşı bilirlər. Müəssisə daxilində keyfiyyətin zəmanət altına alınması bütün müəssisə şöbələrinin iştirakını və yaxşı təşkilatlanmış olmalarını tələb etməkdədir. Keyfiyyət idarəetməsinə daxil olan bu və buna bənzər keyfiyyətlə əlaqəli planlaşdırma, qiymətləndirmə və funksiyonal sistemli tədbirlər keyfiyyət idarəetməsinin bir müəssisə üçün nə qədər vacib olduğunu göstərməkdədir.Getdikcə ağırlaşan rəqabət şərtlərində, şirkətlər istər Ümumi Keyfiyyət Idarəetməsini tədbiq etsin, istərsə də İSO 9000 Standartlarından hər hansı birinə

sahib olsun. Müvəffəqiyyət qazana bilmələri üçün keyfiyyət idarəetməsini tədbiq edərkən əhəmiyyət vermələri vacib olan əsas prinsiplər vardır. Keyfiyyət İdarəetməsinin əsasını meydana gətirən bu prinsipləri, hər bir şirkət mənsub olduğu sektora, böyüklüyünə, imkanlarına, bazarın vəziyyətinə və buna bənzər faktorlara görə müəssisəsinə uyğynlaşdıraraq, özünə ən münasib keyfiyyət idarəetmə sistemini qurmalıdır. Bu əsas prinsiplər, bir şirkət daxilində keyfiyyət idarəetməsinin qurulmasına işıq tutacaq, yol göstərəcək faktorlardır. Keyfiyyət idarəetməsini şərtləndirən əsas prinsiplər isə bunlardır:

- Müştəriyönlülük;
- Liderlik;
- Müəssisə daxilində hər kəsin iştirakı;
- Proses yanaşması;
- Faktlara əsaslanan qərar qəbul edilməsi;
- Tədarükçülərlə qarşılıqlı faydalı munasibətlər.

Aqrar-sənaye məhullarinin keyfiyyətinin yuksəldilməsi ölkə iqtisadiyyatının qarşisinda duran ən ümdə problemlərdəndir. Ət və ət məhsulları,süd və süd məhsulları, balıq məhsulları bazarının tutumunun artırılmasının yerli istehsal hesabina təmin olunması çox vacibdir. Hələlik ölkə əhalisinin ayrı-ayrı təbəqələrinin böyük əksəriyyətində balanslı qidalanma müşahidə olunmur və əhalinin qida rasionunda çörək və qənnadı məhsulları daha çox xüsusi çəkiyə malikdir.Bu da öz növbəsində aqrar-sənayenin inkişafını və genişlənməsini tələb edir:

1. Ət məhsulları. Ət və ət məhsulları yüкsəк bioloji dəyərli qida кimi insanların qidalanmasında mühüm əhəmiyyətə maliкdir. Ətin tərкibində həyat fəaliyyəti üçün lazım olan zülal, yağ, vitamin və mineral maddələr vardır. Ət fosfor, кüкürd, dəmir, natrium, кalium, mis,кobalt, sinк, yod və digər elementlərlə zəngindir. Ətin qidalılıq dəyəri zülalların, yağların, vitaminlərin və mineral maddələrin miqdarca nisbətindən və onların insan orqanizmi tərəfindən mənimsənilməsi dərəcəsindən asılıdır.

2. Süd məhsullarının keyfiyyəti.Tədarüк edilən inəк südü çöкüntüsüz və seliкsiz,dadı təmiz, təzə südə xas şirintəhər dadlı, кənar iysiz, rəngi ağ,sarıya çalarlı olmalıdır.Pasterizə olunmuş süddə

xəstəlik törədən bakteriyaların olmasına yol verilməməlidir, konsistensiyası bircinsli, kənar dad və iyi olmamalıdır.

3. Balıq və balıq məhsulları - insanların qidalanmasında böyük əhəmiyyəti vardır. Balığın tərkibində zülal, yağ, mineral maddələr (xüsusən fosfor və yod), vitaminlər və digər bioloji fəal maddələr vardır. Keyfiyyətindən asılı olaraq dondurulmuş balıqlar 1-ci və 2-ci əmtəə sortuna ayrılırlar. Xırda balıqlar, bəzi okean balıqları və xüsusi emal edilmiş balıqlar sortlara ayrılmır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi əhali təbəqələrinin keyfiyyətli və balanslı qidalanması baxımından həlledici əhəmiyyətə malikdir.

***K.t.e.n., dos. V.İ.Rəhimov***
*Gəncə Dövlət Universiteti*

## EKOLOJİ TƏHSİLİN ELEMENTLƏRİ VƏ ƏSAS VƏZİFƏLƏRİ

Texnogen sivilizasiyanın durmadan gücləndiyi müasir dövrümüzdə bütün bəşəriyyəti narahat edən ekoloji problemlərin həlli ilk növbədə ictimaiyyətin o, cümlədən də yetişməkdə olan gənc nəslin ekoloji biliklərinin artırılmasında, təbii sərvətlərə qayğıkeş və məsuliyyətli münsaibətin yaradılmasından asılıdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) davamlı inkişaf naminə təhsil dekadası (2005-2014) çərçivəsində Azərbaycan Respublikasında ekoloji təhsilin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilir.

Ekoloji təhsilin əsas elementləri bilik, vərdiş və bacarıq hesab edilir. Ekoloji təhsil mahiyyəti aşağıdakılardan ibarətdir: 1. Əsas fikirlərin, anlayışların, təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsinin açılması; 2. Dəyərli ekoloji biliklərin formalaşması; 3. Təbiətlə ünsiyyət münasibətlərinin inkişafı, real dünyanı mənəvi estetik həyəcanlarla qəbul etmək; 4. Təbiətdə qaydalara və normalara riayət etmək, mühitin çirklənməsi və dağılmasının qarşısını almaq; 5.Təcrübi biliklərin öyrənilməsi, təbiətə neqativ təsirin qarşısını almaq (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rekreasiya), onun vəziyyətini qiymətləndirmək və s. məsələləri əhatə edir.

Aparılan araşdırmalardan məlum olur ki, ekoloji təhsil – ətraf mühit haqqında bütün bilikləri formalaşdırır, ətraf mühiti daha yaxşı öyrədir və s. praktiki tədbirləri özündə cəmləşdirir [1].

Ekoloji təhsilin əsas vəzifələri sadalananlardan ibarət olmalıdır: 1. Cəmiyyətin hər bir üzvündə ekoloji şüurun bərqərar olmasını təmin etmək; 2. Ekoloji səriştəliliyi formalaşdırmaq; 3. Tələbələrdə, eləcə də şagirdlərdə ekoloji problemlərə yaradıcı münasibət aşılamaq; 4.Təbiətin, onun bütün sərvətlərinin, floranın, faunanın qorunub saxlanılmasını və onlardan səmərəli istifadə olunmasını tərbiyə etmək.

Ekoloji təhsilin yaranmasının və inkişaf etdirilməsinin əsas prinsipləri qlobal ekoloji problemlərin yerli xüsusiyyətlərinin öyrənilməsindən, ekoloji problemlərə emosional münasibətlərin formalaşdırılmasından, bütün dünyada bu problemlərə eyni cür münasibət göstərilməsindən, canlıların hamısına hörmətlə yanaşılmasından, təbiətlə bilavasitə təmasda olmaqdan, ona çox həssaslıqla yanaşmaqdan, ətraf mühitin qorunmasında fəal mövqe tutmaqdan, nəhayət ekoloji təhsilin kiçik yaşlardan başlanmasından ibarətdir.

***B.f.d. T.H.İsgəndərova***
*Gəncə Dövlət Universiteti*

## İNTRODUKSİYA OLUNMUŞ YENİ BƏZƏK BİTKİLƏRİNİN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

Bitkilərin köməyi ilə ekoloji stabilliyə nail olmaq və insanların həyatını yaxşılaşdırmaq mümkündür [1]. Təəssüf ki, insanların kortəbii fəaliyyətinin nəticəsi kimi meydana çıxan mühit çirklənməsinə qarşı bitkilərdə xüsusi adaptativ xarakter formalaşa bilməmişdir kimi [2]. Gəncə şəhərinin Xan bağında əkilmiş iynəyarpaqlılardan normal boy və inkişafa Eldar şamı, Himalay sidri, Sabin (Kazak) ardıcı, həmişəyaşıl sərv, Lavson sərvpəri və şərq tuyası malikdir. Nisbətən zəif inkişafa tikanlı küknar, giləmeyvəli qaraçöhrə və kriptomeriya bitkilərində rast olunur. Ən zəif boy isə İspan ağ şamında müşahidə olunmuşdur. Bu növün bağda əkilmiş 6

ədəd nümunəsindən heç biri normal inkişaf edə bilməmişdir. Bu həmin ağacların yerinin düzgün seçilməməsi ilə izah olunmalıdır. Belə ki, onların hamısı yaşlı, möhtəşəm çətirli Himalay sidrinin altında əkilmişdir. Həmin bağda əkilmiş enliyarpaqlı bitkilərin hamısı əsasən normal boy və inkişafa malik olmuşdur. Nizami rayonu 2-ci stasionar məntəqə (H.Əliyev parkının cənub hissəsi) iynəyarpaqlı və enliyarpaqlıların hamısı yüksək boy artımına malik olmuşlar. Bu bitkilərin təmiz hava mühiti, yüksək diqqət və aqrotexniki qulluq şəraitində olmaları ilə izah edilir.Kəpəz rayonu ərazisində texnogen çirklənmə mənbəyindən bir qədər aralı yerləşən Füzuli və F.Əmirov parklarında becərilən iynəyarpaqlı bitkilər nisbətən normal (8,9-11,7 sm) boy vermişdir. Texnogen çirklənmə mənbəyinə yaxın olan ərazidə (N.Gəncəvi məqbərəsi ərazisi) isə bu göstərici 6,4-7,2 sm təşkil edir. Müvafiq olaraq bu zaman yarpaq sayı və zoğların yoğunlaşmasında da xeyli fərq olduğu nəzərə çarpır. Eyni zamanda bu ərazidə əkilən qızılgül kollarında da artım güclü olmamışdır. Zoğların yarpaqlarla örtülmə–yarpaqlanma əmsalının (YƏ) təhlili çox maraqlı məsələləri ortaya çıxartdı. Belə ki, bütövlükdə iynəyarpaqlı bitkilərin YƏ enliyarpaqlı bitkilərlə müqayisədə yüksəkdir. Bu təqribən 1:7,72 nisbətində fərqlidir. Eyni zamanda məntəqələr üzrə də həm iynə və həm də enliyarpaqlılar arasında YƏ göstəricisi xeyli fərqlidir. Belə ki, daha çox çirklənməyə məruz qalan Nizami məqbərəsi ərazisində iynəyarpaqlı bitkilərdə YƏ 9,09 ədəd/sm olduğu halda həmin rayonun nisbətən təmiz bölgəsində (stasionar 2) bu 7,0 ədəd/sm təşkil edir. Göründüyü kimi, texnogen çirklənmə zonasında boy artımı zəif olsa da onların yarpaqlanma səviyyəsi normaldır. Zoğların diametr göstəriciləri üzrə isə məntəqələr arasında nəzərəçarpacaq fərqlərə rast gəlinmir.Ətraf mühitin daha çox çirkləndiyi Kəpəz rayonu, xüsusilə də Nizami məqbərəsi ərazisində bütün bitkilər üzrə illik boy artımı zəif olmuşdur. İynəyarpaqlıların Nizami rayonu ərazisində illik boy artımı 10,4-14,2 sm olduğu halda bu Kəpəz rayonu ərazisində 6,8-10,5 sm təşkil edir. Enliyarpaqlı bitkilər də həmçinin Nizami rayonundakı məntəqlərdə müvafiq olaraq 12,5-16,5 sm, Kəpəz rayonu ərazisindəki məntəqələrdə isə 9,6-11,0 sm illik boy artımı vermişdir. Göründüyü kimi, ən müxtəlif sənaye sahələrinin inkişaf

etdiyi bir şəraitdə dekorativ bitki əkinlərində də müəyyən dəyişkənliklər müşahidə edilir.

***C.M.Məmiyev***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCAN RESPUBLIKASINDA KARBOHİDROGEN EHTİYATLARINDAN İSTİFADƏNİN PROQNOZ VƏ PERSPEKTİVLƏRİ

20 sentyabr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan Respublikasında sürətli iqtisadi inkişafın və uğurlu enerji strategiyasının əsasını qoymuş oldu. Hər bir ölkənin məqsədyönlü enerji siyasəti eyni zamanda onun milli enerji təhlükəsizliyinin mühüm tərkib hissəsidir. Enerji strategiyası milli enerji siyasətinin konkretləşməsi, dəqiq təyinatlı fəaliyyət məqsədlərinə və hərəkətin təşkili metodlarına əsaslanır. Sturuktur planda idarəetmə sənədləri, qrafiklər, büdcə və digər bu kimi zəruri elementləri özündə birləşdirən köklü yenidənqurmanın fəaliyyət proqramı kimi çıxış edir.

Tarixi baxımdan enerji strategiyası heç də yeni bir təsisat yeni bir anlayış deyil. Dünya iqtisadiyyatı enerji əsasında sistemləşdiyi zamanlardan oxşar yanaşmalar silsiləvi olaraq müxtəlif dünya ölkələrində təşəkkül tapmış, təbəddülatlara uğrayaraq yeni keyfiyyət və xüsusiyyətlər kəsb etməyə başlamışdır. Qlobal axının gücləndiyi müasir zamanda isə hər bir ölkə enerji resurslarının təsir dairəsinin fərqinə varmadan özünün enerji təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi enerji strategiyası formalaşdırmağa məhkumdur.

Milli enerji strategiyasının formalaşması daxili potensialın təhlili ilə yanaşı, qlobal aləmdə gedən proseslərin, dünya enerji balansının inkişaf meylinin və bəşəri enerji istehlakının yüksəliş sürətinin nəzərə alınmasını da şərtləndirir. Dünya iqtisadiyyatında mineral-xammal sektoru sənaye istehsalı və energetikasının əsas bazasını təşkil edir. Dünya iqtisadi artımı hər il daha çox enerji resurslarının mənimsənilməsi ilə təmin olunun. Yeni-yeni enerji

potensiallı ərazilər istehlak mənbəyinə çevrilir və onların istehlakı durmadan artır. Neft və qaz resurslarının müasir sivilizasiyada təbiətlə cəmiyyət arasındakı tarazlığın saxlanılmasında həyati əhəmiyyətinin olduğu hər kəs tərəfindən qəbul edilən faktdır. Onların səmərəli istifadəsi qədər də yerləşməsi və əzəli  ənənəvi ərazilərdə tükənməsi amili də narahatedicidir. Son dövrlərin ststistikasına görə, planetar miqyasda hər il 14-15 milyard ton təbii ehtiyat üzvi yanacağa çevrilir. Enerji istehlakında neft-qaz resursları əhəmiyyətli yer tutsa da neftin qlobal ehtiyatlarının 41 il, təbii qazın isə 67 ilə bəs edəcəyi proqnozlaşdırılır.

Azərbaycan Respublikasının neft-qaz resurslarının səmərəli istifadəsinin proqnozlaşdırılması da çox mühüm əhəmiyyətə malikdir. Müasir dövrdə Azərbaycanda enerji resursları ilə təminatlılıq əmsalı ümumən vahiddən yüksək həcmə malikdir. Lakin bununla belə, istehlak dolğunluğunu daha optimal təmin etmək üçün hazırda respublikaya əlavə 500 m Vt güc lazımdır. Digər tərəfdən isə zəif enerji effektivliyi – az enerji tutumlu qurğulardan istifadə məhdudluğu mənzillərin, ofis binalarının və bu sahədə digər qeyri standartlıqlar enerji təhlükəzlikləri əmsalını daha dolğun keyfiyyət və ölçüdə təyinatına təsir göstərir. Milli enerji müstəqilliyini dolğunlaşdırmaq və enerji təhlükəsizliyini daha təminatlə etmək üçün real bazar iqtisadiyyatı ölkələrində olduğu kimi, Azərbaycanda da enerji strategiyasının hazırlanması və tətbiqi olduqca zəruri və mühümdür. Bu zərurətlilik Yanacaq Enerji Kompleksinin ölkə iqtisadiyyatındakı əhəmiyyəti,  enerji resurslarının xalq təsərrüfatının həyat qabiliyyətli bütün sahələrində aparıcı və həlledici rolu, neft-qaz infrasturukturunun modernləşməsi, ekoloji fonun yaxşılaşdırılması və sosial rifahın daha da yüksəlişi, həmçinin əsaslı dərəcədə də Azərbaycanın artan geostrateji potensialı o cümlədən dünya enerji bazarlarının qloballaşması tələblərində öz ifadəsini tapır. Milli enerji strategiyasının hazırlanmasının fövqündə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarixdə ilk dəfə olaraq neft-qaz sərvətlərinin xalqa tam məxsusluğunun təmin edilməsi ölkədə "Əsrin müqaviləsi" ilə başlanan milli lider Heydər Əliyev və Prezident İlham Əliyevin uğurlu neft strategiyasının prinsipial tələbləri dayanır.

***X.Y.Ağayeva***
*Azərbaycan Dövlət Neft Akademiyası*

# QEYRİ-NEFT SƏNAYE SAHƏLƏRİNİN DAYANIQLI VƏ DAVAMLI İNKİŞAF PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Ölkədə aparılmış iqtisadi islahatların uğurlu nəticəsidir ki, respublikamızda qeyri-neft sənayesi ildən–ilə daha sürətlə inkişaf edir.

Ölkə qeyri-neft sənayesində həm sahibkarlığın inkişafı, həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi istiqamətində iqtisadi islahatlar uğurla aparılmışdır. Bunun nəticəsidir ki, qeyri-neft sənayedə özəl sektor inkişaf etmiş, sənaye istehsalında isə qeyri-dövlət bölməsinin payı sürətlə artmışdır.

Əsas kapitala yönəldilən investisiyalarda qeyri-neft sənayesinin payı artmışdır. Bu belə izah olunur: 1) əgər əvvəllər ölkəyə gətirilən xarici investisiyalar əsasən beynəlxalq neft sazişləri üzrə reallaşdırılan layihələr üzrə daxil olurdusa, son illər bu mənbədən olan investisiyaların da əhəmiyyətli hissəsi qeyri-neft sahələrinə istiqamət almışdır; 2) son illərdə xüsusilə dövlət əsaslı kapital qoyuluşu hesabına daxili investisiyalar sürətlə artmaqdadır ki, bu vəsaitlər də başlıca olaraq, ölkənin bütün ərazisi boyu istehsal və sosial infrastruktur obyektlərinin yaradılmasında istifadə olunur, yəni qeyri-neft sektoruna yönəldilir .

Beləliklə, son illər Azərbaycan Respublikasında həyata keçirilən hərtərəfli əsaslandırılmış iqtisadi siyasətin və davamlı iqtisadi islahatların, habelə reallaşdırılan uğurlu sənaye siyasətinin nəticəsi olaraq ölkə iqtisadiyyatında qeyri-dövlət sektoru formalaşmış, ümumi qeyri-neft sənaye istehsalında artım dinamikası qeydə alınmış, ölkənin xarici ticarət dövriyyəsi kəskin artmış və ölkənin beynəlxalq inteqrasiyası güclənmişdir.

Lakin bu uğurlu islahatlarla yanaşı, bu və ya digər təhlillər onu deməyə əsas verir ki, həqiqətən də bu gün qeyri-neft sənayesi müəssisələrinin qarşısında duran əsas başlıca problem bu sahənin

innovasiya fəaliyyətini yeni investisiya layihələri və proqramları əsasında yenidən qurulmasıdır.

Belə ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatlı ölkələrdə bütünlükdə istehsalın rəqabətqabiliyyətliyi məhz qeyd edilən layihələr və proqramlar əsasında həyata keçirilir.

Deməli, qey-neft sənayesi müəssisələrinin dayanıqlı, davamlı və rəqabətədavamlə inkişafı, onun dünyanın aparıcı sənaye sahələri ilə inteqrasiyasa edilməsi sahədə innovasiya fəaliyyətinin necə təşkil edilməsindən asılıdır. Bütün bunları əsas tutaraq, belə nəticəyə gəlirik ki, sahədə mövcud problemlərin həlli yolu investisiya-innovasiya prosesinin səmərəli təşkili və idarə edilməsindədir.

***Г.И.Намазова***
*Азербайджанская государственная нефтяная академия*

## СВАРНЫЕ СОЕДИНЕНИЯ МОРСКИХ ГИДРОТЕХНИЧЕСКИХ СООРУЖЕНИЙ

На прочность сварных соединений морских гидротехнических сооружений наиболее существенное влияние оказывают концентрация напряжений, абсолютные размеры поперечного сечения, качество, состояние и свойства поверхностного слоя, характер изменения рабочих напряжений и окружающая среда.

Сварным соединениям свойственна повышенная концентрация напряжений не только от действующих нагрузок, но и от остаточных напряжений, порождаемых тепловыми упругопластическими деформациями в процессе образования швов. Остаточные напряжения, изменяя асимметрию цикла, при определенных условиях могут существенно влиять на сопротивление усталоти b сварных соединений. Вместе с тем влияние этого фактора часто рассматривается в связи с изменением свойств металла околошовной зоны под влиянием термомеханического цикла сварки. Предполагается, что под действием пластической деформации и эффекта термической

обработки металл околошовной зоны приобретает повышенную сопротивляемость усталостным разрушениям. Возможное понижение выносливости под влиянием растягивающих остаточных напряжений как бы компенсируется повышенным сопротивлением усталости околошовной зоны. Поэтому оба эти фактора относят к второстепенным по сравнению с основным - концентрацией рабочих напряжений.

Успехи в области применения искусственно образуемых сжимающих напряжений для увеличения долговечности деталей машин показали их существенную роль в усталостных процессах, а соответствующие закономерности явились предметом дальнейших исследовании, среди которых определенный интерес представляют экспериментальные данные, свидетельствующие о значительном влиянии растягивающих остаточных напряжений на сопротивление усталости сварных соединений.

В ряде исследований не было обнаружено падения выносливости под действием растягивающих остаточных напряжений. Опыты проводились на образцах, не имевших надрезов, выточек, изменений сечений и т. п.

В результате было установлено, что остаточные напряжения усиливают свое действие при наличии концентраторов напряжений. В этом случае остаточные напряжения могут существенно изменить долговечность соединений, особенно в области сравнительно низких рабочих напряжений.

***F.T.Mürvətov***
*"Siyəzənneft" NQÇİ*

## NEFTÇIXARMADA MÜASİR ÜSULLARIN TƏTBİQİNİN ZƏRURİLİYİNƏ DAİR

Son zamanlar Dünya neft yataqlarında diqqəti cəlb edən bir sıra neqativ tendensiyalar müşahidə olunmaqdadır: neft ehtiyatlarının strukturunun pisləşməsi, çətinçıxabilən ehtiyatların çoxluq təşkil

etməsi, quyuların istismar şəraitin mürəkkəbləşməsi, az hasilatlı quyuların sayının artması və s.

Hazırda neft yataqlarının karbohidrogen ehtiyatlarının əsas hissəsini yüksək özlülüklü, anomal xassəli və tərkibində asfalten-qatran–parafin (AQP) birləşmələri olan neftlər təşkil edir. Bu növ karbohidrogenlərin mənimsədilməsi məqsədilə daha mürəkkəb texnologiyalardan istifadə olunması isə hasilat, geoloji risklərin əhəmiyyətli dərəcədə artmasına və nəticə etibarı ilə ekoloji risklərə gətirib çıxarır. Belə ki, bu cür neftlərin hasilatının intensivləşdirilməsi və layların məhsuldarlığının artırılması məqsədilə kimyəvi, fiziki və istilik üsullarından, o cümlədən müxtəlif növ həlledicilərdən, neftin özlü - plastik xassələrini tənzimləyən əlavələrin tətbiqindən istifadə edilir. Lakin, bu üsul, metod və texnologiyaların tətbiqi xüsusi bahalı avadanlıqlar, çox vaxt tələb edir, imkanları məhduddur, iqtisadi cəhətdən çox vaxt səmərəsiz olur, əksər hallarda ekoloji amilləri də nəzərə alınmaqla, çoxsaylı problemlər yaradır.

Ona görə də məsələnin həlli məqsədilə neftin reoloji xassələrinin yüksək effektli tənzimləyicilərinin işlənilməsi çox mühüm tətbiqi bir məsələ kimi qiymətləndirilməlidir.

Bu baxımdan ADNA “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi-Tədqiqat institutu və ARDNŞ “ Siyəzənneft ” NQÇİ–nin Elmi–tədqiqat və istehsalat işləri sahəsinin əməkdaşlarının birlikdə apardıqları tədqiqatlar nəticəsində bir sıra məsaməli, kanal qurluşa malik materialların və laboratoriya şəraitində alınmış nanoreogentlərin neftin reoloji xassələrinə təsiri öyrənilmiş və yaxşı nəticələr alınmışdır.

Belə ki, nanodəmirin kraun–efirlə kompleksi neftin özlülüyünü 45%-qədər, FeT (isti–isti süzülən) materialı isə 39,9% aşağı salmışdır. Bununla yanaşı, nanodəmirin əlavəsi ilə neftin tərkibindəki mexaniki qarışıqların 5,0%, nanomenbranın əlavəsi ilə 8,89% $Fe_2(TF)_3$–ün əlavəsi ilə 10%, qliserin turşusunun üçölçülü ammonium duzlarının 23% - li məhlulunun əlavəsi ilə 8,6% , şirin biyanın $NH_4OH_3$ –la alınmış ümumi 11,6% - li sulu ektraktının

əlavəsi ilə 7,43 % , xam qliserin turşusunun əlavəsi ilə isə 13,33 % aşağı düşmüşdür.

Nanodəmir hissəcikləri neftin tərkibində qatranın miqdarını 4%, nanomembran isə 27 % aşağı salınmışdır.

Yeni köpük əmələ gətirici (KƏG) nanoreogent isə neftin özlüyünü 90%-ə qədər azaltmışdır.

Beləliklə neftin reoloji xassələrinin yaxşılaşdırılması üçün bu nanoreogentlərdən istifadə etmək olar və bundan faydalanmaq lazımdır.

***T.M.Əhmədova***
*Sumqayıt Dövlət Universiteti*

## AZƏRBAYCANDA NEFTQAZÇIXARMANIN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası durmadan dünya iqtisadiyyatına inteqrasiya edir. Neftqazçıxarma sənayesi həm keçmiş ittifaq, həm də müstəqillik vaxtında ölkə iqtisadiyyatının "lokomotivi" rolunu oynayır. Keçmiş ittifaqın fəaliyyət göstərdiyi keçən əsrin səksəninci illərinin sonunda Azərbaycan neft sənayesinə göstərilən ögey münasibət, bu sahənin inkişafında bir durğunluq yaratmışdır. Bu durğunluq müstəqilliyimizin ilk illərində özünü daha qabarıq göstərməyə başladı. Belə ki, keçmiş ittifaq respublikaları ilə ənənəvi əlaqələrin kəsilməsi, mövcud bazarların itirilməsi, ölkədə mövcud olan qeyri-sabitlik və s.başqa sahələr kimi bu sahənin də işini mürəkkəbləşdirdi.

Ulu öndər, Ümummilli Lider H.Əliyevin yenidən qayıdışı bu mürəkkəbliklərin həllində müsbət rol oynadı. Belə ki, uzunmüddətli idarəçilik təcrübəsinə malik bir insan üçün "haradan başlamalı" sualına birmənalı cavab kimi "neft sənayesi" seçildi. Bunun başqa şərtlər eyni olduqda, həm də aşağıdakı səbəbləri vardır: neft sənayesindəki mövcud infrastruktur, güclü kadr potensialının olması, ölkənin böyük miqdarda karbohidrogen ehtiyatlarına malik olması. Bütün bunlar ölkə iqtisadiyyatının dirçəldilməsi üçün neft sənayesinin prioritet istiqamət kimi seçilməsini şərtləndirdi. Tarixin

sonrakı gedişi bu qərarın nə qədər doğru olduğunu bir daha sübut etdi.

Ölkədə yaradılan sabitlik, münbit investisiya mühiti, 1994-cü ildə "Əsrin müqaviləsi" ilə başlayaraq sonradan onlarla neft müqavilələrinin bağlanmasını şərtləndirdi.

Dünyanın aparıcı neft şirkətlərinin Azərbaycana marağı ölkədə yaradılmış sabitlik, investisiya mühitinin əlverişliliyi ilə səciyyələnir. Azərbaycanın xarici neft şirkətləri ilə əməkdaşlığından alınan ümumi mənfəət, əsasən, aşağıdakı dörd kateqoriyaya bölünür: nağd pul axını; əmək haqqı; vergi və sosial ayırmalar; servis xidmətləri və arenda haqqı. Qeyd edək ki, Xəzərin Azərbaycana məxsus sektorunda ehtiyatlar aşağıdakılarla səciyyələnir: təsdiq olunmuş ehtiyatlar 3,6-12,5 mlrd. barel ( və ya 500-1736 mlrd. ton), ehtimal edilən ehtiyatlar 27 mlrd. barel ( və ya 3,8 mlrd. ton) , ümumi neft ehtiyatı 30-40 mlrd. barel (və ya 4,3-6,0 mlrd. ton). Bu vaxta qədər ARDNŞ və xarici neft şirkətləri arasında "hasilatın pay bölgüsü" tipli 27 saziş imzalanmışdır. Bu müqavilələrin davamı olaraq 2006-cı ildə "Bakı-Tbilisi_Ceyhan" Əsas İxrac Boru kəməri və "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri işə düşmüş, "Şahdəniz" yatağında qaz hasilatına başlanmışdır. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda dünyanın 125-dən çox ölkəsi ilə qarşılıqlı iqtisadi əməkdaşlığa əsaslanan əlaqələr mövcuddur.

Neft və qaz strategiyasının uğurla həyata keçirilməsi nəticəsində xarici neft şirkətləri ilə bağlı aparılan axtarış-kəşfiyyat, qazma işləri böyük nailiyyətlər üçün zəmin yaradaraq neft-qaz sənayesində yeni texnika və texnologiyalar tətbiq edilməsinə, zəngin təcrübə qazanılmasına səbəb olmuşdur.

Neft-qaz kompleksinin müasir vəziyyətinin təhlili göstərir ki, o, inkişafının tamamilə başqa mərhələsinə keçmişdir. Əgər əvvəllər neft sənayesi öz vəzifəsini neftçıxarma rayonlarında yeni yataqların işlənməyə cəlb edilməsi hesabına həll edirdisə, indi belə addımlar neft hasilatının effektivliyinə və həcminə çox az təsir edirlər. İstifadə edilməsi mümkün olan əsas ehtiyatlar artıq işlənmədədir və intensiv istismardadır və bütün bunlar sahədə investisiya problemini aktuallaşdırır.

Buna görə də neft-qaz kompleksində müəyyən işləri, texnoloji zəncirin bütün istiqamətlərinin fəaliyyətini də maksimal olaraq effektiv həyata keçirmək lazımdır: geoloji-kəşfiyyat işlərinin düzgün yerləşdirilməsindən tutmuş regional nəqliyyat xidmətinə qədər, xammal və ondan alınan məhsulların səmərəli satışı, bütün mərhələlərdə vəsaitdən maksimum istifadə edilməsi və s. yalnız bu halda neft-qaz kompleksi müvəffəqiyyətlə fəaliyyət göstərə bilər. Yataqların əksəriyyətinin işlənməsi son mərhələsinə qədəm qoyması, həmçinin neft kəşfiyyatı və axtarış şəraitinin mürəkkəbləşməsi, qazmanın baha başa gəlməsi və neft hasilatının daha çətin dəniz şəraitində və böyük dərinlikdə aparılması ilə əlaqədar olaraq, qalıq ehtiyatlarının heç olmasa müəyyən hissəsinin çıxarılması da çox aktuallaşır.

Buna görə də abadlaşdırılmış rayonlarda yerləşən tükənmiş neft yataqlarının istismarında neft veriminin artırılması problemi xüsusilə böyük əhəmiyyət kəsb edir. Bazar münasibətləri şəraitində neftqazçıxarma müəssisələrinin maliyyə resurslarından istifadənin məsuliyyətliliyini gücləndirmək də vacibdir.

***D.Ə.Aşurov, M.M.Muradov, Ə.İ.Mehrəliyev, Ə.N.Seyidova***
*Sumqayıt Dövlət Universiteti*

## TƏBİİ VƏ NEFT QAZLARININ KÜKÜRDLÜ BİRLƏŞMƏLƏRDƏN TƏMİZLƏNMƏSİ

Azərbaycan Respublikası neft ölkəsi kimi tanınır. Azərbaycan həm də qaz idxal edən bir ölkədən qaz ixrac edən ölkəyə çevrilmişdir. Şübhə yoxdur ki, bu Azərbaycan neft strateqiyasının təntənəsidir.

Qazın tərkibi əsasən aşağı molekullu karbohidrogenlərdən ibarətdir və onun tərkibində həmişə zərərli kükürd qazları (o cümlədən hidrogen sulfid) də olur. Qazın tərkibində olan kükürd birləşmələrinin miqdarı onun hasil edildiyi məkandan asılı olaraq dəyişir. İstismardan əvvəl kükürdlü qazların çox vaxt həmin birləşmələrdən təmizlənməsinə böyük ehtiyac vardır.

Bu məqsədlə adətən katalitik sistemlərdən istifadə olunur. Ilk dəfə olaraq Sumqayıt Dövlət Universitetində təbii qazları kükürdlü birləşmələrdən, o cümlədən hidrogen sulfiddən təmizləmək məqsədilə elektrokimyəvi üsuldan istifadə olunması prosesi işlənib hazırlanmışdır.

Təklif olunan üsula görə proses iki mərhələdən ibarətdir. Birinci mərhələdə təbii qaz 5-10%-li kalium hidroksid məhlulundan keçirilir. Bu zaman hidrogen peroksid qələvi ilə reaksiya nəticəsində neyrallaşma baş verir, nəticədə kükürd qazı udulur və kalium sulfidə çevrilir. Ikinci mərhələdə kalium sulfid elektroliz olunduqda kalium qələvisi bərpa olunur və anodda sərbəst kükürd alınır. Alınan qələvi məhlulu yenidən prosesə qaytarılır.

Təcrübələr göstərir ki, həmin prosesi elektrilitik sistemdə bir mərhələdə də aparmaq mümkündür. Kükürd tərkibli qaz birbaşa elektrolitik sistemə daxil edilir. Elektrolit kimi 5-10 %-li kalium qələvisi götürülür. Prosesin nəticəsində sərbəst kükürd ayrılır. Prosesi həmin üsulla fasiləsiz aparmaq mümkündür. Nəticədə hidrogen peroksid qazın tərkibindən 85-90 % udulur.

Prosesin prinsipial texnoloji sxemi təklif edilmişdir.

***P.T.Şahtaxtinskaya, Q.Ə.Ramazanov, İ.M.Nəsirova***
*Sumqayıt Dövlət Universiteti*

## MÜASİR KİMYA TEXNOPARKININ, NEFT-QAZ EMALI VƏ NEFT-KİMYA KOMPLEKSLƏRİNİN YARADILMASI - NEFT STRATEGİYASININ YENİ İSTİQAMƏTLƏRİDİR

Son 10-15 il ərzində ölkədə karbohidrogen xammalının kəşfiyyatı və hasilatı, nəqli və satısı sahəsində sürətli inkişaf fonunda onun emalının yaxşılaşması istiqamətində xüsusi dəyişikliklər edilməmişdir. Bu baxımdan istehsal edilən məhsulların keyfiyyətinin yaxşılaşdırılması və çeşidinin genişləndirilməsi məsələlərinin həll edilməsinə koklü və kompleks yanaşma zərurəti yaranmışdır.

Azərbaycan prezidentinin tapşırığına əsasən, hal-hazırda ARDNŞ Bakı şəhəri yaxınlığında yeni Neft-Qaz emalı və Neft-

kimya Kompleksinin (NQNK) yaradilmasina dair ilkin təkliflər işləyib hazırlayır. Sozügeden Kompleksin istismara verilməsi ilə Bakı və Sumqayıt şəhərlərində yerləşən qaz emalı, neft emalı, neft emalı və neft-kimya sahələri üzrə köhnə istehsal güclərinin istismardan çıxarılması və demontajı mümkün olacaq. Neft-Qaz emalı və Neft-kimya kompleksinin aşağıdakı əsas obyektlərdən ibarət olması nəzərdə tutulur:

- Qaz emalı zavodu
- Neft emalı zavodu
- Neft-kimya zavodu
- Enerji bloku

Yeni Neft-Qaz emalı və Neft-kimya Kompleksi layihəsinin həyata keçirilməsi nəticəsində Azərbaycan mülki, sosial, infrastruktur və mədəniyyət təyinatlı tikinti sahəsində nəhəng nailiyyətlərlə yanaşı, neft emalı və neft-kimya sahəsində də dərin texniki və texnoloji irəliləyiş edəcək, çoxlu sayda ən yeni texnologiyalar əldə edəcək və bir cox məhsul və məmulatların idxalında yaxa qurtarmağa imkan verən geniş çeşiddə yüksək keyfiyyətlı məhsullar istehsal etməyə başlayacaqdır. Bununla yanaşı, Bakı və Sumqayıt şəhərlərində boyük sahədə ərazilərin boşaldılaraq mülki və sosial-məişət təyinatlı istifadə edilməsi mümkün olacaqdır. Xüsusi əhəmiyyət kəsb edən məqam ondan ibarətdir ki, müasir, yüksək ixtisaslı mütəxəsislərdən ibarət yeni kadr potensalı yaranacaq, yeni iş yerləri açılacaq, əhalinin məşğulluq strukturu keyfiyyətcə yaxsılaşacaqdır. Sumqayıt Texnologiyalar Parkı (STP) regionda texnoparkların yaradılmasında pioner olmaqla, müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış zavodlar kompleksidir. Regionda nadir layihə olan STP Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə qadirdir. Bu təcrübədən istifadə edərək digər texnoparkların yaradılması da nəzərdə tutulur. Sumqayıt şəhərində kimya texnoparkının fəaliyyətə başlaması cox da uzaqda deyildir.

# I BÖLMƏ

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ VƏ "ƏSRİN MÜQAVİLƏSİ"


1. *Hüseynov E.B.* "Əsrin müqaviləsi" Azərbaycanın neft tarixinin ən yeni mərhələsidir............................................ 5
2. *Baxşəliyev A.B.* "Əsrin müqaviləsi" – 20: reallıqlar və perspektivlər.................................................................... 8
3. *Sadıqov H.Ş.* "Əsrin müqaviləsi"nin müəllifi....................... 10
4. *Zeynalov Y.Ə.* Heydər Əliyev Azərbaycanın yeni neft strategiyasının banisidir..................................................... 13
5. *Qasımov Ş.M.* "Əsrin müqaviləsi" Azərbaycanın inkişaf tarixində şanlı səhifə açdı.................................................... 15
6. *Aslanlı E.N.* Biliyin idarə olunması...................................... 18
7. *Мамедов Р.Ю.* «Контракт века» важная веха в реализации нефтяной стратегии Гейдара Алиева............ 19
8. *İsayev Ə.İ.* Azərbaycan tarixində misilsiz hadisə.................. 22
9. *Məmmədli B.İ.* Müstəqil Azərbaycan dövlətinin neft siyasəti və milli inkişaf konsepsiyası................................................ 28
10. *Xəlilov E.Ş.* H.Əliyev və Azərbaycanın neft sənayesinin inkişafı.................................................................................. 30
11. *Kərimli S.* "Əsrin müqaviləsi" və beynəlxalq əməkdaşlıq...... 32
12. *Uslu Ramazan.* Əsrin müqaviləsi və Azərbaycan istisadiyyatı.......................................................................... 34
13. *Adıgözəlova G.R.* Əsrin müqaviləsi Azərbaycanın gələcək neft strategiyasının təməli kimi.......................................... 37
14. *Muradova K.V.* Ulu Öndər Heydər Əliyevin uğurlu siyasi və iqtisadi strategiyasının əhəmiyyəti................................. 39
15. *Qasımova N.Z.* Azərbaycan Respublikasının inkişafında neft diplomatiyasının rolu.................................................... 43
16. *Cavadlı R.R.* "Əsrin müqaviləsi" milli iqtisadiyyatımızın təkanverici qüvvəsi kimi...................................................... 45

17. *Mehdixanov R.Q.* “Əsrin müqaviləsi” Azərbaycan iqtisadiyyatının gələcək inkişafına yol açdı........................... 47
18. *Rzaquliyeva S.D.* Əsrin müqaviləsi Azərbaycanın yeni neft strategiyasının başlanğıcı kimi............................................ 48
19. *Cəmilzadə Ş.V.* Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı.... 51
20. *Bünyadov Z.V.* Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda sosial siyasətin başlıca istiqamətləri.............................................................. 54
21. *Həsənova Ə.A.* Demokratik, hüquqi dövlətin qurucusu......... 59
22. *Fərhadova J.F.* Müstəqil Azərbaycanın ilk böyük neft müqaviləsi................................................................. 61
23. *Yusifova N.Ə.* Azərbaycanın enerji təhlükəsizliyi siyasəti..... 63
24. *Nəbiyeva Y.İ.* Yeni əsrin müqaviləsi.................................. 66
25. *Hacıyev O.Y.* “Əsrin müqaviləsi”nin tarixi əhəmiyyəti........ 68
26. *Fətullayeva L.F. Paşayev E.İ.* Yeni sivilizasiya-cəmiyyət inkişafının strateji məhsuludur............................................ 70
27. *Əhmədov R.V.* Əsrin müqaviləsi və Azərbaycan................... 72
28. *Məmmədova S.İ.* Trans xəzər layihəsinin həyata keçirilməsində İsrailin Merxav şirkətinin rolu...................... 73
29. *Məmmədova S.İ.* Bakı-Tibilisi Ceyhan neft layihəsində İsrail dövlətinin maraqları................................................... 75
30. *Alıyev R.A.* “Əsrin müqaviləsi” Azərbaycanın sürətli inkişafının stimul və qarantıdır............................................. 77
31. *Barxudov B.B.* Azərbaycanın Avropanın enerji təhlükəsizliyində iştirakı..................................................... 81
32. *Cəfərov N.Ə.* Əsrin Müqaviləsinin tarixdə yeri..................... 83
33. *Cəfərli R.H.* ”Əsrin müqaviləsi” neft strategiyasının əsasıdır.......................................................................... 86
34. *Əfəndiyeva A.S.* Xəzərin geosiyasi əhəmiyyəti..................... 90
35. *Mikayılova S.M.* Azərbaycanın milli iqtisadi inkişaf modeli enerji təhlükəsizliyinin təminatının ən etibarlı vasitədir........ 93
36. *Xəlilov P.R.* “Əsrin müqaviləsi” Azərbaycanın uğurlu neft strategiyasıdır................................................................. 95
37. *Babayeva T.P.* Azərbaycan iqtisadiyyatında Heydər Əliyevin rolu......................................................................... 98

38. *Muxtarova X.Z.* Cənubi Xəzər hövzəsində strukturların formalaşması və inkişafında ümumi geotektonik cəhətlər. 102
39. *Мухтарова Х.З.* Выявление закономерности формирования ловушек в глубокопогруженных отложениях южнокаспийской впадины............................ 103
40. *Cəfərova E.M.* Milli neft strategiyası xalqın rifahına xidmət edir........................................................................... 105
41. *Abdullayev N.M.* XX əsrin 90-cı illərində Türkiyənin Azərbaycanda iqtisadi maraqlar........................................ 108
42. *Səlimov Ş.D.* Beynəlxalq neft şirkətləri ilə müqavilələrin imzalanması.................................................................... 110
43. *Məhərrəmov S.Q.* Əsrin müqaviləsi və Azərbaycan iqtisadiyyatı......................................................................... 111
44. *Əliyeva A.H.* "Əsrin müqaviləsi"nın Azərbaycan iqtisadiyyatında rolu....................................................... 113
45. *Hüseynov X.* Müstəqillik illərində Azərbaycanın uğurlu neft stratrgiyası və Əsrin müqaviləsi.......................................... 114
46. *Rzayev M.* Azərbaycanın neft strategiyası yeni diplomatiyanın və regional inkişafın mühüm amilidir........... 117
47. *Alıyev H.A.* "Əsrin müqaviləsi" Heydər Əliyevin neft strategiyasının mühüm tərkib hissəsi kimi............................ 120
48. *Асланов А.Г.* Экологическая политика Государственной Нефтяной Компании Азербайджанской Республики ...... 122
49. *Həmidova A.M., Əhmədova G.S.* Azərbaycanın neft strategiyası................................................................... 124
50. *Osmanov İ.O.* Neft-qaz yataqlarının iqtisadi qiymətləndirilməsi........................................................... 126
51. *Vəliyeva L.M.* "Əsrin müqaviləsi"nin Azərbaycanın xarici ticarətinin inkişafında rolu.................................................. 128
52. *Əzizova K.V.* Azərbaycanın neft müqavilələri: məzmunu və əhəmiyyəti.................................................................... 130
53. *Abdullayev L.İ* ."Əsrin müqaviləsi" Azərbaycanın neft strategiyasının əsasi kimi.................................................. 131

54. *İbadova M.* "Heydər Əliyev. Şəxsiyyət və zaman" romanı III Bakı Beynəlxalq kitab sərgisində.................................. 133
56. *Hüseynova M.S.* Əsrin müqaviləsi.................................... 135
57. *Şahtaxtinskaya P.T., Mütəllimova K.M., Ağayev Ə.Ə.* Neft strategiyasının bəhrələri: iri neft və qaz layihələri.............. 137
58. *Pənahəliyeva M.Ö., Məmmədova Ş.S.* Azərbaycanın xarici iqtisadi siyasətində Neft kontraktlarının rolu və əsas nəticələri..................................................................... 139
59. *Mirzəliyeva L.V.* Azərbaycan nefti və H.Əliyev................. 141
60. *Pirverdiyeva S.A., Qasımova Z.M.* Geosiyasi münasibətlərdə neft amili................................................... 143
61. *İsmayılov Ş.* Heydər Əliyevin neft strategiyası və milli təhsil konsepsiyası........................................................... 145
62. *Ağayev Ə. Ə., Qarayeva İ.E., Nəzərova M.K.* SSR dövründə H.Əliyevin neft siyasətinin bəzi məqamları......... 146
63. *Məmmədova R.İ., Mustafayeva N.A., Abuşova Z.F.* 1920-1940-cı illər ərzində Azərbaycan neftinin daxili və xarici bazara çıxarılması........................................................... 148
64. *Məmmədova R.İ., Şirinov P.M., Məmmədova B.H.* İkincidünya müharibəsində Azərbaycan nefti.............. 149
65. *Alıyeva Ş.H.* Əsrin müqaviləsi ilə Azərbaycan neftinin bu günü..................................................................... 151

## II BÖLMƏ

## ƏSRİN MÜQAVİLƏSİ VƏ AZƏRBAYCANDA ELMİ-TEXNİKİ TƏRƏQQİ

66. *Süleymanov T.S.* Özlü mayenin qərarlaşmayan hərəkətinin bəzi xüsusiyyətləri haqqında............................................ 154
67. *Kərimov Ö.M.* Ştanqlı quyu nasoslarının işgörmə qabiliyyətinin artırılmasına dair........................................ 155

68. *Nəzərova G.F., Allahverdiyev Z.S.* Təbii neft turşularının amidlərinin qeyri-üzvi komplekslərinin inhibitor xassələri. 156
69. *Abbasov E.İ.* Ştanqlı quyu nasoslarında mexaniki yeyilmənin tədqiqi........................................................ 158

70. *Rəhimova S.R., Allahverdiyev Z.S.* Sənaye obyektlərində qəza və ətraf mühitin çirklənməsinin qarşısının alınmasında optimal idarə sisteminin rolu haqqında........... 159
71. *Əliyev B.N.* Su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin innovativ problemləri və onların həlli yolları.......................................................................... 162
72. *Baxışov A.S.* Respublikamızda regional klasterlərin formalaşmasının metodiki əsasları.................................... 164
73. *Ağayeva X.Y.* Qeyri neft sənaye sahələrinin dayanaqlı və davamlı inkişaf problemləri və onların həlli yolları............ 165
74. *Əfəndiyev S.Q.* Emal sənaye sahələrinin iqtisadi inkişaf problemləri və onların həlli yolları.................................... 167
75. *Süleymanov Q.S., Əhmədova Ə.Ə.* İnnovasiya prosesinin infrastruktorunun təşkili mexanizmləri............................. 168
76. *Sultanov L.A. Qənbərova Ş.Ə., İsmayılov O.O., Nəcəfquliyeva V.M.* Aşağı Kür çökəkliyi sahəsinin neft-qaz kollektor xüsusiyyətlərinin petrofiziki tədqiqatlarla proqnozlaşdırılması........................................................... 170
77. *Qurbanov V., Sultanov L.A., Əhmədov A.A.* Şimali Abşeron qırışığının dərinlikdə yatan neftli qazlı laylarının perspektivliyinin petro fiziki tədqiqatlarla proqnozlaşdırılması........................................................... 172
78. *Abbasova Q.* Xəzəryanı-Quba vilayətində çökmə suxurun sıxlığı və uzununa dalğaların yayılma sürətinin paylanmasının qanuna uyğunluğu haqqında....................... 174
79. *Керимова А.Г.* Об увеличении эффективности эксплуатации нефтяных скважин сиязанской моноклинали ................................................................... 175
80. *Məmmədova G.G.* Qaz və Qaz kondensaf yataqlarında məhsuldar layın karbohidrogen verim əmsalına təsir edən amillər.......................................................................... 176

81. *Rəhimova M.* Fontan armaturunda qaldırıcı boruların mühüm rolu.......................................................................... 179
82. *Əliyeva Y.* Quyu məhsulunda süzmə hissəcikləri fəzahürünün səbəbləri...................................................... 180
83. *Mürvətov F.* Neftçıxarmada müasir üsulların tətbiqinin zəruriliyinə dair............................................................... 182
84. *Намазов Г.* Сварные соединения морских гидротехнических сооружений..................................... 184
85. *Aslanov C.N., Babaxanova L.T.* Qazma monifoldunun düzaxınlı siyirtməsinin tıxayıcı düyünündə sürtünmə hadisəsinin tədqiqi......................................................... 185
86. *Hüseynli Z.S.* Quyu kipləndiricilərinin riyazi modelləşdirilməsi.......................................................... 186
87. *Xankişiyeva T.Ü.* Kipləndirmə sisteminin riyazi modelləşdirilməsi........................................................... 188
88. *Qasımov S.Y., Qədimov İ.K.* Qaz idarəsinin abonent şöbəsi üçün informasiya idarəetmə sisteminin işlənməsi.............. 190
89. *Əmraslanova D.Ə.* Vençur investisiyalrın müəssisələrdə rolu və onun təkmilləşdirilməsi yolları.............................. 192
90. *Seyidova S.R.* İstehsalın təşkilinin xüsusiyyətləri və idarəetmə uçotunun qurulmasına onların təsiri................... 194
91. *Şəfiyeva T.İ.* Bazar iqtisadiyyatı şəraitində istehsalat uçotunun yeni modelinin formalaşması.............................. 196
92. *Hacıyev H.Q., Əliyev Y.M., Bağırov Ş.Ə.* Hasilatın sulaşmasının quyu profilindən asıllığı............................... 198
93. *Cəfərova R.M., MəmmədliR.R.* Aqrar-sənaye məhsullarının keyfiyyətinin idarə edilmə prinsipləri........... 200
94. *Rəhimov V.İ.* Ekoloji təhsilin elementləri və əsas vəzifələri............................................................................. 202
95. *İsgəndərova T.H.* İntroduksiya olunmuş yeni bəzək bitkilərinin bioekoloji xüsusiyyətlərinin tədqiqi................. 203
96. *Məmiyev C.M.* Azərbaycan Respublikasında karbohidrogen ehtiyatlarından istifadənin proqnoz və perspektivləri.............................................................................. 205
97. *Ağayeva X.Y.* Qeyri-neft sənaye sahələrinin dayanıqlı və davamlı inkişaf problemləri və onların həlli yolları........... 207
98. *Намазова Г.И.* Сварные соединения морских гидротехнических сооружений..................................... 208

99. *Mürvətov F.T.* Neftçıxarmada müasir üsulların tətbiqinin zərurliyinə dair........................................................................ 209
100. *Əhmədova T.M.* Azərbaycanda neftqazçıxarmanın müasir vəziyyəti və inkişaf perspektivləri..................................... 211

101. *Aşurov D.Ə., Muradov M.M., Mehrəliyev Ə.İ., Seyidova Ə.N.* Təbii və neft qazlarının kükürdlü birləşmələrdən təmizlənməsi............................................................................ 213
102. *Şahtaxtinskaya P.T., Ramazanov Q.Ə., Nəsirova İ.M.* Müasir kimya texnoparkının, neft-qaz emalı və neft kimya komplekslərinin yaradılması - neft strategiyasının yeni istiqamətləridir.................................................................... 214